# AZƏRBAYCAN DİLİ

TƏDRİS DİLİ

# 8

DƏRSLİK

 

# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

TOFİQ HACIYEV
SAMİRƏ BEKTAŞİ
MEHRİBAN VƏLİYEVA
YEGANƏ HÜSEYNOVA

*Ümumi təhsil müəssisələrinin* **8**-*ci sinifləri üçün*

# Azərbaycan dili

(TƏDRİS DİLİ)

*fənni üzrə*

## DƏRSLİK

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi info@eastwest.az və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

# MÜNDƏRİCAT

## I BÖLMƏ — BİLİK XƏZİNƏDİR


SƏHİFƏ

**1.** Tətildən sonra — 8
Söz birləşmələri

**2.** Qori seminariyasında Azərbaycan şöbəsi necə açıldı — 14
Mürəkkəb adlar

**3.** Yaxşılıq itmir — 18
Əsas tərəfin ifadə vasitələrinə görə söz birləmələrinin növləri

**4.** Ana dili — 22

**5.** Mədinə xanım Qiyasbəyli — 26
Birinci sözü böyük hərflə yazılan mürəkkəb adlar

**6.** Mücrü — 30

**7.** Şuşanın körpə qartalı — 33


## II BÖLMƏ — TARİXİN DAŞ YADDAŞI


SƏHİFƏ

**1.** Mətn — 38
Sintaktik əlaqələr

**2.** Nə gözəl səslənir Şuşalı vətən — 42

**3.** Mətn — 44
Tabelilik əlaqələri

**4.** Muğan — 48

**5.** Gülüstan — 53

**6.** Zivər bəy Əhmədbəyov — 56
Cümlə üzvləri haqqında ümumi məlumat

## MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

## III BÖLMƏ


SƏHİFƏ

**1.** İbrət dərsi 62

**2.** Duyğular adası 67
Mübtəda

**3.** Səhəng içində nə varsa, onu sızdırar... 70
Xəbər

**4.** Mətn 74
Tamamlıq

**5.** Zəhər 78
Təyin

**6.** Qaranquşların ömrü 6 aydır... 82

**7.** Həmrəyliyimiz əbədidir 85

**8.** İnanılmaz tarixi fakt 87
Zərflik

**9.** Sədaqət 91
Tərzi-hərəkət zərfliyi

**10.** Hekayət 94
Zaman və yer zərfliyi

**11.** Tariximizin şanlı səhifəsi 98

**12.** Qırxıncı fəndi bu günə saxlamışdım 100
Miqdar zərfliyi

**13.** Qədim türklərdə tərbiyə 102
Səbəb və məqsəd zərfliyi

**14.** Yolun sonu 105
Söz sırası

**15.** Nar dənəsi 108


## ŞƏXSİYYƏTLƏR

## IV BÖLMƏ


SƏHİFƏ

**1.** Azərbaycan teatrı 110
Əlavələr

**2.** Hüseynqulu Sarabskinin xatirələri 114

**3.** Vaqif obrazından başlanan səhnə uğuru 118
Həmcins üzvlər

**4.** İlk aktrisamız kimdir? 122
Həmcins üzvlərdə ümumiləşdirici sözlər

**5.** Evrika 126

**6.** Oqtay Eloğlu 129
Həmcins üzvlərdə şəkilçilərin ixtisarı

## MƏTBUAT: DÜNƏN VƏ BU GÜN
## V BÖLMƏ

SƏHİFƏ


**1.** "Günün hadisələri" 132

**2.** Əhvalpürsanlıq 135
Xitab

**3.** "Molla Nəsrəddin"ə gedən yol 142
Xitab

**4.** Yalançı "Xortdan" 146
Ara sözlər

**5.** İlk redaktor. O kim imiş? 149


## SƏNƏT DÜNYASINA SƏYAHƏT
## VI BÖLMƏ

SƏHİFƏ


**1.** Şəxsiyyətlər 152
Söz cümlə

**2.** Hacı Zeynalabdin Şirvani 157
Müəyyən şəxsli cümlə

**3.** Mahmud Kaşğarlı 160
Qeyri-müəyyən şəxsli cümlə

**4.** Qurban Səidin gizli qalmış ömrü 164
Ümumi şəxsli cümlə

**5.** Fərhəng Hüseynov 167
Şəxssiz cümlələr


### ŞƏRTİ İŞARƏLƏR

*Dinləmə*

*Danışma*

*Oxu*

*Qrammatik tapşırıqlar*

*Qrammatik qaydalar*

*Yazı*

## *Əziz dostlar!*

“Doğma dilim, sən ki varsan...” ifadəsi ilə başlanan “Azərbaycan dili” dünyamıza xoş gəlmişsiniz. 8-ci sinifdə siz daha böyük dil vahidləri: söz birləşmələri, cümlə, onların dildəki yeri haqqında məlumat alacaqsınız. Bu bilgilərdən istifadə etməklə ətraf mühiti, həyatı dərk etməyə çalışacaq, düşüncələrinizi başqaları ilə bölüşəcəksiniz. Doğma dilimizlə ifadə olunan hikmət xəzinəsi, xalqımızın mütəfəkkirləri, maraqlı şəxsiyyətləri, onların həyatı və fəaliyyəti ilə tanış olacaq, sətir-sətir oxuduqlarınız sizi düşünməyə, tədqiqata, axtarışa cəlb edəcəkdir. Unutmayın ki, hər birimiz mədəni nitqə yiyələnməliyik. Mədəni nitq isə eyni zamanda qrammatik qaydalara əməl etməyi tələb edir.

Diqqətli olsanız, səylə çalışsanız, oxuduğunuz və dinlədiyiniz mətnlərin məzmununu mənimsəmək, ideyasını müəyyənləşdirməklə yanaşı, özünüz də müxtəlif xarakterli mətnlər yazmaq və tərtib etmək bacarıqlarına yiyələnəcəksiniz.

Layihələr hazırlamağı da unutmayın. Siz il ərzində həmin layihələr üzrə işlərə cəlb ediləcəksiniz. Layihələrin hazırlanması üçün Azərbaycan dili dərsliyiniz sizə istiqamət verəcək. Bu dərs ili ərzində sizə aşağıdakı layihələri həyata keçirmək təklif olunur:

1) qəzet hazırlamaq;
2) kompleks lüğət hazırlamaq.

*Sizə uğurlar diləyirik!*

Dərslikdəki **QR kodlara** müraciət edərək mövzu ilə əlaqədar maraqlı məlumat əldə edə bilərsiniz.



I BÖLMƏ BİLİK XƏZİNƏDİR

# 1 TƏTİLDƏN SONRA

**Orfoepiya**

Düzgün tələffüzü yazın.

babamla – [...]
dəfələrlə – [...]
dərindən – [...]

**Orfoqrafiya**

Bitişik, yoxsa ayrı?

- münasibəti?ilə
- Şəki?də, Qax?da, Balakən?də
- mən?də

Cavablarınızı əsaslandırın.

– Bölmənin adı ilə razısınızmı? Niyə?

– Adına əsasən bu bölmədə hansı mövzuda müzakirələr aparılacağını müəyyənləşdirin.





– Sizcə, mətnin adı və məzmunu (“Tətildən sonra”) bölməyə uyğun olacaqmı? Fikrinizi necə əsaslandırarsınız?

Dialoqu düzgün tələffüzlə oxuyun.

– Xoş gördük, əziz dost! Səni yeni tədris ilinin başlanması münasibəti?ilə təbrik edirəm.

– Çox sağ ol, mən də səni **təbrik edirəm**.

– Necəsən? Çoxdandır, görüşmürük.

– Bakıda deyildim. Şəhərə dünən qayıtmışam.

– Mən isə **srağagün** gəlmişəm.

– Yəqin, yaxşı istirahət etmisən.

– Elədir. Babamla rayonlarımızı gəzdik. Şəki?də, Qax?da, Balakən?də olduq.

– Mən?də Qubaya getmişdim. Oradan **maraqlı məlumatlar** toplamışam.

– Mənim də **tətil günlərim** maraqlı keçdi. Babamla elə söhbətlərimiz olub ki! Onun tarixçi olduğunu sənə demişdim.

– Bilirsən, mən Qubada olanda Amsar kəndində Abbasqulu ağa Bakıxanovun **ev-muzeyinə** getdim. Sən demə, o, Xəzər dənizinin ilk azərbaycanlı araşdırıcısı olub.

– Çox maraqlıdır. Şərqşünas Qustav Edmund Qrünebaum yazır ki, **Şərq mədəniyyəti** Qərbə güclü təsir göstərmişdir. Elm, memarlıq, tikinti, gəmiçilik və s. sahələrdə Avropa Şərqə borcludur. Babam deyir ki, İslam mədəniyyətinin “dörd dirək” ideyası orta əsrlərdə Avropa universitetlərinin qapısı üstündə vurulmuş lövhədə belə yazılıbmış: “Dünya 4 dirək üzərində durur: alimlərin hikməti, böyüklərin ədaləti, dindarların ibadəti və qəhrəmanların şücaəti”.

– Bunu yoldaşlarımızla da **müzakirə edərik**.

– Mütləq. Bizə gələrsən, babamla da bu barədə fikirlərimizi bölüşərik. Hələ onun Sədi, Bəhmənyar, Nizami, Tusi, Füzuli haqqında dediklərini danışsam...

– Mən oxumuşam ki, İbn Sina dəfələrlə Azərbaycan şəhərlərinə səfər etmişdir. “Tibb qanunları” əsərini isə Həmədanda olarkən yazmışdır. Bəhmənyar ondan dərs almış, filosof kimi formalaşmışdır.

– Babam Sankt-Peterburq və Daşkənddə Bəhmənyarın sualları və İbn Sinanın cavabları yazılmış **iki məktub** saxlandığını dedi. Babam onu da dedi ki, **idrak məsələlərini** dərindən araşdıran Bəhmənyar öz *risalələrində* əxlaqi-etik problemlərin, ağıl və biliyin insanın ən başlıca **var-dövləti** olduğunu göstərir. İnsan öz ömrünü bilik mənimsəməyə sərf etməlidir. Ağıl, bilik insanın ən etibarlı müdafiəçisi, ən yaxın dostudur. Sərvət qorunur, əql isə insanı qoruyur. Biliyə yol xeyirxahlığa və xoşbəxtliyə yol deməkdir.

– Nizaminin də *elm* haqqında maraqlı fikirləri var. Gəl nümunələr toplayaq, yoldaşlarımızla elm və biliyin insan həyatındakı rolu barədə fikir mübadiləsi aparaq.

– Yaxşı fikirdir. Uşaqlara deyiləsi sözümüz çoxdur...

– Sabah dərslər başlayır. Bu il, yəqin ki, maraqlı *layihələrimiz* çox olacaq.

**Son cümləyə hansı etiketi artırmaq olar?**

Siz bu dərs ilində hansı layihələri həyata keçirmək istəyirsiniz?

**1.** Dostların fikirlərinin anlaşıqlı olub-olmaması barədə fikir yürüdün. Siz bu fikirləri necə təqdim edərdiniz?

**Fikirlərinizin aydın və sizi dinləyənlər tərəfindən anlaşıqlı olması üçün:**

- məzmun konkret olmalı;
- fikrin ifadəsi və şərh edilməsi sərbəst olmalı;
- fikir yığcam olmalı;
- emosionallıq nəzərə alınmalı (sual və nida cümlələri, nida, ədat, ara sözlərdən geniş istifadə olunur);
- şəraitə uyğun olaraq şablon ifadələrdən *(Görüşənə qədər!, Təşəkkür edirəm!, Buyurun!, Çox yaxşı!, Əla!, Belə de!, Ay sağ ol! və s.)* istifadə edilməli;
- deyilənlərə münasibət bildirilməlidir.

DANIŞARKƏN MÜTLƏQ AUDİTORİYANI NƏZƏRƏ ALMAQ LAZIMDIR!

Əgər mütəxəssislər qarşısında çıxış edirsinizsə, terminlərdən, faktlardan, sübutlardan, yeri gəldikcə sitatlardan istifadə etməlisiniz.

Əgər müzakirəni ümumi auditoriyada aparırsınızsa, terminlərə, faktlara az müraciət etməli, uzun və mürəkkəb cümlələrdən istifadə etməməlisiniz.

**2.** “Biliyə yol xeyirxahlığa və xoşbəxtliyə yol deməkdir” fikrini faktlarla əsaslandırın.

**3.** Sxemdəki hər kəlamın ifadə etdiyi fikri izah edin. Kəlamları müqayisə edib ortaq nəticəyə gəlin.

Biliyə yol xeyirxahlığa və xoşbəxtliyə yol deməkdir.

Sərvət qorunur, əql isə insanı qoruyur.
*(Bəhmənyar)*

Ağıl, bilik insanın ən etibarlı müdafiəçisi, ən yaxın dostudur.

İstəsən çatmaq kamalın fövqünə, qıl səy ki,
Səy artdıqca bu yolda artacaqdır qiymətin.
*(M.Füzuli)*

Elm bir xəzinədir, onu səndən kimsə darta, çala bilməz.
*(R.Əfəndiyev)*

✓ *Gəldiyiniz qənaəti dialoqdan çıxan nəticə ilə müqayisə edin.*

**4.** Dünyanın "dörd dirək üzərində dayanması" fikrinə münasibət bildirin.

**5.** Mətnin tərkib hissələrini müəyyən edin və onların bir-biri ilə necə əlaqələndiyinə diqqət yetirin.

**6.** Dialoqun ilk cümləsində çərçivəyə alınmış ifadəni görüşmə etiketi adlandırmaq olarmı?

**7.** Dilimizdə hansı görüşmə etiketləri vardır? Ardıcıllığı davam etdirin.

Salam, sabahınız xeyir, ...

**8.** *Bilik* və *elm* sözlərinin mətn üçün açar söz olduğunu əsaslandırın.

**9.** Mətndə (səh. 9) fərqləndirilmiş sözlərin ifadə etdiyi mənanı izah edin.

**10.** Dialoqdakı *araşdırıcı* (səh. 9) sözünü hansı sözlə əvəz etmək olar? Niyə belə hesab edirsiniz?

**11.** Bunlardan biri *idrak* sözünün leksik mənasıdır:

- kamillik, yetkinlik, ağıl, zəka
- yaxşı düşünülmüş fikir, rəy
- dərketmə, bilmə

**12.** Mətndə çərçivəyə alınmış hissədə leksik mənası olan və olmayan sözləri seçib qruplaşdırın. Seçiminizi əsaslandırın.

**13.** Mətndə tünd-qara rəngdə verilmiş ifadələri aşağıdakı kimi qruplaşdırın.

Mürəkkəb sözlər:

Söz birləşmələri:

✓ *Müqayisə aparın, ortaq və fərqli cəhətləri göstərin.*

**14.** Aşağıdakı hansı sözləri leksik məna cəhətdən bir-biri ilə əlaqələndirmək olar? Səbəbini izah edin. Hansı sözlər birləşmə yarada bilmir? Niyə?

savayı, yay, maşın, rəng, ancaq, təkər, alim, tünd, çay, hikmət, tətil, süfrə, xasiyyət, dostdan, ağac, uşaq, yarpaq, üçün, qədər

**15.** 14-cü tapşırığa əsasən söz birləşməsinin yaranması üçün aşağıdakı xüsusiyyətlərdən hansının vacib olduğunu müəyyən edin.

- məna bağlılığı
- qrammatik bağlılıq
- sözlərin leksik mənaya malik olması
- fikir bitkinliyi
- sözlərin yalnız qrammatik mənaya malik olması

✓ *Fikirlərinizi ümumiləşdirin.*

**16.** Nümunəyə əsasən söz birləşmələri yaradın və cümlədə işlədin.

Azərbaycan + şəhər ▷ Azərbaycan şəhəri ▷ **Azərbaycan şəhəri** Şuşa Qarabağ bölgəsində yerləşir.

✓ *Nə müşahidə etdiniz?*

İki və daha artıq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsinə ***söz birləşməsi*** deyilir.

Müstəqil söz dedikdə əsas nitq hissələri nəzərdə tutulur. Köməkçi nitq hissələri: qoşmalar, bağlayıcılar, ədatlar söz birləşmələrinin tərkibində iştirak edə bilir, amma söz birləşməsi yarada bilmir.

**17.** Aşağıdakı ifadələrin hər birinin xüsusiyyətlərini sadalayın və müqayisə aparın. Söz, söz birləşmələri və cümlələri fərqləndirən nədir? Fikirlərinizi əsaslandırın.

Dəniz, Xəzər dənizinin ilk araşdırıcısı, Bu, Abbasqulu ağa Bakıxanovun tədqiqatlarıdır, Şərq mədəniyyətidir, alimlərin hikməti, xoşbəxtliyə yol, elm

✓ *Sizcə, söz birləşmələrinin nitqdə rolu nədir? Fikrinizi nümunələrlə əsaslandırın.*

**18.** Müxtəlif söz birləşmələri yaradıb bir neçəsini cümlədə işlədin. Sözləri dialoqdan seçə bilərsiniz.

**19.** Dialoqdan hansı faktları öyrəndiniz? Həmin faktları seçib “Maraqlı faktlar” başlıqlı divar qəzeti hazırlayın. Mövzu ilə bağlı bildiyiniz maraqlı faktları da əlavə edə bilərsiniz.

**20.** Dialoqun (səh. 9) məzmununu 3-4 cümlə ilə yazın.

**21.** Dialoqdakı hadisələri nümunə əsasında üçüncü şəxsin dilindən davam etdirin.

### DİALOQU III ŞƏXSİN DİLİNDƏN YAZMAQ ÜÇÜN:

- Tire və qoşa nöqtə işarələri atılır.
- Daha çox nəqletmədən istifadə olunur.
- Plan tərtib edilir:
  - *Dostların yay tətilindən sonra görüşü*
  - *Söhbətin mövzusu*
  - *Dostların müzakirəsi*
- Plan əsasında mətn hazırlanır.

*Tətildən sonra görüşən dostlar öz yay təəssüratları, istirahətləri, topladıqları maraqlı faktlar barədə fikirlərini bölüşürlər. Dostlardan biri Qubada Abbasqulu ağa Bakıxanovun ev-muzeyinə getdiyini, onun Xəzərin ilk araşdırıcılarından biri olduğunu deyir. Digər dostun məlumatları isə daha maraqlı idi. O, ... .*

✓ *Sizcə, burada nəql, yoxsa təsvir vardır? Niyə belə hesab edirsiniz?*

**22.** Görkəmli şəxsiyyətlərdən hər hansı biri (A.Bakıxanov, İbn Sina və Bəhmənyar) haqqında məlumat toplayıb təqdimat hazırlayın. Təqdimatdakı slaydlara söz birləşmələrindən ibarət başlıq seçin.








- *İlk növbədə, təqdimatınız üçün ad seçin.*
- *Təqdimat vasitəsilə çatdırmaq istədiyiniz əsas fikri müəyyən edin.*
- *Əsas fikri çatdırmaq üçün məlumat toplayın.*
- *Dərslikdə öyrəndiyiniz mətndən sizə lazım olan informasiyanı seçin.*
- *Təqdimatınıza əlavə etmək üçün şəkillər toplayın.*

A Z

Layihəni icra etmək üçün:

- *yeni sözlər toplayın;*
- *onları əlifba sırası ilə qruplaşdırın;*
- *tələffüzünü müəyyən edin;*
- *leksik və qrammatik mənasını müəyyən edin.*

| Yazılışı | Deyilişi | Leksik mənası | Qrammatik mənası |
| --- | --- | --- | --- |
| axtarış́ | [axdarış] | axtarma işi | isim |
| maraqlı́ | [maraxlı] | diqqət çəkən | sifət |

*Növbəti bölmələrdə də rast gəldiyiniz sözlərdən istifadə edərək lüğətyaratma işini davam etdirin.*



I BÖLMƏ

# 2 QORİ SEMİNARİYASINDA AZƏRBAYCAN ŞÖBƏSİ NECƏ AÇILDI

Orfoepiya

Hansı düzgündür?

[şəriət] – [şəriyət]
[fəaliyyət] – [fəaliyət]
[müraciət] – [müra:ciyət]

Dinlədiyiniz mətn əsasında üç sual tərtib edin.

✓ *Dinlədiyiniz və oxuduğunuz mətnləri məzmun baxımından müqayisə edin.*

1876-cı ildə indiki Gürcüstanın Qori şəhərində Qafqaz xalqlarının uşaqlarının təhsil alması üçün seminariya açılmışdı. Burada xristian uşaqlar "padşah xərci"nə oxuyurdular. Ancaq müsəlmanlardan da istəyən olsa idi, öz xərcinə uşaqlarını seminariyada oxuda bilərdi. Dövrünün görkəmli ziyalıları: Tiflisdə fəaliyyət göstərən Şərq dilləri üzrə baş *mütərcim* MİRZƏ FƏTƏLİ AXUNDZADƏ və Tiflis müsəlman məktəbinin şəriət müəllimi MİRZƏ HÜSEYN QAYIBZADƏ Qafqaz *canişini* Mixail Romanovun qəbuluna gedir və Qori seminariyasının nəzdində Azərbaycan bölməsi açmaq xahişi ilə ona müraciət edirlər. Nə qədər yalvar-yaxar etsələr də, dil töksələr də, canişin yola gəlmir. Deyir ki, şöbə açsalar da, oxuyan olmayacaq. M.F.Axundzadə həmin dövrdə Rusiyada və dünyada böyük zəka sahibi kimi şöhrət tapmış azərbaycanlı alim və *ziyalıların* adlarını çəkməyə başlayır. MİRZƏ CƏFƏR TOPÇUBAŞOVU, HƏSƏN BƏY ZƏRDABİNİ, ABBASQULU AĞA BAKIXANOVU, MİRZƏ KAZIM BƏYİ xatırladır. Şəmistan Nəzirli "Qoridən gələn qatar" kitabında yazır: "Mirzə Fətəli: Peterburq Universitetinin fəxri doktoru Mirzə Kazım bəy azərbaycanlıdır, bizim həmyerlimizdir", – deyəndə canişinin sifətində heyrətə bənzər təəccüb yaranır. Bundan ruhlanan Mirzə Fətəli həmyerlisi haqqında daha ətraflı məlumat verir: "Mirzə Kazım bəy təkcə RUSİYA ELMLƏR AKADEMİYASININ müxbir üzvü deyil, o həm də Londonda BÖYÜK BRİTANİYA VƏ İRLANDİYA KRAL CƏMİYYƏTİNİN üzvüdür. Kopenhagendə ŞİMALİ ANTİKVARİLƏR KRAL CƏMİYYƏTİNİN üzvü seçilmişdir. Üç dəfə Demidov mükafatını almışdır". Bu söhbətlər sonda seminariyanın *nəzdində* Azərbaycan şöbəsinin açılması ilə nəticələndi.

1. Mətndən faktları seçib əsasında suallar tərtib edin və onları cavablandırın.

2. Nə üçün M.Romanov Azərbaycan şöbəsinin açılmasına razılıq vermirdi? Sizcə, müsəlmanlarla xristianlar arasında qoyulan fərqin səbəbi nə idi?

3. Mətnə əsasən demək olar:
   A) Qafqaz canişini Azərbaycanda seminariyanın şöbəsinin açılmasında maraqlı idi.
   B) Mirzə Kazım bəy haqqında məlumat "Qoridən gələn qatar" kitabından əldə edilir.
   C) Bütün ziyalılar seminariyanın Azərbaycan şöbəsinin açılmasının tərəfdarları idilər.
   D) 1876-cı ildə seminariyanın Azərbaycan şöbəsi fəaliyyətə başlayır.
   E) Mirzə Fətəli Axundzadə rus dilləri üzrə tərcüməçi vəzifəsində çalışırdı.

4. Mətni abzaslara ayırın, fikrinizi əsaslandırın. Sizcə, mətndəki abzasları əlaqələndirmək üçün əlavə məlumata ehtiyac varmı?

YADDAŞ

- Abzas kiçikhəcmli və ya iri mətnlərin bir hissəsidir.
- Abzası daha bitkin mənalı hissələrə ayırmaq olmur.
- Abzası əmələ gətirən cümlələr bir-biri ilə əlaqələnir.
- Hər bir abzasda hər hansı bir məsələ, anlayış, hadisə şərh olunur.
- Abzas bir və ya bir neçə cümlədən ibarət olur.
- Abzas giriş, inkişaf (əsas) və nəticə hissədən ibarətdir.

**NÜMUNƏ**

Nurəddinin sənəti əkinçilik idi və mal-qaradan ancaq bir atı vardı. Nağıl olunan zaman bahar və yay quraqlıq keçdiyinə görə o vilayətdə taxıl susuzluqdan yanıb tələf oldu. Çox çəkmədi ki, ətrafda aclıq başlandı. Payızın əvvəlindən Nurəddin arabasını qoşub şəhərə getdi. Orada qazandığı pulu dörd gündən, beş gündən bir evinə göndərirdi. Külfəti də onunla güzəran edirdi.

***S.S.Axundov, "Əhməd və Məleykə"dən***

BAŞLANĞIC

*Hər hansı bir hadisə haqqında ümumi məlumat verilir.*

*Nurəddinin kasıblığı və sənətinin əkinçilik olması barədə məlumat verilir.*

İNKİŞAF *(əsas)*

*Hər hansı bir hadisə şərh edilir.*

*Yaz və yayda havaların quraqlıq keçməsi, taxılın məhv olması və kənd camaatının vəziyyətinin ağırlaşması, Nurəddinin ailəsini təmin etmək üçün şəhərə iş dalınca getməsi haqqında məlumat verilir.*

NƏTİCƏ

*Fikir ümumiləşdirilir və yekunlaşdırılır.*

*Nurəddin qismən də olsa, ailəsinin gündəlik ruzisini təmin edir.*

**5.** Mətndə (səh. 14) fərqləndirilmiş sözlərin leksik mənalarını izah edin.

**6.** *Seminariya, lisey, gimnaziya* sözlərinin məna fərqlərini göstərin.

**7.** 4-cü cümlədə çoxmənalı sözləri tapın və fikrinizi müvafiq cümlələrlə əsaslandırın.

**8.** *Dil* sözünün həm omonim, həm də çoxmənalı olduğunu nümunələrlə izah edin.

**9.** Bunlardan hansılarını söz birləşməsi hesab etmək olmaz? Fikirlərinizi əsaslandırın.

Ən doğru söz, təzə imarətin bəzək işləri, Azərbaycan memarlığı, razı olmaq, zirvəyə doğru yol, sənin üçün, lüğətin ilk cildi, dayaq olmaq, məsələ həll etmək

**10.** Verilən nümunələrə söz əlavə edib söz birləşmələrini genişləndirin. Nə dəyişdi?

Azərbaycan mütəfəkkirləri, Qafqaz xalqları, fəxri doktor, bizim həmyerlimiz, Azərbaycan şöbəsi

✓ *Bir neçə sözdən ibarət söz birləşməsinin işlənməsini zəruri edən nədir?*

**11.** Aşağıdakı ifadələrə diqqət yetirin. Onlar eyni mənanı ifadə edirmi?

| | |
|---|---|
| dağların qarlı zirvəsi | qarlı dağların zirvəsi |
| meşələrin yaşıl libası | yaşıl meşələrin libası |

✓ *Özünüz də belə nümunələr düşünüb məna fərqini deyin.*

Mürəkkəb adlar söz birləşməsi şəklində olur. Belə adların tərkibindəki bütün sözlər ayrı yazılır. ***Ad və soyadlar, ölkə adları, idarə və təşkilat adları* və s. mürəkkəb adlar hesab edilir.** Tərkibindəki bütün sözlərin baş hərfi böyük hərflə yazılan mürəkkəb adlar bunlardır:

1. **Soyad, ad və ata adı:** Şahbazlı Lətifə Uğur qızı;
2. **Ölkələrin, muxtar respublikaların və vilayətlərin adları:** Azərbaycan Respublikası, Birləşmiş Ərəb Əmirlikləri;
3. **İdarə və təşkilat adları:** Azərbaycan Respublikası Prezident Administrasiyası, Uşaqların Xilası Təşkilatı, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası.

Bu tipli mürəkkəb adların tərkibində işlənən ***oğlu, qızı, adına, yanında, üzrə*** sözləri kiçik hərflə yazılır.

**12.** Lüğətin köməyi ilə mətndə (səh. 14) bütün hərfləri böyük verilmiş ifadələrin düzgün yazılıb-yazılmadığını müəyyənləşdirin.

**13.** Mətndə bütün hərfləri böyük verilmiş ifadələri aşağıdakı cədvələ əsasən qruplaşdırın.

| *Ad, soyad* | *İdarə və təşkilat adları* |
|---|---|
| | |
| | |

**14.** Lüğətdən istifadə etməklə səhvləri düzəldin.

Üzeyir Bəy Hacıbəyli,  Naxçıvan muxtar respublikası, Süleyman sani Axundov, Azərbaycan respublikası nazirlər Kabineti, Həsən Bəy Zərdabi, Abbasqulu Ağa Bakıxanov, Bakı şəhər icra hakimiyyəti, Azərbaycan respublikasının xarici işlər Nazirliyi, Azərbaycan Respublikasının milli məclisi

**15.** Aşağıdakı mətndə altından xətt çəkilmiş mürəkkəb adların yazılışının düzgün olduğunu əsaslandırın. Hansı cümlədən sonra abzas olmalıdır?

Qafqaz canişini general Vorontsov-Daşkov 3 avqust 1905-ci ildə Tiflisdə azərbaycanlı mütəfəkkir, maarifçi Sultan Məcid Qənizadə haqqında aşağıdakı əmri imzalayır:

*1872-ci il əsasnaməsi üzrə Bakı ikincidərəcəli şəhər məktəbinin müdiri Sultan Məcid Qənizadə bu ilin 1 avqustundan Zaqafqaziya Müəllimlər Seminariyası tatar (Azərbaycan) şöbəsinə tərbiyəçi inspektor təyin edilir. S.M.Qənizadə 1866-cı ildə Şamaxı şəhərinin Şahpir məhəlləsində anadan olmuş, ilk təhsilini şəhər məktəbində almış, Aleksandrovski Müəllimlər İnstitutunu bitirmişdir. Firidun bəy Köçərlinin yazdığına görə, Ağa Məsih Şirvani S.M.Qənizadənin dördüncü babasıdır.*

(Dilqəm Əhməd)

**16.** Mətn (səh. 14) əsasında dialoq qurun.

*– Bilirsənmi ki, Qori müəllimlər seminariyası azərbaycanlıların dünyəvi təhsil almasında ilk addımlarını atdıqları təhsil ocağı olmuşdur?*

*– Əlbəttə. Onu da bilirəm ki, bu seminariya 1876-cı ildə Qori şəhərində fəaliyyətə başlamışdır.*

✓ *Dialoqda durğu işarələrinin işlənməsinə diqqət yetirin.*

**17.** "Xalqın tarixində əhəmiyyətli rol oynamış ziyalılarımızı tanıyırıqmı?" mövzusunda müsahibə götürün. Bu zaman yerinə uyğun olaraq, görüşmə etiketlərindən və mürəkkəb adlardan istifadə edin. Müsahibə əsasında qısa mətn yazın.

**MÜSAHİBƏ GÖTÜRMƏK ÜÇÜN YADDAŞ:**

- Mövzunun müəyyənləşdirilməsi;
- Mövzu üzrə sualların tərtib edilməsi;
- Müsahibənin aparılacağı yer, məkan və şəxslərin müəyyənləşdirilməsi;
- Alınan cavabların ümumiləşdirilərək yekunlaşdırılması;
- Nəticə.

*Mətndəki sözlərin düzgün yazılışına, cümlələrin düzgün qurulmasına diqqət yetirin.*



I BÖLMƏ 3

# YAXŞILIQ İTMİR
## (ixtisarla)

**Orfoepiya**

Düzgün tələffüzü yazın.

təəssüf – [...]
şöbə – [...]
dövr – [...]

**Orfoqrafiya**

Bitişik, yoxsa ayrı?

Mötərizədəki sözlər bitişik, defislə, yoxsa ayrı yazılmalıdır?

XIX əsrin ortalarında Qazaxda *günəmuzd*[1] fəhlə işləyən Məmmədəli ağır zəhməti bahasına əlinə yaxşı maya salır. Bu zəhmətkeş insan özünə on yeddi otaqlı bir imarət tikdirir. Əsrimizin əvvəllərində doğma yurduna qayıtmaq istəyən Məmmədəli evini *hərraca*[2] qoyur. Sözsüz ki, hər kişi belə bir əzəmətli mülk[3] ala bilməzdi. Qazaxda iki pullu, qızıllı kişi Məmmədəlinin mülkünü almaq üçün müştəri düşür: Qıraq Kəsəməndən İsrafil ağa və Kosalardan Məşədi İbrahim. Onu da deyək ki, İsrafil ağa öz dövrünün böyük xeyriyyəçisi olmuşdur.

**Şahidlər, mülk sahibi** və **alıcılar** bir yerə yığışıb binaya qiymət qoyurlar. Əvvəlcə İsrafil ağa yüz qızıl verir, mülk sahibi başını bulayır. Məşədi İbrahim yüz əlli qızıl təklif edir, İsrafil ağa isə iki yüz. Mülk sahibi yenə razılaşmır... Nə isə, *məzənnə*[4] (belə?belə) qalxır. Məşədi İbrahim "beş yüz qızıl", – deyib dayanır. İsrafil ağa dinmir. Ağanın və mülk sahibinin susduğunu görən Məşədi İbrahim oğlu Müseyibi yanına çağırıb deyir: "Bala, zəhmət olmasa, qaç evə, anana de, gönün arasında (nə?qədər) qızıl varsa, versin, götür, gəl".

Şəkli təsvir edib mətnin müvafiq hissəsinə artırın.



*Qazaxda Qori seminariyasının Azərbaycan şöbəsi*

Qızıllar gələnə qədər heyətdən (səs?səmir) çıxmır. İsrafil ağa inanmırmış ki, Məşədi İbrahimdə bu qədər qızıl olsun. Müseyibin gətirdiyi qızılları görən İsrafil ağa (xeyir?dua) verir:

– Məndən keçdi. Allah xeyir versin, Məşədi İbrahim, – deyir, – sağlıqla yaşayasan.

...Qori seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüləndə səxavətli, xeyirxah niyyətli Məşədi İbrahim öz şəxsi mülkünü seminariyanın direktoru Firidun bəy Köçərliyə bağışlayır. Bu, səbəbsiz deyildi.

1914-cü ildə (hər?tərəfli) maddi imkanı olan səxavətli maarifpərvər Məşədi İbrahim oğlu Müseyibi Qoriyə aparıb seminariyaya qəbul etdirir. İlk dəfə görüşüb tanış olduğu Firidun bəy Köçərli ilə dostluğun binasını qoyur. Təəssüf ki, ipə-sapa yatmayan, dəliqanlı gənc Müseyib (il?yarım) oxuduqdan sonra seminariyanı atıb Qazaxa qayıdır. Vaxtını Kürdə balıq tutmaqda, çöldə dovşan ovunda, müxtəlif əyləncələrdə keçirir.

Məşədi İbrahim isə oğlunun bu bivec hərəkətlərinə yanıb-yaxılırmış. O, Qazaxdan və onun kəndlərindən bir neçə kasıb, kimsəsiz uşağa maddi cəhətdən kömək edib Qori seminariyasına oxumağa göndərir. Oğlundan bir şey çıxmayacağını görən Məşədi İbrahim kimsəsizləri oxutmaqla təsəlli tapır.

**Şəmistan Nəzirli,** *"Qoridən gələn qatar" sənədli povestindən*

**1.** Məşədi İbrahim öz şəxsi mülkünü nə üçün seminariyaya bağışlayır? Məşədi İbrahimin oğlunun hərəkətinə münasibət bildirin.

**2.** Sizcə, mətnə verilən ad məzmuna uyğundurmu? Fikrinizi nə ilə əsaslandırarsınız? Siz mətnə hansı adı verərdiniz?

**3.** Mətndən çıxan əsas fikri müəyyən edin. Sizcə, ideyanı hansı abzasa əsasən müəyyənləşdirmək olar?

**4.** Mətnlə bağlı fikirlərdən düzgün olanları seçin.
1. Mətn nəqlidir.
2. Mətndə faktlardan istifadə edilməmişdir.
3. Mətndə təsvirlərdən geniş istifadə olunmuşdur.
4. Mətndə konkret faktlardan istifadə edilmişdir.
5. Mətndə nitq etiketlərindən də istifadə edilmişdir.
6. Mətndə abzaslar arasında əlaqə gözlənilməmişdir.

A) 2, 3, 6 B) 1, 4, 5 C) 1, 4, 5, 6 D) 1, 2, 3, 6 E) 4, 5, 6

**5.** Hikmətli sözlərdən hansı mətnin məzmununa uyğundur?

A) Çalış, öz xalqının işinə yara,
Geysin əməlinlə dünya zərxara. *(Nizami Gəncəvi)*

B) Xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir. *(Heydər Əliyev)*

C) Xoşbəxtliyin yolu sevgi və insanlara hörmətdən keçir. *(Viktor Hüqo)*

D) Hər bir iş yalnız başlanğıcında çətin görünür. *(Tomas Karleyl)*

E) Elmi olan güclü olar. *(Əbülqasim Firdovsi)*

**6.** Mətnin abzaslara düzgün ayrılıb-ayrılmadığı barədə fikir mübadiləsi yürüdün.

**7.** Mətndən faktları seçib onların fakt olduğunu əsaslandırın.

**8.** Mətndə hansı suala cavab yoxdur?
A) Mülk sahibi nə üçün asanlıqla evini satmağa razılaşır?
B) Məmmədəli nə üçün mülkünü Firidun bəy Köçərliyə bağışlayır?
C) Məşədi İbrahimin kimsəsizləri oxutmaqda məqsədi nə idi?
D) Firidun bəy Köçərli nə üçün seminariya üçün Məşədi İbrahimin mülkünü uyğun görür?
E) Müseyib nə üçün seminariyada təhsilini davam etdirmir?

**9.** Necə düşünürsünüz, insan mütləq ali təhsil almalıdırmı? Fikrinizi necə əsaslandırardınız?

**10.** Tünd şriftlə verilmiş sözlərin əvvəlinə onları ümumiləşdirən söz əlavə edin.

**11.** Verilmiş izahlar mətndə nömrələnmiş hansı sözlərə aiddir?
a. Bir mülkün, əşyanın ən çox pul verən şəxsə verilməsi üçün açıq satışa çıxarılması
b. əməkhaqqının gün hesabı ilə ödənilməsi
c. bazar qiyməti, müəyyən olunmuş qiymət
d. birinə məxsus torpaq sahəsi, daşınmaz əmlak

**12.** *Bina* və *maya* sözlərinin kontekstə uyğun mənalarını izah edin və cümlələrdə fərqli mənada işlədin.

**13.** Mətndə məcazi mənada işlənmiş sözləri seçin və seçiminizi əsaslandırın. Həmin sözlərin qarşılığını tapmağa çalışın.

**14.** Mətndən aşağıdakı sxemlərə uyğun söz birləşmələrini seçib yazın.

*say* + *isim*
*sifət* + *isim*
*zərf* + *isim*
*feili sifət* + *isim*
*əvəzlik* + *isim*
*isim* + *isim*

**15.** Mətndə göy rəngdə verilən söz birləşmələrini aşağıdakı kimi qruplaşdırın.

| *Əsas tərəfi adlarla ifadə olunan* | *Əsas tərəfi feilin təsriflənməyən formaları ilə ifadə olunan* |
|---|---|
| | |
| | |

Söz birləşməsində I tərəf asılı, II tərəf əsas tərəf hesab edilir. Əsas tərəf tabe edən, asılı tərəf tabe olandır.

| asılı tərəf | | əsas tərəf |
| --- | --- | --- |
| | qızıl medal | |
| | seminariyada oxumaq (oxuyan, oxuyanda) | |

Əsas tərəfin ifadə vasitəsinə görə söz birləşmələrinin iki növü var:
1) ismi birləşmələr; 2) feili birləşmələr.

Əsas tərəfi adlarla ifadə olunan söz birləşmələrinə **ismi birləşmələr** deyilir. Məsələn: baharın gəlişi, uşaq ədəbiyyatı, səfər təəssüratı, çalınan musiqi, çalışqan şagird.

Əsas tərəfi feilin təsriflənməyən formaları *(məsdər, feili sifət, feili bağlama)* ilə ifadə olunan söz birləşmələrinə **feili birləşmələr** deyilir. Məsələn: el qeyrəti çəkən, vicdanla yaşamaq, ədalətlə həll etdikdə və s.

**16.** Mətndə altından xətt çəkilmiş cümlənin hansı variantı daha düzgündür?

- Qazaxda iki pullu, qızıllı kişi Məmmədəlinin mülkünü almaq üçün müştəri düşür.
- Qazaxda pullu, qızıllı iki kişi Məmmədəlinin mülkünü almaq üçün müştəri düşür.

✓ *Niyə belə hesab edirsiniz?*

**17.** Aşağıdakı mətndən ismi və feili birləşmələri seçin. Mürəkkəb adların yazılışına diqqət edin, onların düzgün yazıldığını əsaslandırın.

İsrafil ağa Kərbəlayev XX əsrin əvvəllərinə kimi Qazax qəzasının tanınmış xeyriyyəçi bəylərindən olub. O, indiki Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində bəy ailəsində anadan olmuşdur. Qazax şəhərində qədim hamam tikdirən İsrafil ağanın malı, mülkü (indiki 3 nömrəli məktəbin binası) dağıdılmış, özü isə 1917-ci ildə bolşeviklər tərəfindən Poylu körpüsündə güllələnmişdir.

Abbas Zamanovun tədqiqatlarına görə, 1912-ci ildə Mirzə Ələkbər Sabirin şeirlərini “Hophopnamə” adı altında nəşr etmək üçün keçirilən ianə toplanışında İsrafil ağa böyük həcmdə yardım göstərmişdir.

✓ *Bu mətn “Yaxşılıq itmir” mətni ilə hansı baxımdan əlaqələndirilə bilər?*

**18.** Mətndən mürəkkəb adları seçib, onların düzgün yazıldığını əsaslandırın.

**19.** “Təhsil imkanları bu gün” mövzusunda nəqli inşa yazın.

**PLAN**
- Mövzunun adına münasibət
- Təhsilin yaratdığı imkanlar
- Azərbaycan təhsilinin yaratdığı imkanlar *(fikrin faktlarla əsaslandırılması)*

*İnşa yazarkən tərkib hissələrin düzgün əlaqələndirilməsinə diqqət yetirin.*

I BÖLMƏ 4

# ANA DİLİ

*(ixtisarla)*

**1.** Tələffüz qaydalarını gözləməklə şeiri intonasiya ilə oxuyun.

***Şair nə üçün ana dilimizi "xəzinə" adlandırır?***

Orfoepiya

**Düzgün tələffüzü deyin.**

qəhrəmanlıqla – [...]
qüdrətinlə – [...]
fasonlu – [...]
hiddətindən – [...]

Dinlədiyiniz və oxuduğunuz şeirləri məzmun baxımından müqayisə edin. Nə müşahidə etdiniz?

Müşahidələrinizi cədvəl şəklində təqdim edin.

*Dil açanda* ilk dəfə "ana" söyləyirik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
**İlk** mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizlə *əhdi-peymanımızdır*.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil əcdadımızın bizə *miras* verdiyi
Qiymətli xəzinədir ... onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

Ana dilim, səndədir xalqın əqli, **hikməti**,
Ərəb oğlu Məcnunun dərdi səndə *dil açmış*.
*Ürəklərə yol açan* Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
*Tarixi varaqlanır*.
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım-sanımsan,
Namusum, vicdanımsan!

Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddətindən,
Bu torpaqdan, bu yerdən,
Elin bağrından qopan yanıqlı nəğmələrdən,
Güllərin rənglərindən, çiçəklərin iyindən,
Mil düzünün, Muğanın sonsuz genişliyindən,
Ağsaçlı babaların əqlindən, kamalından,
Düşmən üstünə cuman o Qıratın nalından
Qopan səsdən yarandın.
Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.
Ey öz doğma dilində danışmağı ar bilən
fasonlu ədabazlar!
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq Vətən çörəyi,
Sizlərə qənim olsun!

*Bəxtiyar Vahabzadə*

**2.** Aşağıdakı sxemi tamamlayıb fikirlərinizi izah edin.




✓ *Bu müqayisə sizə nə verdi?*

**3.** Müəllif şeirdə nə üçün oxucunun diqqətini ilk dərsliyin adına cəlb edir?

**4.** Şeirlə bağlı fikirlərdən biri yanlışdır:

A) Şeirdə ana dilinə böyük məhəbbət hiss olunur.
B) Ana dilinə xor baxanlar şair tərəfindən kəskin tənqid olunur.
C) Şeirdə dilin mədəniyyətdən əvvəl yarandığı vurğulanır.
D) Dilin yaranma mənbəyi kimi müxtəlif obyektlər göstərilir.
E) Dil xalqın tarixini özündə yaşadır.

**5.** Şeirin üçüncü bəndinə əsasən demək olar:

A) Füzulinin "Leyli və Məcnun" əsərinin ana dilində olmasına dolayısı yolla işarə edilir.
B) Füzulinin müxtəlif dillərdə əsər yazmasına işarə edilir.
C) Ana dili namus hesab edilir.
D) Dil tarixi qoruyub saxlayır.
E) Dil mədəniyyətin qoruyucusudur.

**6.** Şeirin son bəndinə münasibət bildirin. *Ana dilində danışmağı özünə ar bilən* ifadəsinin mənasını izah edin. Belə insanlara rast gəlirsinizmi? Onlara münasibətiniz necə olmuşdur?

**7.** Sizcə, dilimizin tarix və mədəniyyətimizlə hansı əlaqəsi vardır? Fikrinizi faktlarla əsaslandıraraq ümumiləşdirin.

**8.** Sxem əsasında yoldaşlarınızla fikir mübadiləsi aparın.




**9.** Şeirin 4-cü bəndinə münasibət bildirin. Şair nə üçün dilimizi yaradan vasitələr kimi məhz həmin məkan və obyektlərin adını çəkir?

**10.** Şeirdən aldığınız təəssürat əsasında bir cümlə ilə dilimizi vəsf edin.

**11.** “Ana dili” şeirinin hər bəndində ifadə olunmuş fikri müəyyən edərək şeirin ideyasını müəyyən edin.




**12.** Sualları cavablandırın.

| Ana dilimi necə tərənnüm edərdim? | | |
|---|---|---|
| Əgər şair olsa idim, ... | Əgər rəssam olsa idim, ... | Əgər heykəltaraş olsa idim, ... |

**13.** Şeirdə tünd şriftlə verilmiş sözlərin qarşılığını tapın.

**14.** Şeirdə fərqləndirilmiş söz və ifadələrin məna çalarlarını izah edin. Hansılar məcazi mənalıdır?

**15.** *Açmaq* sözünü aşağıdakı mənalarda cümlədə işlədin.

- qapalı nəyinsə ağzını qaldırmaq
- ip və s. ilə bağlı olan bir şeyi bağdan azad etmək
- örtülü, qapalı olan nəyi isə aralamaq
- maye halda olan maddələrin axmasına imkan vermək
- ifşa etmək, aşkara çıxarmaq
- çiçəkləmək

**16.** Nümunəyə əsasən sxemləri tamamlayın.



**17.** Şeirdə altından xətt çəkilmiş sözlərin yaxınmənalı olduğunu əsaslandırın.

**18.** Aşağıdakı nümunə əsasında mətnin məzmununu saxlayıb əlavələrinizi etməklə şeiri nəsrə çevirin. Cümlələr arasında əlaqəni gözləyin.

| Şeirin misralarının nəsrə çevrilmiş forması | Əlavələr |
|---|---|
| 1. Dil açanda ilk sözümüz “ana” olur. (şeirin ilk misrası) | 1. Ən müqəddəs, ən çətin kəlməni ilk dəfə məhz öz dilimizdə səsləndiririk. |
| 2. Bizim ilk dərsliyimiz də “Ana dili” adlanır. (şeirin 2-ci misrası) | 2. Məktəbə gedəndə bizə yol göstərən, ətraf aləm haqqında məlumat verən dərsliyimiz də bu doğma adı daşıyır, bizimlə qoşa addımlayır. |
| 3. Doğma dildə eşitdiyiniz ilk mahnımız olan laylalar anamızın bizə verdiyi südlə ruhumuza hopur. (şeirin 3 və 4-cü misraları) | 3. Hələ körpə ikən eşitdiyimiz layla nəinki bizə doğma dilimizi tanıdır, eyni zamanda, mənəviyyatımız, adət-ənənələrimiz, tariximiz, ədəbiyyatımız, musiqimiz haqqında ilkin təsəvvür yaradır. |
| 4. ... | ... |

**19.** “Azərbaycan dili” dərsliyiniz haqqında (istədiyiniz dərsliyi seçə bilərsiniz) sorğu keçirin. Sorğunun nəticələrini ümumiləşdirib təqdimat hazırlayın.

SORĞU ÜÇÜN YADDAŞ:

- Suallar tərtib edin. *(... dərsliyini bəyənirsinizmi? Hansı bölmə diqqətinizi cəlb etdi? Dərslikdə hansı mətnlərin olmasını istərdiniz? Dərslik müasir tələblərə cavab verirmi?)*
- Cavabları ümumiləşdirin.
- Ümumiləşdirdiyiniz fikirlər əsasında mətn hazırlayın.
- Təkliflər hazırlayın.

*Mətndəki sözlərin düzgün yazılışına, cümlələrin düzgün qurulmasına diqqət yetirin.*



I BÖLMƏ 5

# MƏDİNƏ XANIM QİYASBƏYLİ

**Orfoepiya**

Mətndəki sözlərin hansı yazılış forması düzgündür?

| | | | |
|---|---|---|---|
| camahat | – camaat | maarif | – marif |
| ailə | – aylə | müraciyət | – müraciət |

**Orfoqrafiya**

**Bitişik, yoxsa ayrı?**

Mötərizədəki sözlər bitişik, defislə, yoxsa ayrı yazılmalıdır?

▼ **maarifçi qadın**

Azərbaycanda mənalı həyat yolu keçən dəyərli, ziyalı qadınlarımızdan biri Mədinə xanım Qiyasbəylidir.

Mədinə xanım Qiyasbəyli 1889-cu ilin aprelində Qazax qəzasının Salahlı kəndində Mehdi ağa Vəkilovun ailəsində dünyaya gəlmişdir. Mədinə xanım Qiyasbəylinin *(maarif?pərvər)* bir nəsildə – elmə, biliyə dəyər verən Mehdi ağanın [ayiləsində] dünyaya gəlməsi onun gələcək həyatında mühüm rol oynamışdır.

Mədinə xanım ilk təhsilini evdə valideynlərindən almış, sonra Tiflis şəhərində "Müqəddəs Nina" qız məktəbində oxumuşdur. Təhsilini əla qiymətlərlə başa vuran Mədinə xanım kənddə qızlar üçün məktəb açmaq qərarına gəlir. Ancaq mollaları, gerilik tərəfdarları çox olan, insanları cəhalət məngənəsində sıxılan bir əyalət kəndində bunu həyata keçirmək o qədər də asan deyildi.

[Cama:t] qızlarını Mədinə xanımın məktəbinə verməyə cəsarət etmirdi. Bunu görən gənc Mədinə işə yaxın qohumlarının uşaqlarından başlayır. Əlbəttə ki, uğur qazanır. Yavaş-yavaş uşaqların sayı 30-a çatır.

* * *

1 Müəyyən müddətdən sonra Mədinə xanım Qazaxda Xalq məktəbləri inspektoru təyin edilir və [ma:rif] işlərinin genişlənməsi üçün əlindən gələni əsirgəmir. Bacarığı və savadı onu tezliklə tanıdır. Bakıya köçən Mədinə xanım 1920-ci ilin martında burada savad kursunun açılmasına nail olur. Martın 10-da kurs milli hökumətin qərarı ilə rəsmiləşdirilir. Mədinə xanımı sayca ikinci olan qadın axşam kursunun müəllimi təyin edirlər. Az müddətdə 20-yə qədər savadlanmaq istəyən qadın buraya [müra:cət] edir. Kursda Üzeyir Hacıbəyli, Xədicə xanım Ağayeva, Şəfiqə xanım Əfəndizadə dərs deyirlər.

2 Beləliklə, Salahlıda ilk kənd qız məktəbi formalaşır. Məktəbdə türk dili, hesab, *(təbiət?şünaslıq)*, rus dili fənləri ilə yanaşı, musiqi dərsləri də tədris olunurdu.

3 1910-cu ildə Mədinə xanım Şəhriyar bəy Qiyasbəyovla evlənərək Dağ Kəsəmən kəndinə gəlin köçür. Canı ilə, qanı ilə işinə bağlı olan biri dağ kəndində boş durarmı?! Orada da tezliklə qızları təhsilə cəlb etməyin yolunu axtarmağa başlayır. Nəhayət, qısa zaman içində Dağ Kəsəməndə qız məktəbi açmağa nail olur.

**1.** Mətnə əsasən demək olar:

1. İnsan çətin vəziyyətdən çıxış yolu tapmalıdır.
2. Bilik böyük sərvətdir.
3. Təhsilin inkişafında qadınların da rolu olmuşdur.
4. İstək olarsa, niyyətini həyata keçirə bilərsən.
5. Hər kəs bacardığını etsə, inkişaf da olar.

A) 1, 2, 4  B) 2, 3, 4, 5  C) 1, 3, 4, 5  D) 1, 2, 4, 5  E) 3, 4, 5

**2.** Bunlardan biri mətnin birinci parçasının nəticə hissəsidir:

A) Mədinə xanımın məktəb açmaq qərarına gəlməsi
B) Mehdi ağanın ailəsində doğulmasının gələcək həyatına təsiri
C) Təhsilini əla qiymətlərlə başa vurması
D) Kənd qızlarını məktəbə cəlb etməsi
E) Məktəbə cəlb edilən kənd qızlarının sayının artması

**3.** Mətnin ikinci hissəsində abzasların ardıcıllığını bərpa edin.

**4.** Hansı abzasda təkrarlar vardır? Onları aradan qaldırmağa çalışın və müqayisə edin.

**5.** Sizcə, nə üçün insanların, əsasən, qadınların savadlanmasına imkan verilmirdi? Bu gün belə hallarla rastlaşırsınızmı?

**6.** Mədinə xanımı savad kursları açmağa nə vadar edirdi?

**7.** Mətnə əsasən cədvəli tamamlayın.

| Mədinə xanımı xarakterizə edən xüsusiyyətlər | Fikri təsdiq edən fakt |
|---|---|
| *1.* | |
| *2.* | |

**8.** Hər üç mətn üçün əsas ana xətti müəyyənləşdirin və sxemi şərh edin.

*“Qori seminariyasında Azərbaycan şöbəsi necə açıldı”* → *“Yaxşılıq itmir”* → *“Mədinə xanım Qiyasbəyli”*

**9.** Mətnə əsasən XX əsrin əvvəllərində təhsilə olan münasibəti müəyyənləşdirin.

**10.** Hər abzasdakı əsas fikri müəyyənləşdirib 1-2 cümlə ilə ifadə edin. Aşağıdakı sxemdən istifadə edin.

| *I abzas* | *II abzas* | *III abzas* |
|---|---|---|
| *Mədinə Qiyasbəyli Azərbaycanın ziyalı qadınlarından biri olmuşdur.* | | |

**11.** Cümlədə işlətməklə *dağ, qız* sözlərinin omonim olduğunu əsaslandırın.

**12.** *Cəhalət, əyalət, məngənə* sözlərinin leksik mənalarını izah edin. Hazırda bu sözlərdən istifadə olunurmu? Fikirlərinizi əsaslandırın.

**13.** *Ziyalı* sözünün sinonimini müəyyənləşdirin.

**14.** Mətndə altından xətt çəkilmiş mürəkkəb adların düzgün yazılıb-yazılmadığı haqqında fikir mübadiləsi aparın.

**Tərkibində *şəhər, kənd, küçə, meydan, okean, dəniz, çay, körpü* və s. sözlər olan mürəkkəb adlarda birinci söz böyük, ikinci söz kiçik hərflə yazılır.** Məsələn: *Sakit okean, Xəzər dənizi, Kür çayı* və s.

**15.** Cümlələrdə yazılışı səhv olan sözləri seçib düzgün yazın. Aşağıdakı cədvəldən istifadə edə bilərsiniz.

**1.** Bakıdakı ən gözəl binalardan biri Heydər Əliyev adına Saraydır. **2.** Mədinə Qiyasbəyli Dağ Kəsəmən Kəndində məktəb açılmasına nail olur. **3.** Xudafərin Körpüsü 1027-ci ildə Şəddadi hökmdarı Fəzl ibn Məhəmməd tərəfindən Rəvvadilərlə mübarizə aparmaq üçün inşa edilmişdir. **4.** Qərb yarımkürəsində yerləşən atlantik okeanının ən ensiz yeri ekvatorial zonadadır. **5.** Azadlıq Prospekti Bakı Şəhərinin Nəsimi və binəqədi rayonlarında Səməd Vurğun və Süleyman Rüstəm küçələrinə paralel yerləşir.

| Verilmişdir | Olmalıdır | Səbəbi |
|---|---|---|
| | | |

✓ *Özünüz də bir neçə belə nümunə yazın.*

**16.** Tünd şriftlə verilmiş sözlərin yazılışına diqqət yetirin və səbəbini izah etməyə çalışın.

1. **Mirzə** Fətəli Axundov Azərbaycan ədəbiyyatında dramaturgiyanın banisi hesab edilir. 2. Qasım **bəy** Zakir “Durnalar” qoşmasını sürgündə olarkən yazmışdır. 3. Abbasqulu **ağa** Bakıxanov ensiklopedik şəxs kimi tanınır. 4. **Ağa** Məhəmməd **şah** Qacar Qacarlar dövlətinin qurucusudur. 5. **Şah** Abbas böyük Səfəvi **şah**larından biridir.

*Mirzə, hacı, şeyx, seyid, şah, soltan, ağa, bəy, bəyim, xan, xanım* və s. sözlər **rütbə, ləqəb və titul** bildirib sözlərdən əvvəl gəldikdə böyük, sözlərdən sonra gəldikdə isə kiçik hərflə yazılır: *Mirzə Fətəli, Hacı Qara, Şeyx Nəsrullah, Seyid Əzim, Şah İsmayıl, Soltan Mahmud, Abbas mirzə, Nadir şah, Abbasqulu ağa, Fətəli xan, Heyran xanım.*

**17.** Mürəkkəb adların yazılışındakı səhvləri düzəltməklə mətnləri köçürün. Aşağıdakı cədvəldən də istifadə edə bilərsiniz. Düzəlişlərinizi əsaslandırın.

Təqribən XIV əsrin sonu – XV əsrin əvvəllərində Şirvanşahların hakimi Dərbəndilər Sülaləsi paytaxtı bol nemətli Şamaxıdan Bakı Şəhərinə köçürməyi qərara almışdı. Strateji baxımdan mühüm bir yerdə – təbii amfiteatr ilə əhatələnmiş rahat limanın sahilində yerləşən Bakının paytaxt seçilməsi təsadüfi deyildi. Şəhər bir sıra mənbələrdə Bakı dənizi kimi adlandırılan xəzər dənizində ən yaxşı limana malik idi.

*("Azərbaycan memarlığı XV–XIX əsrin əvvəllərində")*

1456-cı ildə samur çayı üzərində bir tərəfdə Cahan şahla Xəlilullah şirvanşahın birləşmiş qoşunları, digər tərəfdə Uzun Həsənin qoşunları və şeyx Cüneydin çoxsaylı tərəfdarları arasında baş verən savaşda sonuncu həlak olur. Buna bənzər şəkildə bir qədər sonra Şirvandakı döyüşdə Səfəvi imperiyasının gələcək hökmdarı Şah I İsmayılın atası şeyx Heydər öldürülmüşdü.

*("Azərbaycan memarlığı XV–XIX əsrin əvvəllərində")*

✓ *II mətndə şah sözlərinin yazılışına diqqət yetirin, fərqli yazılışın səbəbini izah edin.*

| *Verilmişdir* | *Olmalıdır* | *Əsaslandırma* |
|---|---|---|
| *Dərbəndilər Sülaləsi* | | |

**18.** Aşağıdakı birləşmələrdən istifadə etməklə yığcam mətn hazırlayın.

*Azərbaycan, Bakı, Xəzər, Avropa və Asiya, Abşeron, Şirvanşahlar,* Qız qalası, Şəhidlər xiyabanı, memarlıq abidələri

**Mətn hazırlamaq üçün:**

- *Kursivlə verilmiş sözlərə müvafiq ifadələr artırıb mürəkkəb adlar düzəldin.*
- *Mürəkkəb adlardan istifadə etməklə cümlələr qurun.*
- *Cümlələr arasında rabitə yaratmaqla mətn hazırlayın.*

**19.** "Maarifçi qadınlarımız" mövzusunda nəqli xarakterli mətn yazaraq qəzet materialı hazırlayın.

I ADDIM

*İlk növbədə, maarifçi qadınların adlarını müəyyənləşdirin.*

II ADDIM

*Onlardan biri haqqında (öz seçiminiz) ətraflı məlumat toplayın. Topladığınız məlumat içərisindən maraqlı və vacib olanları seçin.*

III ADDIM

*Seçdiyiniz məlumatları əlaqələndirib mətn tərtib edin. Mətnin düzgün yazıldığına əmin olun.*

I BÖLMƏ

# 6 | MÜCRÜ
## (ixtisarla)

**1.** Mətni düzgün intonasiya ilə oxuyun.

*Nümunə:*

Mücrünü öz yerinə qoyanda ‖ anaya ‖ o, ‖ indi ağır, ‖ əvvəlkindən qat-qat ağır gəldi.

✓ *Mətndən bir neçə cümlə seçib səs tonunun qalxma və enməsini şərti işarələrlə göstərin.*

✓ *Sonra mətni uyğun intonasiya ilə oxuyun.*

**İntonasiya** *şifahi nitqdə cümlələri müxtəlif vasitələrlə əlaqələndirən vasitədir.*

*Mətndə hər bir cümlə, adətən, yüksələn tonla başlayır, tədricən azalır və fasilə verilir.*

*Fasilə yazıda nöqtə, sual, nida, durğu işarələri və s. ilə qeyd olunur.*

O, gəlin köçəndə anası mücrü də qoydu cehizinin üstünə. “Gəlin mücrüsüz olmaz!”, – dedi.

Nənə yadigarı idi bu balaca, naxışları solğun mücrü. İndi də onun qisməti oldu.

O, üzük, *qızıl saat* və sırğalarını qoyardı mücrüyə. Mücrü paltar dolabında ən yuxarı gözə qalxmışdı. Əzizlənirdi mücrü, sevilirdi mücrü...

Bir gün gəlin ana oldu. Əri hədiyyə ilə evə gəldi. Açıldı mücrü, *cavan ana qızıl boyunbağını* qoydu, örtüldü mücrü.

Və beləcə doldu mücrü.

Atanı müharibə apardı. Ehtiyacla əlbəyaxa oldu ana. Gecəsi gündüzə, gündüzü gecəyə qarışdı ananın. Ancaq itirmədi özünü, itirə bilməzdi ana!

Bir dəqiqə də işsiz durmadı, bir dəqiqə də. Lakin çatışmırdı qazancı. *Beş uşağa* çatışmırdı qazancı ananın!

Açıldı mücrü, örtüldü mücrü. Nişan şeyləri, ər hədiyyələri bazara ayaq açdı... Kədərlə açıldı mücrü, kədərlə örtüldü mücrü... Boşaldı mücrü...

Bir gün ananın ilki sevincək evə gəldi. Diplomla gəldi. İlk diplom idi ki, onların evinə qədəm qoyurdu. Ali məktəb diplomu.

Ana doluxsuna-doluxsuna diplomu dodaqlarına apardı, bağrına basdı, gözlərində yaş görünəndə yadına çoxdan unudulmuş mücrü düşdü...

Ananın əlləri, mehriban əlləri mücrüyə toxunanda mücrü sanki cana gəldi, fərəhlə açıldı mücrü, diplomu ağuşuna aldı, gülümsədi, sevincək örtüldü mücrü. Evə ikinci diplom gəldi. Açıldı mücrü, örtüldü mücrü. Üçüncü... dördüncü... beşinci... Tamam doldu mücrü.

Ana oxşadı mücrünü. Gözünün qabağına çox şeylər gəldi, çox şeylər!

Mücrünü öz yerinə qoyanda anaya o, indi ağır, əvvəlkindən qat-qat ağır gəldi.

Ana yanılmamışdı. O sərvət hara, bu sərvət hara?!

*Gülhüseyn Hüseynoğlu*

**Son cümləyə münasibət bildirin.**




*Mücrü, adətən, zinət əşyalarını saxlamaq üçün istifadə olunan balaca sandıqçadır.*

*Taxtadan və metaldan düzəldilən mücrülər, əsasən, naxışlı olur. Oyma üsulu ilə salınan naxışlar milliliyi özündə təcəssüm etdirirdi.*

- *Hər iki mətni müqayisə edin. Mətnlərdəki intonasiya eyni oldumu?*
- *Niyə? Hansı fərqi müşahidə etdiniz?*

**2.** Ananın "Gəlin mücrüsüz olmaz!" fikrinə münasibət bildirin. Sizcə, bu fikirdə hansı hikmət vardır?

**3.** *"O sərvət hara, bu sərvət hara?!"* ifadəsi bu bölmədə öyrəndiyiniz hansı mətndəki əsas fikirlə üst-üstə düşür? Fikrinizi əsaslandırın.

**4.** Mətni bitkin hissələrə ayırın və hissələr arasındakı əlaqəni müəyyənləşdirin. Hər bir bitkin hissədəki giriş, əsas və nəticə hissəni müəyyənləşdirin *(aşağıdakı nümunədən istifadə edin)*.

| | |
|---|---|
| *O, gəlin köçəndə anası mücrü də qoydu cehizinin üstünə. "Gəlin mücrüsüz olmaz!", – dedi.* | GİRİŞ<br>*mücrünün cehiz verilməsi* |
| *Nənə yadigarı idi bu balaca, naxışları solğun mücrü. İndi də onun qismətı oldu. O, üzük, qızıl saat və sırğalarını qoyardı mücrüyə.* | ƏSAS HİSSƏ<br>*mücrüyə bəzək əşyalarının yığılması* |
| *Mücrü paltar dolabında ən yuxarı gözə qalxmışdı. Əzizlənirdi mücrü, sevilirdi mücrü...* | NƏTİCƏ<br>*mücrünün əziz xatirə kimi saxlanması* |

**5.** Mətnin abzaslara düzgün bölündüyünü əsaslandırın.

**6.** Bu mətn dil xüsusiyyətlərinə görə əvvəlki mətnlərdən nə ilə fərqlənir?

**7.** Necə düşünürsünüz, mətndə *mücrü* sözü nə üçün tez-tez təkrarlanır? Bu sözün işlənməsi mətnə ağırlıq gətirirmi?

***Abzasdakı təkrarları aradan qaldırmaq üçün yeri gəldikcə isimlərdən və əvəzliklərdən istifadə etmək lazımdır.***

✓ *Necə düşünürsünüz, əvəzliklərlə əvəzlənmə həmişəmi lazımdır? Mətndəki mücrü sözünü əvəzliklə əvəz etsək, nə baş verər?*

**8.** *Qazanc* və *maaş* sözlərinin sinonim olub-olmadığını müəyyənləşdirin.

**9.** Mətndə məcazi mənada işlənmiş sözləri seçin. Həmin sözlərin həqiqi və məcazi mənalarını müqayisə edin. Həqiqi mənada müvafiq sözlərlə işlədin.

**10.** Qırmızı rəngdə verilmiş *ağuş* sözünün əvəzinə *qucaq* və *qoyun* sözlərindən hansını işlətmək olar? Niyə belə hesab edirsiniz? Fikrinizi nümunələrlə əsaslandırın.

**11.** Əgər mətndə mürəkkəb ad işlətməli olsa idiniz, hansı tip mürəkkəb adlardan istifadə edərdiniz? Həmin ifadələri düzgün yazın.

**12.** “Elm və sülh cəhalət və müharibəni məğlub edəcək” (Lui Paster) mövzusunda mühakimə xarakterli inşa yazın.

*Siz indiyə qədər təsvir və nəqli xarakterli esse, inşa yazmışsınız. İndi isə mühakimə xarakterli inşa yazmağı öyrənəcəksiniz.*

# ***Mühakimə – hansısa bir anlayış haqqında fikir, mülahizədir.***



*Mühakimə xarakterli inşa və esse yazmaq üçün təqdim olunan ardıcıllığı gözləmək lazımdır.*

## İSTİQAMƏT:

1. Təqdim olunan yazının adı haqqında düşünün.
2. Haqqında mühakimə yürüdəcəyiniz obyekti seçin.
3. Seçdiyiniz obyekt əşya, hadisə və ya insan ola bilər.
4. Həmin obyektin sizin qəlbinizdə yaratdığı duyğuları müəyyənləşdirin. Bu, sevinc, fərəh, qəzəb, nifrət və s. ola bilər.
5. Bu hisslərin nə üçün yarandığını müəyyənləşdirməyə çalışın. Ona münasibətinizi bildirin.

# ŞUŞANIN KÖRPƏ QARTALI

Nə baş verdi?
Hadisələrə kim rəhbərlik edirdi?
Hadisələrdə kimlər iştirak edirdi?

27 SENTYABRDA:

Hadisələrin nəticəsi nə oldu?
Hadisələrə sənin münasibətin.
Fikirlərinizi faktlarla sübut edin.


27 sentyabr 2020


3 oktyabr 2020


4 oktyabr 2020


9 oktyabr 2020


17 oktyabr 2020


20–22 oktyabr 2020

*Bu tarixlərdə nə baş verdi?*

25 oktyabr 2020


8 noyabr 2020


20 noyabr 2020


25 noyabr 2020


1 dekabr 2020


### Orfoepiya

**Düzgün tələffüzü yazın.**

vətənpərvərlik – [...]
buludlar – [...]
qəhrəmanlıqlar – [...]

### Orfoqrafiya

Sual işarələri olan söz-
lər necə yazılmalıdır?
Bitişik, defislə, yoxsa
ayrı?

...Uşaqlıqdan vətənpərvərlik hissi ilə böyüyən qəhrəmanım Vətən müharibəsi başlayandan bir dəqiqə belə dayanmaq istəməmiş, “Vətənim dardadır, mən getməliyəm”, – deyib yola düzəlmişdi.

Oktyabr ayının ilk həftəsi idi. Bu payız əvvəlkilərə heç bənzəmirdi. Göy üzünü bom?boz buludlar örtmüşdü. Hər şeyi qabağına qatıb o yan?bu yana sovuran sərt küləklər Qarabağ üzərində qopan fırtınanın carçısı idi. Bu torpaqların gözəl təbiətini bəzəyən cürbəcür bitkilər öz rənglərini itirmişdilər. Yamaclardakı çiçəklərin təravətləri getmişdi. Davamlı yağan yağışlar piyada irəliləyən igidlərimizə mane olmaqdan başqa, heç bir işə yaramırdı. Yağışlar belə solmuş çiçəklərin rəngini özünə gətirə bilmirdi.

Sərt küləklər buludları qabağına qatarkən **Cəbrayıl, Füzuli, Zəngilan, Xocavənd** üzərinə qara buludlar çökmüşdü. *Günlərlə döyüşlər getmiş, igidlər qəhrəmanlıqlar göstərmişdilər*.

...*Ətraf yaralılarla dolu idi*. Otuzdan çox yaralı əsgəri çiynində daşıyan, ölümlə üz?üzə gələn dostlarını heç bir şey düşünmədən xilas etməklə cəsurluğunu göstərən bir qəhrəman da var idi onların arasında... Nə yaxşı ki, o, öncə mənim, sonra sizin qəhrəmanınız olmuşdu! O, döyüş yoldaşları ilə birlikdə Xocavənddən Qırmızı bazar istiqamətində irəliləyirdi. Yolçuluq Şuşaya doğru idi. Zülmət gecədə meşələrlə, dağlarla gizli hərəkət edirdilər. Otuz ildir, igidlərin gəlişini gözləyən dağların da sanki qəzəblərindən başlarını duman almışdı. Qorxunc şimşəklər də sanki “Haydı, igidlər, gəlin, həsrətə son qoyma zamanıdır”, – deyirdi. Az qala, qulaqları partladan göy gurultusu da igidlərin nərəsi idi.

İgidlərin içində illərlə yığılan nifrət bir azdan yolboyu rastlaşdıqları çayların sularına qarışıb gedəcəkdi.

Aslan ədası ilə addımlayan əsgərlər meşədə davamlı olaraq xain düşmənin minaatanlardan atəşinə məruz qalırdılar. Bu onları daha da mübariz edirdi. Bir-birlərinə ilkin tibbi yardım göstərir, ağrıkəsici iynə vurur, sarğı və juqut ilə qanaxmalarını kəsirdilər.

Beləcə, atamın və silahdaşlarının hər günü, hər saatı, hər?anı dastana çevrilirdi.



Qəhrəmanım nənəmə: “Ana, sizi təbrik edirik, Şuşa alındı, Şuşanın yüksəkliyinə çatmağımıza az qalıb”, – sözlərini yazmağa macal tapmışdı.

Dostları Famil əmi və Fərid əmi də atamla birlikdə Şuşa yüksəkliyinə qalxırdı. Birdən atam dönüb dostu Familin gözlərinə diqqətlə baxdı. Sanki ona nə?isə deyəcəkdi. Gözlərindəki sevinc düşməni qartal kimi caynağına almasının sevinci idi. Lakin qartal kimi Şuşa səmasına da uçmaq arzusu var idi qəhrəmanımın.

Şuşa yüksəkliyinə çatıb oradan da daha yüksək zirvəyə ucalmağı istəmişdi. O heç bir söz demədən təpəyə doğru qalxdı.

*Çinarə Köçərli*

Azərbaycan Respublikasının Prezidentinin çıxışını dinləyin, 6-7 cümlədən istifadə etməklə mətndəki hadisələrin necə davam edəcəyi barədə təxminlərinizi deyin.



**MÜZAKİRƏ**

Ağıl, bilik və cəsarət müharibədə qələbənin qazanılmasının təminatçısıdır.



1. *Nə yaxşı ki, o, öncə mənim, sonra sizin qəhrəmanınız olmuşdu!* cümləsində hansı fikir ifadə olunmuşdur?

2. Sizcə, qəhrəman hansı yüksək zirvəyə ucalmaq arzusunda idi? Bu zirvə nə üçün ən yüksək hesab olunur?

3. Mətndəki hansı cümlələr hadisələrin Vətən müharibəsinə (2020-ci il) aid olduğunu təsdiqləyir? Fikrinizi faktlarla əsaslandırın.

4. Sizcə, mətndəki qəhrəmanlarla bağlı hadisələr nə ilə nəticələnəcək?

5. Mətndəki faktlara əsasən 2-3 sual cümləsi tərtib edin və yoldaşlarınıza həmin suallarla müraciət edin. Mətnə bildiyiniz hansı faktları əlavə edərdiniz?

6. “Mücrü” və “Şuşanın körpə qartalı” mətnlərinə əsasən müharibənin törətdiyi fəlakətləri təqdim edin.

7. Mətnə əsasən tərkib hissələrdə təsvir edilənləri müəyyənləşdirin.

| GİRİŞ HİSSƏ | | ƏSAS HİSSƏ | | NƏTİCƏ HİSSƏ |
|---|---|---|---|---|
| • *Vətən müharibəsinin başlanması ilə xalqın vətənpərvər oğullarının səfərbər olması* | ▶ | • ... | ▶ | • ... |

8. Mətnlə bağlı hansı fikir düzdür?
   A) Mətn dialoq əsasında qurulmuşdur.
   B) Mətndə hadisələr sadə və anlaşıqlı dildə təsvir edilmişdir.
   C) Hadisələr axıcı və rəvan şəkildə təqdim edilmişdir.
   D) Abzaslararası əlaqə yaratmaq üçün əlavə cümlələrə ehtiyac vardır.
   E) Mətnin nəticə hissəsi hadisələrin necə bitməsi haqqında tam təsəvvür yaradır.

**9.** Mətnə əsasən demək olar:

A) Hadisələr qəhrəman döyüşçülərdən birinin övladının dili ilə təqdim edilir.
B) Hadisələr Şuşanın alınması ilə bitir.
C) Hadisələr Vətən müharibəsinin başlanmasının təsviri ilə başlanır.
D) Mətndə ağır döyüş səhnələrinin təsviri vardır.
E) Müharibənin başlanma səbəblərinə də yer verilmişdir.

**10.** Mətndə göy rəngdə verilmiş sözü hansı sözlə əvəz etsəniz, məna dəyişməz?

**11.** *Rəng* sözünü məcazi mənada cümlədə işlədin.

**12.** Müvafiq feillərdən istifadə etməklə cədvəli tamamlayın. Alınmış birləşmələrin mənasını izah edin.




**13.** Mətnin I abzasında işlənmiş söz birləşmələrini müəyyənləşdirin. Mətnin adı söz birləşməsi, yoxsa mürəkkəb addır?

**14.** Fərqləndirilmiş cümlələrə müvafiq sözlər artırmaqla söz birləşmələrini genişləndirin.

***Nümunə:***

✓ *Bu əllər saçlarını sığalladıqca Ləman özünü xoşbəxt hesab edirdi.*
✓ *Anasının qayğıkeş əlləri onun saçlarını sığalladıqca Ləman özünü dünyanın xoşbəxti hesab edirdi.*

**15.** Tünd şriftlə verilmiş sözlərə hansı sözləri artırsanız, mürəkkəb adlar əmələ gələr?

**16.** Mətnin II abzasında müharibənin törətdiyi fəlakətləri təsvir etmək üçün təbiət təsvirlərindən istifadə edilmişdir. Mətnin sonluğunu təbiət təsvirlərindən istifadə edərək tamamlayın.



*Sonluğu tamamlamaq üçün plandan istifadə edə bilərsiniz.*

**PLAN:**

1. Vətən müharibəsinin bitmə tarixi
2. Tarixi 44 günün nəticəsi
3. Nəticəni zəruri edən səbəblər
4. Təbiət təsvirlərindən istifadə edilməklə şanlı tarixin təqdimi

**17.** “Şuşanın fəthi” mövzusunda təqdimat hazırlayın. *(Vətən müharibəsində düşmənin təcavüzündən azad edilmiş istədiyiniz ərazi haqqında təqdimat hazırlaya bilərsiniz.)*

**PLAN**

1. İşğaldan azad edilmiş ərazi
2. Ərazidə quruculuq işləri

✓ *Təqdimatınıza fotoşəkillər əlavə edə bilərsiniz.*

Mövzu ilə bağlı qəzet materialı hazırlayın. Yazınıza fotoşəkillər əlavə edin.

**TƏLİMAT**

1. Yazılarınızın orfoqrafik cəhətdən düz olmasına;
2. Cümlələrin düzgün qurulmasına;
3. Məzmunun çatdırılması üçün fikrin sadə və anlaşıqlı çatdırılmasına;
4. Faktlardan yerində və düzgün istifadəyə diqqət yetirin.

**18.** Bölməni yekunlaşdırarkən mətn hazırlayın. Mətn hazırlamaq üçün plandan istifadə edin.

**MƏTNİN ADI:**

- *“Mən bu bölmədən öyrəndim ki, ...”*

**MƏTNİN EPİQRAFI:**

- *Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq gərəkdir.* (Onore de Balzak)

**MƏTNİN İDEYASI:**

- *Qüvvət elmdədir, başqa cür heç kəs*
  *Heç kəsə üstünlük eyləyə bilməz.*
  (Nizami Gəncəvi)

**PLAN**

1. Bölmənin ümumi məzmunu
2. Bölmə vasitəsilə çatdırılan fikir
3. Gəldiyiniz qənaət

**İSTİQAMƏT**

- Bölmədə öyrəndiyiniz mətnləri yada salın.
- Hər bir mətndə ifadə olunan əsas fikir.
- Mətnləri məzmun baxımından əlaqələndirən əsas cəhət.
- Mətnlərin təlqin etdiyi fikirlər.
- Mətnlərin tərbiyəvi əhəmiyyəti.
- Ən çox bəyəndiyiniz mətn? Səbəbi?
- Bölmə ən çox nə ilə yadda qaldı?

Kompleks lüğət hazırlamaq üçün layihəni davam etdirin və aşağıdakılara diqqət yetirin:

- Bölmədən hansı yeni sözləri öyrəndiniz?
- Həmin sözlərin işləklik səviyyəsini müəyyən edin. Seçdiyiniz sözlərə əsasən onların nitqdə əhəmiyyətini müəyyən edin.
- Sözləri aşağıdakı cədvələ əsasən qruplaşdırın.

| Yazılışı (orfoqrafiyası) | Tələffüzü (orfoepiyası) | Leksik mənası | Qrammatik mənası | Vurğusu |
|---|---|---|---|---|
| araşdırıcı | [araşdırıcı] | axtaran, tədqiq edən | isim | araşdırıcı́ |
| müəllim | [müəllim] | Hər hansı bir fəndən dərs deyən adam, öyrədən | isim | müəllím |
| dəfələrlə | [dəfələrnən] | çox vaxt, təkrarən | zərf | dəfələ́rlə |

# 1 ...



## Orfoepiya

Düzgün tələffüzü yazın.

okean – [...]
müasir – [...]
memar – [...]

Dialoqda abzasların ardıcıllığını müəyyənləşdirin. Sizcə, əsas nəyə diqqət yetirməlisiniz?

Bölmənin adına münasibət bildirin. Sizcə, burada nədən söhbət gedəcək?





– Mətnə elə ad seçin ki, bölməyə uyğun olsun. Seçdiyiniz adla bağlı fikrinizi necə əsaslandırarsınız?

Tələffüz qaydalarını gözləməklə dialoqu oxuyun.

**A**

– İstanbulda iki qitəni birləşdirən körpüyə, Peterburqun bəyaz gecələrində gəmi karvanlarını okeana yola salan asma körpülərə baxanda az qalıram ki, mən də körpü salam.

– Hansını deyəsən? Kərpic memarlığının incisi sayılan **Naxçıvan-Bərdə abidələri, Bakı-Şirvan memarlıq kompleksləri, Şəki-Şirvan sarayları, adicə çay daşından ucaldılmış Gəncə-Ordubad imarətləri, karvansaralar, ovdanlar...**

– Hələ müasir tikililər. Onlar nə qədər gözəldir! Bu gün Bakıya gələn turistlər bu şəhərin qeyri-adi gözəlliyindən heyranlıqla danışırlar.

**B**

– Görürsən, Bakımız gündən-günə necə gözəlləşir?

– Elədir. Müasir tikililər şəhərə xüsusi gözəllik verir.

– Tarixin şahidi olan memarlıq abidələri müasir tikililərlə bir *harmoniya* yaradır, tarixlə müasirliyi əlaqələndirir. Hələ işğaldan azad edilmiş Qarabağ ərazisində – Zəngilanda, Füzulidə, Laçında gedən quruculuq işləri... Yaxın illərdə buralar, yəqin ki, cənnətə çevriləcək.

– Məncə, sabahın şəhərlərini yaradan memarların yalnız bir *fəlsəfəsi* var: təki insanlar rahat yaşasınlar, təki insanlar gözəllikdən zövq alsınlar.

– Hər daşında bir hikmət gizlənən, hər daşında tarixlərin nişanını yaşadan Azərbaycan memarlıq nümunələri xalqımızın nəyə qadir olduğuna əyani sübutdur.

**C**

– Türk şairi Nazim Hikmət Azərbaycanda olarkən demişdir: “Bu xalqın nəyə qadir olduğunu bilmək üçün baş sındırmayın, təkcə memarlıq abidələrinə baxsanız, bəs edər”.

Əmir Teymurun saray *salnaməçisi* Şərafiddin əl Yəzidi “Zəfərnamə” əsərində Səmərqənd saraylarını ucaldan azərbaycanlı ustaların yüksək sənətkarlığından ürək dolusu danışır və bu ustaların zorla Səmərqəndə aparıldığını qeyd edir.

– Orta əsr coğrafiyaşünası Əbdürrəşid Bakuvi Azərbaycana qayıdarkən iti axarlı Arazın üstündəki **Diya-əl-Mülk körpüsü**nün möhtəşəmliyinə heyran qalmış, bu yüksək sənət əsərini “dünyanın yeddi möcüzəsindən biri” adlandırmışdır.

**VİDEO ƏSASINDA MƏTN HAZIRLAYIN. MƏTN HAZIRLAMAQ ÜÇÜN NÜMUNƏ KİMİ VERİLMİŞ AŞAĞIDAKI PLANDAN İSTİFADƏ EDİN.**

**PLAN:**

- Kadrların həsr olunduğu mövzu
- Mövzuda müqayisə olunan obyektlər
- Quruculuq işləri

**TƏLİMAT:**

1. Mətnin giriş hissəsini hazırlamaq üçün mövzunu və mövzu ilə bağlı ilkin fikirlərinizi təqdim edin.
2. Əsas hissədə əvvəlki ilə yeninin müqayisəsini aparıb dövr baxımından qiymətləndirin.
3. Nəticə hissədə respublikada gedən quruculuq işlərinə münasibət bildirin.

**1.** Dialoqdan hansı nəticəni çıxardınız? Nəticəyə əsasən dialoqu adlandırın.

**2.** Ölkəmizdəki müasir tikililər haqqında bildiyiniz məlumatlardan istifadə edərək dostların söhbətini davam etdirməyə çalışın.

Mən bu fikirlə razıyam, → çünki ... → ...

Mən bu fikirlə razı deyiləm, → çünki ... → ...

**3.** Azərbaycanda dünyanın möcüzəsi sayıla bilən hansı abidələr var?

**4.** Sizcə, nə üçün N.Hikmət memarlıq abidələrini xalqın qüdrətini ifadə etdiyini düşünür? Həqiqətənmi, memarlıq abidələri xalqın qüdrətini nümayiş etdirir?

**5.** "Memarlığımız dünən və bu gün" mövzusunda fikir mübadiləsi aparın.

**6.** Dialoqun tərkib hissələrini müəyyən edin və onların necə əlaqələndiyini şərh edin.

**7.** Dialoqun ilk cümləsinə hansı müraciət etiketini artırmaq olar? Fikrinizi əsaslandırın.

**8.** Hadisələri III şəxsin dilindən danışın. Bunun üçün səhifə 12-də verilmiş nümunədən istifadə edin.

**9.** *Memarlıq, memar, memarlıq abidələri* dialoq üçün açar söz hesab edilə bilərmi? Fikrinizi əsaslandırın.

**10.** *"Sabahın şəhərləri"* ifadəsinə münasibət bildirin.

**11.** Dialoqda fərqləndirilmiş sözlərin leksik mənalarını izah edin.

**12.** *Müasir* sözünün sinonimini tapın və istifadə dairəsini izah edin.

**13.** Mətndən məcazi mənalı sözləri tapıb onların mənasını şərh edin.

**14.** Hansı cümlələrdə söz birləşməsi var? Həmin söz birləşmələrinin tərəflərinin bir-biri ilə necə əlaqələndiyini izah etməyə çalışın.

**15.** Altından xətt çəkilmiş cümlədə sözləri əlaqələndirən şəkilçiləri qrammatik cəhətdən izah edin.

**16.** Verilmiş sözlərdən cümlə qurmaq üçün onları qrammatik cəhətdən əlaqələndirin. Fikirlərinizi yoldaşlarınızla bölüşüb nəticə çıxarın.

*Tarix, şahid, ol, memarlıq, abidə, müasir, tikili, bir, harmoniya, yarat*

**17.** Dialoqda sadalanan sözlər olan cümlələri köçürün. Sizcə, həmin sözlər bir-birindən asılıdırmı? Fikrinizi necə izah edərdiniz?

Söz birləşmələrini və cümlələri yaradan sözlər **məna** və **sintaktik** baxımdan əlaqələnir. Sintaktik əlaqənin 2 növü var: ***tabesizlik*** və ***tabelilik*** əlaqəsi.

Tabesizlik əlaqəsi ilə bağlanan sözlərin biri digərinə tabe olmur, hər biri aid olduğu sözlə əlaqələnir.

Apar, özün apar cəbhəyə bizi,
Apar qəlbimizi, iradəmizi. (*S.Vurğun*)

*Hər iki söz* "apar" *sözü ilə əlaqələnir.*

*tabesizlik əlaqəsində olan sözlər*

Tabesizlik əlaqəsində olan sözlərin arasında *vergül işarəsi* qoyulur və yeri gəldikdə tabesizlik bağlayıcılarından istifadə olunur.

**18.** Mətndən tabesizlik əlaqəsində olan sözləri və söz birləşmələrini seçib yazın.



Bakı Azərbaycanın ən gözəl tarixi şəhərlərindən biridir. O, Xəzər dənizi sahilində amfiteatr şəklində yerləşir. Bakının dənizətrafı zonasında bir çox yeniliklər həyata keçirilir. Yeni, müasir binalar tikilir, köhnələr bərpa edilir.

Dənizkənarı bulvarda yerləşən "Xalça Muzeyi", "Bakı Biznes Mərkəzi", "Park bulvar", "Bakı Kristal zalı" və başqa tikililər öz müasir görünüşü və gözəlliyi ilə hamını heyran edir. Dövlət Bayrağı Meydanı da Xəzərin sahilində – Bakı şəhərinin Bayıl sahəsində yerləşir.

✓ *Mətndən mürəkkəb adları seçin.*

✓ *Dövlət Bayrağı Meydanının yaranması və açılışı barədə məlumat toplayıb təqdimat (nəqli, təsviri) hazırlayın.*

Tərkibində *gün* sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər böyük hərflə yazılır:

*Beynəlxalq Qadınlar Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü* və s.

Məşhur tarixi gün və bayramların adlarında sözlərin ancaq əvvəlincisi böyük hərflə yazılır:

*İyirmi yanvar (20 Yanvar), Qurban bayramı, Novruz bayramı* və s.

**19.** Mətndə (səh. 39) ▬ işarəsi qoyulmuş yerə əlavə etmək üçün 10-15 cümlədən ibarət mətn tərtib edin. Mətndə mürəkkəb adlardan istifadə edin.

**20.** Mətndə (səh. 39) tünd şriftlə verilmiş cümlələrdə adı çəkilən abidələr haqqında hansı məlumata maliksiniz? Həmin abidələr haqqında məlumat toplayıb kiçik mətnlər tərtib edin. Yazacağınız mətnlərin tipini *(nəqli, təsviri, yaxud mühakimə xarakterli)* özünüz müəyyənləşdirin.

II BÖLMƏ 2

# NƏ GÖZƏL SƏSLƏNİR ŞUŞALI VƏTƏN



Ad Şuşa adıdı,
yol Şuşa yolu,
Gün Şuşa günüdü,
il Şuşa ili,
Şuşanın içində Şuşa qurulur,
Şuşanın içində Şuşa tikilir.

Öpüb ulduzunu, öpüb ayını,
Öpüb hər rəngini çəkir gözünə, –
Göyü, qırmızını, yaşılı Vətən.
Nə gözəl sayrışır Şuşada bayraq,
Nə gözəl səslənir Şuşalı Vətən!

Şuşanın içində Şuşa qurulur,
Şuşanın içində Şuşa tikilir,
"Şuşa, sən azadsan" təntənəsində,
Birliyin gücündə Şuşa tikilir,
Xalqın Qarabağa qayıdışında,
Tarixi köçündə Şuşa tikilir,
...Başlanır şəhərin yeni erası,
Yerinə qayıdır Üzeyir bəyin
Dağları oynadan uvertürası.

Min bəstə üstündə tikilir Şuşa,
Şikəstə üstündə tikilir Şuşa,
Yerinə qayıdır Bülbülün səsi
Yerinə qayıdır Xan zəngulәsi,
Çahargah nərəsi,
Segah naləsi.

Çıxır azadlığa damlanan damlar,
Damlanan qapılar,
o ah yerləri.

Yerinə qayıdır çəmənin ətri,
Yerinə qayıdır meşənin ruhu,
Yerinə qayıdır Vətənin ətri,
Yerinə qayıdır Şuşanın ruhu.

Hər daşın üstündə şəhid nəfəsi,
Hər daşın altında şəhid qanı var.
Şuşanın nəfəsi igid nəfəsi
Şuşanın ər sözü, hürr dastanı var.

*Ramiz Qusarçaylı*

Şeir əsasında 1992–2020-ci illər aralığında Qarabağ ərazisində baş verən hadisələr haqqında mətn hazırlayın.

- *Mətn hazırlamaq üçün əvvəlcə plan tərtib edin.*
- *Mövzu ilə bağlı əlavə məlumat toplayın.*
- *Topladığınız məlumatları emal edin.*

✓ *Şeirdə şairin hansı arzuları əks olunmuşdur?*
✓ *Onun arzuları reallaşdımı?*
✓ *Şeirin məzmununu yığcam şəkildə təqdim edin.*





*Bayrağımız dövlətçiliyimizin və müstəqilliyimizin rəmzidir.*

**Ümummilli lider Heydər Əliyev**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il noyabrın 17-də “Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında” Sərəncam imzalamışdır. Bu sərəncama əsasən hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

...Mənim öz ulduzumu bağrına basmış hilalım,
Dedi öndər: “Yönü bayraqdakı üç rəngdən alım”.
Sən bu gül bayrağın altında məramınca yaşa,
Qoyma düşmən nəfəsindən ona çirkab bulaşa.
Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,
Günəş hər gün doğur ancaq içimizdən Vətənə.

*Bəxtiyar Vahabzadə*

Azərbaycan bayrağına həsr edilmiş dinlədiyiniz və oxuduğunuz şeirləri məzmun baxımından müqayisə edin. Nə müşahidə etdiniz?

Verilən materiallardan istifadə etməklə əlavə məlumatlar toplayıb “Bayrağım kimliyimdir” adlı təsviri (nəqli) xarakterli esse yazın.

**Orfoepiya**

Hansı düzgündür?

[müasirrix′] – [ma:sirrix′]
[tə:ssürat] – [tə:sürat]
[zi:yafət] – [ziya:fət]
[maestro] – [mayestro]

**Orfoqrafiya**

Bitişik, defislə, yoxsa ayrı?

- özündən?razı
- öyüd?nəsihət
- ağ?saqqallar
- bu?gün

...Çoxdanın əhvalatıdır. İnstitutda oxuduğum vaxtlar idi. Xoş bir təsadüf nəticəsində maestro **Niyazinin evində** ziyafətdə iştirak etmək xoşbəxtliyi mənə nəsib olmuşdu.

Maestro Türkiyədən təzəcə qayıtmışdı. O, bir il idi ki, İstanbulda Çaykovskinin "Qaratoxmaq qadın" operasını tamaşaya hazırlayırdı. Bütün **ziyafət iştirakçıları:** respublikanın tanınmış elm, mədəniyyət, incəsənət xadimləri, yaxın dostlar, qohumlar maestronun şirin türk ləhcəsində söylədiyi *təəssüratlara,* müasir türk musiqisi və sənətçiləri haqqındakı mənalı *mülahizələrinə* məmnuniyyətlə qulaq asırdılar.

Mənim üçün – böyük **sənət yoluna** yenicə qədəm qoymuş tələbə memar üçün maestro Niyazinin hər fikri, hər mülahizəsi son dərəcə qiymətli idi. Odur ki yaranmış qısa **pauzadan istifadə edərək** cürətlənib *maestro*dan soruşdum:

> *Müasirlik dedikdə nə başa düşürsünüz?*

– Hörmətli maestro, söhbətinizə müdaxilə etdiyimə görə məni əfv edərsiniz, lütfən, aydınlaşdırın, ümumiyyətlə, sənətdə müasirlik nə deməkdir?

Maestro **mənə tərəf** dönüb əvvəlcə gülümsədi, sonra ciddi görkəm alıb belə dedi:

– Yavrum, siz hələ çox gəncsiniz, bu sözlərimi yadınızda yaxşı saxlayın: **köhnəlmiş və ya müasir sənət əsəri** olmur. Əgər əsər yüksək sənətkarlıqla yaradılmışsa, demək, o, həmişə, bütün dövrlərdə müasirdir. Özünüz deyin, Şekspirin hansı əsəri bütün dövrlər üçün müasir deyil?

Sonra isə o, üzünü qonaqlara tutub, bir qədər sinirli əlavə etdi:

– Bizim bəzi özündən?razı bəstəçilərimiz mənim iradlarımdan, öyüd?nəsihətlərimdən inciyirlər, "biz müasir ruhda yazırıq" söyləyirlər, əcəba, Üzeyir bəy bu?gün də müasir deyilmi?

> *Maestronun sualına siz necə cavab verərdiniz? Fikir mübadiləsi aparıb dialoq qurun.*

Qonaqların hamısı maestronun fikri ilə razılaşdı.

Bu xoş görüşdən illər keçdikdən sonra mən dərk etdim ki, böyük Niyazinin *sənət meyarı* memarlığa nə qədər də uyğun gəlir!.. Dönə-dönə əmin oldum ki, biz BU GÜNÜN memarlığını yaradarkən KEÇMİŞƏ kor-koranə yox, *novatorcasına*, yeni baxışla müraciət etməliyik. Ağ?saqqallara, müdriklərə müraciət edən kimi! Ehtiramla, hörmətlə, amma yeni baxışla...

**Ömər Qoçulu**

*"Daşa dönmüş musiqi" kitabından*

**1.** Mətni adlandırın və seçiminizi əsaslandırın.

**2.** Mətndəki hansı fakt sizi daha çox təsirləndirdi? Niyə?

**3.** Maestro öz fikirlərini əsaslandırmaq üçün niyə Üzeyir Hacıbəylini nümunə göstərir?

**4.** Mətndəki əsas fikri müəyyən edin və aşağıdakılardan hansının ona uyğun olduğunu müəyyən edin.

A) Keçmiş səhvlərdən nəticə çıxarmaq üçündür.
B) İnsan istəsə, dağı dağ üstünə qoyar.
C) Bu gün dünənin üzərində qurulur.
D) Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar.
E) Dahilərin təcrübəsini öyrənmək lazımdır.

**5.** Suallardan hansına mətndə cavab tapmaq olmaz?

- Mətndə hansı Azərbaycan bəstəkarının adı çəkilir?
- Niyazi hansı baleti tamaşaya hazırlayırdı?
- Maestronun izahına görə, Şekspir niyə müasir hesab edilir?
- Sənətdə müasirlik nə deməkdir?
- Gənc memar nə üçün maestronun evinə dəvət olunur?

**6.** *Əfv edərsiniz, lütfən, yavrum, sinirli, əcəba* sözlərini qarşılığı ilə əvəz edib cümlədə işlədin. Sizcə, hansının işlənməsi daha məqsədəuyğundur?

**7.** Mətndə fərqləndirilmiş sözlərin sinonimlərini tapın. Onlar həmişə bir-birini əvəz edə bilirmi?

**8.** Dialoqda işlənən "müasirlik" sözünün ifadə etdiyi məna ilə (səh. 44) mətndə işlənən "müasirlik" sözünün mənasını qarşılaşdırın. Eynilik gördünüzmü? Niyə belə hesab edirsiniz?

**9.** Mətndəki etiketləri seçib məna növünü müəyyənləşdirin.

**10.** Mətndə *bu gün* və *keçmiş* sözlərinin böyük hərflə verilməsinin səbəbini izah edin.

**11.** Mətndə tabesizlik əlaqəsində olan sözləri seçib yazın.

**12.** Mətndə altından xətt çəkilmiş cümlələri seçib yazın, asılı sözləri müəyyənləşdirib əsas sözlə necə əlaqələndiyinə diqqət yetirin.

*Nümunə:* Maestro Türkiyədən yenicə qayıtmışdı.

Maestro ⟵ qayıtmışdı. *(Mübtəda III şəxsin təkində olduğu üçün xəbər də III şəxsin təkindədir)*

Türkiyədən ⟶ qayıtmışdı. *(**Qayıtmışdı** feilinin tələbi ilə **Türkiyə** sözü çıxışlıq halda işlənmişdir)*

Yenicə ⟶ qayıtmışdı. *(**Yenicə** sözünə sual (nə zaman?) **qayıtmışdı** sözünə əsasən verilir.)*

Tabelilik əlaqəsində olan sözlərdən biri digərindən asılı olur.
Bu asılılıq, adətən, ismin hal, mənsubiyyət, xəbərlik şəkilçiləri vasitəsilə yaranır.

***Məs.:***




***Mən soruşdum, Bahar gəldi, Səhər açıldı*** cümlələrində *mən, bahar, səhər sözləri əsas, soruşdum, gəldi, açıldı* sözləri isə asılı tərəfdir.

**13.** Mətndə tünd şriftlə verilmiş ifadələrin tabelilik əlaqəsi ilə əlaqələndiyini izah edin.

**14.** Mətndə mötərizədə verilmiş sözləri əlaqələndirib cümlələri tamamlayın.

Azərbaycanda qədim (*qurğular, geniş, yayılmaq, bir, növ*) kurqanlardır. (*Tədqiqatçı*) Kiçik Qafqazın ətəklərini, haqlı olaraq, "kurqanlar bölgəsi və kurqanlı çöllər" (*adlandırmaq*). Abşeron ərazisində e.ə. III–II minilliklərə aid çoxlu sayda (*kurqan, var*). Onlar Dübəndidə, Türkan kəndləri yaxınlığında və (*Abşeron, yarımada, quzey, sahil*) digər (*sahə, aşkar edilmək*). (*Goranboy, rayon, ərazi*) kurqanlarla çox zəngindir. Burada Şadlı kəndi yaxınlığındakı düzənlikdə böyük və kiçik (*süni, təpəcik, ibarət*) geniş kurqan sahəsi mövcuddur.

✓ *Kurqan sözünün leksik mənasını aydınlaşdırın.*
✓ *Mətndə yazılışı ilə deyilişi fərqlənən sözləri müəyyənləşdirin.*

**15.** Mətni oxuyun, tabelilik və tabesizlik əlaqəsində olan sözləri seçib yazın.



*Lloyds binası (Londonda)*

*Haytek ingilis sözü olub, yüksək texnologiya sözlərinin qısaldılmış şəklidir.*

İnsan zəkası inkişaf etdikcə tağbəndli məbədlər, təmtəraqlı imarətlər, uca göydələnlər bütün dünyanı tutdu. Obalar, şenliklər (abad yaşayış yeri) şəhərlərə çevrildi, əlçatmaz, ünyetməz buzlaqlar diyarına da, göylərindən od yağan səhralara da iz düşdü, yol açıldı. Bir vaxt gildən, kərpicdən, daşdan qurub-yaradan memarlar sürət və texnika əsrinin bütün imkanlarından istifadə etmək üçün yeni, müasir materiallara əl atdılar: beton, şüşə, plastika, metal...

Amerikanın, Avropanın iri şəhərlərində dəbdə olan ən müasir memarlıq üslubu sayılan Haytek üslubunda beton, şüşə, plastika və metaldan yaranan memarlıq əsərləri son dərəcə qeyri-adidir.

Londondakı Lloyds binasının inşası səkkiz il davam etmişdir. Bina 1986-cı ildə istifadəyə verilmişdir. Bu binanın müəllifi Haytek üslubunun əsasını yaradan memarlardan biri Riçard Rocersdir.

✓ *Sizcə, respublikamızda Haytek üslubunda tikilmiş binalar varmı?*
✓ *Mətndəki məlumatdan istifadə edərək həmin binaları müəyyənləşdirməyə çalışın.*

**16.** Maestro Niyazi haqqında məlumat toplayın. Ona “maestro” deyə müraciət edilməsinin səbəbini araşdırın. Onun haqqında kiçik mətn hazırlayıb mətnin uyğun bildiyiniz hissəsinə əlavə edin.

**17.** Müasir Azərbaycan memarlarından kimləri tanıyırsınız? Onlar haqqında məlumat toplayıb kiçik məqalə yazın.

**MƏQALƏ YAZMAQ ÜÇÜN YADDAŞ:**

1. İlk növbədə, mövzunu müəyyənləşdirin.
2. Müxtəlif mənbələrə müraciət edərək məlumat toplayın.
3. Mövzuya öz münasibətinizi bildirin.
4. Nəticə yazın.

*Giriş hissə*

Heykəltaraşlıq çətin bir sənətdir. Bunun üçün xüsusi istedad, güclü əl, dəqiq iş planı, materialla işləmək, üz cizgilərini qabarıq və ifadəli göstərmək bacarığı tələb olunur.

Adətən, heykəltaraşlıq sənəti haqqında danışılanda bu sahənin mütəxəssisləri kimi daha çox kişilər haqqında danışırlar. Ancaq unutmaq olmaz ki, bu mürəkkəb sahənin nümayəndələrinə qadınlar arasında da rast gəlinir.

*Əsas hissə*

“Müqəddəs Nina” məktəbinin məzunu olan Zivər Məmmədova öz istedadı və bacarığı ilə hamının diqqətini cəlb etmiş, gənc yaşlarından müxtəlif layihələrə cəlb olunmuşdur. Fəaliyyətə rəssam kimi başlamışdır.

Zivər xanım Azərbaycan mədəniyyəti tarixində nəinki ilk qadın heykəltaraş, həttа ilk peşəkar qadın skripkaçı kimi də iz qoymuşdur. Bir müddət Üzeyir Hacıbəylinin tələbəsi olan və onu əfsanəvi şəxs hesab edən, bəstəkarın musiqi dünyasına bələd olan Z.Məmmədova müəlliminin portretini çəkmək qərarına gəlir. Maraqlıdır ki, bu rəsm əsəri Ü.Hacıbəylinin naturadan çəkilmiş yeganə portreti kimi tarixə düşüb. Getdikcə püxtələşən gənc heykəltaraş sonralar daha bir müəllimi – rəssam Əzim Əzimzadənin Fəxri xiyabandakı büstü üzərində çalışır və işini uğurla başa vurur.

*Nəticə*

Çəkdiyi portretlər əsasında hazırladığı abidələr əzəməti və özünəməxsusluğu ilə dərhal diqqəti cəlb edir.

Azərbaycan qadınının incəsənətin bütün sahələrində milli mədəniyyətin inkişafına, peşəkar heykəltaraşlıq məktəbinin təşəkkülünə verdiyi töhfələr danılmazdır.

✓ *Əziz şagirdlər! Bu bir nümunədir. Təqdim olunan yaddaşdan istifadə edərək özünüz də istədiyiniz mövzuda məqalə yaza bilərsiniz.*

*“Yazdığınız məqaləni layihə kimi hazırlayacağınız qəzetin uyğun səhifəsində yerləşdirin.”*



II BÖLMƏ

# 4 | MUĞAN

Səməd Vurğunun “Muğan” poemasından bir hissəni dinləyin və sxemə əsasən sualları cavablandırın.

**MƏTNDƏ PROBLEM**
- Şairin problemin həlli üçün təklifləri
- Problemin həlli üçün sizin təklifləriniz

**Orfoqrafiya**

Sual işarəsi qoyulmuş sözlər bitişik, yoxsa ayrı yazılmalıdır?

**Orfoepiya**

Bu sözlərin tələffüzünü yazın. Hansı dəyişiklik oldu?

*Sizcə, mətndə xalq niyə oyunların heç-heçə qurtarmasını vurğulayır?*

Muğan enli?kürəkli, sağlam?bədənli, ağıllı, mərd və qoçaq bir oğlan idi. Qəbilə qızlarının çoxu ona vurulmuşdu. Muğan isə Zivər adlı bir qızı sevirdi. Hər ikisi bir obada böyümüş, at çapmış, qılınc oynatmışdılar. Əvvəllər oyun və yarışlarda bir-birinə üstün gəlmək üçün səy göstərər, sonra isə oyunu heç-heçə qurtarardılar. Muğan Zivəri görərkən qızarar, danışmağa söz tapmaz, nitqi tutulardı.

Atəşgahlarda dua mərasimi zamanı igidlərə xoşbəxtlik arzulanardı. Gündoğan ölkənin xalqı da bu igidlə öyünər, fəxr edərdi. El ağsaqqalları iftixarla deyərdilər:

– Bizim Muğanımızın canı nə qədər sağdır, adamlarımız azad gəzəcək, sürümüz arxayın otlayacaq, yamyaşıl meşələrimiz, durna?gözlü bulaqlarımız, cüyürlü çöllərimiz yadellilərin tapdağını görməyəcəkdir.

Bax Muğan elin hörmətini, məhəbbətini belə qazanmışdı.

Xoşbəxtlik saatı yaxınlaşırdı. Lakin el adəti var idi. Onu icra etməyincə toy adətinə başlamaq olmazdı. İlk növbədə, oğlan və qız nəsli yoxlanardı, qohumları öyrənilərdi. El adətinə görə, qohumla ailə qurmaq olmazdı. Sonra məhəbbət sınağı başlanardı. Son sorğu və son söz qızın atasının idi. Zivərin atası vəfat etmişdi. Odur ki bu işi anası icra etməli idi. Ana Muğanı qəbul etdi.

- *Sizcə, bundan sonra hadisələr necə davam edəcək?*

– Mən bu qohumluğa razıyam. Lakin izdivacla əlaqədar bir tələbim var: bizim el alaçıqlarda və bir-birindən çox aralı yaşayır. Düşmən hücum edərkən sığınacaq yerimiz olmur. Muğan, sən küçələri enli, ətrafı hasarlı bir şəhər salmalısan. Şəhər çay üzərində, dəniz kənarında salınmalıdır.

Muğan ruhdan düşdü. Ağsaqqallar ona ürək-dirək verdilər:

– Oğul, qorxma. Bizim xalq əmək?sevərdir, səni darda qoymaz. Biz elliklə qolumuzu çırmalayıb daş daşıyarıq, gözəl bir şəhər salarıq. Atalar: "Elin gücü, selin gücü", – demişlər.

Hamı qolunu çırmalayıb işə girişdilər. Muğan ruhlandı. Elin gücü ilə dənizin kənarında ətrafı qırmızı kərpicdən hörülmüş bir şəhər salındı. Şəhərin darvazası Xəzərin **ləpədöyəninə** açıldı.

Bundan sonra toy məclisi başlandı.

Xalq bu təzə şəhəri öz igid və qəhrəman oğlunun adı ilə "Muğan" adlandırdı.

*Dinlədiyiniz mətnə əsasən sxemi tamamlayın.*






**1.** Ana tələbində haqlı idimi? Şəhər salmaq arzusu, sizcə, nəyə işarədir?

**2.** Ana nə üçün şəhərin hasarlı və dəniz kənarında olmasını tələb etdi? Ananın və Muğanın şəhərsalma arzusunu müasir dövrdəki quruculuq işləri ilə əlaqələndirin.

**3.** Hadisələrin reallığa uyğun olub-olmadığı haqqında fikir mübadiləsi aparın. Ədəbiyyat dərsində öyrəndiklərinizdən istifadə edib mətnin əfsanə və ya rəvayət olduğunu əsaslandırın.

**4.** Mətndə xalqımıza məxsus hansı keyfiyyətlər və dəyərlər sadalanır?

**5.** Əsərin əsas ideyasını müəyyənləşdirin.

**6.** Yaşadığınız ərazinin adı ilə bağlı əfsanə, yaxud rəvayət mövcuddurmu? Onun haqqında yoldaşlarınızla müzakirə aparın.

**7.** Hazırda ölkəmizdə yeni şəhər (qəsəbə, kənd) salınırmı? Bu yeniliklər hansı ərazilərdə baş verir? Bildiklərinizi təsvir edib mətnlə əlaqələndirin.

**8.** "Muğan" mətnində məcazi mənalı sözləri tapın, onları həqiqi mənada işlədin. Müqayisələr aparın.

**9.** Bu izahlardan biri mətndə tünd şriftlə verilmiş sözün leksik mənasıdır:

- dənizin, çayın, gölün quru ilə birləşdiyi yer.
- daim ləpələr çarpan sahil xətti.
- dəniz suyunun geniş çay mənsəblərini basması nəticəsində əmələ gələn dayaz dəniz körfəzi.

**10.** Aşağıdakılardan biri *izdivac* sözünün leksik mənasıdır. Həmin sözün qarşılığını tapın.

- evlənmək;
- ayrılmaq;
- evlənmənin qanuni şəklə salınması.

**11.** Mətndəki *vurulmaq* sözünün kontekstə uyğun mənasını izah edin və həmin sözü fərqli mənalarda cümlədə işlədin.

*Məsələn:* yapışdırılmaq, asılmaq; sürtülmək, çəkilmək və s.

*Divara lövhə vuruldu.*

**12.** Nöqtələrin yerinə uyğun şəkilçilər artırıb yazın. Həmin şəkilçilərin artırılma səbəbini izah edin.

- Dünya... xoşbəxtdir yalnız o kəslər
  Ki, öz çörəyi... dostlarla yeyər. (*N.Gəncəvi*)
- Bir qarı... saldığı körpü... su aparır. (*"Qarıkörpü" əfsanəsindən*)
- Bir el... ruhu..., dili... ancaq
  Kağızlar üstündə bölmək asandır. (*B.Vahabzadə*)

✓ *Hikmətli fikirlərdən hansı "Muğan" mətninin məzmunu ilə səsləşir?*

**13.** Abzasları ardıcıl düzməklə Sumqayıt şəhərinin yaranması haqqında əfsanəni öyrənə bilərsiniz.

1. Tayfanın yaşadığı yerin kənarından böyük bir çay axırmış. Bu çayda nəhənk bir əjdaha peyda olubmuş. Camaat əjdahanın qorxusundan suya yaxın düşə bilmirmiş.

2. Dərdə dözməyən Ceyran çöllərə üz tutur və bir gölə düşüb boğulur. Onların ölümündən sonra tayfa yaşadıqları yeri Sumqayıt, Ceyranın batdığı yeri Ceyranbatan gölü adlandırır.

3. İndiki Sumqayıt şəhərinin yerində qədimdə azərbaycanlılardan ibarət bir tayfa yaşayırmış. Tayfa özünün igid oğlanları və gözəl qızları ilə məşhur imiş.

4. Bu qərarı eşidən Sum bir neçə igidlə başçının yanına gəlir. Gündə bir qurban verməklə tayfanın tədricən məhv olmasına etiraz edir. Tayfanın igitdərini əjdahanı öldürməyə çağırır. Tayfa başçıları buna etiraz edir və Sum təklənir.

5. Növbə sevdiyi Ceyranın ailəsinə çatanda qızın ölümünə razı olmayan Sum əjdahaynan vuruşmağa gedir. Bunu bilən Ceyran “Sum, qayıt, Sum, qayıt!” – deyə onu haraylayır. Qız çaya çatanda suların qırmızı rəngə boyandığını görür, başa düşür ki, əjdaha Sumu parçalayıbdır.

6. Çaya yaxın düşəni əjdaha o saat parçalıyıb yeyirmiş. Tayfa başçılarının yalvarışlarından “insaf”a gəlib “güzəşt”ə gedən əjdaha suyun müqabilində gündə onlardan bir adam istəyir. Əlaçsız qalan tayfa başçıları bununla razılaşırlar.

✓ *Fikirləri tamamlayın.*

✓ *Mətndə tələffüz formasında verilən sözləri müəyyənləşdirin və tələffüzdəki fərqlənmənin səbəbini izah edin.*






**14.** “Muğan” mətninin birinci abzasındakı hal şəkilçili sözləri seçərək əlaqəyə girdiyi sözlə birlikdə yazın, onların söz birləşməsi və ya cümlə olduğunu əsaslandırın.

*Nümunə: qəbilənin qızları*

**15.** “Muğan” mətnində altından xətt çəkilmiş cümlələri tabelilik əlaqəsi baxımından təhlil edin. Fikirlərinizi əsaslandırın.

1. Hər iki cümlə düzgün işlənmişdir, çünki ...
2. Hər iki cümlədə yanlışlıq vardır, çünki ...
3. Birinci cümlə düzgün, ikinci cümlə yanlış işlənmişdir, çünki ...
4. Birinci cümlə yanlış, ikinci cümlə düzgün işlənmişdir, çünki ...

**16.** Mətni oxuyun, qrammatik şəkilçi qəbul etmədən biri digəri ilə əlaqələnən sözləri seçin.

Çoxlu gül-çiçəyi olan yerləri xalqımız “gülüstan” adlandırmış, susuz, boz çölləri laləzara çevirməyə çalışmışdır. Yəqin ki, hər yerin gülüstana çevrilib abadlaşdırılması insanların sülh arzusu ilə bağlı olmuşdur. Hətta tikdikləri qalalara, türbələrə, saldıqları kəndlərə belə “Gülüstan” adı vermişlər.

Tarixi mənbələrdə tez-tez adı çəkilən “Gülüstan” qalası, yəqin ki, güllü-çiçəkli yaylaq yeri olan bir ərazidə tikilmiş, həmin yerə uyğun adlandırılmışdır. Gülüstan qalası Şamaxı şəhərinə çox yaxın olub, ətraf ərazidən 180–200 m hündürlükdə yerləşir. IX əsrə aid olsa da, Gülüstan qalası XII–XIII əsrin əvvəllərində köklü şəkildə yenidən qurulmuş və möhkəmləndirilmişdir. Şiddətli dağıntıya uğradığından Gülüstan qalasının bütöv qapalı quruluşundan bizim dövrümüzə dağ relyefində “pərən-pərən düşmüş” tək-tək bürc və divar bölümləri qalmışdır.

(*“Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı” kitabından*)

*Nümunə:*

**asılı tərəf** ← boz   çöl → **əsas tərəf**

tərəflər heç bir şəkilçi qəbul etmədən biri digərinə tabe olur.

✓ *Seçdiyiniz nümunələr içərisində söz birləşməsi varmı? Onların növünü müəyyənləşdirin və həmin birləşmələrin yaranmasında sintaktik əlaqələrin rolunu izah etməyə çalışın.*

✓ *Mətndən mürəkkəb adları seçib onların düzgün yazıldığını əsaslandırın.*

**17.** “Yaşadığım ərazidə müasir şəhərsalma” mövzusunda nəqli xarakterli inşa yazın.

**18.** “Tariximizdə Gülüstan adlı məkanlar” başlığı altında təqdimat hazırlayın.

Mən lüğət tərtibi işini davam etdirirəm...

- *Bolqarıstan*
- *Gül...?*
- *Türkmən...?*
- *Gürcü...?*

II BÖLMƏ

# 5 GÜLÜSTAN

*(ixtisarla)*

**Orfoqrafiya**

Sual işarəsi qoyulmuş sözlər bitişik, defislə, yoxsa ayrı yazılmalıdır?

**Orfoepiya**

Bu sözlərin tələffüzünü yazın. Hansı dəyişiklik oldu?

**1.** Tələffüz qaydalarını və intonasiyanı gözləməklə şeiri oxuyun.

Atıb imzasını hər kəs varağa,
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla təsbehli ağa
Qalxıb əl də verir biri?birinə.

Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar.
Bir ölkə ikiyə
Ayrılsın deyə!..
Tərəflər qol çəkdi müqaviləyə.

Gülüstan kəndinin gül?çiçəkləri
Bir günün içində soldu?saraldı.
"Gülüstan" bağlandı o?gündən bəri,
Bu kəndin alnında bir ləkə qaldı.

Hökmü gör nə qədər böyükmüş anın,
Möhür?də basdılar varağa təkrar.
Yox, varağın deyil, Azərbaycanın
Köksünə dağ boyda dağ basdı onlar.

Dolandı zəmanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən:

"Bir uçaydım bu çırpınan yelinən,
Qovuşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən.
Bir görəydim, ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı".

*Bəxtiyar Vahabzadə*

- *Sizcə, şeirdə hansı ölkənin ikiyə bölünməsindən söhbət gedir?*

*1813-cü ilin 12 oktyabrında Qarabağın Gülüstan kəndində birinci Rusiya-İran müharibəsinin qurtarmasını bildirən müqavilə imzalandı. Bu müqavilə tarixə imzalandığı yerin adı ilə Gülüstan müqaviləsi kimi daxil oldu. Müqaviləni İran tərəfdən şahın vəkili Mirzə Əbdülhəsən xan, Rusiya tərəfdən isə Ratişev imzaladı. Bu sülh müqaviləsinin şərtlərinə əsasən Şimali Azərbaycan xanlıqlarından İrəvan və Naxçıvanı çıxmaq şərtilə yerdə qalan bütün xanlıqlar (Lənkəran, Şirvan, Quba, Bakı, Gəncə, Qarabağ, Şəki) Rusiyaya verildi.*

*...Miyanədən ...üç verstlikdə, Təbriz yolunda böyük olmayan Türkmənçay kəndi yerləşirdi. Paskeviç dövründə İranın yaxın mərkəzlərində çətinliklə tanınan bu kiçik kəndə öz adını tarixdə qoymaq nəsib olmuşdu.*

*Paskeviç Türkmənçaya yalnız ayın altısında gəldi. Onu kəndin ətrafında ulanlar və piyadalar batalyonu qarşıladı. O, ordunu dolandı, əsgərlərlə gülərüz salamlaşdı və onlardan olduqca razı qaldı...*

*...Fevralın 9-da sonuncu konfrans keçirildi.*

*Fevralın 9-dan 10-na keçən gecə saat 24:00-da Abbas Mirzənin münəccimi tərəfindən müəyyən edilmiş vaxtda sülh müqaviləsi imzalandı.*

**2.** Mətnlərin dilini müqayisə edin. Hansı fərqləri gördünüz? Bəs oxşar cəhətlər hansılar oldu?

“Gülüstan” poeması

Gülüstan sülh müqaviləsi

Türkmənçay sülh müqaviləsi

**3.** *“Gülüstan bağlandı”* dedikdə şair nəyə işarə edir?

**4.** Sizcə, şair eynəkli cənab və təsbehli ağa dedikdə kimləri nəzərdə tutur?

**5.** Əsərdə hansı tarixi müqavilədən danışılır? Həmin müqavilə haqqında danışın və fikir mübadiləsi yürüdün.

**6.** B.Vahabzadə Şəhriyarın şeirindən nümunə gətirməklə nəyə işarə edir?

**7.** Şeir üçün hansı sözlər açar söz ola bilər?

**8.** *Müqavilə, saziş, nota, bəyanat, ultimatum* sözlərinin məna fərqlərini izah edin. Fikirlərinizi nümunələr əsasında ümumiləşdirin.

**9.** *Sövdalaşdılar, köks, imza* sözlərini hansı sözlərlə əvəz etmək olar?

**10.** *Düz* sözünün omonim və çoxmənalı olduğunu əsaslandırın.

**11.** “Şairlər **od tökdü** yenə dilindən” misrasında tünd şriftlə verilmiş ifadəni şərh edin.

**12.** Şeirdə hansı sözlər tələffüz formasında verilmişdir?

**13.** Şeirin üçüncü bəndində *Gülüstan* sözünün dırnaqda verilməsinin səbəbini izah edin.

**14.** Şeirdə *necə?, nə vaxt?, nə qədər?* suallarına cavab verən sözləri seçib əlaqələndiyi sözlə birlikdə yazın.

**15.** Cümlələrin ardıcıllığını müəyyən edib kiçik mətn düzəldin, sözlərin və cümlələrin əlaqələnməsinə diqqət yetirin. Fikirlərinizi əsaslandırın.

(1) 1813-cü il Gülüstan müqaviləsi Gülüstan kəndində imzalanıb. (6) Tarixi Gülüstan müqaviləsi 1813-cü ilin oktyabrında bu qalada imzalanmışdır. (4) Lakin 1992-ci ilin iyun ayında hücuma keçən Azərbaycan ordusu kəndi erməni işğalından azad edib.

(5) Gülüstan kəndi hazırda Goranboy ərazisində yerləşir.

(3) Kəndin ərazisində XII əsrdə tikilmiş Gülüstan qalası yerləşir. (2) *Qala* tam şəkildə dövrümüzə çatmasa da, müəyyən *bürcləri* qorunmuşdur. (7) Qarabağ müharibəsinin başlanğıcında erməni quldur dəstələri *havadarlarının* köməyi ilə kəndə nəzarəti ələ keçiriblər.

✓ *Mətndə fərqləndirilmiş sözlərin leksik mənalarını izah edin.*

✓ *Hansı cümləni çıxarsaq, mətnin məzmununa xələl gəlməz?*

✓ *Bölmənin əvvəlində N.Hikmətin "Bu xalqın nəyə qadir olduğunu bilmək üçün baş sındırmayın, təkcə memarlıq abidələrinə baxsanız, bəs edər" ifadəsi ilə yuxarıdakı mətnin məzmununu müqayisə edərək mühakimə yürüdün: abidələrimiz həm yaşadır, həm də bədnam hadisələrin şahidi olur".*

**16.** Qarabağda məhv edilmiş abidələr haqqında məlumat toplayıb təqdimat hazırlayın.

*Təqdimat hazırlamaq üçün aşağıdakı plandan və məlumat xarakterli mətnlərdən istifadə edə bilərsiniz:*

## PLAN

1. Qarabağda məhv edilmiş memarlıq abidələrinin və tikililərinin siyahısını tərtib edin və haqqında qısa məlumat verin.
2. Onların məhvedilmə səbəbini öyrənin.
3. Hadisəyə öz münasibətinizi bildirin, həmin abidələrin bərpası üçün təkliflər verin.
4. Hadisəyə digərlərinin münasibətini öyrənib öz fikirlərinizlə tutuşdurun.
5. Nəticə.



*Horadiz qəsəbəsində yerləşən məscid (Horadiz məscidi)*

✓ *Sizcə, abidələri bərpa etmək üçün nəyi bilmək lazımdır?*

A Z

Sözlərin vurğularını və leksik mənalarını müəyyənləşdirin.

- *karvansara*
- *memarlıq*
- *ovdan*
- *salnamə*

# ZİVƏR BƏY ƏHMƏDBƏYOV

**1.** Mətnin I abzasında sözləri əlaqələndirmək üçün müvafiq şəkilçilərdən istifadə edib cümlələr qurun, bitkin hissə yaradın. Bu hissənin mətnlə bağlılığını əsaslandırın.

Orfoqrafiya

Əlaqələndirdiyiniz sözlərin düzgün yazılışına diqqət yetirin.

Orfoepiya

Bu hissədə hansı sözlərin yazılışı ilə deyilişi fərqlənəcək?

Bakı, qədim, memarlıq, abidə, dünya, çox, şəhər, abidə, ilə, bəhs, girə bilmək, Böyük, bir, tarixi, dövr, yaşatmaq, bu, sənət, nümunə, əsas, etibarilə, ecazkar, şərq, elementlər, əsası, dünya, ən, qabaqcıl, məktəb, təcrübə, yararlanmaq, meydana gəlmək, Belə, gözəl, əsər, bir, neçə, müəllif, dövr, görkəmli, ziyalı, sayılmaq, Zivər bəy Əhmədbəyov, olmaq. O, yaratmaq, bənzərsiz, memarlıq, abidə, mədəni, *irs,* əvəzsiz, töhfə, bəxş etmək. Zivər bəy, peşəkar, Avropa, təhsil, almaq, və, 1918–1925-ci illər, Bakı, şəhər, memar, olmaq, ilk, azərbaycanlı.

Zivər bəy Gəray bəy oğlu Əhmədbəyov Bakıda gimnaziya təhsilini başa vurduqdan sonra 1893-cü ildə əlaçı tələbə kimi Sankt-Peterburq Mülki Mühəndislər İnstitutuna göndəriş almışdır.

Zivər bəy burada da fəal, bacarıqlı tələbə kimi tanınır və Sankt-Peterburqda fəaliyyət göstərən Rusiya Memarlıq və Zərif Sənətlər İttifaqına üzv seçilir. Hələ tələbə ikən o, Sankt-Peterburqda Həsən bəy Zərdabi və İsmayıl bəy Qaspıralı ilə görüşür. Bu görüş onun həyatında dərin iz buraxır. Həsən bəy onun dərin zəkalı, açıq fikirli bir gənc olduğunu vurğulayır, işinə böyük dəyər verir, fəaliyyətini Bakıda davam etdirməyi məsləhət görür. Bu barədə Zivər bəy Əhmədbəyovun Həsən bəyə yazdığı bir məktubda oxuyuruq: “Sizinlə olan görüşüm hələ də xatirimdədir. Mənə vermiş olduğunuz töhfəni əsla unutmayacağam. İnanıram ki, ən qısa zamanda görüşəcəyik”.

Zivər bəy ali təhsilini başa vurduqdan sonra təyinatla Bakıya gəlir, az vaxtda Bakı qubernatorunun və *elitar* təbəqənin şəxsi malikanələrinin memarı kimi tanınır.

Nabat xanım Aşurbəyli Bakı şəhərində tikdirdiyi (1905–1914-cü illər) Təzəpir məscidinin inşasında ilk diplomlu azərbaycanlı memar kimi Z.Əhmədbəyovun xidmətlərindən istifadə etmişdir. Nabat xanım Zivər bəyə xeyli vəsait verərək onu məşhur məscidlərin memarlığını öyrənmək üçün Şərq ölkələrinə *ezam etmişdir.* Səyahətdən sonra Zivər bəy bir sıra layihələrin: Şamaxıda Cümə məscidi, Bakıda Təzəpir məscidi, Əmircanda Murtuza Muxtarovun tikdirdiyi məscidin və Bakıda neçə-neçə yaşayış evinin memarı olur.

1908–22-ci illərdə Əmircanda tikdiyi məscid Şərq memarlığının ən yaxşı incilərindən biri kimi UNESCO-nun tarixi abidələr siyahısına salınaraq qorunur.

Şamil Fətullayev-Fiqarov yazır ki, bir dəfə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda Orta Asiyadan olan bir alimin *dissertasiyasının* müdafiəsi keçirilirdi. *Opponentlərdən* biri memarlıq tarixi üzrə professor T.P.Kaptereva idi. O, otaqda Maştağa kəndinin məscidlərindən birinin şəklini gördü və coşqunluqla “Bu ki qotikadır”, – deyə səsləndi. Mən sakitcə cavab verdim: “Tatyana Pavlovna, bu, Maştağa kəndinə məxsus Abşeronun əsil memarlıq nümunəsidir”. Daha sonra mən həmin kənddə 23 monumental məscidin və 27 hamamın olduğunu bildirdim.

*26 may 2011-ci ildə Bakıda “Nizami” metro stansiyası qarşısında Z.Əhmədbəyovun heykəlinin və onun adını daşıyan parkın açılışı olub. Heykəlin məhz “Nizami” metro stansiyasının qarşısında ucaldılması təsadüfi deyil. Metronun sol tərəfində memarlıq üslubunda tikilən binanın müəllifi Z.Əhmədbəyovdur. Metronun qarşısından keçən küçə də memarın adını daşıyır.*




**2.** Verilmiş suallardan hansına mətndə cavab tapmaq olar?

*1. Həsən bəy Zərdabi niyə Zivər bəy Əhmədbəyova fəaliyyətini Bakıda davam etdirməyi məsləhət görür?*

*2. Z.Əhmədbəyov nə üçün Təzəpir məscidini tikdirmişdir?*

*3. Şərq ölkələrinə səyahətə gedərkən nə üçün Nabat xanım Aşurbəylidən icazə alır?*

*4. Zivər bəy Əhmədbəyov, sizcə, hansı töhfəni nəzərdə tuturdu?*

A) 1, 2 B) 3, 4 C) 1, 3, 4 D) 2, 3, 4 E) 1, 4

**3.** Mətndəki faktları seçib “Maraqlı məlumatlar” başlıqlı yazı hazırlayın.

**4.** Mətn üzərində iş aparmaq üçün hansı sual və tapşırıqlardan istifadə edərdiniz? Onları tərtib edib yoldaşlarınızla müzakirə edin.

**5.** Fərqləndirilmiş sözlərin leksik mənasını izah edin.

**6.** *Ecazkar, bənzərsiz* sözlərinin sinonimlərini tapın.

**7.** “Zivər bəy Əhmədbəyov” mətnində çərçivəyə alınmış ixtisarlara artırılmış şəkilçilərin işlənmə məqamına diqqət yetirin. Siz də belə ixtisarlar tapıb onlara şəkilçi artırın.

*Nümunə:* BMT – BMT-yə

✓ *İxtisarlara şəkilçi artırarkən hansı qanunauyğunluğu müşahidə etdiniz?*

**8.** III abzasda cümlələri əmələ gətirən söz və söz birləşmələrini müəyyənləşdirin.

**9.** Sizcə, sintaktik əlaqələrin cümlənin yaranmasında rolu nədir? Sintaktik əlaqələr olmadan söz birləşmələri və cümlələr yarana bilərmi? Sözlər cümlədə yeni vəzifə qazana bilərmi? Bu suallara cavab vermək üçün mətnin birinci abzasında qurduğunuz cümlələrə istinad edin.

Söz və söz birləşmələri cümlədə digər sözlərlə məna və qrammatik cəhətdən əlaqəyə girir, suala cavab verərək cümlə üzvü olur.

Hər hansı bir sözün cümlə üzvü olması üçün müstəqil leksik mənaya malik olması, müəyyən suala cavab verməsi və cümlədəki sözlərlə sintaktik əlaqəyə girməsi vacibdir.

*Məsələn:*

Hər bir millətin tərəqqisi həmin millətin gənclərinin alacağı tərbiyədən asılı olur. *(V.Şekspir)*

**10.** Aşağı siniflərdə öyrəndiklərinizə əsasən sxemi tamamlamaqla şərh edin.



**11.** Mətndə sözlər və söz birləşmələri arasındakı əlaqələri və onların cümlə üzvü olmasının səbəbini izah edin.

Cavanşir qalası İsmayıllı rayonu ərazisində yerləşir. Qafqaz Albaniyasında Mehranilər sülaləsinin hakimiyyəti dövründə tikilmişdir. Bu qala hökmdar Cavanşir tərəfindən tikdirildiyi üçün onun adını daşıyır. Qalanın inzibati mərkəz kimi istifadə olunduğu güman edilir. Qala İsmayıllı rayonunun Talıstan kəndindən 4 km şimalda, Ağçaçayın sağ sahilində yerləşir.

Müdafiə istehkamıdır. Qaladan təqribən 7 km məsafədə yerləşən "Qız qalası"na (İsmayıllı rayonu Xanəgah kəndində) yeraltı yolun olması güman edilir. Qalanın həyətində heç yanda tapılmayan nadir güllər və bəzək ağacları bitir. Qalanın qərb divarları sürüşmə nəticəsində uçub dağılmışdır.





✓ *İki cümləni birləşdirib bir cümlə qurun. Bu zaman məzmunun dəyişməməsinə çalışın. Verilmiş nümunədən istifadə edin.*

| | |
|---|---|
| *Cavanşir qalası İsmayıllı rayonu ərazisində yerləşir. Qafqaz Albaniyasında Mehranilər sülaləsinin hakimiyyəti dövründə tikilmişdir.* | *Qafqaz Albaniyasında Mehranilər sülaləsinin hakimiyyəti dövründə tikilmiş Cavanşir qalası İsmayıllı rayonu ərazisində yerləşir.* |

✓ *Cümlələrdə hansı dəyişiklik baş verdi? Bu dəyişikliyi yaratmaq üçün nədən istifadə etdiniz?*

**12.** "Memar olsa idim..." mövzusunda təsvir xarakterli esse yazın.

Sözlərin leksik mənasını izah edin.

- *sülalə*
- *inzibati*
- *istehkam*
- *dövlətçilik*
- *ideologiya*

**12.** Verilmiş mətnin birinci abzasında söz birləşmələrinin növünü müəyyənləşdirin. Altından xətt çəkilmiş ifadələrin fərqini izah edin.

Sentyabr ayının əvvəllərində Elitar gimnaziyada Şagird Özünüidarə Komitəsi yaradılmışdı. 11-ci sinif şagirdi İnayət komitə sədri seçilmişdi. Komitə təlim-tədris prosesində, məktəbin ictimai həyatında fəal iştirak edəcəyinə, nizamnamədə öz əksini tapan tələb və vəzifələri layiqincə yerinə yetirəcəyinə söz vermişdi.

*Sizcə, komitə dekabr ayında hansı mühüm tədbirlərin həyata keçirilməsini nəzərdə tuturdu?*

Dekabr ayı yaxınlaşırdı. Qarşıda keçirilməsi vacib olan bir sıra mühüm tədbirlər vardı.

Komitə sədri bu məqsədlə keçirdiyi iclas, müzakirə olunan məsələlər barədə direktora şifahi məlumat verdi. Direktor iclasda müzakirə olunan məsələlərin, qəbul edilmiş qərarların sənədləşməsini tövsiyə etdi.

*Sizcə, komitə sədri İnayət iclasın gedişini sənədləşdirmək üçün hansı əməli yazı növündən istifadə etməlidir?*

A) ərizə B) protokol C) izahat

● PROTOKOL RƏSMİ SƏNƏDDİR.

*Protokol yunan dilində olan protok (ilk vərəq) və kolos (yapışdırmaq) sözlərinin birləşməsindən əmələ gəlmişdir.*

**Protokolun forması:**

1. Protokol və onun nömrəsi vərəqin ortasında böyük hərflə yazılır.
2. Təşkilatın adı, iclasın keçirildiyi tarix və yer qeyd olunur.
3. İclasda iştirak edənlərin sayı göstərilir.
4. Müzakirə olunacaq məsələlər sadalanır (gündəlikdə duran məsələlər).
5. Müzakirə olunan məsələlərin və çıxışların qısa xülasəsi yazılır.
6. Sonra verilən qərarlar yığcam şəkildə bəndlər üzrə öz əksini tapır.
7. Sonda protokol sədr və katib tərəfindən imzalanır.

**Protokoldan istifadə olunur:**

1. Müxtəlif iclas, yığıncaq, müşavirə və konfranslarda;
2. Hər hansı bir dövlət qanununun, ictimai qaydanın pozulması zamanı tərtib olunmuş akta əlavələr ediləndə;
3. Dövlətlərarası saziş və müqavilələr bağlanan zaman keçirilən yığıncaqlarda.

**QEYD:**

*İclası keçirmək üçün sədr və katib əvvəlcədən seçilir.*

# PROTOKOL №2

İlyas Əfəndiyev adına Elitar gimnaziyada 2014-cü il noyabrın 28-də iclas keçirildi.

İştirak edirdi: *Şagird Özünüidarə Komitəsinin sədri, 12 nəfər üzvü, təşkilat işləri üzrə direktor müavini, katib*

**Gündəlik məsələ:**

1. Sentyabr-noyabr aylarında görülmüş işlər haqqında hesabat (məruzəçi tədris işləri üzrə direktor müavini İnayət Ceyhunoğlu)
2. Ümummilli lider Heydər Əliyevin anım günü münasibətilə keçiriləcək tədbirlər planının müzakirəsi və təsdiqi (məruzəçi mədəni-kütləvi tədbirlər üzrə məsul Adilə Hüseynli)
3. 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə keçiriləcək konsert proqramının müzakirəsi və təsdiqi (məruzəçi Uşaq birliyi rəhbəri Nərmin Şahbazlı)

**Eşidildi:** İclası giriş sözü ilə komitə sədri İnayət Ceyhunoğlu açdı. O, iclasdakıları gündəlikdə duran məsələlərlə tanış etdi, 1-ci məsələ barədə məlumat verdi. Belə ki sentyabr-noyabr aylarında görülmüş işlər haqqında hesabat verərək müsbət cəhətlərlə yanaşı, müəyyən nöqsanları da sadaladı. Həmin nöqsanların tezliklə aradan qaldırılması üçün müəyyən göstərişlər verdi.

*Digər məsələlər də bu qayda ilə müzakirə olunur və çıxışlar olarsa, protokolda qeyd olunur.*

**QƏRAR:**

1. Komitə sədri İnayət Ceyhunoğlunun hesabatı qənaətbəxş hesab edilsin.
2. Ümummilli lider Heydər Əliyevin anım günü münasibətilə keçiriləcək tədbirlər planı təsdiq edilsin. Fotostendin, şagirdlərin əl işlərindən ibarət sərginin təşkili, ədəbi-bədii kompozisiyanın keçirilməsi, Fəxri xiyabanda liderin məzarını ziyarətetmə vaxtının dəqiqləşdirilib icra edilməsi üçün Adilə Hüseynli məsul şəxs təyin edilsin.
3. Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə keçiriləcək konsert proqramı təsdiq edilsin və Nərmin Şahbazlı məsul şəxs təyin edilsin.

Sədr: **İnayət Ceyhunoğlu**
Katib: **Leyla Hüseynova**

# 1 İBRƏT DƏRSİ

**Orfoepiya**

Sözlərin tələffüzünün düzgün verildiyini əsaslandırın.

[ömürrüx′]
[insanpərvərrix′]
[təva:zökarrıx]

**Orfoqrafiya**

Bitişik, defislə, yoxsa ayrı?

Mətndə sual işarəsi qoyulmuş sözlər necə yazılmalıdır?

Milli-mənəvi dəyər-lər dedikdə nə başa düşürsünüz?



Adına əsasən bölmədə hansı problemlərin müzakirə olunacağını müəyyən edin.



Platon yazır ki, tərbiyənin məqsədi insanlardakı qabi-liyyəti inkişaf etdirməkdir.

Platonun bu fikri ilə razısı-nızmı?

Süjet vasitəsilə təqdim edilən əsas fikri müəyyən edin.

Dialoqu məzmununa uyğun intonasiya ilə oxuyun.

– Dünən məktəbdən qayıdanda nənəmin tapşırdığı dərmanı almağı unutmuşdum. Danlanacağımı düşünüb işin içindən çıxmaq üçün yollar aradım, amma alınmadı.

– Yəqin, yenə baban məsələyə qarışıb. Elədir?

– Babam mənə elə ibrət dərsi verdi ki, ömürlük unutmaram. Əslində, günahkaram. Amma dərmanı almadığım üçün yox, yalan danışdığım üçün.

– Nə demisən ki?

– Vəziyyətdən çıxmaq üçün dedim ki, aptekə getdim, həmin dərman yox idi. Babam da çox həssas olduğu üçün, təbii ki, dərhal başa düşdü ki, yalan danışıram.

– Səni danladı?

– Danlasa idi, daha yaxşı olardı. Nahardan sonra məni yanına çağırıb Çin fəlsəfəsindən, Konfutsidən danışmağa başladı.

– Çin fəlsəfəsinin buna nə dəxli?

– Mən?də sənin kimi, əvvəl heç nə başa düşmədim. Amma babam söhbəti bitirdikdən sonra nə demək istədiyini anladım. Əslində, bu hadisə mənə çox şey verdi, mənim üçün yeni bir dünya açdı. Həm də Konfutsi haqqında məlumat aldım. Heç bir söz demədən həyətə düşdüm, aptekə gedib nənəmə lazım olan dərmanı alıb gətirdim.

– Yenə başa düşmədim. Konfutsinin bu hadisə ilə nə əlaqəsi?

– Eramızdan əvvəl Çində yaşamış Konfutsi böyük filosof olmuş, pedaqoji fikirlərinə görə həm də ölkəsinin ilk böyük pedaqoqu sayılmışdır. O, ölkəni gəzib?dolaşır və öz təlimini təbliğ edirmiş. Onun təlimində insan birgə?yaşayışını şərtləndirən beş fəzilət: insan?pərvərlik, borc hissi, səmimilik, ədəb?ərkanlılıq və oğulluq ehtiramı kimi əxlaqi keyfiyyətlər xüsusi yer tutur.

– Əslində, bu fikirlərin hamısı islami dəyərlərdən xəbər verir. Deməli, bütün millətlər üçün ortaq olan bəşəri qanunlar və dəyərlər var. Onlara əməl etməklə yer üzü rahatlıq tapar.

– Düzdür. Babam deyir ki, bu gün də Konfutsi təliminin əxlaqi ideyaları Çində güclüdür. O həm də tövsiyə etdi ki, Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, Abbasqulu ağa Bakıxanovun əxlaqa dair fikirlərindən nümunələr toplayaq.

**Cümlədə ifadə olunan fikrə münasibət bildirin.**

– Keçmişə qayıdış və ehtiram gələcəyə yoldur. Öz aramızdır, baban sənə yaxşı dərs verib.

– Konfutsi isə hamımıza.

*Konfutsiyə görə, insanpərvərlik belə izah olunurdu: təvazökarlıq, təmənnasızlıq, qərəzsizlik, insanlara məhəbbət.*

*Borc hissi ilə bağlı Konfutsi belə deyirdi: "Nəcib insan borcu olduğunu düşünür, alçaq insan isə öz xeyrini güdür".*

*Səmimilik verdiyi sözün üstündə duraraq əhdinə vəfalı olmaq, səmimi olmaq deməkdir.*

*Ədəb-ərkanlı olmaq qanunlara riayət etmək, adət-ənənələrə sadiq qalmaq deməkdir.*

*Oğulluq ehtiramı isə o deməkdir ki, kamilliyə can atan insan gərək böyüyə, valideynə ehtiram göstərsin...*



- *Platonun fikirləri ilə Konfutsinin insani xüsusiyyətlər barədə fikirlərini müqayisə edin.*

**1.** Baba nə üçün danlamaq əvəzinə, nəvəsinə Konfutsidən danışır? Baba nəvəsini danlasa idi, nəvə necə hərəkət edərdi? Ətraflı izah verin.

**2.** Sizcə, Konfutsinin hansı fəziləti nəvəni aptekə gedib dərman almağa vadar edir?

*Fəzilət – insanda yüksək mənəvi keyfiyyətlərin ümumi adı*

**3.** Sizcə, dostlar Konfutsinin təlimindən hansı nəticəni çıxardılar?

**4.** Dialoqda çatdırılan əsas fikirləri 1-2 cümlə ilə ifadə edin.

**5.** Yer üzünün "rahatlıq tapması" üçün, sizcə, nədən başlamaq lazımdır? Təkliflər hazırlayıb məktəbdə bu mövzuda dəyirmi masa keçirin. Dəyirmi masanın keçiriləcəyi haqqında elan hazırlayın.

**7.** Sxemi şərh edin və şərhinizi əsaslandırın.

*tövsiyə* ⟷ *məsləhət* ⟷ *nəsihət*

**8.** *Filosof, pedaqoji fikirlər, əxlaqi ideyalar* ifadələrinin mənasını izah edin.

**9.** *Təvazökarlıq* sözünün antonimini tapın.

**10.** "Buz" hekayəsini oxuyub məzmun və ideya baxımından dialoqla (səh. 63) əlaqələndirin. Nəticə çıxarın. Hekayə əsasında 10.1–10.5-ci tapşırıqları yerinə yetirin.

## BUZ *(ixtisarla)*

Mən olardım on yaşında. Xalam azarlamışdı. Hacı Mirzə Səttar həkimi gətirmişdilər ki, baxsın xalama və müalicə etsin. Həkim xalama baxdı, bilmirəm, nə dedi, nə demədi və faytona minib gedəndə xalamın əri tələsik mənə bir qəpik verdi və bazara buz dalınca göndərdi.

Evimizdən ayrılanda çox da tələsmirdim, amma xalamın yalvarmağı yadıma düşəndə bir qədər ayaq götürdüm. Mən üz qoydum bazara tərəf. Baqqal çarşısına yetişdim və bir qəpiyi uzatdım verdim buz satana. O da bir çuxur yerə əlini uzatdı, yarpaqların və samanın altından bir yekə buz parçası çıxartdı, mənim qəpiyimə baxdı və buzu iki yerə böldü. Buzun yekəsini bükdü kələm yarpağına, verdi mənə.

Hava isti idi. Yerdən təmiz bir daş götürdüm. Hərdən buzun bir böyrünə vurub əzirdim və basırdım ağzıma. Gəldim çatdım Hacı Bayramın qapısına. Oğlu Şirəli görünmürdü. Mən adətkərdə olmuşdum. Adətim də bu idi ki, bu darvazanın ağzından ötüb keçəndə mütləq Şirəli ilə ya dalaşmalı, ya da söyüşməliydim. Yerdən bir daş götürdüm, birini tulladım onların darvazasına və it hürüşü eşidib qaçdım. Bir qədər uzaqlaşmışdım ki, çönüb geriyə baxdım və gördüm ki, itin dalıyca Şirəli də mənə hücum edir. Buzu qoydum yerə. Yerdən daşları götürüb başladım Şirəliyə atmağa. Biz başladıq bir-birimizə yavıq gəlməyə. Ehtiyat üçün buz parçasını qoydum divarın dibinə.

*Sizcə, bundan sonra nə baş verəcək? Hekayənin sonluğundan istifadə edərək məntiqinizə əsaslanıb hadisələrin necə davam edəcəyini deyin.*

...Anam uzaqdan məni görəndə bircə bunu dedi:

– A balam, səni görüm, ciyərin yansın, necə ki yazıq azarlı arvadın ciyərini yandırdın.

Nə qədər ki uşaq idim, yadıma heç nə düşməzdi. Elə ki yekəlib ağlım kəsdi, buz əhvalatı yadıma düşəndə mənə dərd olurdu.

*(Cəlil Məmmədquluzadə)*

**10.1.** Hekayədən çıxardığınız nəticəyə əsasən əsərin qəhrəmanında hansı insani keyfiyyətlərin zəif olduğu barədə fikir yürüdün.

**10.2.** "Buz" hekayəsinin qəhrəmanını dialoqdakı nəvə obrazı ilə müqayisə edin.

**10.3.** Siz belə bir hadisə ilə üzləşsə idiniz, necə hərəkət edərdiniz?

**10.4.** "İnsan başqası ilə az, özü ilə çox danışmalıdır" (*Danimarka atalar sözü*) kəlamının mətnlə əlaqəsi varmı? Niyə insan özü ilə çox danışmalıdır?

✓ *Mətndəki cümlələri nümunəyə uyğun yazın.*

***Nümunə:***

*Mən on yaşında olardım. Xalam azarlamışdı. Həkim Hacı Mirzə Səttarı xalama baxmaq və müalicə etmək üçün gətirmişdilər. Həkim xalama baxdı, bilmirəm, nə dedi, nə demədi və faytona minib gedəndə xalamın əri tələsik mənə bir qəpik verdi və buz dalınca bazara göndərdi.*

.................................

✓ *Fərqi müəyyən edib fikirlərinizi şərh edin.*

✓ *Sizcə, C.Məmmədquluzadə niyə "Buz" hekayəsində bu tipli cümlələrdən istifadə etmişdir?*

**10.5.** Hekayədə çərçivəyə alınmış ifadə barədə fikir yürüdün. Sizcə, bunu nitq etiketi hesab etmək olarmı? Bu etiketin adı nədir? Bu etiketdən nə zaman istifadə edilir? Onun istifadəsi lazımdırmı?

"Qazan xanın evinin yağmalanması" boyunda Qazan xan evinin talan olunduğunu ona xəbər verən Qaraca Çobana belə deyir:

– *Ağzın qurusun, çoban, dilin çürüsün, çoban.*

*Sizcə, Qazan xan düzmü hərəkət edir? Axı çoban düzünü söyləmişdi.*

✓ *Hər iki ifadənin işlənmə məqamına diqqət yetirin. Hansı ifadə daha çox vətən sevgisindən doğan yanğını əks etdirir?*

✓ *Niyə belə hesab edirsiniz? Mühakimə yürüdün.*

**11.** Sxemin I hissəsini mətnlər ("İbrət dərsi", "Buz"), II hissəsini araşdırmalarınız əsasında tamamlayın.




**12.** Fəridəddin Əttarın nəsihətlərini oxuyun, Konfutsinin ibrətamiz fikirləri ilə müqayisə edin.



*Ey oğul, hər nə qədər fəqirlikdən daha ağrı-acılı bir şey yoxdursa da, sən yenə də qənaətlə dolan. Bu gün əlində olan fürsətdən faydalanmağa çalış. Dostlarının arxasınca danışma. Cinayətə və günaha səbəb olan yerlərə getmə. Haqq yolunda korlar kimi yerimə. Doğru yolu tut.*



*Ey oğul, əsla təkbaşına səfər etmə. Təkbaşına səfər sənə təhlükə gətirər. Evindən hörümçək torlarını təmizlə, onların içəridə qalması bərəkəti qaçırar. Allahdan nemət gözləyirsənsə, çörək qırıntılarını ayaq altına tökmə. Gecə evini süpürmə, süpürdüyünü də qapının arxasına atma.*

*Ey oğul, öyüd verənin öyüdlərini dinlə, hər zaman ədalətli ol. Artıq uşaq deyilsən, burax oyunu. Günah işlərdə nəfsinə yardımçı olub ömrünü yaramazlıqla keçirmə. Madam ki "öyüd ala bilərəm" deyirsən, o zaman bu yolda axsaqlıq etmə. Öz sözünə əməl etməyən şəxsin sözünü başqaları da dinləməz.*



Əsil adı Muhəmməd ibn İbrahim olan böyük mütəfəkkir və şair *Fəridəddin Əttar* 1119-cu ildə Nişapurda dünyaya gəlmişdir. 1229-cu ildə monqol əsgərləri tərəfindən şəhid edilən Fəridəddin Əttar elə doğma Nişapur şəhərində dəfn edilmişdir. Bir çox elmi, didaktik əsərlərin müəllifidir.

*Didaktik öyüdverici, nəsihətverici, tərbiyə məqsədi daşıyan deməkdir.*

**13.** Nizami Gəncəvinin əxlaq və tərbiyə haqqında nəsihətlərini toplayıb Fəridəddin Əttarın oğluna nəsihətləri ilə müqayisə edin. Fikirlərinizi ümumiləşdirib yazın.

III BÖLMƏ

# 2 DUYĞULAR ADASI

**Orfoepiya**

Düzgün tələffüzü deyin.

zənginlik – [...]
yelkənli – [...]
çaşqınlıq – [...]

**Orfoqrafiya**

Bitişik, yoxsa ayrı?

Mətndə sual işarəsi qoyulmuş sözlərdə ***da*** hissəciyi necə yazılmalıdır?

Bir zamanlar üzərində bütün duyğuların yaşadığı bir ada var idi. *Xoşbəxtlik, hüzn, bilgi, təkəbbür, sevgi* və başqa duyğular bu ada?da birlikdə yaşayırdı. Bir gün tufanın qopacağı, tezliklə adanın batacağını bütün duyğulara xəbər verirlər. Bunu eşidən duyğular?da bir-bir adanı tərk etməyə başlayır. Ən axıra isə Sevgi qalır. O, son anadək adanı tərk etməməyə çalışırdı. Ancaq artıq ada batmaq üzrə idi. Bunu görən Sevgi?də digər duyğulardan yardım istəmək məcburiyyətində qalır.

Öncə böyük bir gəmi ilə adanı tərk etməyə çalışan *Zənginliyə* müraciət etdi:

**– Məni?də özünlə aparарsan?**

Zənginlik cavabında:

– Xeyr, apara bilmərəm, gəmim qızıl-gümüşlə doludur, sənə yer qalmayıb, – dedi.

Sevgi digər tərəfdəki gözəl, yelkənli qayığı ilə getməkdə olan Təkəbbürə üzünü tutub ondan yardım istədi. Təkəbbür Sevgiyə belə cavab verdi:

– **Bağışla, sənə yardım edə bilmərəm**, üst-başın islanıb, qayığımı kirlədərsən.

Əlacsız qalan Sevgi yaxınlığında olan Hüzndən kömək istədi:

– Hüzn, olarmı, məni də özünlə götürəsən?

Hüzn dedi:

– **Of, Sevgi!** Bu gün o qədər kədərliyəm ki... Bir az tək qalmağa ehtiyacım var.

Bu arada Xoşbəxtlik Sevginin yanından keçirdi. Amma özünü o qədər xoşbəxt hiss edirdi ki, Sevginin səsini belə eşitmədi. Artıq bütün duyğulardan əlini üzən Sevgi birdən bir səs eşitdi: "Gəl, Sevgi, gəl, mənimlə gedək".

Bu sözləri deyən Sevgidən çox yaşlı görünən bir qoca idi. Sevgi?də ümid yarandı. Özünü o qədər bəxtəvər, o qədər xoşbəxt hiss etdi ki, çaşqınlıqdan ona yardım edən bu qocanın adını belə soruşmağı unutdu. Qoca Sevgini sağ-salamat sahilə çatdırdı, özü isə yoluna davam etdi. Bir anlığa ona nə qədər borclu olduğunun fərqinə varan Sevgi yanındakı Bilgidən soruşdu:

– Məni xilas edən o qoca kimdir?

– O, Zamandır.

– **Zamanmı?** Bəs niyə o mənə yardım etdi? – deyə Sevgi heyrətlə soruşdu.

Bilgi gülümsəyərək:

– Çünki yalnız zaman sevginin nə qədər böyük olduğunu anlaya bilər.

*"Füyuzat" jurnalından, 2012-ci il*

- *Sizcə, insan yaxşı əməlləri ilə özünə əbədi abidə ucalda bilərmi?*

1. Sizcə, Sevgi niyə son ana qədər adanı tərk etmək istəmirdi?

2. Sxem əsasında danışın.




3. Mətndəki obrazlara münasibət bildirin. Onlara verilən adlarla hərəkətləri arasındakı əlaqəni müəyyənləşdirin.

4. Mətndə təsvir edilən obrazların xarakterində olan insanlara həyatda rast gəlmişsinizmi? Onlara münasibətiniz necə olub?

5. Mətni oxuyub hansı nəticəyə gəldiniz? Fikirlərinizi söylənən rəylərə əsasən ümumiləşdirin.

6. Mətnin tərkib hissələrinin hər birini 1-2 cümlə ilə ifadə edin.

7. Mətnin əsas hissəsi ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Əsas hissə təhkiyə şəklindədir.
B) Obrazların daxili aləmi bu hissədə açılır.
C) Mətndəki əsas fikir bu hissədə müəyyən edilir.
D) Əsas hissə Sevginin Zənginliyə müraciət etməsi ilə başlayır.
E) Əsas hissə obrazların adada yaşamasının təsviri ilə başlayır.

8. Bu suallardan birinə mətndə cavab tapmaq olmaz.
A) Zaman nə üçün Sevgini xilas edir?
B) Sevgi və digər obrazlar niyə məhz adada yaşayır?
C) Digər obrazların bəhanəsinə səbəb nə idi?
D) Ada nə üçün batırdı?
E) Hansı obraz Sevginin səsini eşitmədi?

9. Mətndə fərqləndirilmiş sözlərin leksik mənasını izah edin.

10. *Təkəbbür* sözünün sinonimini və antonimini tapın.

11. *Bu gün o qədər kədərliyəm ki... Bir az tək qalmağa ehtiyacım var* cümləsindəki sözləri yaxınmənalı sözlərlə əvəz edin. Hər iki cümləni müqayisə edin. Hansı daha yaxşıdır?

12. Aşağı sinifdə öyrəndiyiniz məlumatları yada salıb mətndə çərçivəyə alınmış hissədə cümlələrin mübtədalarını tapın. Onların nə ilə ifadə olunduğunu müəyyənləşdirin.



*Mübtədа haqqında aşağı siniflərdə öyrəndiklərinizi yadınıza salıb suallara cavab verin.*

- ✓ *Mübtəda nəyə deyilir və hansı suallara cavab verir?*
- ✓ *Mübtəda hansı söz və söz birləşmələri ilə ifadə olunur?*
- ✓ *Mübtəda feili birləşmələrlə ifadə olunurmu?*
- ✓ *Mübtəda və xəbər necə uzlaşır?*

**13.** Mətndə tünd şriftlə verilmiş cümlələrdən hansılara mübtəda artırmaq olar?

**14.** Sizcə, nə üçün mübtəda cümlənin qrammatik əsaslarından biri hesab edilir? Cümlədə mübtəda olmasa, nə baş verər?

**15.** Mətnin I abzasındakı mübtədaları müəyyən edin. Həmin sözlər cümlədə olmasa, nə baş verər?

**16.** *O, bu* əvəzliyi ilə ifadə olunan mübtədalardan sonra vergülün işlənmə qaydasını yada salıb fikrinizi izah etmək üçün mətndən nümunə seçin.

**17.** Nöqtələrin yerinə aşağıda verilmiş söz birləşmələrindən uyğun gələnini yazın və hansı cümlə üzvü olduğunu deyin.

- Sözün qiymətini saldı yalanlar
  ... hörmətli olar. *(N.Gəncəvi)*
- ... fırtınada, ... müharibədə, ... isə ağır sınaq günlərində bəlli olur. *(T.Vilson)*
- ... itiriləndən sonra bilinir. *(Həzrət Əli)*

✓ *Dənizçinin cəsarəti, xalqın cəsarəti, doğrunu danışan, əsgərin cəsarəti, gəncliyin və sağlamlığın dəyəri*

**18.** Aşağıda verilmiş hikmətli fikirlərdə mübtədaları tapın, onların nə ilə ifadə olunduğunu müəyyənləşdirin.

**1.** Məsləhət istəmək bir insanın digərinə göstərdiyi ən böyük etibardır. (*F.Bekon*) **2.** Dünyada ən çətin şey insanın özünü tanımasıdır. (*M.Fales*) **3.** Ağlın çevikliyi gözəlliyi də əvəz edə bilər. (*A.Frans*) **4.** Müvəffəqiyyət hər gün yığılan kiçik cəhdlərin nəticəsidir. (*Ə.Kərimov*) **5.** Ən gözəl fikir də pis ifadə edildikdə qiymətini itirir. (*F.Volter*) **6.** Bizim vəzifəmiz yaxşılığı nə cür gəldi deyil, vaxtında və lazımınca etməkdir. (*E.Zolya*)

✓ *Nümunələrdən çıxış edərək "Mübtəda ən müstəqil cümlə üzvüdür" hökmünü əsaslandırın.*

**19.** "İnsan əməlləri ilə yaşayır" mövzusunda mühakimə xarakterli inşa yazın. Yuxarıdakı hikmətli fikirlərdən sitat kimi istifadə edin.

*Öz fikrini əsaslandırmaq, sübuta yetirmək üçün başqalarının söylədiklərindən, yazdıqlarından gətirilən dəqiq çıxarışa* sitat *deyilir.*

III BÖLMƏ 3

# SƏHƏNG İÇİNDƏ NƏ VARSA, ONU SIZDIRAR...

Orfoepiya

**Hansı düzgündür?**

[səhəng] – [səhənk]
[səhənklərlə] – [səhənklərnən]

**1.** Mətni oxuyarkən nöqtələrin yerinə uyğun sözlər artırın.



Rəvayətə görə, qədim zamanlarda sahibinə sadiq, vəfalı bir xidmətçi (...).

Bu xidmətçinin iki səhəngi (...) və hər gün bu səhənglərlə sahibinin evinə su daşıyardı. Ancaq səhənglərdən biri çat olduğu üçün suyun yarısı yolda axıb hədər olardı. Ona görə də xidmətçi hər dəfə sahibinin evinə bir səhəng yarım su gətirib çatdırardı. Beləcə, düz iki il xidmətçi bu səhənglərlə su daşıdı.

Günlərin bir günü çatlaq *səhəng* bu vəziyyətinə dözə bilməyib xidmətçiyə belə (...):

– Əziz dost, özümü çox pis hiss edirəm və bu halımdan xəcalət çəkirəm, xahiş edirəm, məni bağışla!

Xidmətçi şəfqətli əlləri ilə səhəngdən yapışıb onu özünə yaxınlaşdıraraq soruşdu:

– Səni *xəcil* edən, utandıran səbəb (...)?

Səhəng vicdan əzabı çəkərək kədərli bir halda belə cavab verdi:

– Çat olduğum üçün yerinə yetirməli olduğum vəzifənin ancaq yarısını yerinə yetirə bildim və mənim bu qüsuruma görə sənin də çəkdiyin bütün zəhmətin hədər oldu. Əziyyətinin qarşılığını ala bilmədin.

Xidmətçinin üzündə təbəssüm yarandı, həlim səslə səhəngə dedi:

– Əslində, sənin kədərlənməyin üçün heç bir səbəb yoxdur, əzizim. Yəqin ki, hər gün səninlə bərabər qət etdiyimiz yolda çiçəklərin olduğuna diqqət etmisən. Bunun səbəbkarı sənsən. Belə ki sənin qüsurunu görüb yolun sənə aid olan hissəsinə çiçək toxumları əkdim. Hər gün biz bu yolla evə qayıdarkən sən də onları suladın. Mən də bu iki il içərisində hər gün o gözəl, al-əlvan çiçəklərdən toplayıb sahibimin evinə (...). O çiçəklər də onun evinə gözəl qoxular saçdı... Sənin bu qüsurun olmasaydı, mən hər gün sahibimə o gözəl ətirli çiçəkləri apara bilməyəcək və ən önəmlisi, onun hörmətini və sevgisini qazana bilməyəcəkdim...

*Mübariz Yunusov*

**2.** Çatlaq səhəngin keçirdiyi hisslərə münasibət bildirin.

**3.** Xidmətçinin cavabı sizdə hansı təəssürat yaratdı? Bəs siz xidmətçinin yerində olsa idiniz, hansı cavabı verərdiniz?

**4.** Mətndəki əsas fikri müəyyənləşdirin.

**5.** Mətnin giriş hissəsi ilə bağlı fikirlərdən hansı doğrudur?
A) Giriş hissə bir cümlədən ibarətdir.
B) Xidmətçi və onun gördüyü iş barədə məlumat verilir.
C) Əsas hissə ilə əlaqələnmir.
D) Giriş hissədən nəticənin necə olacağı anlaşılır.
E) Xidmətçinin sahibi haqqında məlumat verilir.

**6.** Hekayənin adına münasibət bildirin. Onu müvafiq atalar sözü ilə əvəz edib fikrinizi əsaslandırın.

**7.** Xidmətçinin sözləri ilə "Duyğular adası" mətnindəki Bilginin sözlərini müqayisə edin. Siz bu barədə nə düşünürsünüz? Əgər insanlar arasında sevgi olmasa, nə baş verər? Hər iki mətndən istifadə edib öz fikirlərinizi əlavə etməklə fikir mübadiləsi aparın.

**MÜZAKİRƏ**

"Çatışmayan cəhəti üzə vurmaq ədəbsizlikdir".



**8.** Mətndə fərqləndirilmiş sözlərin leksik mənasını izah edin.

**9.** *Önəm* və *önəmli* sözlərinin qrammatik mənasını izah edin. Bu sözlər sinonim ola bilərmi? Fikrinizi əsaslandırın.

**10.** Mətndəki frazeoloji birləşmələri tapın, onları yaxınmənalı söz və ifadələrlə əvəz edin.

**11.** Mətndə nöqtələrin yerinə artırdığınız üzvün rolunu izah etməyə çalışın. Onsuz cümlə yarana bilərmi?

**12.** Xəbərin yaranmasında hansı şəkilçilərdən istifadə olunur? Aşağıdakı cümlələrə şəkilçi artırmaqla fikrinizi əsaslandırın.

- Qüvvət elmdə..., başqa cür heç kəs
  Heç kəsə üstünlük eyləyə bil... . (*N.Gəncəvi*)
- İnsana arxa... onun kamalı,
  Ağıl... hər kəsin dövləti, malı. (*N.Gəncəvi*)
- Oğul mənim... əgər, oxutmur... , əl çək... ,
  Eyləmə... dəngəsər, oxutmur... , əl çək... . (*M.Ə.Sabir*)

XƏBƏR HAQQINDA AŞAĞI SİNİFLƏRDƏ ÖYRƏNDİKLƏRİNİZİ YADINIZA SALIB SUALLARA CAVAB VERİN:

✓ *Xəbər nəyə deyilir?*
✓ *Xəbərlər ifadə vasitələrinə görə necə qruplaşır?*
✓ *İsmi xəbərlə feili xəbərin fərqi nədədir?*
✓ *Feili və ismi xəbərlərin ifadə vasitələri hansılardır?*
✓ *Hansı sözlər suala cavab vermədən ismi xəbər ola bilir?*

Cavablarınızı nümunələrlə əsaslandırın.



**13.** Cümlədə xəbərləri tapıb ifadə vasitələrini müəyyənləşdirin. Mübtəda və xəbərin uzlaşmasına diqqət yetirin.

**1.** Xidmətçi hər gün sahibinin evinə su daşıyardı. **2.** Bu günün işini sabaha qoyma. (*Atalar sözü*) **3.** Əsil sevinc zəhmətdən sonrakı istirahətdir. (*İ.Kant*) **4.** Bu gün çıxdığınız hər pillə sabahkı həyatınızın təməlidir. (*V.Rayx*) **5.** Həyatda əziyyətsiz rahatlıq yoxdur. (*N.Tusi*) **6.** Əvvəlcə həqiqəti bilmək lazımdır: həqiqət bilinərsə, səhv də bilinər. (*Ə.Məhəmməd*) **7.** Adamlara xoş gələni deyil, faydalı olanı məsləhət gör. (*Solon*)

✓ *Hansı müdrik fikir mətnin məzmununa uyğun gələ bilər?*

**14.** Şəxs sonluqlarını bərpa edib cümlələri köçürün, durğu işarələrini bərpa edib səbəbini izah edin. İsmi və feili xəbərləri tapıb onların ifadə vasitələrini müəyyənləşdirin.

İnsanların yeddi vəzifəsi var... . Əgər insan bütün bu vəzifələri yerinə yetirərsə bu halda kamil insan sayılar. Əgər o bunların bir hissəsini yerinə yetirərsə natamam insan sayılar. Əgər o bu yeddi vəzifənin heç birinə əməl etməzsə deməli insan qismindən çıxır və heyvan qisminə daxil olur. Birinci vəzifə bundan ibarət... ki insan pis əməllərdən uzaq ol... .

İkinci vəzifə xeyir işlər görmək... . Üçüncü vəzifə zülmə qarşı mübarizə aparmaq... . Dördüncü vəzifə cəmiyyətdə öz yoldaşları ilə ittifaqda yaşamaq... . Beşinci vəzifə elm yolu ilə getmək... . Altıncı vəzifə elmi hər yanda yaymağa çalışmaq... . Yeddinci vəzifə bundan ibarət... ki insan öz qüvvəsi, imkanı daxilində onunla ittifaqda olan cəmiyyətdə, öz həmvətənləri və həmfikirləri arasında qanuni hüquqların müdafiəsi üçün mübarizə aparmalı... .

***(Mirzə Fətəli Axundzadə)***

✓ *Sizin bir şagird kimi hansı vəzifələriniz vardır? Öz vəzifələrinizlə M.F.Axundzadənin tövsiyə etdiyi vəzifələr arasında bir uyğunluq gördünüzmü? Həmin vəzifələri necə yerinə yetirirsiniz?*

**15.** Hansı cümlələrdə mübtəda ilə xəbər arasında uzlaşma pozulmuşdur?

**1.** Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənirlər. Bu xüsusiyyətlərdən ən yüksəyi mədəniyyətlərdir. *(Heydər Əliyev)* **2.** Analar hər şeyi görməsə belə, qəlbləri ilə duyur. *(A.N.Ostrovski)* **3.** Söz verməzdən əvvəl yaxşıca düşün, söz verdinsə, üstündə möhkəm durun. *(Seneka)* **4.** Zərərli vərdişlər qısa müddət ərzində inkişaf edib yayılırlar.

**16.** Doğru və yanlış fikirləri müəyyənləşdirin.

Mübtəda müxtəlif söz və birləşmələrlə ifadə oluna bilir.

Xəbər ifadə vasitələrinə görə iki cür olur.

*Var, yox, mümkün* tipli sözlər suala cavab verərək cümlənin ismi xəbəri olur.

Xəbər mübtəda ilə həmişə uzlaşma əlaqəsində olur.




A) B) C) D) E)



**17.** Aşağıdakı plandan istifadə edərək “Vəzifə böyük işlər görmək deyil, lazım olanı etməkdir” adlı mühakimə xarakterli inşa yazın.

**PLAN:**

1. Vəzifə dedikdə nə başa düşürük?
2. Qarşımızda duran vəzifələr hansılardır?
3. Vəzifələri yaxşı yerinə yetirmək üçün nə lazımdır?
4. Öz vəzifələrini layiqincə yerinə yetirən şəxslərdən nümunə göstərin.
5. Biz şagird kimi öz vəzifələrimizi necə yerinə yetiririk?
6. Nəticə.

**Orfoepiya**

Düzgün tələffüzü deyin və səbəbini göstərin.

böyük qələbə – [...]
böyük uğur – [...]

**Orfoqrafiya**

Mətndə altından xətt çəkilmiş sözlərdən hansılar səhvdir?

↓ **qənimət** ↓ **qalibiyyət**

İlk müsəlman türk dövlətlərindən olan Qəznəlilərin böyük hökümdarlarından biri Sultan Mahmud Hindistana etdiyi bir yürüşdə çox çətinlik çəkmiş, qələbə qazana bilməyəcəyini düşünməyə başlamışdı. *Bu çətin vəziyyətdə "Ey Rəbbim!* ***Əgər döyüşdə qalib gəlsəm, ələ keçirəcəyim bütün qənimətləri yoxsullara paylayacağam" sözləri ilə nəzir demişdi.*** *Sultan Mahmud böyük qələbə qazanaraq çox dəyərli qənimətlərə sahib olmuşdur. Qəznəyə qayıtdıqda əldə etdiyi bütün qənimətləri yoxsullara, ehtiyacı olanlara paylamağa başlamışdır. Bu vəziyyətə bəzi vəzir və komandanlar etiraz etmişlər. Sultan Mahmud: "Bu mənim dediyim nəzirdir. Şüphəsiz ki, hamısını paylayacağam",* – dedikdə isə "Amandır, sultanım, yoxsullar bu dəyərli qənimətlərdən nə anlayacaqlar? **Bir hissəsini paylayın, ən dəyərli olanlarını isə xəzinəyə qoyun!** Xəzinənin də bu qənimətlərə böyük ehtiyacı var", – deyərək Sultanı çaşdırmışlar. Bundan sonra Sultan Mahmud Qəznədə yaşayan, sözün doğrusunu deməkdən çəkinməyən alim bir şəxslə məsləhətləşmək qərarına gəlir. Fikrini soruşduğu həmin böyük şəxs Sultan Mahmuda belə cavab verir: – Sultanım! Bu vəziyyətdə tərəddüt etmək yersizdir. Əgər Allaha bir daha işiniz düşməyəcəksə, vəzirlərinizin, sərkərdələrinizin dediyini edin! Lakin Allaha yenidən dua edib nə isə istəyəcəksinizsə, nəzirinizi yerinə yetirin, qənimətləri yoxsullara paylayın!

*"Düşünən insan" jurnalından, 2014-cü il*

**1.** Mətni adlandırın və abzaslara ayırın.

**2.** Sizcə, Sultanın verdiyi vəd ilə qazanılan qələbə arasında əlaqə varmı?

**3.** Vəzir və komandanlar nə üçün əldə edilən qənimətin xəzinəyə qoyulmasını istəyirdilər? Onlar nə üçün xəzinənin bu qənimətə ehtiyacı olduğunu düşünürdülər?

**4.** Alimin Sultan Mahmuda verdiyi məsləhətə münasibət bildirin.

**5.** "Düşmən qoşunları tərəfindən ələ keçirilən qənimət Azərbaycana hansı maddi və mənəvi ziyan vurub" mövzusunda fikir mübadiləsi aparın.

Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasından "Zalım padşahla Zahidin hekayəti"ni dinləyin və tapşırıqları yerinə yetirin.

- ✓ *Dinlədiyiniz və oxuduğunuz mətnləri məzmun və ideya baxımından müqayisə edin. Nəyi müşahidə etdiniz? Hansı qənaətə gəldiniz?*
- ✓ *Mətnlərdə xalqımıza məxsus hansı mənəvi dəyərlər təbliğ olunur? Sizcə, bu, mənəvi, yoxsa başəri dəyər hesab olunur?*
- ✓ *Mənəvi və başəri dəyərlər dedikdə nə nəzərdə tutulur?*

*Şəkli təsvir edin.*




**6.** *Mətnə əsasən çərçivəyə alınmış sözləri uyğun ifadələrlə əvəz edin. Nə müşahidə etdiniz?*

**7.** *Çətin, böyük, xəzinə* sözlərini həqiqi və məcazi mənalarda işlədin. Fikirlərinizi əsaslandırın.

**8.** Sözlərin qarşılığını müəyyən edin.

döyüş → ?

kömək etmək → ?

qənimət → ?

**9.** *Əl* sözünü yönlük, təsirlik, yerlik, çıxışlıq hallarda işlətməklə frazeoloji birləşmələr yaradın. Nümunədən istifadə etməklə cümlələr qurun, birləşmələrin həqiqi və ya məcazi mənada olduğunu əsaslandırın.

*Nümunə:*

əldən düşmək → Bağda çox işlədiyi üçün tamamilə əldən düşmüşdü. — *(məcazi məna)*

əldən düşmək → Top əlindən düşdü. — *(həqiqi məna)*

**10.** Mətndə bənövşəyi rəngdə verilmiş cümlələrdə mübtəda və xəbəri müəyyənləşdirin, onların işlənmə yerinə diqqət yetirin. Səbəbini izah etməyə çalışın.

**11.** Mətndə tünd şriftlə verilmiş cümlələrə mübtəda artırın və onların xəbərlə uzlaşmasına diqqət yetirin.

**12.** Cümlələrdəki mübtəda və xəbərləri tapın. Sonra bir-biri ilə əlaqələnən sözləri və onların nə bildirdiyini müəyyənləşdirin. Hansı söz və ifadələr xəbərə aid olub obyekt anlayışı bildirir?

**1.** Sultan Mahmud böyük qələbə qazanaraq çox dəyərli qənimətlərə sahib oldu. Həmin qənimətləri yoxsullara payladı. **2.** Kiçik nöqsanlar böyük səhvlərə aparır. (*Seneka*) **3.** Elm insanı şübhədən, yaxşılıq əziyyətdən, qərarlı olmaq qorxudan qurtarır. (*Konfutsi*)

*Nümunə:*

Ağıllı insanlar qərarlarını tələsik deyil, düşünərək verirlər. (*C.Teylor*)

*(obyekt bildirən söz)*

**13.** Ümummilli lider Heydər Əliyevə məxsus aforizmlərdə obyekt bildirən sözləri seçin, fikrinizi əsaslandırın.

**1.** Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam. **2.** Mən çox böyük sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqıma həsr etmişəm. **3.** Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır. **4.** Mənim üçün xalqın mənə göstərdiyi etimaddan və etibardan yüksək mükafat yoxdur. Başçılıq etdiyim dövlətdə mən özüm üçün başqa bir mükafat görmürəm. **5.** Azərbaycan prezidenti kimi mən Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz.



**14.** Cümlələrdə işarələnmiş sözlərin qrammatik fərqini izah edin. Fikirlərinizi əsaslandırın.

**1.** Davadan *sülh* daha yaxşıdır, məncə. (*S.Şirazi*) **2.** Özümüzdən başqa heç kəs bizim üçün *sülh* təmin edə bilməz. (*Emerson*) **3.** *Sülh* tacı səltənət tacı ilə müqayisə edilməyəcək dərəcədə gözəl və dəyərlidir. (*Epikür*)

✓ *Özünüz də belə nümunələr yazın.*

İsmin yönlük, təsirlik, yerlik, çıxışlıq hallarında olub, cümlədə əşya və obyekt anlayışı bildirən ikinci dərəcəli üzvə tamamlıq deyilir.

Tamamlıq *kimə?, nəyə?, haranı?, kimi?, nəyi?, nə?, kimdə?, nədə?, kimdən?, nədən?* suallarından birinə cavab verir.

Adlar, ismi və feili birləşmələr, mürəkkəb adlar cümlədə tamamlıq vəzifəsində çıxış edə bilir.

Yaxşılıq etməsən əgər insana, *(isim)*
Böyüklük şərəfi verilməz sana. *(əvəzlik)* (*N.Gəncəvi*)

Soruşub öyrənməyi *(məsdər tərkibi)* özünə *(əvəzlik)* ar bilmə.

İndi Zəhra belə bir xahişlə **ana dili müəlliminə** *(ismi birləşmə)* müraciət etmək istəyirdi.

Tamamlığın şərti işarəsi: - - - - - - - -

**15.** Verilmiş söz və söz birləşmələrinə müvafiq şəkilçilər artırmaqla cümlələri tamamlayın, həmin sözlərin əşya, yoxsa obyekt anlayışı bildirdiyini izah edin.

**1.** Müdrik adam (***öz, rəva görmək***) (***başqa***) da rəva görməz. (*Konfutsi*) **2.** Xan, başına dönüm, sən nişan verdiyin (***dam-daş***) tapdım, (***qutu, qapaq***) qaldırdım. (*C.Məmmədquluzadə*) **3.** Mən istəyirəm ki, o, (***başqa, öyrətmək, həzz almaq***) bacarsın. (*Ə.Fərəc*) **4.** Pislik görməkdən deyil, pislik etməkdən qorxmalıyıq. (*C.Kolenson*) **5.** (***Bədbəxtlik, səbəb***) başqa yerdə yox, özümüzdə axtarmalıyıq. (*A.Frans*) **6.** (***Ərəb, yunan, gürcü və hind əlifba***) böyük hərf yoxdur. **7.** Bəzənib başdan-başa (***şəhər, kənd***), Cənnət görmək istəyən (***Azərbaycan***) gəlsin. (*S.Rüstəm*)

**16.** Mətndə (səh. 74) fərqləndirilmiş hissədə tamamlıqları seçib onların ifadə vasitələrini müəyyənləşdirin.

**17.** Aşağıdakı söz və söz birləşmələrinə müvafiq şəkilçilər artırıb nöqtələrin yerinə uyğun olanını qoyun.

*nitq, qılınc, durğu işarələri, dimdik, baş, dil, xəyal göyləri*

**1.** Bəzən dil sıyrılmış .... bənzər, Ayıq ol, .... bədəndən üzər. (*Ə.Xaqani*) **2.** Quş ...., insan .... tələyə düşər. (*Atalar sözü*) **3.** İlk .... eramızdan 400 il əvvəl yaşamış məşhur yunan alimi Aristifan istifadə etmişdir. **4.** .... gəl, sözünlə möcüzə yarat, .... sən aç qol-qanad. (*A.Ərdəbili*)

**18.** Aşağıdakı ifadələrdən istifadə etməklə rabitəli mətn qurun.

*İnsanın xoşbəxtliyi, həyatın mənası, tərbiyənin vacibliyi, dövlət qayğısı, şərəfli ömür, əxlaqlı insan, vətən borcu, övlad tərbiyəsi*

III BÖLMƏ

# 5 ZƏHƏR

**Orfoqrafiya**

Altından xətt çəkilmiş cümlədə hansı söz səhv yazılmışdır?

**Orfoepiya**

Hansı düzgündür?

- [yaşıyır] – [yaşayır]
- [dəfəyə] – [dəfiyə]

Uzun illər bundan əvvəl Çində bir qəbilədə Lili adında bir qız yaşayırdı. Qəbilənin başçısının da çox gözəl bir qızı var idi. Əvvəllər yaxın rəfiqə olan bu qızların arasında sonradan ciddi ədavət yaranır. Davasız bir günləri də keçmirdi. Qızlar arasındakı düşmən münasibət artıq ailə başçılarına da *sirayət edirdi.* Bir neçə ay sonra artıq bu vəziyyətdən cana doyan Lili atasının köhnə dostu, dərmansatan qoca kişinin yanına gedərək ona *dərdini açır.* Yaşlı adam bitkilərdən düzəltdiyi bir tozu Liliyə verib deyir:

– Bu, dünyanın ən güclü zəhəridir. Amma bir dəfəyə versən, qız elə o an öləcək və hamı bunu sənin etdiyini biləcək. Sən 3 ay müddətində bu zəhərdən az-az onun yeməyinə qat. Başçının səndən şübhələnməməsi üçün bu 3 ay boyunca qızla xoş *rəftar et,* qonaq çağırıb ona gözəl yeməklər bişir!

Sevinc içində evə dönən Lili qocanın dediklərini etməyə başlayır. Qıza qarşı xoş davranır, hər gün ən ləziz yeməkləri bişirir və hər dəfə onun yeməyinə bir damcı zəhər qatır. Artıq onların arasında mehribançılıq yaranır. Lilinin xoş rəftarını bəyənən başçı da ona artıq öz qızı kimi baxır. <u>İkinci ayın sonlarına yaxın Lili etdiyi əməldən peşiman olmağa başlayır və vicdan əzabına dözməyərək qoca dərmansatanın evinə gedib deyir</u>:

*Lilinin bu hərəkəti onun hansı xüsusiyyətini üzə çıxarır?*

– Mən qızın ölməsini istəmirəm. Yalvarıram, ona indiyə kimi verdiyim zəhəri qanından təmizləyəcək bir dərman verin!

Qoca gülümsəyərək deyir:

- *Sizcə, qoca dərmansatan Liliyə nə deyəcək?*

*– Qızım, sənə verdiyim zəhər az tapılan nadir dərmanlardan hazırlanıb. Rəfiqəni xilas edəcək dərman hazırlamaq uzun müddət tələb edir.*

*– Qızım, verdiyim zəhər yox, şəfaverici otların qarışığı idi. Əsil zəhər sənin ürəyində idi, amma qıza qarşı xoş davrandıqca qəlbindəki zəhər də təmizləndi və yerinə sevgi doldu...*

*– Qızım, onu artıq xilas etmək mümkün olmayacaq. Çünki sənə verdiyim dərman zəhərli bitkilərdən hazırlanmışdı və tədricən rəfiqənin qanına işləmişdir.*

*"Füyuzat" jurnalından, 2010-cu il*

**1.** Ardıcıllığı bərpa etməklə mətndə ifadə olunan əsas fikri müəyyənləşdirin və ona münasibətinizi bildirin.

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| öz daxili aləmini | xoş rəftar, sevgi ilə davranarsa, | elə insanın özüdür. | ən böyük problemi | insan-larla |

| 6 | 7 | 8 | 9 | 10 | 11 |
|---|---|---|---|---|---|
| daha gözəl günlər | İnsanın | təmizlə-məyə çalışıb | Hər kəs | yaşaya bilər. | bu dünyada |





**2.** Qoca dərmansatan obrazına münasibət bildirin, davranışına görə onun zahiri görkəmini təsvir edin və mətnin uyğun hissəsinə əlavə edin.

**3.** Lili dərmansatanın “məsləhətləri”nə əsasən “zəhər”dən istifadə edərkən nə üçün mülayimləşdi? Bu onun hansı xüsusiyyətini üzə çıxarır?

**4.** Dərmansatanın “əsil zəhər sənin ürəyində idi” fikrini izah edin.

**5.** Necə bilirsiniz, qızlar arasında sevgi və dostluğun bərpası qəbiləni möhkəmləndirəcəkmi? Fikirlərinizi əsaslandırın.

**6.** Sizcə, “insan üçün ən böyük problemi elə insan özü yaradır” fikri ilə razılaşmaq olarmı? Fikrinizi qarşılaşdığınız oxşar hadisələrlə müqayisə edin.

**7.** *Ədavət, ədalət, ətalət* sözlərinin leksik mənalarını müqayisə edin.

**8.** Mətndə fərqləndirilmiş söz və ifadələrin qarşılığını tapın.

**9.** Sxem əsasında danışın.



**10.** İlk abzasdan *necə?, hansı?* sualına cavab verən söz və ifadələri tapın, onların cümlədəki rolunu müəyyənləşdirməyə çalışın. Həmin cümlə üzvlərinin nə ilə ifadə olunduğunu müəyyənləşdirin.

Təyin *necə?, nə cür?, hansı?, neçə?, nə qədər?, neçənci?* suallarından birinə cavab verir.

İsim, sifət, say, işarə və təyini əvəzliklər, mürəkkəb adlar, ismi birləşmələr, feili sifət və feili sifət tərkibləri cümlədə təyin ola bilir.

Təyinin şərti işarəsi: 〰〰〰

**11.** Altından xətt çəkilmiş sözlərin hansı təyindir? Fikrinizi əsaslandırın.

Alimdən soruşurlar:
– Kimi, həqiqətən, əsil ağıllı adam hesab etmək olar? Tapşırığın mahiyyətini bilmədən iş dalınca gedən adamı *ağıllı* hesab etmək olarmı?
Alim cavabında:
– Ağıllı o adamdır ki, dinləməyi, əməl etməyi və nəticə çıxarmağı bacarır.

✓ *Bu mətndən çıxan əsas fikri "Zəhər" hekayəsinin ideyası ilə əlaqələndirin.*

✓ *Siz necə, dinləməyi, əməl etməyi və nəticə çıxarmağı bacarırsınızmı?*

✓ *Kimin verdiyi məsləhətlərə daha çox qulaq asırsınız?*

✓ *Fərqləndirilmiş sözün qrammatik mənasını deyin. Fikrinizi nümunələrlə əsaslandırın.*

**12.** "Zəhər" mətninin sonuncu abzasındakı cümlələrdən təyinləri çıxarıb yazın. Sonra hər iki hissəni müqayisə edin. Nə müşahidə etdiniz?

**13.** Verilmiş cümlələrdə təyinləri tapıb nə ilə ifadə olunduğunu deyin.

- Saib Təbrizinin dünyada yeganə tam külliyyatı Hindistanda aşkar edilib. 230 min misradan ibarət olan bu külliyyatı Özbəkistan alimləri tapıblar.

- XVI əsrin Azərbaycan şairi Fədai Təbrizinin "Bəxtiyarnamə" adlı poemasının əlyazması Təbrizdə, onun şəxsi arxivində saxlanılır.

- 1955-ci ildə Hindistana ezam olunmuş Eyyub Tağıyev neft ehtiyatlarının qiymətləndirilməsi və geoloji işlərin aparılmasında mütəxəssis hesab olunurdu.

*("Füyuzat" jurnalından, 2011-ci il)*

- Əgər bir müəllim olsa bədəsil,
  Yetişdirə bilməz bəxtiyar nəsil.

  *(Sədi Şirazi)*

**14.** Mətni oxuyun. Uyğun ifadələri seçməklə cümlələri tamamlayın.

İbrahim bəy Aslanbəyov 1822-ci ildə Bakıda anadan olmuşdur. O, Peterburqdakı dənizçilik məktəbini adı “Qırmızı lövhə”yə yazılmaqla bitirmişdir.

Hələ sağlığında – 1882-ci ildə Saxalində bir yarımada, Oxot dənizində isə bir körfəz onun adı ilə adlandırılmışdır. “Dəniz xəritəsi nəql edir” kitabında həmyerlimiz haqqında verdiyi məlumat xüsusi əhəmiyyət kəsb edir.

İbrahim bəy Mirzə Kazım bəylə dost olmuşdur. Lev Tolstoy Aslanbəyovu axtarıb tapmış, admiral Naximovun həlakolma səhnəsini ona danışmasını xahiş etmişdir. L.Tolstoy özünün “Sevastopol hekayələri”ni yazarkən İ.Aslanbəyovun xatirələrindən bəhrələnmişdir.

*admiral, üç il Peterburqda təhsil alan, qısa, Azərbaycanın ilk vitse-admiralı, bioqrafik, Boris Maslennikovun 1986-cı ildə nəşr etdirdiyi, məşhur, həmyerlimiz, dahi rus yazıçısı*

**(Şəmistan Nəzirli)**

✓ *Sizcə, mətndəki təyinləri bədii təyin adlandırmaq olarmı? Yoldaşlarınızla fikir mübadiləsi aparın.*

**15.** Bədii təyinlərlə qrammatik təyinləri fərqləndirin. Oxşar və fərqli xüsusiyyətlərini deyin.

| | bədii təyin | təyin |
|---|---|---|
| Başına döndüyüm gülüzlü sona,<br>Ömrümün ilk çağı yadıma düşdü.<br>*(S.Vurğun)* | ☐ | ☐ |
| Bilik öyrənməyi ar bilən hər kəs<br>Dünyada mərifət qazana bilməz.<br>*(N.Gəncəvi)* | ☐ | ☐ |
| Böyük ixtiraçı dünyadan heç nə ummur, əksinə, öz kəşfləri ilə onu irəli aparır.<br>*(P.Hill)* | ☐ | ☐ |
| Ən iti qılıncı cəsur əsgərə verirlər.<br>*(Çin atalar sözü)* | ☐ | ☐ |
| Qızıl payız nəğmə deyir<br>Qızıl qəlbli insanlara!<br>*(N.Xəzri)* | ☐ | ☐ |
| Şəhərə sarı şütüyən maşınların işıqları yuxarıdan baxanda yanıb-sönən ulduzları xatırladırdı. | ☐ | ☐ |

**16.** “Səadət günəşi birlikdən doğar” adlı nəqli xarakterli inşa yazın. “El bir olsa, zərbi kərən sındırar” atalar sözündən sitat kimi istifadə edin.

III BÖLMƏ

# 6 | QARANQUŞLARIN ÖMRÜ 6 AYDIR...

Cabir Novruzun "Sağlığında qiymət verin insanlara" şeirini dinləyin, tapşırıqları yerinə yetirin.

- ✓ *Mətnin məzmununu yığcam şəkildə nəql edin.*
- ✓ *Mətn əsasında bir neçə sual tərtib edin.*
- ✓ *Şeir vasitəsilə şair hansı fikri təbliğ edir?*
- ✓ *Sağlığında qiymət verin insanlara fikrinə münasibət bildirin.*

**Orfoepiya**

**Düzgün tələffüzü yazın.**

istəyirdi – [...]
başlayır – [...]

**Orfoqrafiya**

Fərqləndirilmiş sözlərdə mötərizədəki nöqtələrin yerinə hansı hərf yazılmaldır?

Qaranquş ikinci mərtəbədə yaşayan və pəncərəsi küçəyə baxan bir adamla dost olmaq istəyirdi. Bir gün bütün cəsarətini toplayıb onun pəncərəsinin qarşısına qondu. Dərin bir nəfəs aldıqdan sonra pəncərənin şüşəsini döyməyə başladı: tıq... tıq... tıq...

Adam bərk *məş(...)ul* idi. Səsi eşidib pəncərəyə yaxınlaşdı. Qaranquşu gördü. Qaranquş həyəcanla: "Ey insan, mən səninlə dost olmaq istəyirəm. Nə olar, məni içəri burax", – dedi. Adam isə əsəbiliklə: "Sən haradan çıxdın, bircə sən çatmırdın. Heç quşdan da insana dost olar?" – deyə cavab verdi. Qaranquş məyus oldu. Ancaq ruhdan düşmədi: "Ey insan, pəncərəni aç, məni içəri burax. Sənə sirdaş olaram. Səni darıxmağa qoymaram". Adam isə çox inadkar idi: "Boş yerə özünü yorma. Səni içəri buraxa bilmərəm". Balaca qaranquş fikrindən dönmək istəmirdi: "Bir bax, havalar soyumağa başlayır, burada üşüyürəm. Məni içəri burax, yoxsa soyuqdan dona bilərəm. Çünki mən ancaq isti ölkələrdə yaşayıram. Peşman olmazsan. Görürəm, sən də təksən, mənimlə tənhalığını unudarsan..."

Bəzən insanlar həqiqəti eşitməyi sevmirlər. Odur ki qaranquşun son sözü adamı özündən çıxardı, hirslə: "Mən *tənhalı(...)ımdan* razıyam", – deyərək quşu qovdu. Qaranquş adamın inadkarlığından əl çəkmək istəmədiyini görüb uçub getdi...

Nəhayət, yaz gəldi. Qaranquşlar köhnə yuvalarına qayıtdılar. Ancaq onun axtardığı quş hələ də gözə dəymirdi. Yaz qurtarana qədər pəncərəsini açıq qoydu. Ancaq nə fayda?

Aradan xeyli vaxt keçmişdi. Bir gün qaranquş adamın yadına düşdü. Düşündü... düşündü... Nəhayət, öz-özünə: "Ey ağılsız insan, gör sən nə qədər düşüncəsizsən. Belə gözəl fürsəti əldən buraxdın. Niyə onun təklifini qəbul etmədin? İndi oturub düşünməkdənsə, onunla yaxşı vaxt keçirərdin", – dedi. Adam peşman olmuşdu, ancaq iş-işdən keçmişdi. Sonra öz-özünə təskinlik verməyə başladı: "Havalar qızanda mənim qaranquşum da uçub gələr. Mən də onu içəri buraxaram, bir yerdə xoşbəxt yaşayarıq". Oturub havaların qızmağını gözləməyə başladı.

Qaranquş hələ də yox idi. Axırda dözmədi və dünyagörmüş bir qocaya dərdini açdı. Qoca onu dinlədi, sonra da bir kəlmə ilə: "Qaranquşların ömrü 6 aydır", – dedi...

***"Füyuzat" jurnalından, 2011-ci il***

**Sizcə, qoca bununla nə demək istədi?**

Həyatda elə fürsətlər var ki, ancaq bir dəfə ələ düşür və qədrini bilməyəndə “uçub gedir”. Həyatda elə insanlar var ki, ancaq bircə dəfə qarşımıza çıxır, qiymətini və dəyərini bilməyəndə çıxıb gedir.

*Diqqətli olun və bir də düşünün, bu günə qədər pəncərənizdən neçə qaranquş qovmuşsunuz?*



*Bu hissə dinlədiyiniz, yoxsa oxuduğunuz mətnin əsas ideyası ola bilər? Fikirlərinizi əsaslandırın.*

**1.** Mətndə hansı abzas yerində deyil? Onu yerinə qoyub məntiqi ardıcıllığı bərpa edin. Seçiminizi əsaslandırın.

**2.** Hansı atalar sözü mətnin ideyasına daha çox uyğun gəlir?
- Ehtiyat igidin yaraşığıdır.
- Sonrakı peşmançılıq fayda verməz.
- Nə tökərsən aşına, o da çıxar qaşığına.

**3.** Mətnin nəticə hissəsi ilə bağlı yanlış fikir hansıdır?

A) Xalq müdrikliyi özünü göstərir.
B) Adam dünyagörmüş qocadan məsləhət alır.
C) Adam quşa qarşı etdiyi kobudluğa görə özünü danlayır.
D) Dünyagörmüş qoca son cümləni qəsdən deyir.
E) Mətndəki əsas fikir son abzasdan çıxır.

**4.** Sxemi tamamlayın.

| *Mətndə problem* | *Problemi yaradan səbəblər* | *Problemin həlli yolu* |
|---|---|---|
| • . . . | • . . . | • . . . |

**5.** “Zəhər” hekayəsindəki Lili obrazı ilə qaranquşu qovan adamı müqayisə edin. Onları eyniləşdirən xüsusiyyət varmı? Niyə belə hesab edirsiniz?

**6.** Həyatınızda belə hadisələr olubmu? Kimisə haqsız yerə incitmişsinizmi? Hərəkətinizdən nə nəticə çıxarmısınız?

**7.** Cabir Novruzun “Sağlığında qiymət verin insanlara” şeirinin ideyasını mətnin ideyası ilə əlaqələndirin.

**8.** Mətndən frazeoloji birləşmələri seçin və onların qarşılığını tapmağa çalışın.

**9.** *Ruhdan düşmək, fikrindən dönmək, özündən çıxarmaq, gözə dəyməmək* ifadələrinin frazeoloji birləşmə olduğunu əsaslandırın və onları bir sözlə ifadə etməyə çalışın.

**10.** *Qiymət* sözünü aşağıdakı mənalarda cümlədə işlədin. Hansının məcazi mənada olduğunu izah edin.

- nəyinsə pul vahidləri ilə ifadə olunan dəyəri
- şagirdin, tələbənin bilik dərəcəsinə verilən şərti simvol, işarə
- əhəmiyyət, dəyər

**11.** *Qiymətdən salmaq* və *qiymət vermək* birləşmələrini həm həqiqi, həm də məcazi mənada cümlədə işlədin.

**12.** Mətndə altından xətt çəkilmiş cümlələrdə söz və söz birləşmələrinin sintaktik vəzifəsini müəyyənləşdirin. Təyinin hansı cümlə üzvünü izah etdiyini deyin.

**13.** Təyinləri ixtisar etməklə mətni köçürün. Sonra hər iki mətni müqayisə edin.

İllərlə yanaşı yaşamış, ocağında közü olmayanda közü, təknəsində çörəyi olmayanda çörəklərini paylaşmış iki qonşu var idi. Xeyirlərində, yaslarında ortada olan çəpərlərini sökmüşlər, həyəti həyətə qatmışlar, sevinci, hüznü birlikdə yaşamışlar.

Bir gün azğın düşmən kəndə girir. Qonşunun birində xəstə qoca, körpə uşaqlar, o birində isə özlərini xilas etməyə fiziki gücü olanlar var idi. Ağlar gözlə, böyük dərdlə evlərini tərk etmək istərkən birdən ailə böyüyünün yadına xilas olmağa, uzaqlaşmağa gücləri yetməyən qonşusu düşür: “Dayanın! Qonşumuz qaldı. Yaşayacağıqsa, bir yaşayacağıq, öləcəyiksə, bir öləcəyik. Qocanı qucağınıza götürün, uşaqları kürəyinizə alın: biz onları düşmən əlində buraxa bilmərik. Onlar bizim axirət qonşularımızdır”.

Bu, sevincini, kədərini bir yaşayan, həmvətənlərinin ölümünə yol verməyən qonşuların birliyi, həmrəyliyi idi.

*(“Füyuzat” jurnalından, 2012-ci il)*

✓ *Mətnin məzmununu “Qaranquşların ömrü 6 aydır” mətninin məzmunu ilə əlaqələndirin. Hansı nəticəyə gəldiniz?*

*Nifaqa, fitnəyə tutarlı cavab, sərt şillə!*

*İnsanlığın adı, özü, gələcəyi!*

*Milli yüksəlişə gedən yol!*

?

*Tarixin qorxunc fırtınasının qabağını kəsən möhkəm sədd, alınmaz qala!*

*Ağsaqqallı, böyüklü olmaq demək!*

✓ *Sizcə, hansı söz bu fikirləri ümumiləşdirə bilər?*

**14.** “Təyinlərin nitqdə rolu” mövzusunda mətn hazırlayın.

***Həcm:*** *15-20 cümlə*

III BÖLMƏ

# 7 HƏMRƏYLİYİMİZ ƏBƏDİDİR



*"Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".*

**Ümummilli lider Heydər Əliyev**

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanda başlayan milli azadlıq mübarizəsinin ən gərgin vaxtında Heydər Əliyev dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsinin Azərbaycanın gələcəyi üçün tarixi və *strateji* önəm daşıdığını uzaqgörənliklə müəyyən etdi. Həmin dövrdə Ulu öndər tərəfindən irəli sürülmüş azərbaycançılıq ideyası Azərbaycanın dünya birliyinə *inteqrasiyasının* təməl sütunlarından biri oldu. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabr ayının 16-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" tarixi qərarı qəbul etdi. Bu qərara əsasən dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edildi.

Sizcə, həmrəylik yalnız ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar arasında olmalıdır?

Beləliklə, dünyanın 70-dən yuxarı ölkəsinə səpələnən 50 milyondan çox azərbaycanlının vahid azərbaycançılıq ideyası ətrafında birləşdirilməsinin və milli *diasporomuzun* formalaşdırılmasının əsası qoyuldu.

1992-ci ildə Azərbaycan Respublikasının parlamenti 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunmasına dair qərar qəbul etdi. 1993-cü ildə isə Azərbaycan Prezidentinin fərmanı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi rəsmi bayram elan edildi. Bu tarixi gün ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Sizcə, niyə bütün azərbaycanlılar birləşməlidir?

Ulu öndər Heydər Əliyev azərbaycançılıq ideyasının dünya azərbaycanlılarının həmrəyliyinin təmin edilməsində rolunu yüksək qiymətləndirirdi. O, güclü *diaspora* təşkilatının formalaşdırılmasının və onun Azərbaycan dövləti ətrafında daha sıx birləşməsinin vacibliyinə diqqəti cəlb edərək 2001-ci il noyabr ayının 9–10-da Bakıda keçirilən **Dünya Azərbaycanlılarının I Qurultayında** demişdir:

*"Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyət onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!!!"*

Bu dahiyanə fikirlər hər gün daha çox önəm daşıyır.

*Araz Yaqubov*

**1.** Mətndəki əsas faktları seçib fikir mübadiləsi aparın. Mətnin əsas ideyasını müəyyən edin və bu gün onun necə həyata keçirildiyini əsaslandırın.

**2.** Milli azadlıq mübarizəsi xalqımıza nə üçün lazım idi?

**3.** Azərbaycan xalqının milli azadlıq hərəkatı haqqında nə bilirsiniz?

**4.** Dünya azərbaycanlılarının həmrəyliyi haqqında faktlar toplayıb mətnə əlavələr edin.

**5.** 84-cü səhifədə həmrəylik haqqında verilmiş fikirlərin düzgün olduğunu əsaslandırın.

**6.** Azadlıq haqqında görkəmli şəxslərin söylədikləri ifadələri toplayın. Nitqinizdə onlardan sitat kimi istifadə edin.

**7.** Fərqləndirilmiş sözlərin leksik mənalarını lüğət vasitəsilə izah edin.

**8.** "Harada axar su varsa, orada yaşıllıq var,
Harada birlik, qardaşlıq, dostluq varsa,
orada mərhəmət, sevgi və səadət var"
(*C.Rumi*) kəlamından sitat kimi istifadə etməklə məqalə və ya inşa yazın.



**9.** Şəkil əsasında mühakimə xarakterli inşa (esse) yazın. Yazınızda sitatlardan istifadə edərək fikirlərə öz münasibətinizi də bildirməyi unutmayın.

***Həcm:*** *30-40 cümlə*

III BÖLMƏ

# 8 İNANILMAZ TARİXİ FAKT

**1.** Mətndə mötərizədə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar?

Orfoepiya

**Hansı düzgündür?**

[minnətdarlıx] – [minnətdarrıx]
[bataqlıx] – [bataxlıx]
[ümidsizdix'] – [ümitsizdix']

*Bütün əməllər insanın özünə qayıdır.*

Uinston Çörçill

**OXUDAN ƏVVƏL** *Çörçillin kəlamını izah edin. Sizcə, onun mətnlə nə kimi əlaqəsi olacaq?*

Bu, çoxdankı əhvalatdır. Bir şotland fermeri bataqlığın yanından keçərək evə qayıdırdı. Birdən o kiminsə kömək çağırışlarını eşidir. *Fermer dərhal kömək üçün səs gələn tərəfə qaçır və batan bir oğlan uşağını görür. Oğlan bataqlığın ölüm saçan ağırlığından xilas olmağa çalışır, lakin bu çapalama onu ölümə daha çox yaxınlaşdırırdı. Oğlan qorxu və ümidsizlik içində qışqırırdı. Fermer tez bir qalın ağac budağı tapıb ehtiyatla ora yaxınlaşır və ağacı batan oğlana uzadır. Oğlan təhlükəsiz yerə çıxır. O, soyuqdan və həyəcandan əsir, göz yaşlarını saxlaya bilmirdi. Lakin əsas bu idi ki, o, xilas olmuşdu!*

– Bizə gedək, – deyə fermer ona təklif etdi. – Sən sakitləşməli, paltarını qurutmalı, isinməlisən.

– Yox, yox, – oğlan dedi, – atam məni gözləyir. O, yəqin, çox narahatdır.

Minnətdarlıq ifadə edən gözlərlə öz xilaskarına baxan oğlan təşəkkür edib evlərinə gedir...

*Xilas olmuş oğlanın hərəkətinə münasibət bildirin.*

(Səhər, sabah) tezdən fermer onun qapısına bir **gözəl karetanın** yaxınlaşdığını gördü. Karetadan çox şıq və bahalı geyimli bir centlmen çıxıb ona sualla müraciət etdi:



– Dünən mənim oğlumu sizmi xilas etmisiniz?
– Bəli, mən, – deyə fermer cavab verdi.
– Mənim sizə borcum nə qədər olacaq?
– Xətrimə dəyməyin, cənab. Siz mənə borclu deyilsiniz, çünki mən hər bir normal insanın edəcəyi hərəkəti yerinə yetirdim.
– Çox **gözəl** dediniz. Lakin bilirsiniz, oğlum mənə çox əzizdir. İstədiyiniz (məbləği, qiyməti) deyin.
– Mən daha bu mövzu barədə danışmaq istəmirəm. Sağ olun.
Fermer getmək üçün geri döndü. Bu zaman onun oğlu evdən (çıxdı, gəldi).
– Bu sizin oğlunuzdur? – varlı qonaq soruşdu.
– Bəli, – fermer fərəhlə oğlunun başını sığalladı.
– Gəlin belə edək. Mən sizin oğlunuzu özümlə Londona aparım, onun təhsil haqqını ödəyim. Əgər o, atası kimi alicənabdırsa, onda nə siz, nə mən bugünkü hərəkətlərimiz üçün heyifsilənməyəcək, peşman olmayacağıq.

Bir neçə il keçdi. Fermerin oğlu əvvəl məktəbi, sonra Tibb Universitetini bitirdi. (Bir müddətdən, bir andan) sonra o, penisilini kəşf edən insan kimi bütün dünyada tanındı. Bu, Aleksandr Fleminq idi. Müharibə başlamazdan əvvəl bahalı London klinikalarından birinə həmin varlı cənabın ağır formada sətəlcəm olmuş oğlunu gətirmişdilər. ...

*Sizcə, bu dəfə oğlanı nə xilas etdi?*
*Nöqtələrin yerinə hansı cavab olmalıdır?*

***Çörçill bununla nə demək istəyirdi?***

Fleminqin təhsil pulunu ödəyən həmin varlı kişinin adı Randolf Çörçill idi. Onun oğlu isə iki dəfə Fleminqlər ailəsi tərəfindən ölümdən xilas edilən, sonradan İngiltərənin baş naziri olmuş Uinston Çörçilldir. Sonralar hər dəfə bu hadisəni xatırlayan U.Çörçill deyirdi: "Bütün əməllərin sənə qayıdır".

***"Dünyanı dəyişən 100 adam" jurnalından***

**OXUDAN SONRA**

*Mülahizələriniz doğru oldumu?*

**2.** Mətni aşağıdakı sxemə əsasən şərh edin.




Sxemi şərh edərkən aşağıdakıları diqqətdə saxlayın:
- *tərkib hissələrin bir-biri ilə əlaqələnməsini*
- *tərkib hissələrdə təqdim olunan fakt və hadisələrin inandırıcı olmasını*
- *obrazların oxşar və fərqli xüsusiyyətlərini*
- *obrazların əsas fikrin müəyyənləşməsində rolunu*

**3.** Mətndə sizin üçün maraqlı olan hansı faktlar var?

**4.** Fermerin sözlərinə əsasən onu xarakterizə edin.

**5.** Mətndə təsvir olunan hadisələrin məntiqə uyğun olub-olmadığını əsaslandırın. Bildiyiniz fakt və hadisələrdən istifadə edin.

**6.** *Fermer, centlmen* sözlərinin leksik mənalarını izah edin.

**7.** Məntiqi ardıcıllığı müəyyən edib sxemi tamamlayın.




**8.** Mətndə altından xətt çəkilmiş cümlədə hansı sözdən sonra vergül işarəsi səhv qoyulmuşdur?

**9.** Mətndə tünd şriftlə verilmiş sözləri fərqləndirin. Onları fərqləndirmək üçün əlaqələndiyi sözlərə diqqət yetirin.

**10.** Mətndəki ikinci cümlədə *necə?* sualına cavab verən cümlə üzvünü tapın. Həmin cümlə üzvünə təyin demək olarmı? Fikrinizi əsaslandırın.

**11.** Cümlələrdə fərqləndirilmiş sözlərə sual verin və uyğunluğu müəyyən edin.

| | tamamlıq | təyin | ? |
|---|---|---|---|
| *Həqiqi* dostluq mənəvi fədakarlıqdır. (*T.Əhmədov*) | ☐ | ☐ | ☐ |
| Düşmənini öldürmək əvəzinə onu şəfqət və *məhəbbətlə* yola gətir. (*C.Allen*) | ☐ | ☐ | ☐ |
| Səadət *kamalla* yetişər başa<br>Xalqa hörmət elə, ədəblə yaşa. (*N.Gəncəvi*) | ☐ | ☐ | ☐ |
| *Ağılla* dərk edirik nöqsan cəhətləri biz<br>Nöqsanını dərk edən ağıllıdır, şübhəsiz. (*A.Bakıxanov*) | ☐ | ☐ | ☐ |
| O, skamyada oturmuş qocaya *mərhəmətlə* baxır,<br>ona necə yardım edəcəyini düşünürdü. | ☐ | ☐ | ☐ |
| O, *soyuqdan* və həyəcandan əsirdi. | ☐ | ☐ | ☐ |
| Heç qorxmayır *soyuqdan*<br>Çöldə qoçaq uşaqlar. (*T.Mütəllibov*) | ☐ | ☐ | ☐ |
| *Böyük* düşüncələr *böyük* hisslərdən yaranır. (*F.Larosfuko*) | ☐ | ☐ | ☐ |

✓ *Sizcə, sual işarəsinin yerində hansı cümlə üzvünün adı yazılmalıdır?*

Zərflik hərəkətin icrasını və əlamətin meydana çıxmasını müxtəlif cəhətlərdən izah edir.

Zərflik hərəkətin tərzini, zamanını, yerini, miqdarını (dərəcəsini), səbəbini, məqsədini bildirir.

Zərfliyin şərti işarəsi:

**12.** Mətndə fərqləndirilmiş hissədə zərflikləri tapıb onların xəbəri hansı baxımdan izah etdiyini araşdırın.

**13.** Sxemi şərh edin.




Zərflik, əsasən, feili xəbərə, bəzən də ismi xəbərə aid olur.

Müqayisə edin:

Elə danış ki, maraqlı olsun.
Hava elə isti *(o dərəcədə, o qədər)* idi ki, nəfəs almaq olmurdu.

**14.** Uyğunluğu müəyyənləşdirin.

1. Hərəkəti müxtəlif cəhətdən izah edir.
2. Bütün cümlə üzvlərinə aid olur.
3. Obyekt anlayışı bildirir.
4. Ancaq mübtədadan asılı olur.
5. Ən müstəqil üzvdür.

*a.* tamamlıq *b.* xəbər *c.* zərflik
*d.* təyin *e.* mübtəda

| | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| a | | | | | |
| b | | | | | |
| c | | | | | |
| d | | | | | |
| e | | | | | |

**15.** "Bəzən təsadüflər zərurətə çevrilir" adlı nəqli inşa yazın. Aşağıdakı plandan istifadə edin.

**PLAN:**

1. *Təsadüf nədir?*
2. *Zərurət nədir?*
3. *Təsadüf və zərurətin əlaqəsi varmı?*
4. *Fikrinizi fakt, yaxud bildiyiniz hər hansı bir hadisə ilə təsdiq və ya inkar edin.*

*Sözlərin vurğusunu deyin.*

- *centlmen*
- *həmrəylik*
- *hürriyyət*
- *inteqrasiya*
- *penisilin*

III BÖLMƏ

# 9 | SƏDAQƏT

Orfoepiya

Düzgün tələffüzü yazın.

hədiyyə – [...]
ləzzət – [...]

Adına əsasən mətndə nədən danışılacağı ilə bağlı fərziyyələr yürüdün.

*Bir gün Loğmanın ağasına hədiyyə olaraq bir qarpız gətirirlər. O, xidmətçisinə: "Oğlum, get, Loğmanı çağır!", – deyir.*

*Loğman bu çağırışa dərhal cavab verib ağasının yanına gəlir.*

*Ağası ona hədiyyə olaraq gətirilən qarpızı kəsir və Loğmana bir dilim verir. Loğman ona verilən dilimi bal kimi, şəkər kimi yeyir. Elə iştaha ilə yeyir ki, ağası dərhal ikinci dilimi kəsib ona tərəf uzadır. Beləcə, dilimlər bir-birini izləyir və Loğman bütün qarpızı yeyir.*

*Yerdə yalnız bir dilim qalır.*

*Ağası: "Bunu da mən yeyim, baxım görüm necə şeydir, hər halda, bu çox dadlı bir qarpızdır", – deyir.*

*Çünki Loğman elə ləzzətlə, elə iştaha ilə yeyirdi ki, görənlərin də iştahası açılırdı.*

Loğmanın ağası son dilimi yeyər-yeməz qarpızın acılığından ağzını atəş sarır, dili uçuqlayır, boğazı yanır.

Qarpızın acılığı onu çaşdırır. Sonra isə Loğmana deyir:

– Belə bir zəhəri necə oldu ki, dadlı-dadlı yedin? Belə bir *qəhri* necə oldu *lütf* etdin? Bu necə səbirdir? Nə üçün səbir etdin? Sanki canına *qəsdin* var! Nə üçün bir şey söyləmədin? Nə üçün "bir az səbir et, indi yeyə bilmərəm" demədin?

Loğman bu cavabı verir:

MÜƏLLİMİN OXUSUNDAN ƏVVƏL TƏXMİNLƏRİM

*Sizcə, Loğman nə cavab verəcək?*

MÜƏLLİMİN OXUSUNDAN SONRA FİKİRLƏRİM

***Cəlaləddin Rumi***

MƏTNİN OXUSUNDAN SONRA:

Mətnin adı düzgün seçilibmi?

Siz onu necə adlandırardınız?

Mətni dinləyib tapşırıqları yerinə yetirin:

- *Mətndəki hadisələrin məntiqliliyini əsaslandırın.*
- *Oxuduğunuz mətnlə dinlədiyiniz mətni məzmun baxımından müqayisə edin.*
- *Gəldiyiniz nəticəni təqdim etmək üçün müvafiq forma (mülahizə, yaxud rəy) seçin.*

**1.** Sxemi tamamlayın və şərh edin.




**2.** Mətni siz necə adlandırardınız? Fikrinizi əsaslandırın.

**3.** Loğman hansı tarixi şəxsin ümumiləşdirilmiş surətidir?

**4.** Loğmanın cavabından sonra ağanın nə deyəcəyini düşünün. Fikirlərinizi yazıb mətnlə əlaqələndirin.

**5.** Loğmanın ağasına cavabını bir cümlə ilə ifadə edin.

**6.** Sizcə, ağası nə üçün bir dilimi özü üçün saxlayıb qalanlarını Loğmana verir?

**7.** Mətndəki əsas fikri “Zəhər” hekayəsinin ideyası ilə əlaqələndirib nəticə çıxarın.

**8.** Mətndə fərqləndirilmiş sözlərin leksik mənasını izah edin.

**9.** *Bir dilim qarpız* və *mənim ana dilim* birləşmələrindəki *dilim* sözünü omonim hesab etmək olarmı? Fikirlərinizi əsaslandırın.

**10.** Sizcə, mətnin son abzasında Loğman hansı nitq etiketindən istifadə etsə, düzgün olar?

**11.** Mətndən (fərqləndirilməyən hissədə) zərflikləri seçin, onların xəbəri hansı baxımdan izah etdiyini araşdırın.

**12.** Fərqləndirilmiş hissədə zərflikləri seçib məna növünü müəyyənləşdirin.

**Tərzi-hərəkət zərfliyi** işin, hərəkətin icra tərzini bildirir və ***necə?, nə cür?, nə tərzdə?, nə vəziyyətdə?*** suallarından birinə cavab verir. Tərzi-hərəkət zərfləri, feili bağlama və feili bağlama birləşmələri cümlədə tərzi-hərəkət zərfliyi ola bilir.

- Dünyanın işini *yaxşı (necə?)* düşün sən
  Nə əksən, onu da sən biçəcəksən. (*N.Gəncəvi*)
- O *düşünmədən (necə?)* cavab verdi.

**13.** “Xain adamlara hətta onların xidmət etdikləri adamlar da həqarətlə baxırlar” (*Sokrat*) cümləsində:

1\. *Xain* sözü **təyindir**, çünki ... . 2. *Həqarətlə* ..., çünki ... .

✓ *İti sözünü cümlədə təyin və tərzi-hərəkət zərfliyi kimi işlədin, fərqini izah edin.*

✓ *Bədii ədəbiyyatdan siz də belə nümunələr seçin.*

**14.** Verilmiş cümlələrdə tərzi-hərəkət zərfliklərinin ifadə vasitələrini tapın və hansı cümlə üzvü ilə əlaqələndiyini deyin.

**1.** Xoşbəxtliyə nail olmaq üçün xalqa xidmət etmək və insanlara məhəbbətlə yanaşmaq lazımdır. (*Demosfen*) **2.** Özündən böyüklərə hörmətlə yanaş ki, sənə də o cür yanaşsınlar. **3.** Bahar heyrətlə ətrafa baxır, gördüklərinə inanmaq istəmirdi. (*M.Cəlal*) **4.** İndi bütün bunları xatırlayır, hıçqıra-hıçqıra ağlayırdı. (*Varis*) **5.** Teymur başındakı dözülməz ağrıya əhəmiyyət vermədən gedir, evlərinə çatmağa tələsirdi. (*H.Seyidbəyli*)

✓ ***Qüvvətli*** *və* ***qüvvətlə, heyrətli*** *və* ***heyrətlə*** *sözlərinin qrammatik cəhətdən fərqini izah edin. Fikirlərinizi əsaslandırın.*

✓ *Hansı cümlədə tərzi-hərəkət zərfliyi olmadı?*

**15.** Verilmiş nümunədən istifadə edərək öyrəndikləriniz əsasında tərzi-hərəkət zərfliyi ilə təyinin oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirin. Fikirlərinizi bədii ədəbiyyatdan seçilmiş nümunələrlə əsaslandıraraq kiçik bir mətn tərtib edin.

*Nümunə:*

*Mübtəda və xəbər cümlənin baş üzvləridir. Hər ikisi cümlənin qurulmasında iştirak edir. Hər iki baş üzv əsas nitq hissələri, ismi birləşmələr, feili birləşmələr və mürəkkəb adlarla ifadə olunur. Məs.:*

*Vətən müqəddəsdir.*

*Dərs oxumaq şagirdin borcudur.*

*Mübtəda və xəbərin sualları fərqlidir. Xəbər feili və ismi xəbər olmaqla iki yerə bölünür.*

*Xəbər mübtəda ilə şəxsə və kəmiyyətə görə uzlaşır. Cümlədə mübtəda iştirak etməyə də bilər.*

*Adətən, xəbərdəki şəxs sonluğuna əsasən cümlədə mübtəda bərpa edilə bilər. Məs.:*

*Evə qayıtdıq – Biz evə qayıtdıq.*

*Cümlədə xəbər iştirak etməsə, fikir bitkinliyi olmaz. Məs.:*

*Mən evə ................*

*Təyin və tərzi-hərəkət zərfliyi ...................................... .*

*Təyin həmişə .................. və ................. cavab olur.*

*Tərzi-hərəkət zərfliyi ...... .*

*Fərq ondadır ki, ............. .*

*Deməli, ....................... .*

✓ *Mətni yazarkən daha çox hansı sözlərdən istifadə etdiniz?*

✓ *Nə üçün? Hazırladığınız mətni bu vaxta qədər yazdığınız hər hansı bir dialoqla müqayisə edin. Müqayisələr əsasında elmi və bədii mətnləri fərqləndirin.*

III BÖLMƏ

# 10 | HEKAYƏT

**Orfoqrafiya**

Tünd şriftlə verilmiş sözlər bitişik, ayrı, yoxsa defislə yazılmalıdır?

**Orfoepiya**

Həmin sözləri düzgün tələffüz edin.

**əmanət** **xəyanət**

Deyirlər ki, bir kişi səhər **ala?qaranlıqda** evdən çıxıb hamama gedərkən yolda öz dostuna *rast gəlir* və deyir: "Mənimlə hamama getmək istəyirsənmi?" Yoldaşı deyir: "Hamamın qapısına qədər sənə yoldaşlıq edə bilərəm, lakin hamama gedə bilmərəm, işim var".

Hamamın yaxınlığına qədər bir yerdə gedirlər. **Yol?ayrıcına** çatdıqda dostu xəbərdarlıq etmədən geri dönüb başqa tərəfə gedir. Təsadüfən bir oğru da həmin kişinin dalısınca oğurluq məqsədilə hamama gedirmiş. Birdən kişi geri baxır, oğrunu görür, lakin hələ hava işıqlanmadığı üçün onu dostu bilib, qurşağından dəsmala bağlanmış yüz dinarı çıxarır, haman oğruya verir və deyir: "Ay qardaş, bu əmanətdir, al, mən hamamdan çıxandan sonra qaytararsan". Oğru qızılı alır, kişi hamamdan çıxana qədər heç yerə getməyib orada gözləyir. Hava işıqlanır. Kişi paltarını geyib *yola düzəlir*. Oğru onu çağırıb deyir: "Ey cavanmərd, qızılını geri al, sonra get, sənin əmanətin üzündən bu gün mən də işimdən avara oldum". Kişi deyir: "Bu nədir, əmanət nədir, sən kimsən?" Oğru deyir: "Mən oğruyam, sən isə hamamdan çıxana qədər bu qızılı saxlamağı mənə tapşıran adam". Kişi deyir: "Oğrusansa, bəs nə üçün mənim qızıllarımı aparmayıbsan?" Oğru deyir: "Əgər öz peşəmlə *ələ keçirsəydim,* min dinar olsaydı, sənə yazığım gəlməzdi, bir dinar da sənə qaytarmazdım. Lakin sən bunu mənə əmanət olaraq veribsən, insafsızlıq olar ki, sən **ali?cənablıq** edib mənə əmanət verəsən, mən də **na?nəciblik** göstərib ona xəyanət edəm".

*"Qabusnamə"dən*



Siz nəyi əmanət hesab edirsiniz? Fikirlərinizi nümunələrlə əsaslandırın.

- *Sizcə, kişi oğruya nə deyə bilər?*
- *O, dostunamı, yoxsa oğrunun sözlərinə inanacaq?*
- *Dostunun səhv hərəkəti nə idi?*

*"Səhvlər nəticə çıxarmaq üçündür" fikri ilə razısınızmı?*

**1.** Oxuduğunuz hekayəti adlandırın. Seçdiyiniz adı izah edin və seçiminizi əsaslandırın.

**2.** Mətni abzaslara ayırın və abzaslararası əlaqələrə diqqət yetirin.

**3.** Mətnin tərkib hissələri ilə bağlı fikirlərin düzgün olub-olmadığını müəyyən edin və fikirlərinizi mətndən istifadə etməklə əsaslandırın.

| 1. Giriş hissə | 2. Əsas hissə | 3. Nəticə hissə |
|---|---|---|
| *1. Kişi oğrunu öz dostu bilir.*<br>*2. Oğru öz əməlini etiraf edir.* | *3. "Əmanətə xəyanət olmaz" fikri təbliğ edilir.*<br>*4. Yoldaşı kişiyə axıra qədər onunla qala bilməyəcəyini bildirir.* | *5. Oğru axıra qədər qızıl sahibini gözləyir.*<br>*6. Oğru kişinin pulunu qaytarır.* |

**4.** Mətndəki əsas fikri müəyyənləşdirin.

**5.** Kişi, onun yoldaşı və oğru obrazlarını xarakterizə edin. Hansı obraz əsas fikrin müəyyən edilməsinə yardım edir?

**6.** Hekayətdə təsvir edilən hadisələrin məntiqi cəhətdən əsaslı olub-olmadığını əsaslandırın.

**7.** Hansı suala mətndə cavab yoxdur?
- Kişi onun oğru olduğunu necə başa düşür?
- Oğru kişiyə pulunu niyə qaytarır?
- Kişinin dostunun məsuliyyətsiz olduğunu nədən bilirik?

**8.** *Yol* sözünün omonim və çoxmənalı olduğunu nümunələrlə əsaslandırın.

**9.** Mətndəki fərqləndirilmiş sözləri müvafiq frazeoloji birləşmələrlə əvəz edin.

**10.** Mətn üçün *əmanət, xəyanət, sədaqət* sözlərindən hansı açar söz ola bilər? Seçiminizi əsaslandırın.

**11.** Mətnin ilk abzasındakı cümlələrdən II dərəcəli üzvləri çıxarıb mətni yığcamlaşdırın. Hər iki formanı müqayisə edin. Nə müşahidə etdiniz?

**12.** N.Gəncəvinin əsərlərindən olan aşağıdakı cümlələrdə ***nə zaman?*** sualına cavab verən sözləri seçib ifadə vasitələrini müəyyən edin.

**1.** Ləl çox gec doğur, ömrü çox olur,
Lalə tez göyərir, tez də yox olur.

**2.** Meyvə kal olduqda böyüyər, artar,
Yetişən zamanda yerə düşər bar.

**3.** Əlliyə çatınca dəyişər əhval,
Dəyişər yaşayış, dəyişər hər hal.

**4.** Bir gün bar götürər ağac əkənlər,
Xəznə apararlar əmək çəkənlər.

**Zaman zərfliyi** hərəkətin zamanını bildirir, ***nə zaman?, nə vaxt?, haçan?*** suallarından birinə cavab verir. Zaman zərfləri, ismi birləşmələr, feili bağlama və feili bağlama tərkibləri cümlədə zaman zərfliyi olur. Məsələn;

Ən ehtiyatla edilmiş xəyanət də *gec-tez* ***(nə zaman?)*** aşkar olur.

**13.** Cümlələrdə fərqləndirilmiş sözlərin qrammatik mənalarını müəyyənləşdirin. Fikirlərinizi əsaslandırın.

**1.** Xoşbəxt olmaq istəyirsənsə, *əvvəl* özünü tanı, *sonra* arzularını idarə etməyi öyrən. (*A.Tennison*) **2.** Əsgərdən, ilk növbədə, dözüm və səbir, bundan *sonra* cəsarət tələb olunur. (*Napoleon*) **3.** Səndən *əvvəl* yaşayan müdriklərin həyat təcrübəsindən səndən *sonra* yaşayanlara körpü sal. **4.** *Sabah* görüşürük sonuncu dəfə, Mənim son sevincim, son kədərimdi. (*A.Mustafayev*) **5.** *Sabah* açıldı, üzünüzə gözəl sabahlar açılsın... . (*Azərbaycan nağıllarından*)

✓ *Sizcə, çərçivəyə alınmış ifadə nitq etiketinin hansı növünə daxil edilə bilər? Özünüz də belə nümunələr toplayın. Bunun üçün "Kitabi-Dədə Qorqud" dastanına müraciət edin.*

**14.** Aşağıdakı mətndən zaman zərfliklərini seçin, onların ifadə vasitələrini deyin.

Ey oğul, özünə dost seçərkən ehtiyatlı ol. Dostlarının çoxluğuna bel bağlama, əsil dost özünü hesab et. İrəliyə və geriyə diqqətlə bax. Dostlarının etibarlılığına ümid edib arxayınlaşma. Dostu xoş və bəd gündə yoxla: xoş gündə hörmətinə, bəd gündə köməyinə görə. Düşmənini düşmən hesab etməyəni dost bilmə, elə adam tanış sayılar, dost sayılmaz.

***("Qabusnamə"dən)***

✓ *Son cümləyə münasibət bildirin.*

✓ *Mətndə çərçivəyə alınan sözlərə sual verin, onların qrammatik mənasını müəyyənləşdirin.*

**15.** Aşağıdakı cümlələrdə fərqləndirilmiş sözlərin qrammatik mənasını müəyyənləşdirin. Bunun üçün çıxışlıq hallı isimlər, yer zərfləri haqqında öyrəndiklərinizi yada salın. Həmin sözlərin sintaktik vəzifəsini müəyyənləşdirin.

- Mənim kimliyimi, mənim adımı
  *Vətənimdən* soruş, *elimdən* soruş.
  Bu coşqun, bu qaynar hissiyyatımı
  O dağlardan enən selimdən soruş. (*M.Gülgün*)
- 1937-ci ilin qanlı repressiyası bir çox ziyalıları canı qədər sevdikləri doğma *vətəndən* uzaqlaşdırdı.

***Vətənimdən*** sözü tamamlıqdır, çünki ... .
***Vətəndən*** sözü ..., çünki ... .

**Yer zərfliyi** hərəkətin yerini bildirir, ***haraya?, harada?, haradan?*** suallarından birinə cavab olur və yer zərfləri, məkan mənası bildirən isimlər, ismi birləşmələrlə ifadə olunur.

*Məsələn:*

1918-ci ildə Azərbaycan hökuməti müvəqqəti olaraq Gəncə şəhərində (harada) yerləşmişdir.

**16.** Mətndən (səh. 94) yer zərfliklərini seçib aid olduğu sözlə birlikdə yazın.

**17.** Yer zərfliklərinin ifadə vasitələrini müəyyənləşdirin.

**1.** Hüseyn Cavid 1932-ci ildə Uzaq Şərqə sürgün edilmiş, 1941-ci ildə orada olarkən vəfat etmişdir. **2.** Məktəb imtahanları ilk dəfə 1817-ci ildə İngiltərədə keçirilib. **3.** Gücü gəldikcə qaçırdı, ancaq irəlidə onu daha böyük çətinlik gözləyirdi.

**18.** *Azərbaycan Tarix Muzeyi, Murov dağları, Qız qalası, şəhərin kənarı, meşənin sıx yerləri, kəndin ucqarı* ismi birləşmələrini cümlədə mübtəda, tamamlıq və yer zərfliyi kimi işlədin. Hansı fərqi müşahidə etdiniz? Fikirlərinizi izah edin.

**19.** Doğru və yanlış fikirləri müəyyənləşdirərək testə cavab hazırlayın.

- Cümlənin II dərəcəli üzvləri baş üzvləri izah etməyə xidmət edir.
- Xəbər bütün II dərəcəli cümlə üzvləri ilə əlaqələnə bilir.
- Təyin tərzi-hərəkət zərfliyindən fərqli olaraq *hansı?* sualına cavab verir.
- Zərflik həm feili, həm ismi xəbərə aid olur.
- Tamamlıq bəzən yiyəlik halda olan sözlərlə də ifadə olunur.
- Bütün cümlə üzvləri qrammatik cəhətdən bir-biri ilə əlaqələnir.

**doğru**

**yanlış**



**20.** “Zaman və yer zərfliklərinin nitqdə rolu” mövzusunda mətn hazırlayın.

**PLAN:**
1. Zaman və yer zərflikləri zərfliyin məna növü kimi
2. Zaman zərfliyinin cümlədə yeri və funksiyası
3. Yer zərfliyinin cümlədə yeri və funksiyası
4. Fikrin nümunələrlə əsaslandırılması
5. Nəticə

**21.** “Əmanətə xəyanət olmaz” mövzusunda mühakimə xarakterli inşa yazın.

III BÖLMƏ 11

# TARİXİMİZİN ŞANLI SƏHİFƏSİ



*Heç güllərin ağladığını görmüsünüzmü? Qərənfilləri matəm çiçəyinə çevirən 20 Yanvar! Güllərin son mənzilini şəhid məzarına çevirən məşum gün şəhid qanından qıpqırmızı qana bələndi, gözlərindən damla yaş axıtdı. Şəhərimizə qərənfil yağışı yağdı.*

*Şairlərimizdən Məmməd Aslan: "Ağla, qərənfil, ağla!" – yazdısa, digər şairimiz Məmməd Araz isə: "Ata millət, ana millət, ağlama! Ağlamağın yeri deyil, ağlama!" – yazdı.*

Verilmiş mətnləri oxuyun, fikirlər əsasında müzakirə aparın.



Əgər Şəhid varsa, demək, vətən var,
Şəhidlər dünyada ən böyük haqdır.
Ölümdən qorxmayın, siz, ey oğullar,
Ruhlar bu torpağı qoruyacaqdır.

Nə yaxşı, dünyada müqəddəs vətən,
Nə yaxşı, müqəddəs and yerimiz var.
Yox, yox, acımıram bu ölümə mən,
Namuslu oğullar şəhid doğular.

***Alı Mustafayev***



Vətən arzuların qanad açıb uçduğu məkandır. Vətən şərəfdir, namusdur, könül dünyasında yüksələn inamdır, minillik kök salmış xalqdır, anadır, onun timsalında candır. Vətən ulu əcdadların ruhu, babaların məzar yeridir. Vətən səni yetişdirən, böyüdən, səni öyrədəndir.

Vətən varlığını bizdən əsirgəməyən, bizi köksündə bəsləyən, əbədi olaraq sahib çıxan sahibimizdir.

"Torpaq, uğrunda ölən varsa, Vətəndir". (Mithat Kuntay) Unutmayaq ki, Vətən vətəndaşların birləşmə nöqtəsidir. Vətən yeganə məkandır ki, insan orada özünü kölə yox, onun əsil sahibi hiss edir.

Vətən sevgisi ən müqəddəs duyğudur. Vətən sevgisi bütün sevgilərdən ucadır. 1990-cı ilin 20 Yanvar faciəsi bunu bir daha sübut etdi. Uzun illərin müstəmləkəçiliyinə "Yox!" deyən, milli azadlığına qovuşmaq üçün ayağa qalxan xalqı beşikdə boğmaq məqsədilə yırtıcı pəncəsini Azərbaycana uzadan işğalçı hakimiyyət önündə milli kimliyini və vətəni üçün canından keçməyi bacaran xalq gördü. XX əsrin qorxunc imperiyası ömrünün sona yetişdiyini görüncə insanlığa utanc gətirən qanlı faciələr törətdi. Uşaq, qadın, qoca demədən hər kəsi vəhşicəsinə qətlə yetirdi. Lakin xalqımızın ruhundakı, qanındakı istiqlaliyyət duyğularını öldürə bilmədi. Çünki bu duyğular şəhidliyə, qaziliyə, haqqa, ədalətə bağlıdır. Bu dəyərləri mənliyində daşıyan, inandığı kimi yaşayan millətimiz düşməni heyrətlər içərisində boğdu və öz hürriyyətinə, istiqlaliyyətinə sahib çıxdı.

*20 Yanvar faciəsi ilə bağlı əlavə məlumat toplayın. Verilmiş materiallardan və topladığınız məlumatlardan istifadə edərək ssenari yazın və "20 Yanvar – Qan yaddaşımız" adlı ədəbi-bədii kompozisiya hazırlayın. Ssenari əsasında kiçik sənədli film də çəkə bilərsiniz.*



III BÖLMƏ 12

# QIRXINCI FƏNDİ BU GÜNƏ SAXLAMIŞDIM

**Orfoqrafiya**

I abzasda mötərizədə verilmiş hərflərdən hansı yazılmalıdır?

**Orfoepiya**

Düzgün tələffüzü deyin.

onlarla – [...]
fəndləri – [...]

Bütün Şərqdə əfsanəvi **pəhl(a,ə,i)van** kimi şöhrət tapmış və Firdovsinin "Şahnamə"sinin **qəhr(a,ə)manlarından** biri olan Rüstəm Zal bir neçə şagirdinə pəhl...vanlıq qaydalarını öyrədirdi. Rüstəm bir müddət onlarla məşğul olur, bütün fəndləri öyrətdiyini bildirib müstəqil pəhl...vanlıq etmələrinə icazə verir. Lakin onun şagirdlərindən biri şahın yanına gəlib deyir:

*Şagird nə üçün özünə bu qədər arxayın idi?*

– Mən Rüstəm Zalın işlətdiyi bütün fəndləri bilirəm, gücüm də ondan artıqdır. Rüstəm Zalla güləşib onu yıxa bilərəm. Mən ölkənin birinci pəhləvanı olmaq istəyirəm.

Şah gənc pəhləvanın dediyinin düzlüyünü yoxlamaqdan ötrü meydan qurub camaatı toplamağı və Rüstəm Zalı çağırıb gənc pəhləvanla güləşməyi əmr edir. Rüstəm şagirdinin nankorluq etdiyindən, onun yerini tutmaq iddiasında olduğundan son dərəcə məyus olur. Bir söz demədən meydana girib güləşməyə başlayır və gözəl bir fənd işlədib gənc pəhləvanın arxasını bir göz qırpımında yerə vurur. Gənc xeyli pərt olur, ayağa qalxıb Rüstəm Zalla höcətləşməyə başlayır:

– Sənin mənə öyrətdiyin otuz doqquz fəndin içərisində beləsi yoxdur. Bəs bu fəndi nə üçün mənə öyrətməmisən? Bu, düzgün deyildir, – deyə onu məzəmmət edir.

*Şagird məzəmmətində haqlı idimi?*

Rüstəm Zal cavabında deyir:

– Düzdür, mən bu qırxıncı fəndi sənə öyrətməmişəm, çünki onu bu gün üçün saxlamışdım. Belə etməsəydim, sən, yəqin ki, mənim öyrətdiyim fəndlərlə mənim özümə zərbə vuracaqdın. Bu, bir az ədalətsizlik deyilmi?

*Sizcə, gənc öz müəlliminə nə deyəcək?*

Bəzi "dostlarla" ehtiyatlı hərəkət etməyi məsləhət gördükdə, yaxşılığın müqabilində pislik, nankorluq gördükdə və digər münasib hallarda "Qırxıncı fəndi bu günə saxlamışdım" məsəlindən istifadə olunur.

*Böyükağa Hüseynov. "Rəvayətli ifadələr"dən*

1. Mətn üzərində iş aparmaq üçün suallar hazırlayın. Həmin suallarla yoldaşlarınıza müraciət edin.

2. Aşağıdakı fikirlərlə bağlı mühakimə yürüdün.
   - Müəllim şagirdinə hər şeyi öyrətməlidir.
   - Rüstəm Zal düzgün hərəkət edir.
   - Tələbə iradında haqlı idi.

3. “Ehtiyat igidin yaraşığıdır” atalar sözünü bu mətn üçün əsas fikir hesab etmək olarmı?

4. Mətndən açar sözlər seçin və onların qarşılığını tapmağa çalışın.

5. *Nankorluq* və *namərdlik* sözləri sinonim ola bilərmi? Fikirlərinizi əsaslandırın.

6. Məna cəhətdən məntiqi ardıcıllığı davam etdirin və həmin sözlərin antonimini tapın.

çox → ? → ? → ?

7. Mətndə altından xətt çəkilmiş sözlərə sual verin. Suala əsasən onların sintaktik vəzifəsini müəyyənləşdirin.

8. Cümlələri müqayisə edib gəldiyiniz qənaəti yoldaşlarınızla müzakirə edin.
   - *Bazarda xeyli adam var idi* (*M.Cəlal*) cümləsində ***xeyli*** sözü təyindir, çünki... .
   - *Çox oxuyan çox bilər* cümləsində ***çox*** sözü ..., çünki ... .

   ✓ *Bir qədər, bir az, az sözlərindən istifadə etməklə cümlələr qurun. Həmin sözlərin sintaktik vəzifəsini müəyyənləşdirin.*

**9.** 7-ci və 8-ci tapşırıqlardan öyrəndiklərinizə əsasən uyğunluğu müəyyənləşdirin.

- ... işin, hərəkətin nə qədər icra olunduğunu bildirir.
- Cümlədə, adətən, ... aid olur.
- ... suallarından birinə cavab olur.
- ..., ... ilə ifadə olunur.

*3. feili xəbərə*
*1. Miqdar zərfləri*
*2. miqdar sayları*
*6. neçə?, nə qədər?, neçənci?*
*5. ismi xəbərə*
*4. Kəmiyyət zərfliyi*

III BÖLMƏ

# 13 QƏDİM TÜRKLƏRDƏ TƏRBİYƏ

> *Prezident seçilib and içəndə mən təkcə Azərbaycan ərazisində yaşayan azərbaycanlılara deyil, bütün dünyada yaşayan azərbaycanlılara müraciət etdim. Bildirdim ki, respublikanın ağır günündə hər bir azərbaycanlı, damarlarında azərbaycanlı qanı axan hər bir insan gərək vətənin bu gününə yansın, münasibətini bildirsin, kömək etsin.*
>
> **Ümummilli lider Heydər Əliyev**

Azərbaycan türklərinin tərbiyə sistemi, əxlaqi idealları qədim türklərinki ilə üst-üstə düşür və ümumtürk tərbiyə sisteminin mühüm bir halqasını təşkil edirdi. İndi olduğu kimi, qədimdə də ata evin böyüyü, "od-ocağı" (yəni od və ocağın sahibi), tərbiyə nümunəsi hesab olunurdu. Oğlanların tərbiyəsində atanın, qızların tərbiyəsində ananın nümunəsi əsas sayılırdı. Bu nümunə isə xeyirxahlığa və alicənablığa söykənirdi. "Kitabi-Dədə Qorqud"da göstərilir ki, Salur Qazan üç ildə bir dəfə arvadının əlindən tutub evindən çıxar, könüllü surətdə evini imkansızlara *yağmaladardı*. Qədim türklərin övlada məhəbbəti Vətən məhəbbəti ilə *çulğalaşır,* övladı vətən üçün, dövləti qorumaq üçün hazırlayırdılar. Azərbaycan türklərində uşaqlar həmişə atalarına hörmətlə yanaşmış, onların qulluğunda durmuş, ehtiram göstərmiş, ədəbsiz hərəkətlərə yol verməmiş, atadan qabaq süfrəyə oturmamış, onların peşəsini öyrənmiş, atalarını özlərinə həyat idealı hesab etmişlər. Ata dünyasını dəyişdikdən sonra onun ocağı övladlar üçün müqəddəs hesab olunmuşdur. Bu gün olduğu kimi, qədim zamanlarda da ata evi heç zaman boş qalmamalı, bacasından tüstü çıxmalı idi. Oğul övladlarından biri ata evinin çırağını yandırmalı, keşiyini çəkməli idi. Təsadüfi deyildir ki, ailə ocağının müqəddəsliyini qəbul edən türklər bir adama qarğış etdikdə: "Görüm, evinin çırağı sönsün", – deyərmişlər. Hərbi təlim, cəsurluq, cəngavərlik Azərbaycan türklərinin tərbiyəsində mühüm yer tuturdu. Əsgəri şücaətlər hər bir türk kişisi üçün, onun özünün, ailəsinin, tayfasının şərəf, namus işi idi. Azərbaycan türklərində vətən əxlaqı, vətənpərvərlik hissi həmişə güclü olmuşdur. İtirilmiş Vətən torpağının hər qarışı üçün göz yaşı axıdar, ağı deyər, onun qaytarılmasını müqəddəs vəzifə hesab edərlərmiş. Biz "Kitabi-Dədə Qorqud"da bunun bariz nümunələrini görürük. Vətən əxlaqı bu gün də Azərbaycan övladlarının ən böyük *istinad* nöqtəsi olmalıdır. Görkəmli türk alimi Ziya Göyalp haqlı olaraq yazırdı: "Vətən əxlaqımız qüvvətli olmasa, nə müstəqilliyimizi, nə azadlığımızı, nə də vətənimizin bütövlüyünü qoruya bilərik".

*"Azərbaycan təhsil tarixi" kitabından*

1. Mətni abzaslara ayırın.

2. Bu mətn bölmədəki digər mətnlərdən xaraktercə necə fərqlənir?

3. Nə üçün oğlanların tərbiyəsində atanın, qızların tərbiyəsində ananın nümunəsi əsas hesab edilir?

4. Hansı sözlər mətn üçün açar söz ola bilər?

5. Fərqləndirilmiş sözlərin leksik mənasını müəyyənləşdirin və qarşılığını tapın.

6.
1. Yüksəlmək üçün yalnız öz gücünüzdən istifadə edin.
2. Biz yalnız başqaları üçün yaşayan zaman özümüz üçün yaşayırıq. (*L.Tolstoy*)
3. Vətən üçün ölən insan xoşbəxt insandır.
4. Oğlundan xəbər tuta bilmədiyi üçün ana var-gəl edir, bir çıxış yolu axtarırdı. (*M.Cəlal*)




✓ *Sizcə, hansı şagirdin cavabı daha düzgün və dolğundur? Seçiminizi müəllimin köməyi ilə əsaslandırmağa çalışın. Cümlə üzvlərinin ifadə vasitələrinə diqqət yetirməyi də unutmayın.*

**7.** Mətndə altından xətt çəkilmiş cümlələrin hansında səbəb, hansında məqsəd məzmunu olduğunu tapın, müqayisə aparın.

**Səbəb zərfliyindəki** iş və hərəkət səbəbi, xəbərdəki iş və hərəkət onun nəticəsini bildirir, ***niyə?, nə səbəbə?, nə üçün?*** suallarından birinə cavab olur.

İmtahanda yaxşı qiymət aldığı üçün (səbəb) sevinirdi. (nəticə)

Səbəb zərfliyi, əsasən, feili bağlama və feili bağlama tərkibləri ilə, *üçün, ötrü, görə* qoşmalı və ***-dığı***[4] şəkilçili feili sifət və feili sifət tərkibləri ilə ifadə olunur.

**Məqsəd zərfliyindəki** iş və hadisə məqsəd kimi qarşıya qoyulur, xəbərdəki iş və hərəkət hadisədən sonraya aid olur, ***niyə?, nə məqsədlə?*** sualına cavab verir.

İmtahanda yaxşı qiymət almaq üçün (məqsəd) oxuyurdu. (sonrakı hərəkət)

Məqsəd zərfliyi *üçün, ötrü* qoşmalı, yönlük hallı məsdər və məsdər tərkibləri ilə ifadə olunur.

**8.** Fərqləndirilmiş söz və söz birləşmələrini əsas götürərək uyğunluğu müəyyənləşdirin.

| | |
|---|---|
| *Vətənçün yaşayan, vətənçün ölən*<br>Səmimi bir insan nə bəxtiyardır! (*M.Müşfiq*) | *səbəb zərfliyi* |
| *Həqiqət çox ağır olduğu üçün* onu hər adam qaldıra bilməz. (*A.Kapus*) | *mübtəda* |
| *Yaxşı yaşamaq üçün* bir qədər tələs, çünki hər gün bir həyatdır. (*Seneka*) | *təyin* |
| Aldığım son nəfəs də *sənin üçündür.*<br>(*Ə.Məmmədxanlı*) | *məqsəd zərfliyi* |
| *İnsanı tanımaq üçün* onu sevmək lazımdır.<br>(*L.Feyerbax*) | *tamamlıq* |
| İgid *özü üçün* doğular, *başqaları üçün* ölər. | *xəbər* |

✓ *Cümlə üzvləri arasındakı sintaktik əlaqəni göstərin.*

✓ *Verilmiş nümunələrdə hansı cümlə üzvü iştirak etmədi? Səbəbini izah edin.*

III BÖLMƏ

# 14 | YOLUN SONU



*Aprel döyüşləri bir daha Azərbaycan xalqının qüdrətini göstərdi, ordumuzun gücünü göstərdi.*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

*Bayrağa bükülərək dəfn olunmaqdan böyük şərəf yoxdur.*

**Polkovnik-leytenant Sənan Axundov**

2016-cı il aprelin 18-də polkovnik-leytenant Sənan Axundov Azərbaycan Respublikasının suverenliyi, azadlığı, ərazi bütövlüyü uğrunda Cəbrayıl rayonu ərazisində yerləşən Lələtəpədə vəzifə səlahiyyətlərini icra edərkən və tabeliyində olan silahdaşını xilas edərkən qəhrəmancasına həlak olmuşdur.

...Günəşin zərrin şəfəqləri ətrafa yayılmağa başlamışdı. Quşlar cəh-cəh vurur, dağlardan kəndlərə ılıq yaz küləyi əsirdi. Yenicə yaşıllaşmış çəmənlərdə irəlilədikcə hətta çiçəklərin xışıltısını da duymaq olurdu. Ancaq Sənan bu dəqiqələrdə bu gözəllikdən zövq ala bilmirdi. Bütün gecəni yatmamış, ərazidə kəşfiyyat işləri aparmışdı. Çox gərgin idi. Bir neçə gün bundan əvvəl indicə dolanıb gəldiyi bu ərazidə, Lələtəpə yüksəkliyində ... itirmişdi.

Təxəyyülünüzə əsasən cümləni tamamlayın.

Vətəninə xidmət etmək istəyən Sənan Axundov peşəkar və ixtisaslı kadr kimi cəbhəyə göndərilməsi üçün dəfələrlə rəhbərliyə yazdığı raportundan sonra Lələtəpəyə Kəşfiyyat İdarə rəisi təyin edilmişdi.

O, buraya təyin olunduğu gündən hər gün ərazilərə baş çəkir, hərbi tapşırıqları yerinə yetirirdi.

Növbəti tapşırığa da hərbçi yoldaşı, polkovnik-leytenant Vüqar Əbdüləzimov ilə getmişdi. Əməliyyatı uğurla həyata keçirən kəşfiyyatçılar geri dönürdülər. Sənan birdən partlayış səsi eşitdi. Boy-boy qalxan yaşıllıqların arasından torpaq ətrafa səpildi. Sənan anladı ki, minaya düşən onunla kəşfiyyat tapşırığını yerinə yetirməyə gedən Vüqardır. Sənan həmin an öz uşaqlarını, ailəsini, arxada qoyduqlarını düşünmədən bir insanın həyatını xilas etmək üçün qərar verir: “Yox, mən onu burada qoyub ərazidən çıxa bil-

mərəm. Ya yaralı halda, ya da nəşini çıxarmalıyam", – deyə geriyə qayıdır, ağır yaralanmış silahdaşına yardım edir. Belindəki dəri kəməri açıb Vüqarın qanaxmasını saxlamaq üçün ayağını sıx bağlayır, təhlükəsiz əraziyə çıxarmaq üçün onu kürəyinə alır. İnsan yaralı olanda lap ağırlaşırmış. Sənan Axundov bu ağırlığı hiss etsə də, yorulmaq bilmirdi. Təki dostunu minalanmış ərazidən uzaqlaşdırıb hərbi hissəyə çatdıra biləydi.

...Ərazinin xeyli hissəsini keçmişdilər. Yenicə açıqlığa çıxmışdı ki, qarşıdan kömək gəldiyini gördü. Sevindi, dərindən nəfəs aldı. Vüqarı yerə uzadıb bir qədər qabağa keçdi. Birdən ayağının altında məlum bir çıqqıltı səsi eşitdi. Ətrafına baxdı ki, bəlkə, ağır bir daş tapsın, minanı "aldatmaq üçün" onun üzərinə yerləşdirə bilsin.

Lakin... Deyəsən, yolun sonu idi, deyəsən, bu yoldan dönüş yox idi... Bir daha dönüb kənarda inildəyən hərbçi dostuna baxdı...

Dostunun huşu özündə olsa idi, yəqin ki: "Balalarımı, dostlarımı Vətənə əmanət edirəm, Vətən torpaqlarını qoruyun, canından çox sevdiyi üçrəngli bayrağı həmişə uca tutun", – deyəcəkdi.

Aprel döyüşçülərinin azad etdiyi ərazidə ikinci partlayış baş verdi...

...Köməyə gələn əsgərlər ağır yaralı Sənanı hospitala çatdırsalar da, onların döyüş komandiri gözlərini dünyaya əbədi yumdu...

*Nəcibə Axundova*

**1.** Mətnə əsasən polkovnik-leytenant Sənan Axundovu xarakterizə edin.

**2.** Sxemi tamamlayın və şərh edin.




**3.** Mətndə Azərbaycan xalqına məxsus hansı xüsusiyyətləri müşahidə etdiniz? Mətnin adını atalar sözü ilə əvəz edin. Uyğun atalar sözləri ilə müqayisə aparın.

**4.** "Dolu" filminə baxın. Filmlə hekayəni müqayisə edərək fikirlərinizi ümumiləşdirin.

**5.** Lələtəpə haqqında məlumat toplayın. Orada gedən müharibənin səbəblərini araşdırın. Onu yoldaşlarınıza necə və hansı formada çatdıracağınızı düşünün.

**6.** *Mina* sözünü fərqli mənalarda cümlədə işlədin.

**7.** *Təcavüz, səngər* sözlərinin leksik mənalarını izah edin.

**8.** Aşağıdakı cümlələri sintaktik təhlil edərək müqayisə edin. Cümlə üzvlərinin sıralanmasında nəyi müşahidə etdiniz?

- Sənan partlayış səsi eşitdi.
- Boy-boy qalxan yaşıllıqların arasından torpaq ətrafa səpildi.

Hər bir cümlə üzvünün cümlədə öz yeri vardır. Mübtəda, adətən, cümlənin əvvəlində, xəbər cümlənin sonunda, tamamlıq və zərflik isə xəbərdən əvvəl gəlir. Təyin həmişə təyin etdiyi üzvün əvvəlində gəlir. *Nümunə sxem:*



Bəzən cümlələrdə söz sırası pozula bilir. Buna canlı danışıq dilində, şeirlərdə daha çox rast gəlinir.

Qürurla çatmışdır qaşını Xəzər. (*R.Rza*)
Həyat bir dastana bənzər əzəldən. (*S.Vurğun*)

**9.** Mətni oxuyun. Hansı cümlədə söz sırası pozulub? Söz sırasını bərpa etməyə çalışın. Bu, həmişə mümkündürmü?

Kəndə səs düşdü. Bu gün kənd əhlindən çöl işinə gedən olmadı. Camaatın yarısı çıxmışdı kəndin kənarına və təpələrə dırmaşıb baxırdılar ki, görsünlər, gəlirmi naçalnik? Camaatın yarısı pristavın mənzilini əhatə edib durmuşdu. Qıraq kəndlərdən də camaat baxəbər olub yavaş-yavaş gəlirdilər. Pristavın həyətinə adam əlindən girmək mümkün deyildi.

Birdən qaçaqaç düşdü, dedilər, “naçalnik gəlir”. Qlavalar qaçdılar qapıya, xanım və qonaqlar çıxdılar balkona. Bir qədər keçdi, genə qurbağanın gölünə daş atdılar, çünki bu gələn naçalnik deyildi.

***(Cəlil Məmmədquluzadə)***

✓ *Aşağıdakı müddəalardan istifadə edərək yoldaşlarınızla müzakirə apararaq fikirlərinizi ümumiləşdirin.*

- *Söz sırasının pozulması labüddür. Çünki ... .*
- *Söz sırası pozulmamalıdır. Çünki ... .*

**10.** Hansı sxemlər üzrə söz sırasının pozulması müşahidə olunur? Həmin sxemlərə uyğun cümlələr yazın.



✓ *Şərti işarələrin sxeminə əsasən hansı cümlə üzvünün yerini dəyişmədiyini deyin.*

**11.** Hekayədən çıxış edərək “Mən komandir olsa idim, ...” adlı nəqli xarakterli esse yazın.

**12.** Vətən müharibəsində igidlik və cəsarət nümayiş etdirmiş hər hansı bir qəhrəman *(şəhid, qazi)* haqqında məlumat toplayıb təqdimat hazırlayın.

III BÖLMƏ

# 15 | NAR DƏNƏSİ

**Orfoepiya**

Düzgün tələffüzü deyin.

birlik – [...]
möhkəmlik – [...]
qollu-budaqlı – [...]

*Ədalət mülkündən kim üz çevirsə,*
*Ona aqil deməz ağıllı kimsə.*

— Nizami Gəncəvi

## ↓ dəmir əjdaha

Qoca nar ağacı çox narahat idi. Düşmənin zirehli maşını daş hasarı vurub uçurandan sonra ağacı qüssə almışdı. Həmişə onu suvaran, qayğısını çəkən sahibini namərdlər öz evindən didərgin salmışdılar.

Zaman kişi nar ağaclarını çox sevərdi. O, həmişə deyərdi ki, nar birlik, möhkəmlik rəmzidir. Nar vüqarlı meyvədir, çürüyəndə də ağacın başında qalır. Nar ağacı məğrurdur. O ağaca heç kim çıxa bilmir, onu ayaqlaya bilmir.

Zaman kişi həyətdə müxtəlif növ nar ağacları əkmişdi. O, elindən-obasından didərgin düşəndə cavan nar zoğlarını çıxarıb özü ilə apardı, amma qoca ağacı aparmaq mümkün olmadı. Zaman kişi ağacla vidalaşıb ona iki kəlmə söz dedi: “Məni bağışla!”



Nar ağacı o vaxt bu sözlərin mənasını başa düşməmişdi. İndi narların yetişən vaxtı daş hasar söküləndə ağac ətrafda baş verənləri gördü. Meyvə ağaclarının çoxu böyrü üstə düşmüş, meyvələr ətrafa səpələnmişdi. Birdən "dəmir əjdaha"nın zəhmli səsi eşidildi. O, nar ağacına tərəf gəlirdi. Ağacın ürəyi əsdi, o, var gücü ilə qışqırdı: "Hara gəlirsən? Axı hələ yetişən narları dərməyiblər, mənim balalarımı məhv eləmə!"

Onun səsini eşidən olmadı. "Dəmir əjdaha" ağacın üzərindən keçib narları əzdi. Ağac "qanına qəltan" oldu. Zirehli maşının nəhəng təkərləri də "nahaq qana" bulandı. Qıpqırmızı, iri bir nar diyirlənib yolun ortasına düşdü. Paralanan narın bir dənəsi kənara sıçradı. Nar dənəsi mərcan kimi parlayırdı. O, parçalanan "ana"sına baxdı və ona tərəf can atdı. Qolu-budağı qırılmış nar ağacı əzilən narlara baxdıqca ürəyi qana dönürdü. O, nar dənəsini görəndə dözə bilmədi. Ağac qırılmış budağını nar dənəsinə tərəf uzatdı. Nar dənəsi də budağa tərəf boylandı. Amma budaq nar dənəsinə yetişə bilmədi. Nar dənəsi yetim uşaq kimi kimsəsiz, köməksiz qalmışdı. Onun "qırmızı gözləri" yaşla dolmuşdu. Ətrafa baxanda onu vahimə bürüyürdü. O, əzilən narlara, qırılan ağaclara baxıb dərindən ah çəkdi. Nar dənəsi fikirləşdi ki, uzun illərin zəhməti nəticəsində ərsəyə gələn ağacları bir anda məhv edən zalımlar canlı insanları da belə soyuqqanlılıqla məhv edərlər.

Nar dənəsi qüssədən büzüşüb kiçildi, balacalaşıb torpağın içində görünməz oldu.

Kim bilir, bəlkə, bu nar dənəsi bir vaxt cücərib böyük, qollu- budaqlı bir ağac olacaq. Onda düşmənlər biləcəklər ki, heç nəyi, heç kimi məhv etməklə onun nəslini, kökünü kəsmək olmaz!

Bəzən balaca bir qığılcımdan böyük bir məşəl yaranır!

**Bu cümlədə ifadə olunan fikri aydınlaşdırmağa çalışın.**

*Gülarə Munis*

**1.** Sizcə, əsərdə hansı dövrün hadisələrindən bəhs edilir?

**2.** Müəllif müharibənin dəhşətlərini göstərmək üçün niyə məhz nardan istifadə etmişdir?

**3.** Mətnin əvvəlində Nizamidən epiqraf kimi verilmiş kəlamı şərh edin və fikirlərinizi mətndəki hadisələrlə əlaqələndirin.

**4.** "Xoca" filminə baxın, filmdəki hadisələri hekayədəki hadisələrlə müqayisə edin və müzakirə aparın.

**5.** Müasir dövrdə baş vermiş hadisələrdən istifadə edərək hekayənin ardını yazın. Hekayənin ardını yazmaq üçün 2020-ci il 27 sentyabr – 8 noyabr tarixində baş vermiş Vətən müharibəsi haqqında ətraflı məlumat toplayın.

**6.** Şəkli təsvir edin və sualları cavablandırın.

- Rəsm mətndəki hadisələrə nə dərəcədə uyğundur?
- Fikrin çatdırılmasında rolu varmı?
- Rəsm düzgün çəkilibmi?

IV BÖLMƏ ŞƏXSİYYƏTLƏR

# 1 AZƏRBAYCAN TEATRI

**Orfoepiya**

Düzgün tələffüzü deyin.

təşəkkül – [...]
teatr – [...]

**Orfoqrafiya**

Mətndə mötərizədə verilmiş sözlərdən hansının yazılışının düzgün olduğunu müəyyən edin.

Bu bölmədə daha maraqlı məlumatlar alacağıq.



Həm də maraqlı şəxslərin həyat yolu ilə tanış olacağıq.



Bu tanışlıq bölmənin niyə məhz "Şəxsiyyətlər" adlanması ilə bağlı sizə istiqamət verəcəkdir.

- Dialoqu düzgün tələffüzlə oxuyun.

- Dialoqu tamamlamaq üçün müasir teatrdan, yoxsa teatrın inkişaf yolundan danışardınız?

Dostlar bu dəfə Məhəmməd *(Füzulinin, Fizulinin)* heykəli qarşısında görüşdülər. Onlar dram teatrında yeni tamaşaya baxacaqdılar.

– Bura gələrkən bu yaxınlarda oxuduğum bir yazı haqqında fikirləşirdim.

– Nə yazı?

– Azərbaycan teatrının tarixi haqqında idi. Sən demə, xalq oyunları teatrın ilk nümunələri sayılır.

– Hə, düzdür, teatr tariximizin üç min ildən artıq yaşı var. "Kosa-kosa", "Qaravəlli", "Kilimarası", "Maral oyunu", "Tənbəl qardaş" adlı oyun və tamaşalar Azərbaycan xalq teatrının müstəqil tarixə malik olduğunu sübut edir.

– Azərbaycan teatrının *(bugünkü, bugünki)* səviyyəyə çatması yolunda çətinliklər olub. Peşəkar teatrın təşəkkülünə təzyiqlər edilib, qadın rollarının ifaçıları ağır imtahanlardan keçməli olublar.

***Nə üçün teatrın inkişafına təzyiqlər edilmişdir?***

– *Bilirsənmi, Səkinə xanım Axundzadə – qızlar məktəbinin ilahiyyat müəllimi qızları dram dərnəyinə cəlb edir, tamaşalar hazırlayırmış.* Müsəlman dünyasında qadınlar tərəfindən səhnələşdirilən ilk teatr tamaşasını məhz o hazırlayıb.

***Qadınların teatr tamaşalarında iştirakına qoyulan qadağa nə ilə bağlı idi?***

– Mənim oxuduğum kitabda yazılmışdı ki, Həsən bəy Zərdabi gimnaziya şagirdlərinin köməyi ilə "Hacı Qara" əsərini tamaşaya hazırlayarkən Nəcəf bəy Vəzirov – Azərbaycan ədəbiyyatında *(faciə, faciyə)* janrının banisi ona yardımçı olmuşdur. Əldə edilən pullar isə gimnaziyada oxuyan yoxsul uşaqların təhsil və məişət problemlərinin həllinə sərf olunmuşdur.

– Azərbaycanda ilk teatr binalarından biri də təxminən elə bu vaxt – XIX əsrdə Şamaxıda tikilib. Bu barədə "Kavkaz" qəzetinin 1858-ci il 6 iyul tarixli sayında məlumat verilmişdir.

Amma 10 mart 1873-cü il Azərbaycan milli peşəkar teatrının yaranma günü sayılır.

***Nə üçün bugünkü gün teatrın yaranma tarixi sayılır?***

**1.** Mətndəki əsas faktları seçib qruplaşdırın.

**2.** Mətnə əsasən demək olar:

1. İlk tamaşaların yaranmasında Azərbaycan maarifçilərinin böyük rolu olmuşdur.
2. Teatr tariximiz haqqında "Kavkaz" jurnalında məlumat verilmişdir.
3. Teatr tariximizin tarixi qədimlərə gedib çıxır.
4. Teatra cəlb edilən qadınlar ağır təhdidlərə məruz qalmışlar.
5. Peşəkar teatrın yaranması XIX əsrin əvvəllərinə təsadüf edir.
6. Dram teatrının qarşısında Azərbaycan şairi Məhəmməd Füzulinin heykəli vardır.

A) 1,3,5,6 B) 1,2,5,6 C) 1,3,6 D) 2,4,5,6 E) 2,3,4,5

**3.** Azərbaycanda fəaliyyət göstərən hansı teatrlar var?

**4.** Cəmiyyətin inkişafında teatrın rolu haqqında söhbət aparın.

**5.** Çərçivəyə alınmış cümlələrdə hansı sözləri qarşılığı ilə əvəz etsəniz, məzmuna xələl gəlməz?

**6.** *Təşəkkül, gimnaziya, dram, məişət* sözlərinin leksik mənalarını izah edin.

**7.** *Xalq teatrı* və *peşəkar teatr* ifadələrinin mənasını izah edin, oxşar və fərqli xüsusiyyətlərini aydınlaşdırın.

**8.** Fərqləndirilmiş cümlədə tire işarəsindən sonra işlənən söz birləşməsinin işlənmə səbəbini müəyyənləşdirməyə çalışın.

**9.** Mətndə altından xətt çəkilmiş cümlələri sintaktik təhlil edin. Cümlə üzvlərindən tire ilə ayrılan ifadələrin rolu haqqında düşünün, həmin ifadələrin nə məqsədlə işləndiyini müəyyənləşdirməyə çalışın.

Əlavələr cümlə üzvlərindən sonra gəlir, onların mənasını aydınlaşdırmağa və dəqiqləşdirməyə xidmət edir. Əlavələr söz və ya söz birləşmələri ilə ifadə olunur. *Məsələn:*

Birdən Səid dünyada hamıdan çox sevdiyi varlığı – anasını gördü. (*E.Elatlı*)

tamamlıq — tamamlığın əlavəsi

İlk teatr qədim Yunanıstanda – bu mədəniyyət beşiyində yaranmışdır.

zərflik — zərfliyin əlavəsi

Əlavələr aid olduğu üzvdən, əsasən, tire (–) işarəsi ilə ayrılır. Cümlə üzvü ilə onun əlavəsi arasında ***yəni*** bağlayıcısı da işlədilə bilər. Bu zaman bağlayıcıdan əvvəl vergül işarəsi qoyulur.

Hava olmadığına görə Yerin peykində – Ayda səs yayılmır.

Hava olmadığına görə Yerin peykində, yəni Ayda səs yayılmır.

**10.** Cümlələrə əlavələr artırıb durğu işarələrindən düzgün istifadə edin.

Tiflis şəhərində əhalinin böyük qismini təşkil edən azərbaycanlıların teatr tamaşaları oynamaları tədricən müntəzəm hal alaraq hər ay keçirilirdi. Bakıda bu işi, əsasən, müəllimlər və şagirdlər görürdülər. Teatr tamaşalarını oynamaq üçün Bakıda məxsusi bina yox idi. Bu çətinliyi aradan qaldırmaq məqsədilə Hacı Zeynalabdin Tağıyev 1883-cü ildə özünün taxıl anbarının özülü üzərində teatr binası inşa etdirib.

**11.** Aşağıdakı cümlələrdə əlavələri mübtədadan əvvələ keçirib yazın. Əvvəlki və sonrakı cümlələri müqayisə edin. Cümlə quruluşunda hansı dəyişikliyi müşahidə etdiniz? Təyinlə əlavənin işlənməsində intonasiyanın rolu varmı?

*Nümunə:*

*Nəsibə Zeynalova* – *səhnəmizin "Qayınana"sı* bir çox rolların mahir ifaçısı olmuşdur.

mübtəda — mübtədanın əlavəsi

*Səhnəmizin "Qayınana"sı Nəsibə Zeynalova* bir çox rolların mahir ifaçısı olmuşdur.

təyin — mübtəda

- Həsən bəy Zərdabi gimnaziya şagirdlərinin köməyi ilə "Hacı Qara" əsərini tamaşaya hazırlayarkən Nəcəf bəy Vəzirov – Azərbaycan ədəbiyyatında faciə janrının banisi ona yardımçı olmuşdu.
- Mirzə Fətəli Axundzadə – ilk dramaturqumuz əlifba islahatı uğrunda mübarizə aparmışdır.

✓ *Sizcə, təyinlə əlavənin fərqi nədədir? Dostların şərhinə qoşulub cümlələri tamamlayın.*

*Cümlələri müqayisə edib bu nəticəyə gəldik ki, ...*





1. Təyin aid olduğu cümlə üzvündən ... .
2. Təyin ... bildirir.
3. Təyin ... birinə cavab olur.
4. ... .

1. Əlavə aid olduğu cümlə üzvündən ... .
2. Əlavə aid olduğu cümlə üzvünü ... .
3. Əlavə izah etdiyi cümlə üzvünün ... .

**12.** "Teatr xadimlərimiz" adlı təqdimat hazırlayın.

**13.** Dialoqun məzmununu III şəxsin dilindən yazın. Hər iki mətnin dilini müqayisə edin.

# HÜSEYNQULU SARABSKİNİN XATİRƏLƏRİ

**Orfoepiya**

**Düzgün tələffüzü deyin.**

alqışlayanda – [...]
yadından – [...]
məharətlə – [...]

**Orfoqrafiya**

**Hansı düzdür?**

- şəxsiyyət – şəxsiyət
- vəziyyət – vəziyət
- faciə – faciyə

**talant** **aktyor**

Əbdürrəhim bəy özünəməxsus bir nəvazişlə Hüseyni ruhlandırmaq (...) istədi:

– Sən aktyorsan, zəhmət çəkib məşq edərsən, Ağa Məhəmmədin rolunu da məharətlə oynarsan və xalq səni – böyük aktyoru alqışlayanda hamısı yadından çıxar. Amma Hüseyn, əziz dost, canın üçün, Ağa Məhəmməd elə sənin rolundur... Səni düşünüb Ağa Məhəmmədi yazmışam.

Bu söz Ərəblinskiyə yaman toxunur:

– Mirzə, mən o qədər mənfi şəxsi...ətəm ki, məni ona oxşadırsınız?

Ə.Haqverdiyev sözünə davam etdi:

– Hüseyn, mən səni Ağa Məhəmməd şaha oxşatmıram. Mən o rolu sənin talantını – aktyor sənətkarlığını gözümün qabağına gətirib yazmışam. Sən mənim əzizimsən... Yenə təkrar edirəm, o əsəri mən sənin üçün, yəni səhnəmizin əvəzsiz aktyoru üçün yazmışam.

Görkəmli aktyor Hüseynqulu Sarabski 1939-cu ildə yazdığı "Hüseyn Ərəblinski haqqında xatirələr"ində Əbdürrəhim bəy Haqverdiyevin Tiflisdən gəlişini belə təsvir edir: "Ə.Haqverdiyev Tiflisdən yenicə (...) gəlmişdi. Ərəblinski ilə bir yerdə onun yanına – "İslamiyyə" mehmanxanasına (...) getdik. Əbdürrəhim bəy ilə görüşəndən sonra o bizi təbrik etdi.

*Sizcə, burada hansı icazədən söhbət gedir və bu icazə nə üçün alınmalı idi?*

– Uşaqlar, gözünüz aydın olsun. Yazdığım "Ağa Məhəmməd şah Qacar" əsərinin – tarixi faci...əsinin tamaşasının icazəsini almışam.

H.Ərəblinski Əbdürrəhim bəyə şikayətlənərək dedi:

– Mirzə, əsəri oynamaq üçün gərək aktyor olsun, aktrisa olsun, quruluş olsun, məşq üçün yer olsun.

H.Ərəblinski dedi:

– Mirzə, mənim səndən bir xahişim var: sən Allah, əsər yazanda eləsini yaz ki, onda qadın rolu az olsun. Vallah, bu aktrisa məsələsi gözümün qabağında dağ kimi durmuşdur.

Əbdürrəhim bəy səhnəmizin bu acınacaqlı vəzi...ətindən, yəni Azərbaycan qadınlarının səhnədə olmamasından mütəəssir olub qaşlarını çatdı və: "Səndən qabaq bu məsə-

ləni mən özüm fikirləşmişəm, – dedi, – odur ki "Ağa Məhəmməd şah Qacar" əsərinə arvad rolu daxil etməmişəm..."

*Qadın rolunda çıxış edən artistin işi çox çətin idi. Onlar saqqallarını və bığlarını xəmirlə örtüb üstündən qrim edərdilər. Tamaşadan sonra isə bığ və saqqalın təmizlənməsi böyük çətinliyə səbəb olardı. Bir dəfə qadın rollarını aparan artistlərdən biri tamaşadan sonra saqqalına örtdüyü xəmiri çıxararkən çox əziyyət çəkdiyindən son dərəcə əsəbiləşmiş və demişdi: "Mən bütün əcdadımla qələt elərəm, bir də saqqalıma xəmir, yapışqan sürtərəm. Bir də qadın rolunda çıxış etməyəcəyəm. İstəsəniz, kişi rollarında çıxaram, istəməsəniz, heç oynamaram". Bu işi yerinə yetirməyi Ərəblinski öz üzərinə götürür. H.Ərəblinski bığını qırxdırmaq qərarına gəlir. Artist yoldaşları nə qədər çalışırlarsa, onu fikrindən daşındıra bilmirlər.*

***H.Ərəblinskinin bu fədakarlığı nə ilə bağlı idi?***



*Hüseyn Ərəblinski*
*Ağa Məhəmməd Şah Qacar rolunda*

*Bu abzası iki görkəmli şəxs arasında gedən söhbətin hansı hissəsinə əlavə etmək olar?*

***Kamran Məmmədov***

**1.** Fikirləri tamamlamaqla dostların mühakimə xarakterli söhbətinə siz də qoşulun. Fikirlərinizi əsaslandırın. Yoldaşlarınızı mülahizələrinizə inandırmağa çalışın.



*Mən hesab edirəm ki, tanınmış, görkəmli aktyorlar mənfi rollarda çıxış etməməlidir. Çünki bu, ... .*



*Amma mən hesab edirəm ki, aktyor hansı rolda çıxış etməsindən asılı olmayaraq, o obrazı ... .*

**2.** Mətndə hansı abzas yerində deyildir? Niyə belə hesab edirsiniz? Abzası yerinə bərpa edin.

**3.** Mətndən əsas faktları və əsas fikri müəyyənləşdirin.

**4.** Hansı sualın cavabı mətndə yoxdur:
- H.Sarabski nə zaman Tiflisə gəlmişdir?
- Ə.Haqverdiyev Qacar obrazını yaradarkən hansı aktyoru nəzərdə tutub əsəri yazmışdır?
- H.Ərəblinski Ə.Haqverdiyevin hansı sözündən inciyir?

**5.** Sizcə, H.Ərəblinski niyə əsərdə qadın obrazının olmamasına sevinir?

**6.** *Talant* sözünün sinonimini tapın.

**7.** *Quruluş, rol* sözlərinin leksik mənalarını izah edin və onları müvafiq cümlələrdə işlədin.

**8.** Mətndə mötərizədə verilmiş nöqtələrin yerinə elə yaxınmənalı sözlər tapın ki, cümlələrin mənasına xələl gəlməsin.

**9.** Mətndə çərçivəyə alınmış ifadə nitq etiketinin hansı növünə aiddir? Eyni məzmuna malik nitq etiketlərini tapıb qruplaşdırın. Bunun üçün aşağıdakı cümlələri tamamlayın. Belə nümunələrin sayını artırın.

1. Təzə paltarın ... .

2. ..., teatr tamaşası uğurlu alındı.

**10.** Mətndəki əlavə işlənən cümlələri seçib yazın. Cümlələri təhlil edərək əlavələrin hansı üzvə aid olduğunu müəyyənləşdirin. Hansı əlavələr cümlə üzvlərinə aid deyil?

**11.** Aşağıdakı cümlələrdə əlavələrin hansı cümlə üzvünə aid olduğunu və nə ilə ifadə olunduğunu müəyyənləşdirin.

- Balaca İsmayıl əlini dağlara sarı uzadıb Aləmşahbəyimdən soruşdu:
  – Ana, oraya – o uca dağlara çıxsam, hara görünər? (*Ə.Cəfərzadə*)

- Alp Aruz dedi:
  – Ağam Qazan, kafər ölkəsinə – Gürcüstan sərhədinə gedirsən, ev-eşiyinin üstündə kimi qoyursan? *("Kitabi-Dədə Qorqud"dan)*

- Qaraca Çoban iki qardaşını – Qabangücü, və Dəmirgücü yanına alıb ağlın qapısını bərkitdi. *("Kitabi-Dədə Qorqud"dan)*

- Ramiz Vahidoğlu – şair Əliağa Vahidin oğlu atası haqqında deyir:
  *"Atamın çox kitabları çapdan çıxmışdı, lakin 1916-cı ildə "Orucov qardaşları" mətbəəsində çapdan çıxan ilk kitabı – "Tamahın nəticəsi" kitabını unuda bilmirdi.*

*Qısa müddətdə satılıb qurtaran bu kitab o qədər tez yayılmışdı ki, hətta varlı bir adam bu kitabın bircə nüsxəsinə görə atama qızıl onluq bağışlamışdı".*

*("Kaspi" qəzeti, 2011-ci il)*

✓ *Hansı cümlələrdə durğu işarələrinin işlənmə qaydasına düzgün əməl olunmayıb? Fikrinizi izah edin.*

**12.** Aşağıdakı mətndə əlavələri müəyyənləşdirib durğu işarələrini bərpa edin. Əlavələrin hansı cümlə üzvünə aid olduğunu müəyyənləşdirin.

1908-ci ilin 25 yanvar günü... Bu gün Azərbaycan xalqının incəsənət tarixinə şanlı bir səhifə yazıldı. Şəhərin divarlarına yapışdırılmış afişalarda xəbər verilirdi: "Hacı Zeynalabdin teatrında "Nicat" maarif cəmiyyətinin dram heyəti tərəfindən şənbə günü yanvarın 25-də müsəlman səhnəsində ilk opera "Leyli və Məcnun" tamaşaya qoyulacaq.

İlk tamaşada baş rolu Məcnun rolunu H.Sarabski, Leyli rolunu xanəndə Əbdürrəhman Fərəcov ifa edirdi. Xorda oxuyanlar və orkestrdə çalanlar müəllimlər idi. Orkestrdə skripkada çalan operanın müəllifi dahi bəstəkar Ü.Hacıbəyli özü idi.

"Şəbi-hicran yanar canım"ın sədaları altında pərdə qalxarkən tamaşaçıların diqqətini tamaşanın gedişini, xor və orkestri idarə edən bir nəfər cəlb etdi. Bu şəxs Ə.Haqverdiyev Azərbaycanın tanınmış yazıçı və dramaturqu, operamızın ilk dirijoru idi.

***(Kamran Məmmədov)***

✓ *Sizcə, tamaşadan sonra dostlar və tamaşaçılar hansı nitq etiketindən istifadə edəcəklər?*

**13.** Hər hansı bir teatr tamaşasına baxın, fikirlərinizi yoldaşlarınız üçün maraqlı olacaq formada yazın. *Foye, anşlaq, pərdə, qrim, parter, loja, rejissor, dekorasiya, aktyor* sözlərindən istifadə edin. Əlavəli cümlələrə üstünlük verin. Həmin yazınızı digər oxucuların oxuması üçün qəzetinizin uyğun bölməsinə yerləşdirin.

A Z

Burada hansı prinsip pozulmuşdur?

- *aktyor* __________
- *teatr* __________
- *mütəəssir* __________

__________

IV BÖLMƏ 3

# VAQİF OBRAZINDAN BAŞLANAN SƏHNƏ UĞURU

**Orfoqrafiya**

**Hansı düzdür?**

- rejissor – rejisor
- diapazon – diyapazon

Mətndə təsvir edilənləri tərkib hissələrə əsasən qruplaşdırın.



*Ələsgər Ələkbərov*



***Sizcə, aktyor tamaşanın taleyini necə həll edə bilər?***

Adı sənət tariximizin ən parlaq səhifələrində yer alan böyük aktyorlardan biri də Ələsgər Ələkbərovdur. O, həqiqətən, dramatik rolların əvəzsiz ifaçısı idi. Aktyorun səhnədə görünməsi, demək olar ki, tamaşanın taleyini həll edərdi.

Maktuf ("Maqbet"), Şah Zeyir ("Şahnamə"), Aydın ("Aydın"), Heydər bəy ("1905-ci ildə"), Fərhad ("Fərhad və Şirin") və onlarla rolları aktyorun güclü *plastikaya,* geniş *di...apazona* malik olduğunu təsdiqləyirdi. Lakin iki *obraz* – Vaqif ("Vaqif") və Otello ("Otello") rolları onun sənət dünyasının ən parlaq və yaddaqalan nümunələridir. Bu obrazları Azərbaycan səhnəsində güclü aktyorlar ifa ediblər. Ələsgər Ələkbərovun ifasında isə onlar tamam başqa bir aləmdir.

Ələsgər Ələkbərov Vaqif obrazını 28 yaşından oynamağa başlamışdı. "Otello" tamaşasından Ələsgər Ələkbərovun şəkli Şekspir muzeyində indi də saxlanılır. Aktyor bu rolu qüdrətli bir rəssam kimi tam dolğun, mənalı və səsli yaratdığına görədir ki, indi də çoxlarının xəyalında Vaqif məhz Ələkbərovun oynadığı Vaqif kimi canlanır. Onun ifasındakı Vaqif obrazı teatr tariximizdə qazanılan ən böyük müvəffəqiyyətlərdən biri sayılır. Ədil İsgəndərovun quruluşunda "Vaqif" tamaşası milli teatrda düz 1064 dəfə nümayiş etdirilib.

"Otello"da onun aktyor yüksəlişi yeni pilləyə qalxdı. Bu rol Ələsgər Ələkbərovun yaradıcılıq qələbəsi idi. O, reji...orun yaratmış olduğu imkanlardan layiqincə istifadə etmişdi. Teatr tənqidinin o vaxt "bütün Otellolardan daha canlı insan" adlandırdığı Ə.Ələkbərovun – Otellonun hər kəlməsi müstəmləkəçi imperialistlərə qarşı odlu ittiham kimi səslənirdi.

Moskva dekadasında həmin tamaşanı seyr edən və heyran qalan ingilislər tamaşanı lentə alıb aparıblar. Tamaşa vaxtı Moskva teatrının pərdəsi alqışlardan düz 17 dəfə bağlanıb və yenidən açılıb. Bir fakt da var ki, rejissor Ə.İsgəndərov "Otello" tamaşasında baş rolu Ələsgər Ələkbərova verəndə onunla münasibətləri pis imiş. Bu tamaşadan sonra məşhurlaşan Ələsgər Ələkbərov ciddi münaqişədə olduğu Ədil İsgəndərov haqqında: "O məni yaratdı", – deyirmiş...

*# Dekada "ongünlük" deməkdir.*

*Ə.Ələkbərov Vaqif obrazı üzərində dərindən düşünmüş, şairin və onun müasirlərinin həyatını, yaşadığı dövrü və o dövrdəki ictimai münasibətləri lazımınca öyrənmişdir.*

Niyə?

*İngiltərənin Stratfor şəhərində 500 ildən çoxdur ki, Şekspir muzeyi fəaliyyət göstərir. Orada Şekspirin əsərlərinin ən yaxşı ifaçılarından 48-nin büstü qoyulub. Onların içində Abbas Mirzə Şərifzadənin də büstü var.*

*Sizcə, bu faktlar nəyin göstəricisidir?*

*(İmran Axundov)*

**1.** "O məni yaratdı" ifadəsi ilə Ə.Ələkbərov nə demək istəyirdi?

**2.** Hansı abzasda "yad cümlə" vardır? Həmin cümləni tapıb mətndə uyğun abzasa əlavə edin.

**3.** Mətndən əsas faktları seçin. Həmin faktları "Bunları bilirsinizmi?" başlığı altında təqdim edin.

**4.** Ə.Ələkbərovun çəkildiyi hansı filmlərə baxmısınız? Onun kino sahəsində fəaliyyətini necə qiymətləndirirsiniz?

**5.** Verilmiş izahları mətndə fərqləndirilmiş sözlərə uyğunlaşdırın.
- hər hansı bir müğənni, yaxud musiqi alətinin malik olduğu müxtəlif yüksəklikdə olan səslərin məcmusu
- obyektin insan şüurunda obyektiv inikas forması
- bədənlə ritmik zərif hərəkətlər göstərmə məharəti

**6.** *Örnək* sözünün sinonimini tapın.

**SÜJET ƏSASINDA Ə.ƏLƏKBƏROVU XARAKTERİZƏ EDİN.**

**7.** Mətnin ikinci abzasındakı durğu işarələrinin qoyulma səbəbini izah edin. Həmin abzasda sadalama intonasiyası ilə deyilən sözlərin hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.

Eyni üzvlə əlaqələnən, eyni suala cavab verib eyni cümlə üzvü olan bərabərhüquqlu söz və ifadələrə **həmcins üzvlər** deyilir. *Məsələn:*

Şərəf və ləyaqət ruhun bəzəyidir. *(M.Servantes)*

həmcins üzvlərdir.

Həmcins üzvlər arasında ***tabesizlik əlaqəsi*** olur. Onlar sadalama intonasiyası və tabesizlik bağlayıcıları vasitəsilə bir-birinə bağlanır. *Məsələn:*

Oğuz bəyləri bunu görüb əl çaldılar, gülüşdülər. *("Kitabi-Dədə Qorqud"dan)*

Oğuz bəyləri ← əl çaldılar.
Oğuz bəyləri ← gülüşdülər.
} sadalama intonasiyası ilə bağlanan xəbərlər hər biri ayrılıqda mübtəda ilə əlaqələnir.

Bütün cümlə üzvləri həmcins olur.

**8.** 7-ci sinifdə bağlayıcı haqqında öyrəndiklərinizi yadınıza salaraq sxemi tamamlayın. Bağlayıcılardan istifadə edərək həmcins üzvlü cümlələr qurun.



**9.** Mətnin (səh. 108) 2-ci abzasındakı həmcins üzvlərin hansı vasitələrlə bağlandığını müəyyənləşdirin.

**10.** Verilmiş cümlələrdə həmcins üzvləri müəyyənləşdirib hansı cümlə üzvü olduğunu deyin. Hansı bağlayıcılardan istifadə etsəniz, cümlələrin məzmununa xələl gəlməz?

Ölməz bu gözəl aləmə idrakla gələnlər,
Mənə evinin sirrini vicdanla bilənlər.
*(S.Vurğun)*

Dili qiymətdən salar
Ucuz söz, hiylə, böhtan.
*(R.Rza)*

Şeir mədəniyyət, incəsənətdir,
İncə ruh, incə zövq, incə sənətdir.
*(M.Şəhriyar)*

1843-cü ildən 1846-cı ilə qədər Mirzə Şəfi Fridrix Bodenştedtə Azərbaycan və fars dillərini, Şərq poeziyasının incəliklərini öyrədir.

✓ *Hansı həmcins cümlə üzvlərinə aid nümunə yoxdur? Bədii əsərlərdən istifadə edərək bu nümunələrin sayını artırın.*

**11.** Uyğunluğu müəyyənləşdirin.

1. Əjdər bəy Aşurbəyov Yaponiyaya səfər etmiş, oradan qayıtdıqdan sonra yapon memarlıq üslubunda "Mikado" adlı teatrın – indiki Rus Dram Teatrının binasını tikdirmişdi.
2. XVI əsrdə aktyorlar ya varlıların evlərində, ya da onların evinin qarşısında – açıq havada çıxış edirdilər.
3. Afrikadan, Hindistandan
   Qonaq gəlir bizə quşlar,
   Zülm əlindən qurtulmuşlar. *(S.Vurğun)*

| | 1 | 2 | 3 |
|---|---|---|---|
| a | | | |
| b | | | |
| c | | | |
| d | | | |

*a.* Cümlədə həmcins üzvlər işlənmişdir.
*b.* Cümlədə tamamlığın əlavəsi vardır.
*c.* Cümlədə həm həmcins üzvlər, həm də əlavələr vardır.
*d.* Bu cümlədə həmcins üzvlər bölüşdürmə bağlayıcısı ilə bağlanmışdır.

**12.** Ə.Ələkbərov haqqında məlumat toplayıb 15-20 cümlədən ibarət kiçik mətn hazırlayın. Onu mətnin uyğun hissəsinə yerləşdirin. Yazdığınız hissənin əsas mətnlə uyğunlaşmasına diqqət yetirin.

**13.** "Aktyorun ən böyük qazancı xalq məhəbbətidir" adlı esse yazın.

IV BÖLMƏ 4

# İLK AKTRİSAMIZ KİMDİR?

**Orfoepiya**

**Düzgün tələffüzü yazın.**

*Ailə, teatr, mədəniyyət, faciə* sözlərinin düzgün tələffüzünü yazın.

**Orfoqrafiya**

**Hansı söz səhv yazılmışdır?**

1-ci abzasın 1-ci cümləsində
4-cü abzasın 2-ci cümləsində
9-cu abzasda

20-ci əsrin əvvəllərində Tiflis Cənubi Qafqazın ən inkşaf etmiş mədəniyyət mərkəzi idi. Qafqazın ən önəmli mədəni, ictimai, siyasi hadisələri məhz bu şəhərdə baş verirdi. Azərbaycanlı xanım aktrisanın səhnəyə çıxması da bu hadisələrdən biri oldu.

İlk dəfə 1906-cı ildə səhnəyə çıxan Gövhər Qazıyeva – teatrımızın ilk aktrisası teatr tarixində "Göyərçin xanım" adı ilə xatırlanır.

1887-ci ildə Tiflisdə ziyalı ailəsində anadan olan Gövhər xanım Azərbaycan və rus dillərində mükəmməl təhsil alıb, Tiflisdə Nəcib Qızlar İnstitutunu bitirib.

19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində başqa sahələrdə olduğu kimi, Tiflisin teatr mühiti də Bakıdakından fərqli olaraq çox canlı və maraqlı idi. Elə o zaman fəaliyyət göstərən Tiflis zadəgan teatrında azərbaycanlı aktyor və aktrisalar da çıxış edirdi.

***Sizcə, bunun səbəbi nə idi?***

Azərbaycan *truppalarının* tamaşalarında fəal iştirak edən Gövhərin teatra həvəsi 1906-cı ildə onun ilk dəfə səhnəyə çıxması ilə nəticələnir. Gövhərin Tiflis zadəgan teatrında ilk çıxışı isə 1910-cu il oktyabrın 9-da olur. N.Vəzirovun "Müsibəti Fəxrəddin" *faciəsində* çox böyük uğurla oynayan aktrisa oktyabrın 30-da Şəmsəddin Saminin hazırladığı "Gaveyi-ahəngər" ("Dəmirçi Gavə") tamaşasına dəvət alır.

Göyərçin xanım tezliklə bütün Qafqazda: Tiflisdə, Bakıda məşhurlaşır. Qəzetlər onun haqqında yazmağa başlayır. Bir çox tamaşalarda çıxış edən Gövhər xanım Azərbaycan teatrının ilk qadın "Leyli"lərindən olur. Bundan başqa, aktrisa Bakıda bir çox tamaşalarda: H.Heynenin "Əlmənsur", Loxmanovun "Napoleonun vəfatı", N.Kamalın "Qara bəla", N.Nərimanovun "Nadir şah", Ə.Haqverdiyevin "Pəri Cadu", "Bəxtsiz cavan", Z.Hacıbəyovun "Evliykən subay" əsərlərində əsas rolları ifa edib.

1911-ci ildə Tiflisdə aktrisanın *benefisi* keçirilir. Bu gecədə ilk dəfə Zülfüqar Hacıbəyovun "On bir yaşlı arvad" pyesi göstərilir, Gövhər xanım da bu tamaşada əsas rolu canlandırır.

Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Mirzəağa Əliyevlə – bir sözlə, teatrımızın korifeyləri ilə birgə çıxış edən "Göyərçin xanım"ın səhnəyə çıxmasına mane olanlar da var idi. Buna baxmayaraq, Azərbaycan səhnəsinin ilk göyərçini səhnə fəaliyyətinə davam edir.

Taleh elə gətirmişdir ki, Gövhər Qazıyeva Cənubi Azərbaycana getmiş və həmişəlik orada qalmışdır.

*1937-ci ildə aktrisa bir neçə günlüyə Bakıya gəlir. Keçmiş səhnə dostları onun şərəfinə teatrda qəbul təşkil edirlər. O gün Cəfər Cabbarlının "Almaz" pyesi əsasında hazırlanan tamaşa nümayiş etdirilirmiş. Həmin gün daha bir qeyri-adi hadisə baş verir: Gövhər Qazıyeva itirdiyi və on beş il həsrət qaldığı oğlu İsmayılı tapır. Sevincdən özünü itirən qadın teatrda hamıya hədiyyə paylamağa başlayır.*

1960-cı ildə Cənubi Azərbaycanda vəfat edən səhnəmizin "Göyərçin xanım"ının Azərbaycan tarixinin ən cəsarətli qadınları arasında öz yeri var.

***Səmra Sədrəddinli***

**1.** Hansı məşhur qadın aktrisaları tanıyırsınız? Teatrın inkişafında onların rolunu müəyyənləşdirin. Mülahizələrinizi müasir dövrlə əlaqələndirin.

**2.** Mətndə fərqləndirilmiş abzas əsasında dialoq qurun, uyğun nitq etiketlərindən istifadə edin.

**3.** Mətnlə bağlı hansı fikir düzdür?

A) Mətnin giriş hissəsində Gövhər xanımın teatr fəaliyyətindən danışılır.
B) Mətnin əsas hissəsində Leyli rolunun ilk ifaçısından danışılır.
C) Aktrisanın Bakıya səfəri nəticə hissədədir.
D) Əsas hissədə Gövhər xanım teatrın ilk qadın aktrisası kimi təqdim olunur.
E) Faktlar yalnız əsas hissədə verilir.

**4.** Mətnə əsasən hansı fikirlərin olduğunu seçin.

1. Ədəbi mühit yalnız Tiflisdə formalaşmışdı.
2. Azərbaycan teatrının inkişafında kişilərlə yanaşı, qadınlar da əmək sərf etmişlər.
3. Yazıçıların əsərləri teatrın inkişafında müstəsna əhəmiyyətə malik idi.
4. XIX–XX əsrin əvvəllərində Bakıda hələ teatr formalaşmamışdı.

**5.** Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edin.

**6.** *Başqa* sözünün omonim olduğunu əsaslandırın. Mətndən həmin sözün işləndiyi cümlələri seçib işlənmə məqamına əsasən fikirlərinizi sübut edin.

**7.** Mətndə altından xətt çəkilmiş cümlələri təhlil edib həmcins üzvləri müəyyənləşdirin. Həmcins üzvləri ümumiləşdirən ifadəni tapıb onun işlənmə yerinə və durğu işarələrinə diqqət edin.

*Nümunə:*

Hər tərəf: dağ, dərə, təpələr ağ qarla örtülmüşdü.

ümumiləşdirən söz — həmcins üzvlər

Həmcins üzvlərin hamısına aid olub onların mənasını ümumiləşdirən söz və ifadələrə **ümumiləşdirici sözlər** deyilir. Ümumiləşdirici sözlər həmcins üzvlərdən həm əvvəl, həm də sonra işlənir.

Ümumiləşdirici söz həmcins üzvlərdən əvvəl gəldikdə ondan sonra qoşa nöqtə qoyulur. *Məsələn:*

Qızlar: Nigar, Xanım, Röya və Nəzrin həvəslə bayram şənliyinə hazırlaşırdılar.

Ümumiləşdirici söz həmcins üzvlərdən sonra gəldikdə ondan əvvəl *tire işarəsi* qoyulur. *Məsələn:*

H.Turabov, N.Zeynalova, H.Məmmədov, F.Mütəllimova, R.Balayev – bunların hamısı səhnəmizin görkəmli xadimləridir.

**8.** Mətni oxuyun. Ümumiləşdirici sözləri müəyyənləşdirib durğu işarələrinin işlənmə qaydasını izah edin.

1982-ci ilin 21 oktyabr tarixində Azərbaycanın üç igid oğlu: Həmid Cəfərov, Zakir Nəsibov və Telman Əliyev uzaq Sibirdə, İrkutsk vilayətinin Tayşet şəhəri yaxınlığındakı Şevçenko kəndi məzarlığında dizə qədər qara bata-bata 41 il əvvəl vəfat etmiş Hüseyn Cavidin məzarını axtarırdı.

Və ... nəhayət ki, tapdılar.

Məzar açılanda hər üçü: Həmid də, Telman da, Zakir də Cavidin nəşi qarşısında diz çöküb göz yaşı tökdülər. Bu həm hüzn, həm də sevinc göz yaşları idi. Onlar dahi şəxsiyyəti doğma elinə – Azərbaycana aparmağa gəlmişdilər.

Vaxtilə Bakıda 59 nömrəli mənzildə yaşayan, 59 yaşında vəfat edən, 59 nömrəli qəbirdə uyuyan, 59 nömrəli aktla torpağa tapşırılan Azərbaycan şairi, dramaturqu vətənə – 59 yaşlı Turanın görüşünə gedirdi.

O, Ulu öndər Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində Vətənə qayıdırdı.

*(Gülarə Munis)*



**9.** Cümlədə ümumiləşdirici sözləri müəyyən edin. Ümumiləşdirici sözlərin yerini dəyişin. Bağlayıcı və ara sözdən də istifadə etməklə cümləni 4 formada yazın. Bu zaman durğu işarələrindən düzgün istifadə edin.

1914–15-ci illərdə Əliağa Vahid ilk şeirlərini – qəzəl, meyxana və felyetonlarını bir sıra qəzet və jurnallarda: "Zəhmət", "Babayi-Əmir", "Tuti" və "Bəsirət"də çap etdirmişdir.

✓ *"Qəzəlxan şair" ifadəsini Əliağa Vahid adından həm əvvəl, həm də sonra işlədin. Müşahidə etdiyinizi şərh edin.*

Ümumiləşdirici sözdən sonra *yəni, məsələn* bağlayıcıları işlənərsə, bağlayıcıdan əvvəl vergül, sonra qoşa nöqtə qoyulur. *Məsələn:*

Dərman bitkiləri, yəni: itburnu, çaytikanı, çobanyastığı, zəncirotu respublikamızın müxtəlif bölgələrində bitir.

Ümumiləşdirici sözdən əvvəl ara söz *(bir sözlə)* işlənərsə, ara sözdən əvvəl tire, sonra vergül qoyulur. *Məsələn:*

H.Ərəblinski, H.Sarabski, Ü.Hacıbəyli, Ə.Haqverdiyev – bir sözlə, bütün sənətsevərlər bir araya gəlib Azərbaycan teatrının inkişafı üçün əllərindən gələni əsirgəmirdilər.

**10.** Mətndə ümumiləşdirici sözləri müəyyənləşdirib durğu işarələrini bərpa edin.

"...Naxçıvanda teatr həvəskarları, mən də onların içində, teatr oynayırdıq. Və bu oyunun mənfəəti kasıb məktəb şagirdləri üçün idi. Naxçıvanda o vaxt səhnədə Mirzə Fətəlinin pyesləri "Hacı Qara", "Məstəli şah", "Kimyagər" və "Xan sərabi" göstərilirdi. Burada mənim söhbətim "Kimyagər" komediyası barəsindədir... Qərar qoyduq ki, tamaşanı məhz məktəb şagirdləri üçün oynayaq və elə də elədik...

Mirzə Fətəlinin nadir qələmindən törəyən ləzzətli komediyanın duzlu və zərif məzhəkələri uşaqlara o qədər xoş gəldi ki, tamaşa qurtarandan sonra bunlar teatr həyətinə və sonra küçəyə çıxa-çıxa bir ucdan çığırışırdılar:

– Molla Həmid, görüyü bas!

Bir neçə dəqiqənin içində şəhər, küçə və bazarlarda bir sözlə hər bir yerdə elə uşaqlar çığırırdı: – Molla Həmid, görüyü bas!"

*(Cəlil Məmmədquluzadə)*

**11.** Aşağıdakı cədvələ uyğun cümlələr yazın.

| Sadalama intonasiyası ilə bağlanan həmcins üzvlər | Tabesizlik bağlayıcıları ilə bağlanan həmcins üzvlər | Ümumiləşdirici sözlərlə işlənən həmcins üzvlər |
|---|---|---|
| | | |

**12.** "Leyli rolunun ifaçıları" adlı məlumat hazırlayın. Təqdimatınızı müşayiət edəcək nitqinizin düzgün qurulmasına və onu hansı formada təqdim edəcəyinizə diqqət yetirin.

**13.** Mətndən əsas faktları seçin. Kiçik qəzet materialı hazırlayın. Mətnin xarakterini özünüz seçin.

IV BÖLMƏ 5

# EVRİKA

*("Bahar oğlu" romanından, ixtisarla)*

Orfoqrafiya

**Hansı səhv yazılmışdır?**

- 1-ci abzasın 3-cü cümləsində
- 4-cü abzasın 3-cü cümləsində
- 7-ci abzasın 1-ci cümləsində

**OXUDAN ƏVVƏL**

*Evrika dedikdə nə başa düşürsünüz?*

Mətndə nədən danışılacağı barədə fikir yürüdün.

Neçə gün idi ki, onun otağı içəridən bağlı idi, nəinki qapısı, hətta yeganə pəncərəsinin taxtası da qapanmışdı. Bu qapı-pəncərənin bayır tərəfində də bir kəs nəzərə çarpmır, bir səs qulağa dəymirdi. Baxçaya baxan eyvan dərin sükuta batmışdı. Yalnız ara-sıra içəridən – onun tənha otağından qırıq-qırıq səslər eşidilirdi. Sona barmaqlarının ucunda dəhlizdən eyvana çıxır, nəfəsini dərmədən qulağını qapıya dayayıb dinləyir, ancaq eşitdiyi tək-tük kəlmələrdən bir məna çıxara bilmirdi.

"Həyat... Ölüm... Varlıq... Yoxluq... İntiqam..."

Bu sözlərlə o nə demək istəyirdi? Nə yazırdı?

**Sizcə, bu əsərin qəhrəmanı hansı Cəfərdir?**

...Cəfər "Hamlet"i azərbaycancaya tərcümə edirdi. Lakin qəribə idi ki, qarşısında açılmış bu qədər kitab arasında bircə dənə də lüğət, onun özünün dediyi kimi, "dilbil" yox idi. Deyəsən, Cəfər Şekspirin şah əsərini adicə tərcümə etmir, öz ana dilində yazmaq istəyirdi.

...Budur, o, ingiliscə bir kitabı açıb ucadan oxudu: "To-be-or not to-be?.."

Sonra rus dilində başqa bir kitaba baxıb pıçıldadı: "Быть, или не быть?.."

Fikirə getdi: "Olmaq və ya olmamaq?..", "Etmək və ya etməmək?.." Xeyli fikirləşdikdən sonra təkrar etdi: – Bəlkə, "Ölmək və ya ölməmək?.." Yoxsa "Almaq... İntiqam almaq və ya almamaq?..", "Öldürmək və ya öldürməmək?"

Dili tələffüz etdikcə əli də dediklərini kağıza köçürürdü. Yazır, sonra pozurdu. Yenə kitablara baxır, təzədən *deklamasiya* edir, yenə yazır, yenə pozurdu...

Yenə ingiliscə və ruscanı oxudu, bəzən alçaqdan pıçıldadı, bəzən yüksəkdən deklamasiya etdi: "To-be-or not to-be?..", "Быть, или не быть?.."

Birdən ayağa qalxdı:

– Bəs necə yazmaq ki, həm düz olsun, həm də yaxşı səslənsin?.. Heç birisi: olmaq, etmək, həyat, yaşamaq ifadələri ürəyimə yatmır... Ola bilməz ki, dilimizdə bunun qarşılığı olmasın. Yox, vardır! Ancaq onu axtarıb tapmaq lazımdır... Bəlkə, yeni bir söz, təzə bir ibarə ixtira edilməlidir?

Stol arxasında oturdu. Başını əlləri arasına aldı. Xəyala daldı:

– Olmaq... Ölmək... Almaq... Aldırmaq... Öldürmək... Oldurmaq... Varlıq... Yoxluq... Ölülük... Oluluq... Olumluq... Ya gərək ölüm, ya sənin tərcümanın olum! – dedi və birdən otağın ortasında durdu. Sönmüş papirosunu yandırdı. Kibrit alovundan otaq işıqlanan kimi oldu. Gözlərini geniş açaraq, tüstü dumanı içində közərən neft lampasının piltəsinə baxdı. Tüstünü lampa şüşəsinə üfürdü. Piltənin alovu bir an gücləndi, sonra tamam söndü. Zülmətə qərq olmuş otaqda gözləri parladı. Aram-aram, sanki dili ilə deyil, nəfəsi ilə pıçıldadı:

*Cəfəri sevindirən və “Evrika” deyə ucadan səslənməsinə səbəb nə idi?*

– Olum, ya ölüm?.. – deyərək əlini alnına çırpıb ucadan səsləndi:

– Evrika!

*Siz necə düşünürsünüz, hansı daha şərəflidir?*

Elə çığırdı ki, Sona dəhlizdən eyvana yüyürdü. Və daha qulağını bağlı qapıya, ya pəncərəyə yapışdırmadan, içəridən aydın eşidilən sözləri dinlədi: – “Olum, ya ölüm?” ...Budur məsələ!.. Hansı daha şərəflidir?

***Seyfəddin Dağlı***

**OXUDAN ƏVVƏL** *Sizcə, hər hansı bir ifadənin qarşılığını tapmaq evrika hesab edilə bilərmi?*

**1.** Cəfər nə üçün lüğəti “dilbil” adlandırırdı? Siz bu ifadəyə necə münasibət bəsləyirsiniz?

**2.** Mətnə əsasən Cəfər Cabbarlını xarakterizə edin.

**3.** Bu mətn təqdimedilmə formasına görə əvvəlki mətnlərdən nə ilə fərqlənir? Fikirlərinizi əsaslandırın.

**4.** Mətnin ideyasını müəyyən edin. “Evrika”nın teatrla nə əlaqəsi ola bilər? Fikirlərinizi faktlarla əsaslandırın.

**5.** Aşağıdakı hansı hikmətli fikir mətnin ideyasına uyğundur?

- Yüksəyə qalxmaq istəyirsənsə, lap aşağıdan başlamalısan.
- Həyatda ən böyük uğur xoşbəxtliyə nail olmaqdır.
- Müvəffəqiyyətin sirri israrla işləməkdir.

**6.** Mətndəki əsas fikri və ona uyğun olan hikmətli sözü müəyyən edin.

**7.** *“Evrika” mətn üçün açar sözdür* fikrini ya təsdiq, ya da inkar edin.

**8.** Mətndən frazeoloji birləşmələri seçib yazın.

**9.** *Piltə, pilətə* və *plitə* sözlərini fərqləndirin.

**10.** *Həyat, ölüm, varlıq, yoxluq, intiqam* sözlərinin məzmun qrupunda hansı söz artıq ola bilər? Fikirlərinizi əsaslandırın.

**11.** Altından xətt çəkilmiş cümlələrdə həmcins üzvləri tapıb, onlarda qrammatik şəkilçinin işlənməsinə diqqət yetirin. Hansı şəkilçilər ixtisar olunub? Sizcə, bunun səbəbi nədir?

Həmcins üzvlərdə sonuncusu saxlanılmaqla qrammatik şəkilçilər ixtisar edilir.
Aşağıdakı şəkilçilər və hissəciklər ixtisar oluna bilər:
hal, mənsubiyyət, cəm, şəxs şəkilçiləri, ***idi, imiş, isə*** köməkçi sözləri, qoşmalar və s.

**12.** Aşağıdakı mətnləri müqayisə edin. Təkrarlanan hissəciklər hansı mətnlərə daha çox ağırlıq gətirir? Nə üçün? Fikirlərinizi əsaslandırın.



*Bir ovuc torpaq da yaraya məlhəm olarmış! Görəsən, haradandır torpaqda bu hikmət?*

*Haradan başlanır Vətən? Yaşadığın evdənmi, məhəllədənmi, şəhərdənmi? İlk dəfə nəfəs aldığın məkandanmı? Yoxsa ilk dəfə ayaq açıb qədəm qoyduğun torpaqdanmı? Bəlkə, elə əcdadlarımızın uyuduğu torpaqdan başlanır Vətən? Yoxsa bu qapqara torpağa bu qədər dəyər verilərdimi?*



*Ana yorğun halda işdən evə qayıdır. Qapını açanda evdəki qarmaqarışıqlığı görüb təəccüblənir.*
*Qızlarımı idi təqsirkar, yoxsa oğlumu?*
*Uşaqları çağırıb dedi:*
*– Fatimə, evi sənmi töküb-töküşdürmüsən, yoxsa bacın Röyamı? Evləri yığışdıra bilmirdinizmi? Bilmirdinizmi, bu gün qonaqlarımız olacaq?*
*– Qonaqlarımızmı olacaq, ana?*
*Oğlu da söhbətə qoşuldu:*
*– Qohumlarımızmı gələcək, yoxsa dostlarımızmı?*

**13.** Hansı cavabda yanlışlıq vardır?

A) Tire işarəsi həm əlavələrdə, həm də ümumiləşdirici sözlərdə işlənir.
B) Həmcins üzvlər arasında sintaktik əlaqənin hər iki növü özünü göstərir.
C) Bütün cümlə üzvlərinin həm əlavəsi, həm də həmcinsliyi olur.
D) Əlavələr aid olduğu cümlə üzvündən sonra gəlir.
E) Həmcins üzvlərdə şəkilçi və hissəciklər ixtisar oluna bilər.

A Z

Verilmiş sözlərin vurğularını müəyyənləşdirin.

- *aptek*
- *ehtiram*
- *ədəb-ərkan*
- *filosof*
- *təkəbbür*

IV BÖLMƏ 6

# OQTAY ELOĞLU
*(ixtisarla)*

Mətni rollar üzrə və məzmunu nəzərə almaqla intonasiya ilə oxuyun.

SƏMƏD. Oqtay, dünən anan bizə gəlmişdi. Yalvarıb məni göndərdi, axı belə iş olmaz.

OQTAY. Səməd bəy, istəyirsiniz, sözlərinizin hamısını söyləyim. Atadan sonra dükanı bağlandı, malı dağıldı, evə gec gəlirsən, çörək yox, bilirəm, odun yox. Bunların hamısını bilirəm. Nə etmək!

SƏMƏD. Dildə demək asandır. Bir ana, bir də naxoş qız qalmışlar başsız. And içir ki, üç gecədir, xəstə uşaq qaranlıqda yatır. Neft almağa pul yox. Axı o da bir kişinin qızıdır. Çox da bilirsən, çarə ki etmirsən.

OQTAY. Doğrudur! O zavallılar da... fəqət edə bilmirəm. Çünki Səməd bəy, mən qocaman bir xalqı, onun səadətini, gələcəyini iki nəfər qadının istirahətinə fəda edə bilmərəm.

Oqtayın bu sözlərini necə qiymətləndirirsiniz?

SƏMƏD. Mən də, cəmiyyət də xalq üçün çalışırıq... *Upravada* üzvəm, adım-sanım, güzəranım. Yoxsa xalq!.. Mən özümü unudacağam ki...

OQTAY. Xalq və "mən" – bu iki söz bir yerə sığışdırılmaz. Ya mən olmalıyam, mənim üçün xalq olmamalıdır. Ya o olmalıdır, mən olmamalıyam. Mən baxdım, ikinci yolu götürdüm. Və o gündən Oqtay bir el oğludur. O, böyük bir vahidin kiçik bir parçasıdır.

Oqtayın seçiminə sizin münasibətiniz necədir?

SƏMƏD. Oqtay, çocuq olma! *Qubernatora* dilmanc gərəkdir. Ayda 70 manat donluq verir. Amma kənardan 7-8 yüz gəliri var. Həm də camaat içində adın, hörmətin. Düyü, yağ, minnətin də minnət. Mən səni göstərdim. Dedim, rüşdiyyəni bitirmiş. İdraklı, rusca-azərbaycanca gözəl savadı. Budur, yalvardı ki, göndər gəlsin. Axır ki, düzəltmişəm.

OQTAY. Səməd bəy, məqsəd pul qazanmaq olsa, mən onun yollarını çox gözəl bilirəm. Mən azad bir sənətkaram. Bir sənət düşkünüyəm. Mən bir çinovnik ola bilmərəm.

SƏMƏD. Sənəti sevirsənsə, eşitdim ki, səni böyük bir pul ilə rus səhnəsinə çağırırlar. Get, həm *təqdir olunarsan*, həm pulun... O vaxta qədər xalq anlarsa, işlər yoluna düşərsə, qayıdıb gələ bilərsən.

Nə üçün Oqtay ona edilən təkliflərin heç birini qəbul etmir?

OQTAY. Ha-ha-ha! Aldanırsan, Səməd bəy, aldanırsan! Bunu bizimçin kim edəcəkmiş! Mən prinslərin saxladığı köpəklər kimi hazır nahara gəlmək istəmirəm. Başqalarında səhnə, mədəniyyət – hər şey var. Bizdə yox. Yaşamaq istəyiriksə, yaratmalıyıq. XX əsrin *təkamülünə* qarşı bu yazıq xalqı tək buraxıb qaçmağı kim özünə layiq bilirsə, bilsin, mən bilmirəm. Yaşadığımız mübarizə meydanlarının müxtəlif qazmaları vardır.

SƏMƏD. Hamısını sənmi yaradacaqsan?

OQTAY. Hər kəs bacardığını. Buradan kimsə geriyə qaça bilməz. Səhnəmiz yox. Fəqət olmalıdır. Onu da mən yaradacağam. Mən bu dərin uçurumları keçəcək, keçilməz dağları, sıldırım qayaları çeynəyib parçalayacaq və bu *keşməkeşlər* arasından bir səhnə, yoxdan bir var yaradacağam. Gələr bir gün ki, zavallı kütləni də həmin yüksəklikdə görərsən.

« Oqtayın arzuları çin oldumu?

*Cəfər Cabbarlı*

> *XIX əsrdə maarifçi Mirzə Həsən Rüşdiyyənin açdığı yeni tipli məktəblər Rüşdiyyə məktəbləri adlanırdı. İlk belə məktəb 1888-ci ildə Təbrizdə açılmışdır. Təsis etdiyi məktəblər 9 dəfə bağlansa da, M.H.Rüşdiyyə fikrindən dönməmişdir.*

**1.** Oqtay nə üçün özünü *el oğlu* adlandırır? Fikrinizi faktlarla əsaslandırın.

**2.** Oqtayın dediklərini müasir dövrlə əlaqələndirin. Xalqın rifahı yolunda mübarizə aparan fədakarları xatırlayın. Onların amalını mətnin əsas ideyası ilə əlaqələndirin.

**3.** Bu mətn əvvəlkilərdən hansı xüsusiyyətinə görə fərqlənir?

**4.** Siz gələcəkdə doğma xalqınız üçün nələr edəcəksiniz? Bu barədə düşünün. Fikirlərinizi ümumiləşdirib dostlarınızla bölüşün.

**5.** Mətndə açar sözləri müəyyənləşdirin.

**6.** Fərqləndirilmiş sözlərin leksik mənasını izah edin və işlənmə dairəsinə görə növünü müəyyənləşdirin.

**7.** *Donluq* sözünün leksik mənalarını müəyyənləşdirin, hər iki mənada cümlədə işlədin.

**8.** *Təkamül* və *tənəzzül* sözlərinin antonim olduğunu əsaslandırın.

**9.** Siz aşağı siniflərdə mübtəda ilə xəbərin uzlaşmasını keçmişsiniz. Həmin qaydanı yadınıza salın. Mətndə altından xətt çəkilmiş cümlələrdə həmcins mübtədaların xəbərlə uzlaşmasına diqqət yetirin. Özünüz də belə nümunələr deyin.

**10.** Məntiqinizə əsaslanıb cümlələrdə şəxs sonluqlarını bərpa edin.

- Mən və bacım gəzməyə getdi..? *(...m, ...k)* Mən və sən məqsədimizə çatmalı..? *(...yam, ...yıq)* Biz və Nərgiz X sinif şagirdləri..? *(...dir, ...yik)*
- Sən və o dərsə gedir...? *(...sən, ...siniz?)* Siz və Cavid olimpiadada iştirak etməli...? *(...dir, ...siniz)* Vəfa, Aygün və Elmira mehriban qız..? *(...dır, ...lardır)*
- Kirpilər və ayılar uzun müddət qış yuxusuna gedir? *(...lər)* Güllər və çiçəklər ətrafa xoş ətir saçır? *(...lar)*

✓ *Gəldiyiniz qənaəti əsaslandırmaq üçün uyğunluğu müəyyənləşdirib xəbərin həmcins mübtədalarla uzlaşması qaydasını tərtib edin.*

1) Həmcins mübtədalardan biri I şəxsin təki və cəmində olarsa,

2) Həmcins mübtədalardan biri II şəxsin təki və cəmində olarsa,

3) Həmcins mübtədalardan biri III şəxsin cəmində olarsa,

*xəbər II şəxsin cəmində olur.*

*xəbər təkdə və ya cəmdə olur.*

*xəbər I şəxsin cəmində olur.*

**11.** Aşağıdakı mətndə həmcins mübtədaları müəyyənləşdirin, III şəxsdə xəbərin onlarla uzlaşmasına diqqət yetirin. Fikirlərinizi ümumiləşdirin.

Xalq dramlarının yaranmasında aşıq sənəti və mərasimlər böyük rol oynamış... (*dır? lar*). Ailə-məişət mövzusunda da xalq dramları vardır: "İki qardaş", "Keçəl", "Xəsis" oyun-tamaşaları xalq nağılları əsasında yaranmış... (*dır? lar*). İştirakçılar bu oyun-tamaşaları müxtəlif mərasimlərdə: toy, yas, bayram, elçilik, nişan mərasimlərində icra edirdi... (*lər?*).

Xalq dramları, adətən, nəsrlə və nəzmin növbələşməsi ilə yaranır. Məsələn, "Qodu-qodu" oyununda kənd cavanları üzərinə qırmızı şilə çəkilmiş bir dairəni, yaxud bəzədilmiş çömçəni Günəş rəmzi kimi götürüb qapı-qapı gəzər və müəyyən nəğmələr oxuyardı... (*lar?*)

**12.** Aşağıdakı cümlələri öz düşüncələriniz əsasında tamamlayıb davam etdirin.

Mən bu bölmədən öyrəndim ki, aktyorluq sənəti ... .
Eyni zamanda başa düşdüm ki, həmcins üzvlər və əlavələrdən istifadə ...

# 1 “GÜNÜN HADİSƏLƏRİ”

**Orfoepiya**

**Düzgün tələffüzü yazın.**

- xatırladan – [...]
- hazırlanıb – [...]
- xəbərlər – [...]
- əməkdaşlıq – [...]

**Orfoqrafiya**

Tünd şriftlə verilmiş sözlər bir, yoxsa iki “y” ilə yazılmalıdır?

Bu bölmədə sizinlə daha bir maraqlı sahəyə “səyahət edəcəyik”. Yəqin ki, adına əsasən bölmədə nədən söhbət gedəcəyi sizə aydın oldu.

Sizcə, mətn niyə “Günün hadisələri” adlandırılmışdır?





Mətbuat dedikdə nə başa düşürsünüz?

Mətbuatın yaranması və inkişafı ilə bağlı nə bilirsiniz? Sizcə, cəmiyyətin inkişafında mətbuatın rolu varmı?

Dialoqu düzgün tələffüzlə oxuyun.

Şəhəri gəzməyə çıxan dostların yolu **nəşri...atın** yanından düşdü.

– Əziz dost, ilk qəzetin yaranma tarixi haqqında, yəqin ki, eşitmisən?

– Bildiyimə görə, dünyada birinci *qəzet* e.ə. 59-cu ildə qədim Romada nəşr olunub. Bu, əl ilə yazılmış "Günün hadisələri" adlı "vərəqə" (*gil lövhə*) olmuşdur. Hətta Yuli Sezarın dövründə "Senatın əl işləri" adlı qəzeti xatırladan gil lövhələr də hazırlanırdı.

– Düzdür. Ondan sonra əl ilə yazılan 2-ci gündəlik qəzet təxminən 1300 il əvvəl hazırlanıb. Həmin qəzetin adı "Paytaxt yenilikləri" idi. Dünyada müntəzəm nəşr edilən ilk qəzet isə 1609-cu ildə Almaniyada buraxılan "Zaytung" adlı çap məhsulu olub.

– "Qəzet" sözü italyan pul vahidi "qaset" ilə bağlıdır. XVI əsrdə kağız vərəqələrdə çap edilən xəbərləri oxumaq üçün xırda pul vahidi olan qaset ödənilirdi.

– Maraqlıdır.

– Azərbaycanda isə ilk **informasi...a** nümunələri XIX əsrin 30-40-cı illərinə təsadüf edir. Bunlar xüsusi *bülletenlər* olub.

– Həsən bəy Zərdabinin rəhbərliyi ilə ilk azərbaycandilli nəşrin – "Əkinçi" qəzetinin işıq üzü görməsi, sözsüz ki, Azərbaycan mətbuatı üçün əlamətdar bir hadisə idi.

– Onu da deyim ki, H.Zərdabi ana dilində qəzet çıxarmaq fikrinə hələ Qubada mahal məhkəməsinin hakimi işlədiyi dövrdə gəlmişdi. Ensiklopedik biliyə malik alim A.Bakıxanovun qardaşı Cəfərqulu xan Bakıxanov da tələb olunan **mali...ə** xərclərinin bir hissəsini öz üzərinə götürəcəyini bildirmişdi.

– Deyilənə görə, Bakının hərbi qubernatoru, general-mayor Dmitri Semyonoviç Staroselski ona qəzetin adını "Əkinçi" qoymağı, əkin işlərindən danışmağı məsləhət görmüşdü.

– Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Azərbaycanın ilk jurnalistlərindən olan İsa Sultan Şahtaxtlı və başqaları qəzetlə daimi əməkdaşlıq etmiş, öz yazılarını orada çap etdirmişlər.

– Dostum, "Əkinçi" bağlansa da, əlbəttə ki, Azərbaycan mətbuatının sonrakı inkişafına güclü təkan oldu.

**1.** H.Zərdabinin qəzet nəşr etməkdə məqsədi nə idi?

**2.** "Əkinçi"nin nəşri nə üçün əlamətdar hadisə hesab edilirdi?

**3.** "XIX və XXI əsrdə mətbuat" mövzusunda söhbət aparın.

**4.** Dialoqu davam etdirməli olsa idiniz, hansı mətbuat orqanlarının adını çəkərdiniz ki, xronoloji ardıcıllıq pozulmasın?

**5.** Mətndən ixtiyari bir neçə söz seçin. Seçdiyiniz sözlər haqqında fikir yürüdün.

**6.** Mətndə fərqləndirilmiş sözlərin leksik mənasını izah edin.

**7.** *İnformasiya* sözünün sinonimini tapın. Bu sözlər həmişə bir-birini əvəz edə bilirmi?

**8.** *Bağlı* sözünün omonim olduğunu əsaslandırın.

**9.** *Jurnalist* və *müxbir* sözlərinin leksik mənasını izah edin.

**10.** Uyğunluğu müəyyənləşdirin.

1. Çoxmənalı söz
2. Termin
3. Ümumişlək söz
4. Həm omonim, həm də ümumişlək söz

| | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| a | | | | | |
| b | | | | | |
| c | | | | | |
| d | | | | | |
| e | | | | | |

*a)* lövhə *b)* kağız *c)* metafor *d)* üz *e)* çap

**11.** Siz aşağı siniflərdə fikrə münasibət bildirən sözlər haqqında məlumat almışsınız. Dialoqdan bu söz və ifadələri tapın, onların cümlədəki rolunu izah edin.

**12.** Dialoqdan müraciət bildirən ifadələri tapıb onların nə məqsədlə işləndiyi haqqında fikir yürüdün. Necə düşünürsünüz, müraciət və fikrə münasibət bildirən sözlər suala cavab verə bilərmi? Niyə belə hesab edirsiniz? Fikirlərinizi əsaslandırın.

**13.** Qəzetinizdə vermək üçün aşağıdakı nümunə əsasında bir yazı hazırlayın. "Bilirsinizmi?" başlıqlı rubrika yaradın.

- İlk qəzet ...
- İlk şəkilli jurnal ...

- İlk kağız vərəqə ...

- İlk operamız ...

İlk operamız dahi bəstəkar ... tərəfindən bəstələnmişdir. Həmin opera ... .

- İlk ...

✓ *Siyahını topladığınız nümunələr əsasında davam etdirə bilərsiniz.*

**14.** "Əkinçi" qəzeti Azərbaycan mətbuatının təməlidir" adlı təqdimat *(esse də yaza bilərsiniz)* hazırlayın.

**15.** Mətndən əsas faktları seçin və nümunəyə əsasən elmi mətn tərtib edin.

\# *Dünyada ilk qəzet e.ə. 59-cu ildə qədim Romada nəşr olunmuşdur. Bu, əl ilə yazılmış "Günün hadisələri" adlı vərəqə olmuşdur. ... .*

Mən lüğət tərtibi işini davam etdirirəm...

Sözlərin tələffüz və vurğusunu deyin.

- *afişa*
- *barelyef*
- *dekorasiya*
- *jurnalist*
- *mətbuat*
- *müxbir*

# ƏHVALPÜRSANLIQ
(ixtisarla)

– Nə xəbər var, məşədi?
– Sağlığın!
– Az-çox da yenə?
– Qəzet almış Hacı Əhməd də...
– Pah! Oğlan, nəmənə? Sən özün gördün alanda?
– Belə nəql eylədilər!..
– Dəxi kim qaldı, xudaya, bu vilayətdə mənə?!
Bu isə pəs o ləinin də işi qullabıdır,
Dinü imanı danıb, yoldan azıbdır, babıdır!

– Dəxi bir başqa xəbər?
– Hac Cəfərin oğlu Vəli
Qoyub uşqolaya oğlun...
– O qurumsaq da?
– Bəli!
– Sənə kim nəql elədi bu sözü?
– Bilməm kim idi.
– Oylə isə ona da min kərə lənət deməli!..
– Bu isə pəs o ləinin də işi qullabıdır,
– Dinü imanı danıb, yoldan azıbdır, babıdır!

– Yenə bir başqa xəbər varmı?
– Bizim qonşu Kərim...
– A... A... A?..
– Bəli, hə... hə!..
– O nə qayrıb, de görüm?
– "Molla Nəsrəddin" alıb:
həm özü, həm oğlu oxur.
– El bütün kafir imiş ölkədə, yoxmuş xəbərim!
– Bu isə pəs o ləinin də işi qullabıdır,
– Dinü imanı danıb, yoldan azıbdır, babıdır!

*Mirzə Ələkbər Sabir*

**Həmsöhbətlərin "təəccüb"ünə səbəb nə idi?**

*Ləin* – *yaramaz*
*Qullabı* – *fırıldaq*



**1.** Düzgün tələffüz qaydası və intonasiyaya riayət edərək şeiri rollar üzrə oxuyun.

**2.** Necə düşünürsünüz, M.Ə.Sabiri bu şeiri yazmağa hansı səbəblər vadar etmişdir?

**3.** Şeirin əsas ideyasını müəyyənləşdirin.

**4.** Şeirin "qəhrəman"larını "Yaxşılıq itmir" hekayəsinin qəhrəmanları İsrafil ağa və Məşədi İbrahimlə müqayisə edin. Hansı nəticəyə gəldiniz?

**5.** Şeir üçün açar sözlər seçin.

**6.** *Uşqol* sözünün mənşəyini müəyyənləşdirin, şeirdə işlənmə şəraitini izah edin və qarşılığını tapın.

**7.** *Babı* sözünün mənasını aydınlaşdırın, ona yaxınmənalı söz tapın. Tapdığınız söz şeirin hansı bəndində işlənmişdir?

**8.** Şeirdə müraciət olunan ifadələri tapın və onlarda işlənən durğu işarələrinə diqqət edin.

Cümlədə müraciət olunan şəxsi və ya əşyanı bildirən sözlərə xitab deyilir.

Xitablar, əsasən, adlıq halda olan isim, isimləşən sözlər və ismi birləşmələrlə ifadə olunur. *Məsələn:*

Oğlumuz, *ay Xansənəm,* bir yekə pəlvan imiş,
Bəxtəvər olsun başım, bəxtimiz oğlan imiş. (*M.Ə.Sabir*)

Səndən danışıram, *Araz, ay Araz,*
Bulan da, durul da, səsimi dinlə. (*M.Araz*)

Siz *ey qədim əfsanələr,*
Şeirimə yağ, səsimə yağ! (*M.Araz*)

Xitablarla həm canlıya, həm də cansıza müraciət etmək olur.

Ey Vətən, torpağın əzizdir mənə.

Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan! (*S.Vurğun*)

**9.** "Molla Nəsrəddin" jurnalının 16 iyun 1906-cı il tarixli nömrəsindən götürülmüş bu elana hansı müraciət bildirən sözü artırsaq, yerinə düşər?

Bakıda yeni üsul ilə çöp çıxardan arvad əmələ gəlmişdir. Südəmər uşağın boğazından şaftalı çəyirdəyi, balıq gəmiyi, buynuz parçasını asan qayda ilə çıxarır.

**10.** Xitabların ifadə vasitələrini müəyyənləşdirin. Bəzi cümlələrdə durğu işarələri qəsdən buraxılmışdır. Onları bərpa edin.

- Möhtərəm Prezident cənab Ali Baş Komandan! Əmin ola bilərsiniz ki, biz gənc əsgərlər vətənimizə layiqli xidmət edəcəyik".

- Uzanır danışıqlar, imzalanır sənədlər.
Xəritədə aləmə göstərilir sərhədlər.
Səsimizə səs verir dünya başbilənləri;
Ümid sənədir ancaq Azərbaycan əsgəri!
(*Qabil*)

- Bülbül! Səhər-səhər qonaq budağa
Günəşin eşqinə bir dastan qoşaq.
(*S.Vurğun*)

- KƏNDLİ. Vidadi Vidadi Gözlərin aydın!
Vaqif qonaq gəlir.
VİDADİ. Canım, ciyərim!
Yolunu gözləyən zəif gözlərim
Artıq işıqlandı.
VAQİF. Günah mənimkidir, əfv elə ustad!
Sənsiz olmamışdır bir gün könül şad.
(*S.Vurğun*)

- Hörmətli İnternet səhifəsi istifadəçiləri Böyük informasiya axınının işlənməsi xüsusiyyətlərini nəzərə alaraq, xahiş edirik, bəzi məhdudiyyətlərə hörmətlə yanaşasınız.

✓ *Üçüncü cümlədə vergül işarəsini atsaq, məzmun fərqi yaranacaqmı? Səbəbini izah edin. Bu zaman sintaktik əlaqədə hansı fərq meydana çıxar? Eyni vəziyyəti sonrakı (4-cü) nümunədə müşahidə etmək olarmı?*

✓ *Müraciət bildirən sözlərə həm də müraciət etiketi demək olarmı? Sizcə, bu müraciətlərdən hansı rəsmi, hansı qeyri-rəsmidir?*





**11.** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən verilmiş bir hissəni oxuyun, orada səslənən fikirlərlə B.Vahabzadənin "Ana dili" şeirindəki fikirləri əlaqələndirin. Hansı qənaətə gəldiniz?

Muğam bizim milli sənətimizdir, milli sərvətimizdir. Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir. Mən bu yaxınlarda Azərbaycan dilinin saflığının qorunması ilə bağlı Fərman imzalamışam. Bizim çox zəngin dilimiz var və Azərbaycan ədəbiyyatı bunu təsdiqləyir. Ancaq indi dünyada gedən qloballaşma prosesləri, digər proseslər istər-istəməz dilimizə də təsir edir. Biz dilimizi xarici təsirdən qorumalıyıq. Bizim dilimizə lüzumsuz xarici kəlmələr lazım deyil. Bizim dilimiz o qədər zəngindir ki, istənilən fikri, istənilən məsələni ifadə etmək mümkündür. Bəzi hallarda həm kütləvi informasiya vasitələrində, həm digər sahələrdə dilimizə yad kəlmələr daxil edilir. Bunlar dilimizi zənginləşdirmir, əksinə, bəzən mövcud sözlər yeni sözlərlə əvəzlənir və mən bunun qəti əleyhinəyəm. Biz hamımız öz dilimizi qorumalıyıq.

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti,*
*Ağdam Muğam Mərkəzinin açılışındakı nitqindən,*
*5 noyabr 2018-ci il*

**12.** Aşağıdakı mətni oxuyub nəticə çıxarın.

Nyu-Yorkda Azadlıq abidəsinin açılış mərasimində bir nitq söylənməsi planlaşdırılır. Bunun üçün Amerikanın ən məşhur natiqi Corc Körtisə müraciət olunur. Lakin o, təklifi rədd edir. Belə əhəmiyyətli təklif necə rədd edilə bilərdi? Körtis bunu üç səbəbə görə rədd etmişdi:

– Nitq üçün mərasimdən ancaq bir ay əvvəl mənə xəbər verdilər. Əgər mənə üç ay möhlət verilmirsə, ən vacib nitqləri belə rədd edirəm. Bəli, üç ay. Bir ay araşdırmaq və diqqətli bir hazırlıq üçün; bir ay hazırladıqlarımı bir kənara qoyub, beynimin mövzunu qavraması üçün və son bir ay da mükəmməl bir nitqin tələb etdiyi əlavələr və son hazırlıq üçün.

Çıxışın uğurundan biri onun auditoriya tərəfindən necə qarşılanmasıdır. Çıxış nə qədər gözəl olsa da, dinləyicilər üçün maraqlı və aydın olmalıdır. Deməli, nitqə hazırlığın əsas hissəsi auditoriyanın, yəni öz gələcək dinləyicilərinin marağını öyrənməkdən ibarətdir. Nitqdə müəyyən məqsəd qoyulmalı, problemin həlli yolunda fikir yürüdülməli və bununla dinləyicidə maraq oyadılmalıdır.

Çıxışa müxtəlif vasitələrlə: kiçik bir hekayət və ya hər hansı bir dahi şəxsə məxsus aforizmlə və s. başlamaq olar. Nitqə üzr istəyərək başlamaq və ya "sözlərim bu qədərdir" deyərək bitirmək onun təsirini aşağı salır.

## ƏZİZ UŞAQLAR!

Oxuduqlarınızdan nəticə çıxarın!
Azərbaycan ədəbi dilinin gözəlliyini qoruyun.
Nitqinizdə artıq, ədəbi dilimizə yad olan söz və ifadələrə yer verməyin.
Nitqinizin gözəl olmasına çalışın.

**13.** Dialoqu (səh 133) nəqli mətn şəklində yazın.

**14.** "Azərbaycan dili dünən və bu gün" mövzusunda inşa yazın və ya "Tarixdən süzülüb gələn dilim" adlı təqdimat hazırlayın.

*Bunun üçün 128-129-cu səhifələrdəki materiallardan və aşağıdakı plandan istifadə edə bilərsiniz.*

**PLAN:**

- Səh. 136-da verilən mətnləri diqqətlə oxuyun.
- Yazıların sonundakı tarixlərə əsasən dövr haqqında qısa məlumat toplayın.
- Mətnlərdəki əsas fikri müəyyənləşdirməyə çalışın.
- Mətnlərdən əsas faktları toplayın.
- Müəlliflərin oxucuya çatdırmaq istədiyi əsas fikir ətrafında düşünün.
- 137-ci səhifədə verilmiş məlumatları oxuyun. Əsas məqamlara diqqət yetirin.
- Müdrik kəlamlardakı əsas fikirlərə diqqət yetirin. Yeri gəldikcə onlardan sitat kimi istifadə edin.
- Topladığınız materialları əlaqələndirməyə çalışın.









## BİZİM "OBRAZOVANNI"LAR

*(ixtisarla)*

Mənim bir rəfiqim var, özü də müsəlmandır. Amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Məsələn, söhbətimiz bu cür olur: mən onu görəndə deyirəm: "Haradan gəlirsən?" O mənə belə cavab verir: "Ya xadil na poçtu". Deyirəm: "Dünən niyə bizə gəlmədin?" Cavab verir: "K nam prişli qosti". Deyirəm: "Yaxşı, qonaqlar gedəndən sonra gələydin". Cavab verir: "Net, uje bılo pozdno". Deyirəm: "Söz verirsən ki, sabah gələsən, bir az söhbət edək?" Cavab verir: "Pastarayus, no slova ne dayu". Deyirəm: "Xudahafiz". Cavab verir: "Do svidaniya".

Deyirlər ki, haman mənim rəfiqim rus işkolunda oxuyan vaxt bir gün anasına deyib: "Ana! Pojalusta, mənə bir şey "isvarit" elə (yəni bişir)". Anası cavab verib: "Bala, nə dedin?" Rəfiqim cavab verib: "Ox, ox, siz heç bir zad qanmırsınız, mən deyirəm, bir zad bişir".

– Bala, nə bişirim?

– Çort evo iznaet. Yadımdan çıxıb. Yumru olur, əti döyüb salırlar çölməyə, ya qazana. Bir cür adı var.

– Bala, küftə deyirsən?

– Hə... hə... qoftə, qoftə.

*"Molla Nəsrəddin" jurnalı, 14 aprel 1906-cı il*

## SUAL-CAVAB

Tiflisdə "Metex" dustaqxanasının rəisi idarəmizə rəsmi surətdə bir kağız göndərib təvəqqe edirdi ki, müsəlman içində təzə nəşr olunan kitabların siyahısını yazıb ona məlum edim. Çünki dustaqlar xahiş ediblər ki, onlara oxumaq üçün türk dilində yazılmış kitablar verilsin.

Siyahı əvəzinə idarəmizdən dustaqxana rəisinə belə cavab yazıb göndərdik:

"Keçəl dava bilsə, öz başına sürtər".

***Mozalan.***

*"Molla Nəsrəddin" jurnalı, 21 iyul 1906-cı il*

Ümummilli lider Heydər Əliyev 18 iyul 2001-ci ildə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman, 30 sentyabr 2002-ci ildə “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanun imzalamışdır. İkinci sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

*Ümummilli lider Heydər Əliyev*

Dil insanı ölçmək üçün vasitədir. İnsan öz dilinin altında gizlənmişdir.

*Həzrət Əli*

Dili qiymətdən salar
Ucuz söz, hiylə, böhtan.
Elə saxla dilini,
Nə dil səndən utansın,
nə sən dilindən utan!

*Rəsul Rza*

Ana dili məhv olarkən xalq artıq məhv olur. Xalqın dili yaşadıqca xalq da yaşayır.

*Konstantin Uşinski*

Dil çirklilik sevməz, zor və güc də qəbul etməz. Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik, təbiilik sahəsində də elə gözəl, zərif və geniş bir hala gələr ki, hamını heyran qoyar.

*Yusif Vəzir Çəmənzəminli*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncam imzalamışdır. Bu sərəncamın əsasında klassik və müasir Azərbaycan ədəbiyyatı nümayəndələrinin əsərləri nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmişdir.

V BÖLMƏ 3

# "MOLLA NƏSRƏDDİN"Ə GEDƏN YOL



Orfoqrafiya

Mətndə tünd şriftlə verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.

*Mətni düzgün intonasiya ilə oxuyun.*

1903-cü ildə Cəlil Məmmədquluzadə Tiflisdə olarkən "Şərqi-Rus" qəzetinin redaktoru Məhəmməd ağa Şahtaxtlı ilə görüşür.

Bu görüş haqqında C.Məmmədquluzadə öz tərcümeyi-halında belə yazır:

– Məhəmməd ağa küçədə mənə rast gəldi və apardı "Annona" yeməkxanasına. Orada məni qonaq elədi və məndən soruşdu ki, Mirzə, yazıdan-pozudan nəyin var? Mən cibimdən Novruzəlinin poçt qutusuna kağız salmaq hekayəsini çıxartdım, verdim Məhəmməd ağaya. Ədibi-möhtərəmimiz hekayəni oxuya-oxuya elə şiddətlə güldü ki, qonşular bizə tərəf **təəccübnən** baxmağa başladılar. Buradan Məhəmməd ağa məni apardı düşdüyüm "Qafqaz" *mehmanxanasına* və **zornan** şeylərimi qoydu faytona. Məni evinə aparıb dedi ki, Mirzə, gərək qalasan, qəzetim üçün hekayə yazan olasan. Mən qaldım...

*Sizcə, bu insanları nə birləşdirirdi?*

Yazıçının "Şərqi-Rus" qəzetindəki fəaliyyəti "Poçt qutusu" hekayəsinin qəzet səhifələrində *dərc edilməsi* ilə başlandı. Qəzetdə nəşr olunan ikinci əsər "Kişmiş oyunu" adlı hekayə idi.

Bir müddət "Şərqi-Rus"da çalışan C.Məmmədquluzadə "Novruz" adlı qəzet çıxarmaq fikrinə düşür və bunun üçün, əlbəttə ki, dövlətdən rəsmi şəkildə icazə alır, lakin sonralar müəyyən səbəbdən **bunnan** imtina edir.

1. Cəlil Məmmədquluzadəyə "Molla Nəsrəddin" jurnalını nəşr etmək üçün 4 mart 1906-cı il tarixli 874 nömrəli *icazə* şəhadətnaməsi verilir.

2. Xatirələrində Cəlil Məmmədquluzadə yazırdı:

"...Və yadımdadır ki, qələm azadlığı o yerə çatdı ki, bir gün bazarda qəzetsatan uşaqları "Kukureku" deyə çığıra-çığıra şəkilli bir jurnalı satan gördüm. Bu jurnal rus dilində çap olunurdu. Adı "Kukureku" idi. Və jurnalın haman gün rast gəldiyim bir nömrəsində bir xoruz şəkli çəkilmişdi. Xoruzun başı əsrin padşahı Nikolayın başı idi. Boğazı və bədəni xoruz idi. Şəklin *təfsilatı* indi yadımda deyil..."

3. Bəs necə oldu ki "Molla Nəsrəddin" yarandı?

4. Yazıçımızın yadında qalmış və çar məmurlarının dərin *həyəcanına* səbəb olmuş bu satirik jurnal cəmiyyət **tərəfinnən** böyük sevinc və **rəğbətnən** qarşılanmışdı. "Kavkazskoe utro" qəzeti yazırdı:

"Tam etiqadla demək olar ki, məzmununun müxtəlifliyi, bədii işlənməsi, güclü və sərrast satirası ilə bu qədər müvəffəqiyyətlə tərtib edilmiş belə jurnal Tiflisdə görünməmişdi. O heç barədə paytaxt **jurnallarınnan** geri qalmır".

5. "Xatirat"ında Cəlil Məmmədquluzadə yazırdı:

"Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı".

**Niyə C.Məmmədquluzadə "Molla Nəsrəddin"i zəmanənin yaratdığı jurnal hesab edir?**

- *Sizcə, bu suala cavab vermək üçün nəyi bilmək lazımdır?*

*Firidun Hüseynov*

**1.** Mətndən əsas faktları tapmaq üçün suallar hazırlayın.

**2.** Mətnin ikinci hissəsində abzasların düzgün ardıcıllığını bərpa edin.

**3.** Hansı sualın cavabı mətndə vardır?

A) "Poçt qutusu" hekayəsi neçənci ildə nəşr olunmuşdur?
B) "Novruz" qəzetinin neçə nömrəsi çapdan çıxmışdır?
C) "Molla Nəsrəddin" jurnalının yaranmasına hansı jurnal başlanğıc vermişdir?
D) M. Şahtaxtlı "Xatiratım" əsərində nə barədə yazırdı?
E) C. Məmmədquluzadə "Şərqi-Rus" qəzetində nı üçün əvvəlcə "Kişmiş oyunu" hekayəsini çap etdirmişdir?

**4.** Hansı fikir mətndə yoxdur?

1. M.Şahtaxtlı C.Məmmədquluzadəni görüşmək üçün Tiflisə çağırır.
2. M.Şahtaxtlı C.Məmmədquluzadəni mətbuata istiqamətləndirir.
3. "Poçt qutusu" C.Məmmədquluzadənin ilk hekayəsidir.
4. "Şərqi-Rus" qəzetində "Kişmiş oyunu" hekayəsi də çap olunmuşdur.

**5.** *Senzor, taktika, şəhadətnamə* sözlərinin leksik mənasını izah edin.

**6.** Fərqləndirilmiş sözləri müvafiq qarşılığı ilə əvəz edin. Sizcə, həmin sözlər həmişə bir-birini əvəz edə bilirmi?

**7.** *Rəğbət, rəfiq, niyyət* sözlərinin sinonimlərini, *rəfiq* sözünün antonimini tapın.

**8.** Mətndə hansı cümlələrə xitab artırmaq olar?

**9.** Mətnin ikinci abzasında xitabları müəyyənləşdirin, durğu işarələrinin işlənməsinə fikir verin.

Xitab cümlə üzvlərindən, əsasən, *vergül işarəsi* ilə ayrılır.

1. Xitab cümlənin əvvəlində işlənib, adi intonasiya ilə deyilərsə, ondan sonra vergül; yüksək hiss-həyəcanla deyilərsə, nida işarəsi qoyular. *Məsələn:*

   *Oğul,* sözlərimə yaxşı qulaq as
   Ata nəsihəti faydasız olmaz. *(N.Gəncəvi)*

2. Xitab cümlənin ortasında gələrsə, hər iki tərəfdən vergül qoyulur. *Məsələn:*

   Mən bilirəm, *Gülgəz,* sənin bu işdən xəbərin yoxdur.

3. Xitab cümlənin sonunda gəldikdə ondan əvvəl vergül, sonra isə cümlənin məqsədinə görə növünə uyğun durğu işarəsi qoyulur. *Məsələn:*

   Bayrağına canım qurban, *Azərbaycan! (N.Həsənzadə)*

4. Xitablar ay, ey, aman nidaları ilə də işlənə bilir. Bəzən ey nidasından sonra vergül qoyula bilər. *Məsələn:*

   Ey, *cavan oğlan,* haraya gedirsən?

**10.** Cümlələrdə xitabların yerini müəyyənləşdirin, durğu işarələrini bərpa edin.

1. Başına dönüm xan mən nə bilirəm, poçtxana nədir, zad nədir? (*C.Məmmədquluzadə*)
2. Ey bəni-adəm haradan gəlib, haraya gedirsən? (*Azərbaycan nağıllarından*)
3. Ey vətən Torpağın əzizdir mənə, Mən səndə tapmışam səadətimi. (*S.Rüstəm*)
4. Bizim elli bir qəhrəman
   Bir yaralı qızıl əsgər.
   Dedi: Doktor aman doktor
   Sağlığıma güman yoxdur... (*S.Vurğun*)

✓ *Son iki cümlənin hansında ey nidasından sonra vergül işlənə bilər və ya əksinə, işlənə bilməz? Nə üçün?*

**11.** Məntiqi ardıcıllığı davam etdirin.

- Azərbaycan odlar diyarıdır.
- Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan
  Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan! *(M.Şəhriyar)*
- Sən canlı tarixsən, doğrudan, Araz,
  Səsində min ildən qəm-qübar qalıb. *(M.Araz)*

- Araz ........................................... .
- Ceyran ...................................... .
  Nə gözəl yaraşır Muğana ceyran! *(S.Vurğun)*
- Bizə meydan oxuyan bilməlidir birdəfəlik
  Nə satılmaz, nə verilməz binədən yada Vətən. *(B.Vahabzadə)*

  ................ Vətən ............. .

✓ *Verilmiş cümlələrdə altından xətt çəkilmiş sözlər arasında qrammatik cəhətdən oxşar və fərqli cəhətləri müəyyən edin. İntonasiya fərqlərinə diqqət yetirin.*

**12.** Uyğunluğu müəyyənləşdirin.

1 *sintaktik cəhətdən cümlədəki başqa sözlərlə əlaqələnmir.*

2 *daha çox isimlərlə ifadə olunur.*

3 *müraciət bildirir.*

4 *adlıq hallı söz və söz birləşmələri ilə ifadə olunur.*

5 *müstəqil leksik mənaya malik sözlərlə ifadə olunur.*

6 *cümlə üzvü deyil.*

7 *suala cavab vermir.*

**Mübtəda ilə xitabın oxşar cəhətləri:** ...

**Mübtədadan fərqli olaraq xitab:** ...

**13.** Mətndə (səh.138) çərçivəyə alınmış hissəni müasir ədəbi dilə uyğunlaşdırıb yazın. Sonra mətndəki hissə ilə yazdığınız mətni tutuşdurun. Hansı fərqi gördünüz? Sizcə, fərqin səbəbi nədir?

- *ədəbiyyat*
- *xürafat*
- *layihə*
- *vəsait*

A Z

Sözlərin düzgün tələffüz qaydasını göstərin.

# 4 YALANÇI “XORTDAN”

Orfoepiya

Düzgün tələffüzü yazın.

mütaliə – [...]
məcmuə – [...]
müəllif – [...]

Adına əsasən mətndə nədən danışılacağı barədə fikir yürüdün. Mətnin oxusu bitdikdən sonra fikirlərinizin düzgün olub-olmamasına diqqət yetirin.

1907-ci ildə Əbdürrəhim bəy Haqverdiyev Gəncədə yaşayırdı. Gəncə ziyalıları onu yaxşı tanıyırdılar. Ziyalılardan yazmaqla məşğul olanlar da vardı. Əli Nəzmi də bunlardan idi. Onlar öz yazdıqlarını Ə.Haqverdiyevə oxuyar, ondan məsləhətlər alardılar. Bir nəfər Ə.Haqverdiyevi lap **təngə gətirmişdi.** Bu “ziyalı” gecələri yatmır, ağlına gələn *hərzələri* yazıb adını da faciə qoyur və səhəri Ə.Haqverdiyevə oxuyurdu. Ə.Haqverdiyev də xasiyyətcə mülayim olduğu üçün özünə əziyyət verib qulaq asırdı. Bir gün yenə Ə.Haqverdiyev bağda oturmuşdu. Bir də gördü ki, həmin “dostu” əlində də “Molla Nəsrəddin” *məcmuəsinin* son *nüsxəsi* gəldi və salam verib onun yanında əyləşdi. O, həmişəkindən fərqli olaraq çox qürurlu görünürdü.

– Əbdürrəhim bəy, “Cəhənnəm məktubları”nı **mütaliə edirsinizmi?** – deyə “Molla Nəsrəddin” nüsxəsinin “Cəhənnəm məktubları” çap olunan səhifəsini göstərir.

– Əlbəttə, oxuyuram, – ədib cavab verdi.

– Yəqin, **xoşunuza gəlir?**

– Niyə, pis deyil, yaxşıdır.

– Mən ölüm, Əbdürrəhim bəy, düz deyirsiniz?

– Necə bəyəm? Sizinlə zarafatım var?

– Deməli, mən çox xoşbəxtəm.

Ə.Haqverdiyevi maraq qarışıq təəccüb bürüdü.

– Təəccüblənməyin, Əbdürrəhim bəy, öz aramızda qalsın, heç kimə deməyin. “Cəhənnəm məktubları”nı mən yazıram. “Xortdan” da mənim gizli imzamdır.

– Çox gözəl. Amma, qardaşoğlu, hər bir yazdığın pyesi mənə oxuduğun halda, təəssüf ki, bunu oxumamısan. Gətir hekayənin *mabədini* oxuyaq, çox maraqlıdır.

– Yox, mirzə, düzü, bu onlardan deyil, bunu oxumaram...

– Doğrudan, oxumazsan?

– Yox, qorxuram.

– Niyə? Nədən qorxursan, qardaşoğlu?

– Deyilənə görə, qələm sahibləri **çırpışdıran olurlar.**

*Sizcə, yalançı “Xortdan”ın özünü itirməsinə səbəb nə oldu?*

– Elə isə, qulaq as, mən oxuyum, sən başa düş, – deyə Ə.Haqverdiyev əlini cibinə salıb bir dəftər çıxarır və “Cəhənnəm məktubları”nın mabədini oxumağa başlayır. “Cəhənnəm məktubları”nın “müəllifi” – yalançı “Xortdan” özünü itirir, “Mirzə, işim var”, – deyə əkilir və bir daha Ə.Haqverdiyevin gözünə görünmür.

*Kamran Məmmədov*

**1.** Müəlliflərin gizli imzalardan istifadə etməsinin səbəbi nə idi?

**2.** Hansı hikmətli söz mətnin məzmununa uyğundur?

- Dünyada insanı ən çox utandıran yalanının üzə çıxmasıdır. *(F.Bekon)*
- Yalanın ən böyük düşməni həqiqətdir. *(İ.Kant)*
- Yalan ayaq tutar, amma yeriməz. *(Azərbaycan atalar sözü)*

**3.** Bu fikirlərdən hansılar nəticə hissəyə aiddir?

1. Ə. Haqverdiyev yalançı "Xortdan"a ibrət dərsi verir.
2. "yazıçı" qarşısındakının Ə.Haqverdiyev olduğunu dərhal başa düşür.
3. Yalançı özü fikir oğrusu olduğu halda, başqasını günahlandırır.
4. Ə. Haqverdiyev "Cəhənnəm məktubları"nın ardını oxuyur.

**4.** Mətndə cümlələr arasında əlaqələrin düzgün qurulub-qurulmadığı barədə fikir yürüdün.

**5.** Sxemi tamamlayın və şərh edin.




**6.** Mətndəki dialoqu üçüncü şəxsin dilindən danışın.

**7.** *Təəccüb* sözünün sinonimini tapın.

**8.** Tünd şriftlə verilmiş sözlərin yerinə uyğun gələn elə sözlər tapın ki, cümlənin məzmununa xələl gəlməsin.

**9.** Fərqləndirilmiş sözlərin leksik mənalarını izah edin.

**10.** *"Ziyalı"* və *"dost"* sözlərinin dırnaq içərisində verilməsinin səbəbini aydınlaşdırın.

**11.** Mətndə fikrə münasibət bildirən sözləri seçib yazın. Onların hansı məqsədlə işləndiyini deyin.

**12.** Aşağıdakı cümlələrdə münasibət bildirən sözləri müəyyənləşdirib durğu işarələrini bərpa edin. Modal sözlərdə durğu işarələrinin işlənmə qaydasını yadınıza salmaq köməyinizə gələ bilər.

- Cəfərin gözlərindən yaş axırdı:
  – Heyif ki göz yaşlarımızla bu yanğını söndürə bilməyəcəyik. *(S.Dağlı)*

- Baharının gəlişini ver mənə
  Bəlkə sənə son borcumu qaytarım.
  *(M.Araz)*

- Demək baş tutmadı xanın arzusu.
  Sizdən gözlənilməz bir cavabdır bu.
  *(S.Vurğun)*

- Cütçü saf tum səpsə torpağa əgər,
  Şübhəsiz torpaqdan saf tum göyərər.
  *(N.Gəncəvi)*

- Nalayiq danışan şəxslərə əlbət
  Hər zaman sükutla müqabilə et.
  *(N.Gəncəvi)*

**Ara sözlər** danışanın ifadə etdiyi fikrə münasibətini bildirir. Ara sözlər daha çox modal sözlərlə ifadə olunur və cümlə üzvlərindən vergüllə ayrılır.

1. Ara söz cümlənin əvvəlində işlənərsə, ondan sonra vergül işarəsi qoyular. *Məsələn:*

   Bəs biz nəyik?
   *Bəlkə,* elə Füzulinin, Nizaminin zərrəsiyik? *(X.Rza)*

2. Ara söz cümlənin ortasında gələrsə, hər iki tərəfdən vergül qoyulur. *Məsələn:*

   Şairdir, *görünür,* düz ilqarı var... *(S.Vurğun)*

3. Ara söz cümlənin sonunda gəldikdə ondan əvvəl vergül, sonra isə cümlənin məqsədinə görə növünə uyğun durğu işarəsi qoyulur. *Məsələn:*

   Bəli də! Ayağı çarıqlı kiçik bir ölkə
   Böyük Firdovsilər yaratdı, *bəlkə? (S.Vurğun)*

**13.** Aşağıdakı cümlələrdə xitablar və ara sözləri fərqləndirin (durğu işarələri buraxılmışdır). Özünüz də nümunələr toplayıb fikirlərinizi əsaslandırın.

- Bilirsən Vidadi sözün doğrusu
  Olmaq istəmirəm vicdan oğrusu. (S.Vurğun)
- Bəlkə bu yerlərə bir də gəlmədim
  Duman salamat qal, dağ salamat qal. (M.Araz)

✓ *Ara sözlər də xitablar kimi ... .*

✓ *Ara sözlər xitablardan fərqli olaraq ... .*

**14.** Birinci abzasdakı yersiz təkrarları aradan qaldırın və həmin cümlələri yenidən işləyin.

**15.** “Həqiqəti inkar edən ziyan çəkər” mövzusunda inşa yazın.

*Mühakimə xarakterli inşa və esse yazmaq üçün təqdim olunan ardıcıllığı gözləmək lazımdır.*



## İSTİQAMƏT:

1. Təqdim olunan yazının adı haqqında düşünün.
2. Haqqında mühakimə yürüdəcəyiniz obyekti seçin.
3. Seçdiyiniz obyekt əşya, hadisə və ya insan ola bilər.
4. Həmin obyektin sizin qəlbinizdə yaratdığı duyğuları müəyyənləşdirin. Bu, sevinc, fərəh, qəzəb, nifrət və s. ola bilər.
5. Bu hisslərin nə üçün yarandığını müəyyənləşdirməyə çalışın. Ona münasibətinizi bildirin.

V BÖLMƏ 5

# İLK REDAKTOR. O KİM İMİŞ?

**Orfoqrafiya**

Hansı düzdür?

- müəllim – müəllimə
- şair – şairə

**Orfoepiya**

Hansı düzdür?

[mü:vəqk`əti] – [müvək`qəti]

[faliyyətini] – [fəaliyyətini]

## vətənpərvər redaktor

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müvəqqəti olaraq Gəncədə yerləşmişdi. Azərbaycan hökumətinin 3 sentyabr 1918-ci il tarixli qərarına əsasən, bir çox çətinliklərdən sonra, nəhayət, "Azərbaycan" qəzeti həmin ayın 15-də Gəncə şəhərində nəşrə başlayır. Dörd nömrədən sonra oktyabrın 3-dən bu qəzet fəaliyyətini Bakıda davam etdirir. Qəzet əvvəl *redaksiya heyəti* adından, 1918-ci il oktyabrın 8-dən 1919-cu il yanvarın 19-na kimi isə Ceyhun bəy Hacıbəylinin müdirliyi ilə nəşr olunur. Beləliklə, Ceyhun bəy Hacıbəyli "Azərbaycan" qəzetinin ilk *redaktoru* kimi mətbuat tarixinə düşür.

*C.Hacıbəyli kimdir?*

1918-ci ilə qədər Bakıda "Azərbaycan" adlı mətbuat orqanına, demək olar ki, rast gəlinmir. Çünki bu adda qəzet və jurnal nəşr etməyə cəhd göstərilsə də, çarizmin milli siyasətinə zidd olduğundan hakim dairələr tərəfindən müxtəlif bəhanələrlə onun qarşısı alınırdı. Bunun da səbəbi aydın idi.

Səbəbi tapmaq üçün çərçivədə verilmiş sözləri ardıcıl düzmək lazımdır.

1. Böyük bir
2. təsdiq edəcəkdi.
3. "Azərbaycan" adında
4. millətin varlığını
5. qəzet nəşri
6. ölkənin,
7. böyük bir


آذربایجان

*"Azərbaycan" (qəzet, 1918)*

"Azərbaycan" qəzetinin baş redaktoru olduğu zaman bir neçə Avropa dilini sərbəst bildiyi üçün Ceyhun bəy 1919-cu il yanvarın 6-da Parisdə keçiriləcək Versal Sülh Konfransı üzrə müşavir vəzifəsinə təyin olunur. Konfransda iştirak etmək üçün ona şəhadətnamə

verilir. Səfərin əsas məqsədi, şübhəsiz ki, Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtmağa nail olmaq və vətənimizə aid tarixi, *etnoqrafik*, eləcə də digər sənədləri yaymaq yolu ilə Avropa və Azərbaycanın vəziyyəti ilə tanış etmək idi. Bu *konfrans* 1919-cu ilin yanvarından 1920-ci ilin yanvarına qədər fasilələrlə davam etdi və nəticədə Antanta Azərbaycan Xalq Cümhuriyyətinin *istiqlaliyyətini* tanıdı.

Sözsüz ki, bu proses sovet Rusiyasının qəzəbinə səbəb oldu. Ceyhun bəy "sapı özümüzdən olan baltalar"ın xəyanətinin qurbanı oldu və bu səbəbdən Fransada yaşamaq məcburiyyətində qaldı. Ancaq burada da xalqına xidmət etdi. Azərbaycan ədəbiyyat və incəsənət *xadimlərinin* əsərlərini fransız, ingilis dillərinə çevirib nəşr etdirdi.

***"Sapı özümüzdən olan baltalar" dedikdə nə başa düşürsünüz?***

1933-cü ilin yanvar-mart aylarında Parisdə nəşr olunmuş "Asiya" jurnalının xüsusi buraxılışında C.Hacıbəylinin 144 səhifədən ibarət "Qarabağ dialekti və folkloru" əsəri dərc edilmişdir. Həmin əsərdə Ceyhun bəy fransız oxucuları üçün Qarabağ dialektindən müxtəlif *folklor* nümunələri toplayıb geniş şəkildə izahını vermişdir. Bunların içərisində tapmaca, lətifə, hədə-qorxu, tərifləmə, alqış, qarğış və digər nümunələr də var idi.

Onun ən maraqlı yazılarından biri də "Azərbaycan şairələri" adlı məqaləsidir. Yazı təxminən 1950-ci ildə qələmə alınmışdır. Burada Ceyhun bəy Aşıq Pəri, İbrahim xanın nəvəsi Xurşidbanu bəyim Natəvan, İbrahim xanın qızları: "Ağabacı" təxəllüsü ilə yazan Ağabəyim ağa və Gövhər ağanın həyat və yaradıcılığı ilə fransız oxucularını tanış edir.

*Aslan Kənan*

**1.** Mətn üzərində iş aparmaq üçün hansı sual və tapşırıqlardan istifadə edərdiniz? Onları tərtib edərək yoldaşlarınızla müzakirə edin.

**2.** Xaricdə yaşayıb-yaratmaq məcburiyyətində qalan daha hansı böyük şəxsiyyətlərimizi tanıyırsınız? Həmin şəxsiyyətlər haqqında məlumat toplayıb mətnlər hazırlayın.

**3.** Fərqləndirilmiş sözlərin leksik mənalarını izah edin.

**4.** *Sərbəst, azad, müstəqil* sözlərinin sinonim olduğunu əsaslandırın. Sizcə, istiqlaliyyət sözü bu sözlərlə sinonimlik yarada bilərmi? Fikirlərinizi əsaslandırın.

**5.** *Xəyanət* sözünün antonimini tapın.

**6.** Aşağıdakı plandan istifadə edərək "Mətbuat bu gün" mövzusunda təqdimat hazırlayın.

**PLAN:**

1. İlk növbədə, mövzu ilə bağlı araşdırma aparın.
2. "Molla Nəsrəddin" jurnalından sonrakı mətbuat
3. XX əsrin ortalarında və sonunda müraciət olunan mövzular
4. Mətbuat XXI əsrdə

**7.** Mətndə altından xətt çəkilmiş sözlərin ifadə etdiyi mənanı müəyyənləşdirin. Modal sözlər haqqında bildiklərinizi yadınıza salın. Sizcə, hansı ara sözlər eyni məna qrupuna daxildir?

**8.** Uyğunluğu müəyyənləşdirin (səh. 139).

| | | |
|---|---|---|
| 1) | Bəlkə, mən yanılmışam, əzəldən yoxdur oğlum?! *(S.Rüstəm)* | *Təsdiq bildirir.* |
| 2) | Təəssüf ki, mən bunu edə bilməyəcəyəm | *Sıra bildirir.* |
| 3) | Əsası çox möhkəm olmayan evin<br>Bütün dörd divarı tez uçar, yəqin. *(N.Gəncəvi)* | *Güman, şübhə bildirir.* |
| 4) | Əvvəla, mən heç onu tanımıram, ikincisi, niyə lazım olmayan işi görməliyəm. | *Nəticə bildirir.* |
| 5) | Məncə, ilk paltaryuyan maşın 1907-ci ildə ABŞ-ın “Hurley Machine” şirkəti tərəfindən istehsal olunmuşdur. | *Təəssüf bildirir.* |
| 6) | Qoca susdu, xeyli susdu, nəhayət, dilləndi. *(H.Abbaszadə)* | *Fikrin mənbəyini bildirir.* |

**9.** Məntiqi ardıcıllığı davam etdirin və uyğunluğu müəyyənləşdirin.

| | | |
|---|---|---|
| həqiqətən | doğrusu | şəksiz |
| güman ki | ola bilsin ki | ... |
| məncə | ... | eşitdiyimə görə |
| ... | beləliklə | xülasə |
| birincisi | əvvəla | ... |

- ***ehtimal ki, gərək ki***
- ***sözün qısası, nəhayət***
- ***əlbəttə, şübhəsiz***
- ***sizcə, mənə görə, sən bilən***
- ***ikincisi, üçüncüsü***

**10.** “Vətənpərvər ziyalılarımız” mövzusunda təqdimat hazırlayın. Təqdimatınızda ara sözlərdən düzgün və yerində istifadə edin.

# 1 ŞƏXSİYYƏTLƏR

**Orfoepiya**

**Düzgün tələffüzü yazın.**

Mətndə göy hərflə verilmiş sözlərin düzgün tələffüzünü yazın.

**Orfoqrafiya**

**Mətndə tünd şriftlə verilmiş sözlərdə nə səhv yazılmışdır?**

Bu dəfəki söhbətimiz maraqlı şəxslər haqqındadır.

Onların arasında səyyah, bəstəkar yazıçı, ensiklopedik əsər yaratmış alimlər də vardır.





Mətnləri oxuyub onların fəaliyyəti ilə tanış olduqca siz də özünüz üçün yol xəritəsi cızın.

Kim olacağam? Nə işlə məşğul olacağam? suallarına cavab tapmağa çalışın.

Diaqloqu düzgün oxuyun.

Artıq dərs ili sona çatmaq üzrə idi. Dostlar yay tətilini necə keçirəcəkləri, hansı işləri görəcəkləri barədə düşünürdülər.

– Mən Azərbaycanın müəyyən bölgələrini, Bakıətrafı kəndləri səyahətə çıxmaq, yer adlarının mənşəyini öyrənmək istərdim.

– *Birdən-birə necə oldu ki, bu fikrə düşdün?*

– Keçən həftə "Füyuzat" jurnalında səyyah Zeynalabdin Şirvani haqqında maraqlı bir yazı oxudum. Sən demə, əslən şamaxılı olan Zeynalabdin Şirvani ömrünün 40 ilini səyahətdə keçirmiş, Avropa, Asiya və Afrikanın bir çox ölkələrini gəzmiş, Hind və Atlantik okeanından keçərək 3000 adadan ibarət olan İndoneziyaya gedib çıxmışdır. Təsadüfi deyil ki, İndoneziyada onun adı əbədiləşdirilmişdir. Adına kitabxana-muzey vardır.

**Təxəllüs nə deməkdir?**

– Səhv etmirəmsə, o, "**təmkin**" təxəllüsü ilə şeirlər də yazmışdır.

– Hə. O bu təxəllüsü səfər zamanı tanış olduğu bir dərvişin onu "təmkinlisən" adlandırmasından sonra götürüb.

– Məncə, onun ən böyük əsəri "Kəşfül-məarif" adlanır. Şirvani bu əsəri 28 il səyahətdə olduqdan sonra yazmışdır.

– **Abbasqulu Ağa Bakıxanov** onun "Riyazüs-səyahə" əsərini "faydalar xəzinəsi" adlandırmışdır. Kitabın ən maraqlı cəhətlərindən biri onun Yer kürəsindən bəhs etməsi, dünya ölkələrinin 7 iqlim üzrə bölünməsi sxeminin verilməsidir... Bəs sən yay tətilində nə edəcəksən?

– Mən vaxtımı daha çox ədəbiyyat və incəsənətimizlə, söz ustalarımızla bağlı maraqlı faktlar toplamağa sərf edəcəyəm. Axı mən gələcəkdə ədəbiyyatşünas olmaq istəyirəm.

– Bilirsən, dostum, nə ilə məşğul oluruqsa, olaq, çalışmalıyıq ki, topladığımız materiallar, faktlar xalqımızın zəngin tarixinin, ədəbiyyatının, incəsənətinin *bariz* nümunəsi olsun. Gördüyümüz işlər vətənə xeyir versin.

– **Sədi şirazi** demişdir ki, "Dünyada qızıldan saray qoyub getməkdənsə, yaxşı ad qoyub getmək daha vacibdir".

– Elə isə hər ikimizə uğurlar! Hələlik dərs ilini yüksək nəticələrlə başa vurmalıyıq. Bunun üçün...

**Vətənə xeyir vermək dedikdə nə başa düşürsünüz?**

**Son cümləni necə tamamlayardınız?**

*Qafur Rəşad Mirzəzadənin 1910-cu ildə çapdan çıxmış "Qafqazın coğrafiyası" kitabı Azərbaycan dilində yazılan ilk dərslik idi.*

**1.** Dialoqa əsasən demək olar:
1. İstedadlı insanlar hər dövrdə olmuşdur.
2. Z.Şirvani A.Bakıxanovla dost olmuşdur.
3. A.Bakıxanov Z.Şirvaninin bütün əsərlərini yüksək qiymətləndirmişdir.
4. Dostlar görkəmli şəxslərin həyat yolundan nümunə götürərək görəcəkləri işləri planlaşdırırlar.
5. S.Şirazi yaxşı ad qoyub getməyi hər şeydən üstün tutur.
6. A.Bakıxanov "Təmkin" təxəllüsü ilə şeirlər yazmışdır.

**2.** Bu suallardan birinə cavab tapmaq olmaz:

A) Z.Şirvani özünə hansı təxəllüsü götürmüşdür?
B) “Kəşfül-məarif” kimin əsəridir?
C) S.Şirazi Z.Şirvaninin əsərlərini necə qiymətləndirmişdir?
D) Dostlar hansı işlərlə məşğul olmağı planlaşdırırlar?
E) Z.Şirvani hansı ölkələri gəzmişdir?

**3.** Dialoq vasitəsilə hansı fikir çatdırılır?

**4.** Siz yay tətili ərzində hansı işləri görməyi planlaşdırırsınız?

**5.** *Mənşə* sözünü hansı sözlə əvəz etmək olar?

**6.** Fərqləndirilmiş sözün (səh. 143) leksik mənasını izah edin. Onu hansı sözlə əvəz etmək olar?

**7.** *Səyyar, səyyad, səyyal, səyyah* sözlərinin leksik mənalarını fərqləndirin.

**8.** Ayrılma etiketlərinin məntiqi ardıcıllığını davam etdirin:

*sağ olun, görüşənədək ...*

**9.** Cümlə haqqında bildiklərinizi yada salıb suallara cavab verin.

- Cümlə nədir? Cümlənin yaranmasında intonasiyanın rolu haqqında nə deyə bilərsiniz? İntonasiya cümlənin məqsədini dəyişə bilərmi? Məqsəd və intonasiyaya görə cümlələrin hansı növləri var?

**10.** Dialoqda çərçivəyə alınmış sözü sual cümləsinə verilən cavab hesab etmək olarmı? Aşağıdakı cümlələrdən istifadə etməklə fikirlərinizi əsaslandırın.



– *Bizə gələcəksən?*
– *Yəqin / Bəli / Hə.*
– *Bəlkə də.*

– *Dərsi öyrənmisən?*
– *Əlbəttə / Aha.*
– *Xeyr / Yox.*



Bir sözdən ibarət olub üzvlənməyən və sual tələb etməyən cümlələrə ***söz-cümlə*** deyilir. Söz-cümlələr modal söz, nida və ədatlarla ifadə olunur.

**11.** Dialoqda fərqləndirilmiş sual cümləsinə söz-cümlə ilə cavab vermək olurmu? Aşağıdakı sual cümlələrinə cavab verməklə bunun səbəbini izah edin və fikirlərinizi əsaslandırın.

Bizə nə vaxt gələcəksən?

Bizə gələcəksənmi?

Bizə gələcəksən?

**12.** Dialoqda altından xətt çəkilmiş cümlələrin məqsəd və intonasiyaya görə növünü müəyyənləşdirin və aşağıdakı fikirləri tamamlayın.

1. Nəqli cümlə ... . *Nəqli cümlələrin sonunda ... .*
2. Sual cümləsi ... cümlələrə deyilir. *Sual cümlələrin sonunda ... .*
3. Əmr cümləsi ... bildirən cümlələrdir. *Əmr cümlələrinin sonunda ... .*
4. Nida cümlələri ... bildirir. *Nida cümlələrinin sonunda ... .*

✓ *Nəqli cümləni intonasiyanın dəyişməsi ilə əmr cümləsinə çevirmək olarmı? Nə üçün? Fikrinizi nümunələrlə əsaslandırın.*

***Əmr cümlələrinin*** xəbəri, bir qayda olaraq, feilin əmr şəklində olur. Əmr ədatları da əmr cümlələrinin qurulmasında iştirak edir.

***Nida cümlələri*** yüksək hiss-həyəcan ifadə edir, intonasiya və nidaların köməyi ilə əmələ gəlir.

**13.** Aşağıdakı mətndə məqsəd və intonasiyaya görə cümlənin hansı növlərindən daha çox istifadə olunmuşdur? Mürəkkəb adları düzgün yazın.

Bülbülün başçılıq etdiyi MUSİQİNİN ELMİ TƏDQİQİ KABİNETİ hansı istiqamətlərdə işləyirdi? Onlar qocaman sənətkarları, tanınmış xanəndələri dəvət edib onların ifasında nadir, unudulan el havalarını, nəğmələri, çalğıları, oyun havalarını fonovalikə yazırdılar. Bu fonovaliklərdə əbədiləşən musiqilərin müəyyən hissəsi nota alınır, araşdırılırdı. Xalq içindəki söz bilicilərinin, aşıqların, dastançıların dilindən nağıllarımız, söyləmələrimiz, söz sərvətimizin müxtəlif örnəkləri yazıya köçürülürdü. Təbii ki, bu yazıyaköçürmə işini müxtəlif səviyyəli, müxtəlif peşəli adamlar icra etdiklərindən deyim tərzləri, ifadə rəvanlığı da müxtəlif idi. Həmin əlyazmaları səriştə ilə təhlil etmək, lazım gələrsə, əl gəzdirmək, yaxşısını pisdən ayırmaq lazım idi.

Bunları yazıya alan ƏRTOĞRUL CAVİD idi! O, böyük şair və dramaturq HÜSEYN CAVİDİN oğlu idi!

İşləyə-işləyə oxuyurdu. Həm də AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ İNSTİTUTUNUN (hal-hazırda universitet) tələbəsi idi. Ərtoğruldan harada işlədiyini təsdiq edən sənəd tələb etmişdilər.

*(Rafael Hüseynov)*


*Ərtoğrul Cavid*

✓ *Sizcə, Ərtoğrula hansı sənəd verilməli idi?*

- Hər hansı bir şəxsin harada yaşaması, işləməsi, oxuması, sağlamlığı, müəyyən obyektin, hadisənin yoxlanması haqqında tərtib edilən xüsusi sənəd ARAYIŞ hesab edilir.

*Arayış türk mənşəli söz olub mənası "arama", "axtarma" deməkdir.*

**Arayış yazmaq üçün aşağıdakıları bilmək lazımdır:**

1. Arayış sözü ortada yazılır.
2. Sol tərəf müəssisənin ştampı üçündür. Ştampın üstündə arayışın qeydiyyat nömrəsi və verildiyi tarix göstərilir.
3. Arayışın məzmunu – kimə və nə məqsədlə verildiyi göstərilir.
4. Daha sonra arayışın təqdim olunduğu yer göstərilir.
5. Sonda arayış idarə rəhbəri tərəfindən imzalanır və möhür vurulur.

ŞTAMP

ARAYIŞ

Həqiqətən, Vəliyeva Vəfa Əli qızı Bakı Dövlət Universitetində aparıcı müəllim vəzifəsində çalışır.

Arayış tələb olunan yerə təqdim olunmaq üçün verilir.

**Kafedra müdiri:** /*Məmmədova N.*/

***Arayış əməli yazı növlərindən biridir.***

**14.** Aşağıdakı cümlələrin məqsəd və intonasiyaya görə növünü müəyyən edin. Durğu işarələrinin işlənməsinə fikir verin.

**1.** Yaşasın gələcək! Böyük gələcək!
**2.** Nə xəbər var, Məşədi? (*M.Ə.Sabir*)
**3.** Mütaliə insanı bəd əməllərdən saxlayır və onu yaxın-uzaq keçmişlərə aparır. (*Dekart*)
**4.** Qoy bütün dünyanın uşaqları xoşbəxt olsun.
**5.** Hərçəndi sənətin çox rütbəsi var,
Həyata faydalı bir elmi axtar. (*N.Gəncəvi*)
**6.** Düşmənlik silinsin, dostluq var olsun! (*N.Gəncəvi*)
**7.** Dünyada fateh olmaz zülmkarlıq, rəzalət,
Yer üzünün fatehi ədalətdir, ədalət! (*N.Gəncəvi*)

**15.** Dialoqdakı hadisələri III şəxsin dilindən yazın.

***Azərbaycanın Milli Qəhrəmanı*** mürəkkəb adında hər üç söz böyük hərflə yazılır.

A Z

Verilmiş sözlərin tələffüzünü yazın və vurğunun hansı hecaya düşdüyünü deyin.

- *fateh*
- *fonovalik*
- *xoşbəxt*
- *mütaliə*
- *təxəllüs*

# HACI ZEYNALABDİN ŞİRVANİ *(ixtisarla)*

Orfoqrafiya

Mətndə göy rənglə verilmiş sözlər necə yazılmalıdır?

*Həyatda həqiqi səadət budur: uca olduğunu qəbul etdiyiniz bir amal üçün var olmaq.*
Bernard Şou

Qədim mədəniyyətə malik olan xalqımız elmin bütün sahələri üzrə dünya şöhrətli alimlər, səyyahlar və coğrafiyaşünaslar yetirmişdir. Bunlardan IX əsrdə yaşamış, bir çox ölkələri gəzmiş və çoxlu əsərlər yazmış Məkki Bərdani, Azərbaycanın ilk tam xəritəsini tərtib edən və X əsrə məxsus sərhədləri, ərazisi, təbiəti və təsə...üfatı haqqında mükəmməl məlumat verən Əbdül Qasım Hauqalı, astronom Əli Dərbəndi, Seyid Yəhya Bakuvi və başqalarını göstərmək olar. Belə alimlərdən biri də XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaşamış məşhur səyyah və coğrafiyaşünas Zeynalabdin Şirvanidir.

Zeynalabdin Şirvani 1780-ci il avqust ayının 16-da Azərbaycanın ən qədim mədəni mərkəzlərindən biri olan Şamaxı şəhərində ruhani ailəsində anadan olmuşdur. Zeynalabdinin 5 yaşı olanda atası Axund İsgəndər Kərbəla şəhərinə köçür və orada mədrəsədə müəllimliklə məşğul olur.

Z.Şirvaninin adı Hindistanda muzeyə, İndoneziyada kitabxanaya, Məkkə və Ciddədə coğrafiya cəmi...ətlərinə, Şirazda küçəyə, Azərbaycanda isə Xəzər dənizində üzən gəmilərdən birinə verilmişdir.

Atası Zeynalabdinin savadından, elmə *cidd-cəhdlə* yiyələnməsindən, tərbiyəsindən, hətta xəttinin gözəlliyindən belə məmnun idi. Lakin o, oğlunun səyyahlığa olan meylini də duymuşdu. Zeynalabdin pərdəarxası həqiqətləri öyrənmək və dərk etmək, göylərə yüksəlmək, oradan dünyanı seyr etmək, karvanlara qoşulub yollara çıxmaq, ölkələri, şəhərləri, insanları görmək istəyirdi.

17 yaşı olanda atası onu Şirvana yola salır. Səfər əsnasında onun qabili...əti, ədəbi və təmkini bir dərvişin xoşuna gəlir. Dərviş ona yaxınlaşıb: “Kimsən, övlad? **Haradan gəlib haraya gedir...?” – deyə soruşur. O da: “Tələbə..., Kərbəladan gəlib Şirvana gedir...”, – deyir.**

*Dərvişin Zeynalabdinə bu sözü deməkdə məqsədi nə idi?*

“Şirvan” sözünü eşidən dərvişin üzündə bir təbəssüm duyulur, “Şirvana (Şirlər ölkəsi), yoxsa Şərvana (Şərlər ölkəsi) gedirsən?” – deyə soruşur.

Zeynalabdin özünəməxsus təmkinlə: “O deyənin məqsəd, əqidə və *tinətindən* asılıdır. Şir əsillidirsə, Şirvan, şər əsillidirsə, Şərvan kimi yozacaq. Mən Şirvana – Vətənimə gedirəm”, – deyə cavab verir.

Necə bilirsiniz, insanın savadlı olması üçün ona elm, yoxsa çox gəzmək lazımdır?

Gəncin təmkinini pozmadan verdiyi cavab dərvişin xoşuna gəlir, “adım Sakitdir”, – deyə özünü təqdim edir. Zeynalabdin öz-özünə: **“Bu az ömrümdə bir dəvə yükündən çox kitab oxumuş...** Lakin bu səfərim mənə daha çox şey öyrətdi”, – deyə düşünür.

Bir neçə gündən sonra Şamaxıya çatan Zeynalabdin doğmaları ilə görüşür. ...Az sonra isə onun 37 illik səyahəti başlayacaq, dünyanın yarısından çoxunu gəzib dolaşacaqdı.

Bu fikri hansı atalar sözü ilə ifadə etmək olar?

**Zeynalabdin Şirvani təkcə səyyah və coğrafiyaşünas olmamış...** Bir sıra elmi əsərlər yazmış, tarixçi, *etnoqraf,* ədib, şair və böyük islam alimi olmuşdur.

**Muxtar Cəfərli**

**1.** Mətndə hansı abzas yerində deyil? Həmin abzası və onun yerini müəyyənləşdirin.

**2.** Mətnin tərkib hissələrini müəyyən edin və və fikrinizi əsaslandırın.

**3.** Hansısa ölkəyə, şəhərə və ya rayona səyahət edərkən ilk anda diqqətinizi nə cəlb edir? Səfəriniz nə ilə bağlı olur?

**4.** Fərqləndirilmiş sözlərin leksik mənasını izah edin.

**5.** *Mükəmməl, əqidə* sözlərinə yaxınmənalı sözlər tapın və seçiminizi nümunələrlə əsaslandırın.

**6.** *Təmkin* və *səbir* sözləri sinonim ola bilərmi? Fikirlərinizi nümunələrlə əsaslandırın.

**7.** *Əsnasında* sözünü hansı sözlə əvəz etsək, *“Səfər əsnasında onun qabiliyyəti, ədəbi və təmkini bir dərvişin xoşuna gəlir”* cümləsinin məzmununa xələl gəlməz?

**8.** *Məslək* və *məqsəd* sözlərinin məna fərqini izah edin.

**9.** Aşağıdakı ifadələri həm söz, həm də söz birləşməsi kimi cümlədə işlədin. Həmin sözlərin məna fərqini izah edin.

*özünəməxsus, pərdə arxası, ağsaqqal, türkdilli, ağciyər*

*Nümunə:*

*Ağciyər* sözdür, leksik mənası *qorxaq, zəif* deməkdir.

*Ağ ciyər* söz birləşməsidir, leksik mənası *insanda hava tənəffüsü orqanı* deməkdir.

**10.** Mətnin I abzasında (səh. 157) cümlələrin qrammatik əsasını tapın. Hansı cümlənin mübtədası yoxdur? Onu bərpa etmək olarmı? Mətndə IV abzasda hansı cümlənin mübtədasını ixtisar etsək, mətnə xələl gəlməz?

Mübtəda və xəbəri olan cümlələr ***müəyyən şəxsli*** cümlələrdir.

Neft sözü midiyalıların "nafta" sözündən götürülmüşdür.
İnsan təkbaşına kamilləşə bilməz.

Müəyyən şəxsli cümlələrdə bəzən mübtəda olmur. Ancaq xəbərdəki şəxs sonluğuna əsasən cümlənin mübtədasını bərpa etmək olur.

(*Mən*) Bilirəm ki, deməyəcək,
Bir sevgilim, bir də Vətən:
Şair, nə tez qocaldın sən?! (*S.Vurğun*)

**11.** Mətndə tünd şriftlə verilmiş rəngli cümlələrdə xəbərlərə şəxs sonluqları artırın. Fikrinizi əsaslandırın.

**12.** Bədii ədəbiyyatdan müəyyən şəxsli cümlələrə aid nümunələr seçin. Cümlə üzvlərinin müxtəlif söz və söz birləşmələri ilə ifadə olunmasına diqqət yetirin.

**13.** *Xitab, ara söz* və *müəyyən şəxsli* cümlələr haqqında öyrəndiklərinizi tətbiq etmək üçün test nümunələri hazırlayın. Cavabları aşağıdakı sxemlərə uyğunlaşdırın.




**14.** Mətn əsasında dialoq qurun. Müşahidə aparın. Bu zaman nədən istifadə etmədiniz?

**15.** "Mən səyyah olsaydım" adlı təqdimat hazırlayın.

Sözlərin yazılışında nə düzgün deyildir?

- *coğrafiya şünas*
- *ədəbiyyat şünas*
- *etnoqraf*
- *şəhadətnamə*
- *litoqrafik*

VI BÖLMƏ 3

# MAHMUD KAŞĞARLI

Orfoepiya

Düzgün tələffüzü deyin.

- xalqların – [...]
- litoqrafik – [...]

*Mənim övladım, sənə mən öyüd-nəsihət irsi qoyub gedirəm, çalış ki, həmişə və hamıya yaxşılıq edəsən.*

— Mahmud Kaşğarlı

Mahmud Kaşğarlı 1029-cu ildə Kaşğar elinin Azıx kəndində anadan olmuşdur. İlk təhsilini Kaşğarda Saciyə və Hamidiyyə mədrəsələri kimi elm mərkəzlərində almış, dövrünün elmləri ilə bərabər, ərəb və fars dillərini mükəmməl şəkildə öyrənmişdir. Təxminən 1058-ci ildə Bağdada getmiş, bir müddət burada yaşamışdır. Bağdad o zaman Səlcuq imperiyasına tabe idi. Ərəblərin türkləri tanıması, onların adət və ənənələrini öyrənmək üçün çətinlik çəkməsi, xüsusən dil problemləri Mahmud Kaşğarlıda bir əsər yazmaq ideyasını yaradır: on il müddətində türklərin yaşadığı bir çox əraziləri səyahət etdikdən sonra adını tarixə həkk edən “Divanü lüğat-it-Türk” (1072–1074) *ensiklopedik* əsərini yazır. Bu əsər quruluş etibarilə lüğət olsa da, hikmətli sözlər, atalar sözləri, şeir, nəsr kimi nümunələrlə zəngindir. Səkkiz bölmədən ibarət əsər ərəb dilinin lüğət qaydalarına uyğun yazılmışdır. Müəllif ensiklopediyada “Dünya xəritəsi” adlanan bir xəritə vermiş, bu xəritədə mərkəz Balasaqunu seçərək türklərin yaşadığı bütün əraziləri qeyd etmişdir. Xəritə üzərində *“Əradi Azərabadkan”* yer adı da qeyd edilmişdir. “Divan”ın sonuna əlavə olunmuş bu xəritə Mahmud Kaşğarlı dövründə türkdilli xalqların yaşadığı ərazilərin təsvirini verən ilk xəritədir. *Təxminən 1080-ci ildə Kaşğara qayıdan alim 1105-ci ildə burada dünyasını dəyişir. Kaşğar yaxınlığındakı Opal kəndində dəfn olunur. Üzərində **“Müqəddəs alimin məzarı”** sözləri yazılmış məqbərəni 1984-cü ildə təmir etmişlər.* Hal-hazırda *məqbərədə* alimin məzarı yerləşən otaq, “Divanü lüğat-it-Türk” əsərinin müxtəlif dillərdə tərcümə və nəşrləri, bir neçə *litoqrafik* çaplı Qurani-Kərim, Mahmud Kaşğarlı və onun əsəri haqqında yazılmış kitablar və məqalələr nümayiş olunur. Burada həmçinin Mahmud Kaşğarlının portreti və Qaraxanlılar dövrünə aid əşyalar da vardır.

**M.Kaşğarinin “Divani-lüğət-it-Türk” əsəri nə üçün ensiklopedik xarakter daşıyır?**




*"Mən hələ uşaqlıqdan türk qəbilələrinin dillərinə, folkloruna və etnoqrafiyasına maraq göstərmişəm. Böyüyəndən sonra uzun müddət türklərin məskunlaşdığı əraziləri gəzmiş, sözləri, əfsanələri, adətləri, tapmacaları və atalar sözlərini qələmə almışam. Türklərin, türkmənlərin, oğuzların, qırğızların və digər qəbilələrin dillərini yazıya almış, müxtəlif şəhərlərdə yaşayanların tələffüzlərini oyrənmişəm. Bunu həmin dilləri bilmədiyimə görə etməmişəm, məramım müxtəlif qəbilələrin işlətdiyi sözlərin mənasına və formasına aid incə çalarları müəyyənləşdirmək olub".*

**1.** Mətn üzərində iş aparıb abzasları bərpa edin. Seçiminizi əsasandırın.

**2.** Mahmud Kaşğarlının "Divanü lüğat-it-Türk" əsəri Azərbaycan dilinə tərcümə edilərək çap olunmuşdur" məlumatını mətnin hansı hissəsinə əlavə etmək olar?

**3.** Uyğunluğu müəyyən edin.

| | |
|---|---|
| *Mahmud Kaşğarlının fəaliyyətinin dəyərləndirilməsi ilə bağlı məlumat verilir.* | GİRİŞ |
| *Mahmud Kaşğarlının anadan olduğu tarx və yer, təhsili və biliyi haaqında məlumatın verilir.* | ƏSAS HİSSƏ |
| *Mahmud Kaşğarlının məqsədi, məqsədinə çatmaq üçün fəaliyyəti, tərtib etdiyi kitab və onun mızmunu haqqında məlumat verilir.* | NƏTİCƏ |

**4.** Mətnə əsasən Mahmud Kaşğarlını xarakterizə edin. Onun hansı xüsusiyyəti daha çox xoşunuza gəldi?

**5.** “Hacı Zeynalabdin Şirvani” mətni ilə “Mahmud Kaşğarlı” mətninin məzmununu müqayisə edin, alimlərin səfər məqsədləri barədə müzakirə aparın.

| | SƏFƏRLƏRİN MƏQSƏDİ | SƏFƏRLƏRİN NƏTİCƏSİ |
|---|---|---|
| Mahmud Kaşğarlı | | ... |
| Zeynalabdin Şirvani | | ... |
| *Gəldiyiniz nəticə* | | |

**6.** Mətndə mavi rəngdə verilmiş sözlərin mənasını izah edin. Bunlardan hansını sinonimləri ilə əvəz etmək olar? Səbəbini göstərin.

**7.** Mətndə fərqləndirilmiş cümlələrin qrammatik əsasını tapın. Cümlələrin fərqi nədədir? Hansı cümlənin mübtədası yoxdur? Sizcə, bunun səbəbi nədədir?

Mübtədası olmayan, hərəkət və hökmün qeyri-müəyyən şəxsə aid olduğunu bildirən cümlələrə ***qeyri-müəyyən şəxsli cümlələr*** deyilir. Belə cümlələrin xəbəri III şəxsin cəmində olur. *Məsələn:*

Ata, həbs etdilər yazıq Eldarı... *(S.Vurğun)*

***Tamaşanın sonunda aktyorları və müəllifi alqışladılar.***

Qeyri-müəyyən şəxsli cümlələrdə çox zaman ***elə bil (ki), sanki, deyəsən, guya ki*** və s. modal sözlərdən istifadə olunur. *Məsələn:*

Sanki nəfəs aldığı havaya da zəhər qatmışdılar. *(M.İbrahimov)*

**8.** Mətndən bir neçə müəyyən şəxsli cümlə seçin. Həmin cümlələri mübtədasız işlədin. Hansı cümləni qeyri-müəyyən şəxsli cümlə kimi işlətmək olar? Fikirlərinizi əsaslandırın.

**9.** Müəyyən və qeyri-müəyyən şəxsli cümlələri fərqləndirin.

**1.** Yuxarıda saysız-hesabsız işıqlar eyni ahənglə sayrışırdı. *(İ. Əfəndiyev)* **2.** O dövrdə Qafqaz mətbuatından çox yazırdılar. **3.** Ovçuluğa meyil saldım, Gecə- gündüzçöldə qaldım. *(S.Vurğun)* **4.** Onun düzlüyü və sədaqəti barədə indi də danışırlar. *(M.İbrahimov)* **5.** Belə bir vaxtda Hürü xanımın qapısını döydülər. *(M.İbrahimov)* **6.** İgid odur, atdan düşə atlana... *(Atalar sözü)* **7.** Bərkdən-boşdan çıxan kadrları hər yerdə əziz tuturlar. *(M.Cəlal)* **8.** Camaat susub maraqla qulaq asırdı. *(İ.Hüseynov)*

**10.** Aşağıdakı cümlələri müqayisə edib uyğunluğu müəyyənləşdirin.

**1)** Bəzi insanlar böyük kainatı tanıya bilirlər, lakin özlərini tanıya bilmirlər. *(Lafonten)*

**2)** Görüb tanış olmadığım,
Qayğısına qalmadığım
Şeir dostu bir insandan
Bir xatirə söylədilər. *(S.Vurğun)*

**3)** Marko Polo Azərbaycanı başdan-başa "şəhərlər və qalalar" ölkəsi adlandırmışdır.

**4)** Mənə Mirzə Cəlilin "Ölülər" pyesini yazarkən İskəndər obrazının əsasında naxçıvanlı bir vəkili nəzərdə tutduğunu dedilər. *(İ.Həbibov)*

**5)** Sanki dəhrə ilə dağı çapıb parça-parça qoparmış, qövsi-qüzehi oraya həkk etmişdilər. *(S.Dağlı)*

**Qeyri-müəyyən şəxsli cümlədir.**

**Müəyyən şəxsli cümlədir.**

**11.** Aşağıdakı söz, söz birləşmələri və adlardan istifadə edərək kiçik mətn tərtib edin (fərqli şəxsiyyət də seçə bilərsiniz). Mətn tərtib edərkən müəyyən şəxsli və qeyri-müəyyən şəxsli cümlələrdən istifadə edin.

- XIX əsr, Abbasqulu ağa Bakıxanov, xüsusi mövqeyə malik, şair, dövlət xadimi, "Kəşfül-Qəraib", Azərbaycan tarixi və coğrafiyası, ən mükəmməl tədqiqatçısı yazıb yaratmış, alim, Azərbaycan ictimai fikir tarixi, səyahət etmiş, bir sıra əsərlər, böyük coğrafi əhəmiyyət, Azərbaycanda yazılan ilk ümumi coğrafiya əsəri.

✓ *Mətn üçün aşağıdakı sözləri epiqraf götürün:*

*Deyirlər ki, dahilər Yer üzünə səmadan göndərilir, hər birinin böyük Tanrı tərəfindən müəyyənləşdirilmiş fövqəladə vəzifələri olur. Onlar bəşəriyyətin mədəni-tarixi inkişafına istiqamətləndirilmiş ali əməllərin carçılarına çevrilirlər, cismən yox olsalar da, mənən əbədiyyətə qovuşurlar.*

**12.** "Divanü lüğat-it-türk" əsəri haqqında təqdimat hazırlayın.

VI BÖLMƏ 4

# QURBAN SƏİDİN GİZLİ QALMIŞ ÖMRÜ *(ixtisarla)*

> *"Əli və Nino"da Azərbaycan üçün müstəqilliyin vacibliyi əks olunur. Bu bizim həmişə və indi də qiymətləndirdiyimiz məsələdir.*
>
> **Leyla Əliyeva**

"Əli və Nino" romanının müəllifi Qurban Səidin kim olması ilə bağlı fikirlər uzun illər bir çoxları üçün sirr olaraq qalmışdır. Dünyanın kütləvi informasiya vasitələrində uzun müddət "Qurban Səid" imzasının sahibinin Lev Nussimbaum adlı yəhudi olması ilə bağlı fikirlər mövcud olmuşdur. Amma romanda yəhudi mədəniyyətindən deyil, Qafqaz-müsəlman mədəniyyətindən bəhs edilməsi səslənən bu fikirləri böyük şübhə altına aldı.

Rəsmi sənədlərdə Qurban Səid təxəllüsünün avstriyalı baronessa Elfrida Erenfelsə aid olduğunu təsdiq edən faktlara da rast gəlirsən. Buna görə də uzun illər "Əli və Nino" romanının müəllifi Elfrida Erenfels hesab olunub. Lakin az sonra bir sıra faktlara əsaslanan amerikalı şərqşünas Tom Rays "Əli və Nino"nun əslən Azərbaycandan olan yəhudi mənşəli yazıçı Lev Nussimbauma məxsus olduğu fikrini irəli sürüb. Bəzi mənbələr isə "Əli və Nino"nun yazıçı Yusif Vəzir Çəmənzəminliyə məxsus olmasını iddia edirlər.

Semih Yazıçıoğlu 1971-ci ildə "Əli və Nino"nu türk dilinə çevirərək həmin kitabın əvvəlində yazır ki, "Amerikada yaşayan Yusif Qəhrəman və Türkəqul adlı şəxslər bu romanı 1971-ci ildə oxuyandan sonra əsərdə bəhs edilən bir sıra yerlərin adlarını tanımış və belə bir əsəri yalnız yazıçı Y.V.Çəmənzəminlinin yaza biləcəyini güman etmişlər.

Azərbaycandakı arxiv sənədlərində Qurban Səid imzası ilə çap edilmiş iki romanın: "Əli və Nino" və "Altunsaç"ın Y.V.Çəmənzəminliyə məxsus olması barədə heç bir məlumata rast gəlinmir. Bir məqamı da qeyd etmək yerinə düşər ki, "Altunsaç" romanında hadisələr Almaniyada, Avstriyada, ABŞ-da və Yaxın Şərqdə cərəyan edir. Bu yerlər əsərdə coğrafi dəqiqliklə təsvir edilib. Amma Y.V.Çəmənzəminlinin adıçəkilən yerlərdə olması heç bir sənəddə öz əksini tapmır.

Almaniyada yaşayan azərbaycanlı şairə Nuridə Atəşi araşdırma işində daha da irəli getmiş, Qurban Səidin arxiv sənədlərindəki faktlara əsasən əsərin müəllifinin azərbaycanlı yazıçı Məhəmməd Əsəd bəy olduğu fikrini irəli sürmüşdür. 1937-ci ildə Qurban Səid imzası ilə Vyananın "Tal" nəşriyyatında çap edilən "Əli və Nino" romanının müəllifi, həqiqətən də, əslən azərbaycanlı olan Məhəmməd Əsəd bəy olmuşdur. M.Əsəd bəyin "Əli və Nino" romanını öz imzası ilə çap etdirməməsinə əsas səbəb isə onun adının əvvəllər qalmaqallarda hallanması idi. Yazıçının adının gündəmə gəlməsi yenidən onu gözü götürməyənləri qıcıqlandıra bilərdi. Ona görə də M.Əsəd bəy kitabını Qurban Səid imzası ilə çap etdirməklə, bir növ, öz təhlükəsizliyini təmin etmişdir.

Qurban Səid imzasının yaranma tarixçəsi isə belədir: 1936-cı ildə Qurban bayramı günlərində M.Əsəd bəylə kitabxanada görüşərkən Ə.C.Məzhər ona *"Qurban səid", yəni "Qurban bayramınız mübarək!" – deyir. "Əsəd bəylə söhbət edən bir turist elə başa düşür ki, Ə. C.Məzhər özünü Qurban Səid kimi təqdim edir. Turist gülümsəyərək ona: "Sizinlə tanış olmağıma çox şadam, cənab Qurban Səid", – deyir. Beləliklə, "Qurban Səid" Məzhərin məzəli adına çevrilir. Əsəd bəy ilk romanını çap etdirərkən Məzhərə Qurban Səid təxəllüsünü götürmək istədiyini bildirir. Beləcə onlar razılığa gəlirlər"*. Bundan sonra M.Əsəd bəy əsərlərini Qurban Səid imzası ilə çap etdirməyi qərara alır.

***Seyid Ramin***

**1.** Fərqləndirilmiş hissənin inandırıcı olub-olmamasını əsaslandırın. "Təsadüf zərurətə çevrilir" fikrini sübut etməyə çalışın.

**2.** Mətnin abzaslara düzgün ayrıldığını əsaslandırın. Hər bitkin hissəyə ad verməyə çalışın.

**3.** Mətndən əsas faktları seçməklə kiçik dialoq qurun.

**4.** Mətndə sizin üçün maraqlı və yeni nə oldu? Nə üçün?

**5.** Mətnin epiqrafına diqqət yetirin. Həmin sözlərə münasibət bildirin. Nə üçün Azərbaycan üçün müstəqillik vacib hesab edilir? Fikirlərinizi faktlarla əsaslandırın.

**6.** *Arxiv, sığorta* sözlərinin leksik mənalarını izah edin.

**7.** *Təxəllüs, ləqəb, ayama, nisbə* sözlərini sinonim hesab etmək olarmı? Fikirlərinizi əsaslandırın.

**8.** Mətndəki frazeoloji birləşmələri seçin, mənalarını izah edin.

**9.** Mətndə ilk iki abzasda hansı cümlə qəbul etdiyi şəxs sonluğuna görə digərlərindən fərqlənir və abzasdakı digər cümlələrlə uyğun gəlmir?

**10.** Altından xətt çəkilmiş cümlələrin qrammatik əsasını müəyyənləşdirin. Hansı cümlənin mübtədası yoxdur? Onu müəyyən şəxsli və ya qeyri-müəyyən şəxsli cümlə hesab etmək olarmı? Bu cümlədəki hökm kimə aiddir?

Mübtədası olmayan, hərəkət və hökmün hamıya aid olduğunu bildirən sadə cümlələrə ***ümumi şəxsli cümlə*** deyilir. Bu cümlələrin xəbəri II şəxsin təkində və III şəxsin cəmində olur. *Məsələn:*

Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.
Sözün doğrusunu zarafatla deyərlər.

Atalar sözləri, məsəllər, aforizmlərin əksəriyyəti, əsasən, ümumi şəxsli cümlələrlə ifadə olunur.

**11.** Verilmiş atalar sözləri içərisində ümumi şəxsli cümlələrlə müəyyən şəxsli cümlələri fərqləndirin. Onları fərqləndirmək üçün, sizcə, nəyə çox diqqət yetirmək lazımdır?

**1.** Örtülü bazar dostluğu pozar. **2.** Keçmə namərd körpüsündən, qoy aparsın sel səni. **3.** Yatma tülkü kölgəsində, qoy yesin aslan səni. **4.** Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır. **5.** Yurddan çıxsan da, eldən çıxma. **6.** Cücəni payızda sayarlar.

✓ *Özünüz də belə nümunələrin sayını artırıb fikirlərinizi izah edin.*

**12.** Cümlələri müqayisə edərək şəxsə görə cümlənin növləri haqqında fikirlərinizi şərh edin.

1. Keçənə güzəşt deyərlər. *(Azərbaycan atalar sözü)* 2. Uşaqlar həyətdə oynayırlar. 3. İgid özü üçün doğular, başqaları üçün ölər. *(Azərbaycan atalar sözü)* 4. Azərbaycanın hər guşəsində əsrarəngiz gözəlliyə rast gəlirsən. 5. Gecə düşün, gündüz danış. *(İtaliya atalar sözü)* 6. Sanki qurbağa gölünə daş atdılar. 7. Sabahkı iclasa yaxşı hazırlaşarsan.

**13.** Məktəbinizdə 8-9-cu sinif şagirdləri arasında sorğu keçirin.

## MÖVZU: "ƏLİ VƏ NİNO"

**SUALLAR**

1. "Əli və Nino" əsərini oxumusunuzmu?
2. Əsərdə nədən danışılır?
3. Əsərdən Azərbaycanla bağlı hansı məqamları sadalaya bilərsiniz?
4. Əsərə münasibətiniz.

✓ *Nəticələri ümumiləşdirib kiçik təqdimat hazırlayın.*

**14.** "Azərbaycan ədəbiyyatında gizli imzalar" mövzusunda məlumat xarakterli mətn hazırlayın və qəzetinizin uyğun səhifəsinə yerləşdirin.

**15.** Qurban Səid haqqında təqdimat hazırlayın.

### PLAN:

1. Təqdimatınız üçün ad düşünün.
2. Əsər haqqında geniş məlumat toplayın.
3. Məlumatları emal edin, içindən lazım olanları seçin.
4. Seçdiyiniz məlumatların təqdimatın adına uyğun olmasına çalışın.
5. Təqdimatınıza müvafiq fotoşəkillər də əlavə edə bilərsiniz.

# FƏRHƏNG HÜSEYNOV
*(ixtisarla)*

**Orfoqrafiya**

Hansı düzdür?

- oratoriya – aratoriya
- sonata – sanata
- ensiklopediya – ensiklapediya

**Orfoepiya**

Hansı düzdür?

- [bəstəkar] – [bəsdəkar]
- [sənətkar] – [sənətgar]
- [ixtisas] – [ixdisas]
- [təşkilatçı] – [təşgilatçı]

Azərbaycan xalqı bir çox dövlətlərin musiqi mədəniyyətinin inkişafında xidmətləri olmuş istedadlı sənətkarlar yetişdirmişdir. Azərbaycan bəstəkarlıq məktəbinin istedadlı nümayəndələrindən biri, respublikamızın Əməkdar artisti, adı İngiltərənin “Qrova”, Hollandiyanın “Avropa musiqisinin 400 illiyi” **ensikl...pediyalarına** daxil olmuş bəstəkar, skripkaçı, pedaqoq Fərhəng Hüseynov məhz belə sənətkarlardandır. Bakıda ziyalı ailəsində dünyaya gəlmiş F.Hüseynov dahi bəstəkarımız Qara Qarayevin diqqətini hələ Bülbül adına orta ixtisas musiqi məktəbinin yuxarı siniflərində təhsil alarkən cəlb etmişdir. *1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına skripka ifaçısı kimi daxil olan F.Hüseynov musiqi məktəbinin son sinfində bəstələdiyi fortepiano üçün sonatasını qəbul komissiyasına təqdim edir. Qara Qarayevin onun* ***s...natasından*** *çox xoşu gəlir. Ona bəstəkarlıq dərsi verməyə başlayır. Azərbaycan bəstəkarına dünya səviyyəsində yüksək qiymət verilmişdir.* 1991-ci ildə Yaponiyada UNESKO-nun təşəbbüsü ilə “İpək yolu” Beynəlxalq simfonik musiqi müsabiqəsi keçirilir. Tədbir bir çox ölkələrin musiqiçiləri tərəfindən maraqla qarşılanır və müsabiqəyə 278 əsər göndərilir. Fərhəng Hüseynov bəstəkar kimi Yaponiyada keçirilən bu yarışmaya qatılır. Müsabiqəyə təqdim etdiyi 5 hissədən ibarət olan “Zaman üzrə səyahət” simfonik əsərinə görə üçüncü yeri qazanır. Müsabiqə təşkilatçıları Fərhəng Hüseynova diplomu təqdim edərkən “Yaponiya ilk dəfə Azərbaycanı Sizin simanızda tanıdı!” – deyirlər. F.Hüseynov Tokioya dəvət olunur. Bəstəkarı təbrik edən yapon şahzadəsi ona deyir: “Cavan oğlan, “Azərbaycan” sözü bu gün Sizin şəxsinizdə, ilk dəfədir ki, məmləkətimizdə dildən-dilə düşür. 1995-ci ildə 9 hissəli “Yer üzərində sülh olsun!” **...ratoriyasına** görə yalnız F.Hüseynov Birləşmiş Millətlər Təşkilatının “Xüsusi mükafat”ına layiq görülmüşdür. Qərargahı Nyu-Yorkda yerləşən və rəhbəri yaponlardan ibarət “Dünyada Sülh Naminə Barış Cəmiyyəti”nin menecer direktoru onun adına göndərdiyi məktubda (11 dekabr, 1995) yazır. “...Təqdim olunan bütün əsərləri gözəlliyinə görə və müsabiqə yeri baxımından diqqətlə təhlil etdikdən sonra nəticədə bu bəstələrin içərisində yeganə Xüsusi mükafatın Sizə verilməsi qərarına gəldik və Siz eyni zamanda Sülh Zirvəsi tituluna layiq görüldünüz...”

**Şeyla Heydərova**

**1.** Mətndəki hansı cümlədən F.Hüseynovun gənc yaşlarından şöhrət qazanması faktını müşahidə etdiniz?

**2.** Mətndə hansı fikir yoxdur?

- F.Hüseynov hələ uşaq ikən skripka çalmağı öyrənmişdir.
- Q.Qarayev onu bəstəkar olmağa həvəsləndirir.
- F.Hüseynova Yaponiyada yaşamaq təklif olunur.
- "İpək yolu" Beynəlxalq müsabiqəsi Yaponiyada keçirilir.

**3.** Mətni abzaslara ayırın, giriş, əsas hissə və nəticəsini 1-2 cümlə ilə yazın.

**4.** Mətnə əsasən demək olar:

A) İstedadlar özü-özünə yetişir.
B) Qarabağ musiqinin beşiyi sayılır.
C) Azərbaycan həmişə istedadları ilə fəxr etmişdir.
D) Azərbaycan mədəniyyətin inkişafında xüsusi rolu olmuş istedadlı sənətkarlar yetişdirmişdir.
E) İstedadlar xüsusi musiqi məktəblərində yetişir.

**5.** Mətnə əsasən nəticənin səbəblərini müəyyən edin:

| Səbəbi | Nəticəsi |
|---|---|
| 1. | *Azərbaycan bəstəkarı F.Hüseynova dünya səviyyəsində yüksək qiymət verilir.* |
| 2. | |
| 3. | |

**6.** Sizcə, "Dünyada Sülh Naminə Barış Cəmiyyəti"nin məqsəd və məramları nədir? Siz belə bir cəmiyyət yaratsa idiniz, ilk məqsədiniz nə olardı və onu necə həyata keçirərdiniz? Azərbaycanda sülhün qorunması istiqamətində hansı tədbirlər həyata keçirilir?

**7.** *Konservatoriya, fortepiano, oratoriya* sözlərinin leksik mənasını izah edin.

**8.** Mətndən frazeoloji birləşmələri seçin, onları bir sözlə ifadə etməyə çalışın.

**9.** Fərqləndirilmiş hissədəki cümlələrin qrammatik əsasını müəyyənləşdirin. Hansı cümlənin mübtədası yoxdur və onu bərpa etmək də mümkün deyil?

Mübtədası olmayan, təsəvvür olunması da qeyri-mümkün olan sadə cümlələr ***şəxssiz cümlələr*** adlanır. Şəxssiz cümlənin xəbəri III şəxsin təkində olur. Şəxssiz cümlələrin xəbəri ismi və feili xəbərlərlə, frazeoloji birləşmələrlə ifadə olunur. *Məsələn:*

...

✓ *Nümunələr tapmaqla yazılanları əsaslandırın.*

**10.** Aşağıdakı mətndən şəxssiz cümlələri tapın və fikrinizi əsaslandırın.

27 oktyabr 1978-ci il. Payız günlərindən biridir. Bu gün məşhur skripkaçı, bəstəkar, aranjimançı Vanessa Meyin doğum günüdür. V.Mey məşhur skripkaçı Nikolo Paqanini ilə eyni gündə, lakin 196 il sonra Sinqapurda dünyaya göz açmışdır.

5 yaşında artıq skripka və fortepianoda çalmağı öyrənən Vanessa 8 yaşında ingilis gənc pianoçularının müsabiqəsində qalib gəlir. 11 yaşında Beynəlxalq musiqi kollecinə daxil olur. Onun skripkada çalmaqdan çox xoşu gələrdi.

- ✓ *Mətndə hansı cümlə tipinə daha çox rast gəldiniz? Nə üçün?*
- ✓ *Hansı mürəkkəb ad səhv yazılmışdır?*
- ✓ *Aranjeman və aranjiman sözlərinin məna fərqini izah edin.*

Əşyanın, hadisənin adını çəkməklə onun mövcudluğu haqqında məlumat verən sadə cümlələrə ***adlıq cümlələr*** deyilir. *Məsələn:*

Yay günü. Yol üstü. Ağac kölgəsi.
Gölgədə bir gəlin oturmuş yalqız. *(S.Vurğun)*

Belə cümlələrdən daha çox dramatik növdə yazılmış əsərlərdə istifadə olunur.

**11.** “Qadın bəstəkarlarımız” mövzusunda təqdimat (inşa, esse) hazırlayın.

**12.** İl ərzində öyrəndikləriniz əsasında sxemi tamamlayıb fikirlərinizi şərh edin və əsaslandırın.




✓ *Bu sxemə nəyi əlavə etmək istərdiniz?*

✓ *İl ərzində öyrəndikləriniz əsasında belə sxemlər tərtib edin.*

✓ *İl ərzində hazırladığınız lüğətə neçə söz daxil edə bildiniz?*

# QƏZET MAKETİNİN SXEMİ



## TƏRTİBAT

Adı

Şəkillər

Bölmələr

Rubrikalar

Yazının ölçüsü

## ŞÖBƏLƏR

Rəsmi xronika

Ədəbiyyat

Elm və təhsil

Mədəniyyət



## MƏTNLƏRIN NÖVLƏRI

Elmi mətnlər

Bədii mətnlər

Publisistik mətnlər

Şərhlər

Məlumatlandırıcı mətnlər

- xəbər
- müsahibə
- reportaj

## SƏRBƏST SƏHIFƏ

Əyləncəli yazılar

- krossvord
- rebus

Elan

Anons

*Əziz şagirdlər!*

Layihəni həyata keçirmək üçün təqdim olunan bu sxem bir nümunədir. Siz qəzet maketi hazırlayarkən təhsil aldığınız məktəbin şərait və imkanlarını nəzərə almalısınız.

## Əziz şagirdlər!

Bu tədris ilində siz daha bir layihə üzərində işləyəcəksiniz: qəzet maketi hazırlamağı öyrənəcəksiniz.

Bu il sizə təqdim olunan layihə ilk baxışdan çətin görünsə də, düşünürük ki, kifayət qədər bacarığa malik Azərbaycan məktəblisi bu maraqlı işin öhdəsindən layiqincə gələcəkdir.






## LAYİHƏNİ HAZIRLAMAQ ÜÇÜN:

- İlk gündən qruplara bölünün.
- Hər qrupun vəzifələrini, görəcəyi işləri müəyyənləşdirin.
- Görəcəyiniz işlər:
  - Materialları toplamaq (ilboyu hazırlayacağınız mətnlər, hekayələr, məqalələr, məktəbinizdə keçiriləcək tədbirlər, sorğular və s.);
  - Mətnlərin orfoqrafik cəhətdən düzgünlüyünü yoxlamaq;
  - Cümlələrin ədəbi dil normalarına uyğunluğunu yoxlamaq;
  - Mövzuya uyğun şəkillər toplamaq;
  - Siz maketi hazırlamaq üçün ***Microsoft publisher*** proqramından istifadə edə bilərsiniz. Qəzetdəki bölmələr, rubrikalar və s. haqqında sxem 186–187-ci səhifələrdə verilmişdir.

# KOMPLEKS LÜĞƏT
*(nümunə)*

| Sözün yazılışı | Tələffüzü | Leksik mənası | Qrammatik mənası |
|---|---|---|---|
| **axtaríş** | [axdarış] | axtarma işi | *isim* |
| **araşdırıcí** | [araşdırıcı] | axtaran, tədqiq edən | *isim* |
| **arxitektura** | [arxitektura] | memarlıq, hər hansı bir binanın üslubu, bədii xüsusiyyətləri | *isim* |
| **bəyanat** | [bəya:nat] | bir məsələ və s. haqqında hökumət və ya bir idarənin rəsmi məlumatı | *isim* |
| **cəhalət** | [cəha:lət] | avamlıq, nadanlıq, mədəni gerilik, mədəniyyətsizlik, elm və mərifətin olmadığı hal | *isim* |
| **cəsur** | [cəsur] | cəsarətli, igid, qoçaq, qorxmaz, ürəkli | *sifət* |
| **dostlaşmaq** | [doslaşmax] | kimləsə qarşılıqlı ünsiyyət yaratmaq | *feil* |
| **dəfələ́rlə** | [dəfələrnən] | çox vaxt, təkrarən | *zərf* |
| **etimad** | [e:timat] | etibar, inam, inanma | *isim* |
| **faciə** | [fa:ciyə] | dəhşətli, ağır nəticəli hadisə, fəlakət, müsibət, bədbəxtlik | *isim* |
| **fövqəladə** | [fövqəla:də] | 1) qeyri-adi, görünməmiş, eşidilməmiş 2) təcili, xüsusi olaraq müəyyən olunmuş | *sifət* |

| | | | |
|---|---|---|---|
| **humanist** | [humanist] | insanpərvər, insansevər, humanizm məsləkli | *sifət* |
| **xeyriyyəçi** | [xeyriyəçi] | xeyriyyə cəmiyyətinin işində iştirak edən, xeyriyyə cəmiyyətinin üzvü | *isim* |
| **maraqlí** | [maraxlı] | diqqət çəkən | *sifət* |
| **memarlıq** | [me:marrıx] | binaları layihələndirmə, tikmə və bədii cəhətdən tərtib etmə sənəti; arxitektura | *isim* |
| **müəllím** | [müəllim] | Hər hansı bir fəndən dərs deyən adam, öyrədən | *isim* |
| **nəşriyyat** | [nəşriyat] | kitab, qəzet, jurnal və s. nəşr etməklə məşğul olan müəssisə | *isim* |
| **səyyah** | [səyyah] | səyahətçi | *isim* |
| **sintaksis** | [sintaksis] | 1) bir dilə xas olan cümlə quruluşu və cümlədə sözlərin birləşməsi üsulu<br>2) cümlə quruluşunu və söz birləşməsi üsullarını öyrənən dilçilik bölməsi | *isim* |
| **sintaktik** | [sintaktik] | sintaksisə aid olan | *sifət* |
| **vətənpərvər** | [vətənpərvər] | öz vətənini sevən, öz xalqına və vətəninə sadiq və onların mənafeyi yolunda canından keçməyə hazır olan | *sifət* |

# ƏDƏBİYYAT SİYAHISI


1. Alı Mustafayev. “Dəli bir ağlamaq keçir könlümdən”. Bakı, “Nicat”, 1992.
2. Bağır Bağırov. Rəsul Rza. Bakı, “İşıq”, 1987.
3. B.A.Hüseynov. “Rəvayətli ifadələr” (Niyə belə deyirik?). Bakı, 1961.
4. Coğrafi kəşflər. Bakı, “Çıraq”, 2013.
5. Əfsanələr. Bakı, “Gənclik”, 1986.
6. Əziz Şərif. “Molla Nəsrəddin necə yarandı”. Bakı, “Azərnəşr”, 1986.
7. Gülçöhrə Məmmədova, Səbinə Hacıyeva. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı. 5 clddə. I c., Bakı, “Şərq-Qərb”, 2013.
8. Gülhüseyn Hüseynoğlu. “Çətin yol”. Bakı, “Gənclik”, 1987.
9. İsa Həbibbəyli. “Cəlil Məmmədquluzadə”. Bakı, “İşıq”, 1987.
10. “Füyuzat” jurnalı, 2010–2011-ci ilin nəşrləri.
11. “Kitabi-Dədə Qorqud”. Bakı, “Yazıçı”, 1988.
12. “Qabusnamə”. Bakı, “Altun kitab”, 2005.
13. Məmməd Araz. Seçilmiş əsərləri. Bakı, 2010.
14. Misir Mərdanov. “Azərbaycan təhsil tarixi”. I c., Bakı, “Təhsil”, 2011.
15. Molla Nəsrəddin. (“Ədəbi abidələr” seriyasından). 12 cilddə. I c., Bakı, “Elm”, 1986.
16. Muxtar Cəfərov. “Eşq pərvanəsi” (Mövlana Cəlaləddin Rumi). Bakı, “Nurlar”, 2009.
17. Muxtar Cəfərov, Samir Ramizoğlu. “Ağıla və qəlbə işıq saçan sözlər”. Bakı, “Nurlar”, 2009.
18. Nizami Nağıyev, Fikrət Hüseynov. Azərbaycan Respublikasının müasir dövr memarlıq tarixi. 5 cilddə, V c., Bakı, “Şərq-Qərb”, 2013.
19. Nizaminin hikmət və nəsihətləri. Bakı, “Yazıçı”, 1981.
20. Novruz bayramı ensiklopediyası. Bakı, “Şərq-Qərb”, 2008.
21. Ömər Qoçulu. “Daşa dönmüş musiqi” (Memarlıq haqqında söhbətlər). Bakı, “Şərq-Qərb”, 2012.
22. Rafael Hüseynov. “Vaxtdan uca”. Bakı, “İşıq”, 1987.
23. Şəmistan Abbasov. “Böyük sənətkar”. Bakı, “Gənclik”, 1976.
24. Şəmistan Nəzirli. “Qoridən gələn qatar”. Bakı, “Şərq-Qərb”, 2011.

## Buraxılış məlumatı

**AZƏRBAYCAN DİLİ 8**
*Ümumi təhsil müəssisələrinin 8-ci sinifləri üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

Müəlliflər: **Tofiq Hacıyev**
**Samirə Bektaşi**
**Mehriban Vəliyeva**
**Yeganə Hüseynova**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner və səhifələyici **Yeganə Rüstəmova**
Multimedia mütəxəssisləri: **Kənan Yusifzadə**
Redaktor **Gültəkin Cəfərova**
Korrektor **Nigar Əliyeva**
Animator və rəssamlar: **Kənan Yusifzadə**
**Emiliya Həsənova**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**

Rəqəmsal mobil texnologiyaların (animasiyalar, multimedia və QR kodlar) dərslik və metodik vəsaitlərdə istifadəsinin ideya müəllifi **Rafiq Kazımov**

**“Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti**

© **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi: 2023-032**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 15,7. Fiziki çap vərəqi 22. Formatı 57x82 $^1/_8$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 176.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı – 2023

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Çap məhsulunu hazırlayan:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Pulsuz

## Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

